AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

"İDARƏETMƏDƏ MULTİKULTURAL DƏYƏRLƏR"

mövzusunda

IV RESPUBLİKA ELMİ KONFRANSININ

MATERİALLARI

16 MAY

BAKI-2019

09:30-10:00 – İştirakçıların qeydiyyatı

10:00 - Konfransın açılışı

PLENAR İCLAS
Məruzələr 10:00-11:00
(Auditoriya: 205)

Giriş sözü: rektor İlham İsa oğlu Mədətov

1. **f-r.e.n., dos. Nəsirulla Beytulla oğlu Nəsirli,** Azərbaycan Turizm və Menecment Universiteti, Elm və innovasiya şöbəsinin müdiri
   Mövzu: Yeni əsrdə turizmin inkişaf istiqamətləri
2. **i.ü.f.d., dos. Anar Nazim oğlu Eminov,** Azərbaycan Turizm və Menecment Universiteti, Karyera və kommunikasiya şöbəsinin müdiri
   Mövzu: Ümumilli lider Heydər Əliyevin iqtisadi siyasətində multikultural dəyərlərin təhlili

11:00-11:30- Çay fasiləsi
(Auditoriya:208)
11:30-14:00- Bölmə iclasları
14:00- Yekun Plenar iclas

Bölmə 1. Azərbaycançılıq və multikultural dəyərlər
Auditoriya: 205
Sədr: t.ü.e.d., prof. Zülfüqarlı Məhərrəm
Sədr müavini: Rüstəmov İlqar

1. **Zülfüqarlı Məhərrəm,** Azərbaycan Turizm və Menecment Universitetinin professoru, t.ü.e.d.
   Mövzu: Kommunist rejimi daxilində milli dəyərlər uğrunda mübarizə

2. **Talıbov Axilles,** Azərbaycan Texniki Universitetinin müəllimi
   Mövzu: Azərbaycan Respublikasında turizm sahəsinin müasir inkişaf perspektivləri
3. **Rüstəmov İlqar,** Xalq qəzetinin məsul katibi, Azərbaycan jurnalistlər birliyinin üzvü
   Mövzu: Mətbuat azadlığı Azərbaycanda multikulturalizm siyasətinin mühüm amillərinindən biri kimi
4. **Fərhadova Jalə, Nəsirova Nərgiz,** Sumqayıt Dövlət Universitetinin əməkdaşları
   Mövzu: Qərbi Avropa ölkələrində multikulturalizm
5. **Dadaşzadə Sevinc** Azərbaycan Turizm və Menecment Universitetinin dissertantı
   Mövzu: Multikultural yanaşmaya tarixi siyasi zəmin
6. **Hüseynli Odər,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Etnik münaqişələrə nəzəri yanaşmalar

7. **Məmmədyarova Əfsanə,** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı

Mövzu: Multikultural dəyərlərin formalaşmasında medianın rolu

8. **Mürsəlova Elnarə,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Abşeronun dini-memarlıq abidələri multikulturalizm kontekstində

9. **Bədəlova Nargilə**, **Hacıyeva Hökümə**, Sumqayıt Dövlət Universitetinin əməkdaşları

Mövzu: Azərbaycan Respublikasının multikultural təhlükəsizliyi və onun əsas prinsipləri

10. **Ağayev Emil**, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistrı

Mövzu: Altay Hacıyevin yaradıcılığında multikulturalizm ənənələri.

Bölmə 2. Turizmin inkişafında mədəni irsin rolu
Auditoriya: 404
Sədr: i.ü.f.d.,dosent Anar Eminov
Sədr müavini: Vəlizadə Fidan

1. **Axundov Rafiq,** Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti
   Mövzu: Развитие культуры и туризма в Азербайджанской Республике
2. **İmanov Tofiq,** Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi
   Mövzu: Туризм Азербайджанской Республики в контексте мультукультурализма
3. **Həsənov Elnur**, AMEA Gəncə bölməsinin baş mütəxəssisi
   Mövzu: Значение исследования историко-религиозных памятников Гянджи как хранителей толерантных ценностей
4. **Nikolay Zülayev, Azər Eminov,** Povoljsk Dövlət Texnologiya Universiteti (Rusiya)

Mövzu: Анализ туристического потока россиян в Азербайджан

5. **İmamverdiyev Sadiq,** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı
   Mövzu: İşğal altındakı Qarabağ abidələrinin qorunma probleminin həllində beynəlxalq təşkilat və konvensiyaların rolu
6. **Fərmanlı Ləman,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Çexiya- məşhur turizm destinasiyası kimi

7. **Beydullazadə Vüsalə,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
   Mövzu: Şirvanşahlar sarayına daxil olan türbələr
8. **Məmmədov Orxan,** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı
   Mövzu: Gədəbəy Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi
9. **Əliyeva Səbinə**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı

Mövzu: Etnomusiqişünas-alim Bayram Hüseynlinin elmi yaradıcılığında Azərbaycan xalq rəqsi mövzusu

10. **Hacızadə Fəhmin,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Naxçıvan Muxtar Respublikasının tarixi-memarlıq abidələri və onların turizm üçün əhəmiyyəti

11. **Nəhmətova Zərxanım,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
    Mövzu: Milli Bayramlar Turizm potensialı kimi

12. **Vəlizadə Fidan,** Azərbaycan Turizm və Menecment Universitetinin dissertantı
    Mövzu: Turizmin inkişafında mədəni irsin rolu

13. **Məmmədova Fəridə**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı
    Mövzu: XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda multikultural dəyərlər
14. **Abdullayeva Gülmira,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
    Mövzu: Gəncə şəhəri Mir Cəlal Paşayevin ev muzeyi

15. **İsparov Eldar,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
Mövzu: Azərbaycan Respublikasında turizm sektoru

Bölmə 3. Turizmin sosial-iqtisadi inkişafa təsiri
Auditoriya: 405
Sədr: i.ü.f.d., dosent Abdullayev Kamran
Sədr müavini: i.ü.f.d., dosent Səmədova Gülnar

1. **Əzizov Elman,** Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, i.ü.f.d
Mövzu: Müasir turizm sahəsinin davamlı inkişafının təmini məsələləri
2. **Abdullayev Kamran,** AMEA İqtisadiyyat İnstitutu, i.ü.f.d., dosent
Mövzu: Azərbaycan Respublikasında turizm sahəsinin ölkənin sosial - iqtisadi inkişafına təsiri məsələləri
3. **Əliyeva Roza,** Azərbaycan Texniki Universitetinin dosenti, i.ü.f.d.
Mövzu: Azərbaycan turizm sənayesinin iqtisadi səmərəliliyi
4. **Quliyev Emin**, Azərbaycan Turizm və Menecment Universitetinin əməkdaşı
Mövzu: Turizm klasterlərinin sosial-iqtisadi inkişafa təsiri
5. **Səmədova Gülnar,** AMEA İqtisadiyyat İnstitutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin aparıcı elmi işçisi, i.ü.f.d.
Mövzu: Azərbaycanda müalicəvi turizmin təhlili və qiymətləndirilməsi
6. **Neymətova Lalə,** Azərbaycan Texniki Universitetinin baş müəllimi, i.ü.f.d.

Mövzu: Вопросы влияния индустрии туризма на развитие отраслей экономики страны

7. **Məmmədli Münəvvər,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
   Mövzu: Turizmin sosial-iqtisadi inkişafa təsiri
8. **Əliyev Turqay,** Gəncə Dövlət Universitetinin magistrı
   Mövzu: Çin iqtisadiyyatında "one belt, one road" (obor) layihəsi və Azərbaycanın bu layihədə siyasi və iqtisadi rolu
9. **Məhərrəmzadə Elmar,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı
   Mövzu: "Hilton Baku" mehmanxanasında restoran xidmətləri
10. **Əliyev Çingiz, Quliyev Novruz, Süleymanov Maqsud**, Azərbaycan Turizm və Menecment Universitetinin əməkdaşları
    Mövzu: Emal olunmuş bəzi tərəvəz məhsullarının kimyəvi – texnoloji göstəricilərinin qiymətləndirilməsi
11. **Kazımov Lətif**, Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Dünyada dəmir yolu nəqliyyatının yaranması tarixi

12. **Əkbərli Cavid,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Sərnişin qatarlarında gediş qaydaları

13. **Məmmədzadə Ceyran,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Turizmdə informasiya kommunikasiya sistemlərindən istifadə imkanları

14. **Bayramova Aida,** Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı

Mövzu: Cəmiyyətin inkişafında sosial sahibkarlığın rolu və Azərbaycanda onun inkişaf istiqamətləri

15. Rəsulzadə Yusif, Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Turizmin sosial-iqtisadi inkişafa təsiri

16. Əliyeva Aygün, AMEA İdarəetmə Sistemləri İnistitutu

Mövzu: Turizm sektorunun Milli İqtisadiyyatın inkişafında rolu

Bölmə 4. Müasir idarəetmənin inkişaf tendensiyaları

Auditoriya: 407

Sədr: i.ü.f.d.,dosent Hüseyn Arzu

Sədr müavini: i.ü.f.d Əmiraslanova Dilarə

1. Əmiraslanova Dilarə, Sumqayıt Dövlət Universitetinin müəllimi, i.ü.f.d.

Mövzu: Böhranlı müəssisənin maliyyə vəziyyətinin idarə olunması istiqamətləri

2. Hacıyev Kəyan, Ağayarova Akifə,Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı, AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi

Mövzu: Azərbaycanda miqrantların pul köçürmələrinin əsas xüsusiyyətləri

3. Əhmədov Bədəl, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

Mövzu: Yüksək texnologiyaların cəmiyyətin həyatına təsiri

4. Məmmədov Zaur, Şahbazov Vüqar, Lənkəran Dövlət Universitetinin əməkdaşları

Mövzu: Milli idarəetmədə Multikultural dəyərlər

5. Şərifov Rinard, Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi

Mövzu: Müasir qloballaşan dünyada mədəniyyətlərarası dialoqun səciyyəvi özəllikləri

6. **Həsənova Nübar,** Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşı

Mövzu: Əlavə təhsilin idarə edilməsinin aktual problemləri

7. **Novruzova Lamiyə,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Səmərəli idarəetmənin prinsipləri əsasında idarəetmənin təkmilləşdirilməsinin aktual problemləri (beynəlxalq və yerli təcrübə)

8. **Nərmin Hüseynova,** Azərbaycan Dövlət İqtisad Universitetinin magistrı

Mövzu: Electronic money: Is there any possibility of a cashless society?

9. **Nəsirli Nurlan,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Azərbaycan Biznes mühiti və onun prioritet istiqamətləri

10. **Hüseynova Ramilə,** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı

Mövzu: Azərbaycan Demokratik Respublikası dövründə idarəetmədə multikultural dəyərlər

11. **Həsənova İlahə,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Beynəlxalq təşkilatlar çərçivəsində mədəni əməkdaşlıq

12. **Cavadzadə Vüqar,** Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

Mövzu: Azərbaycanda insan resurslarının idarəedilməsində elektron hökümət layihəsi.

13. **Севда Алиева, Азербайджанский Университет Туризма и Менеджмента**

Mövzu: Особенности формирования и развития туризма в Германии

14. **Muradov İsmayıl** Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı

Mövzu: Dövlət qulluğunda ictimayyətlə əlaqələr

Təşkilat komitəsi:

Sədr:

İlham İsa oğlu Mədətov- Azərbaycan Turizm və Menecment Universitetinin rektoru;

Sədr müavinləri:

İranə Məmməd qızı Əliyeva, p.ü.e.d., prof. - ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru;

Hüseyn Mustafa oğlu Həsənov - ATMU-nun Tədris işləri üzrə prorektoru;

Üzvlər:

Nəsirulla Beytulla oğlu Nəsirli, f.r.e.n., dos. - Elm və innovasiya şöbəsinin müdiri;

Zaur Siyavuş oğlu Bağırov, f.ü.e.d., prof. - Keyfiyyət təminatı və akkreditasiyası şöbəsinin müdiri;

Bahadur Ənvər oğlu Bilalov, t.e.n., dos. - Turizm və qonaqpərvərlik fakültəsinin dekanı;

Kənan Hüseyn oğlu Allahverdiyev, f.e.n., dos. - Xidmət mühəndisliyi fakültəsinin dekanı;

Anar Faiq oğlu Mirzəyev, i.ü.f.d. - Biznes idarəçiliyi fakültəsinin dekanı.

Redaksiya heyəti:

Elmira Məmmədovna Qocayeva, i.ü.f.d., dos. - Marketinq kafedrasının müdiri;

Novruz Əmirxan oğlu Quliyev, p.e.d., dos. - Mehmanxana və restoran biznesi kaderasının müdiri;

Hafiz Feyruz oğlu Hüseynov, f.e.n., dos. - Turizm biznesi kafedrasının müdiri;

Vüqar Mehralı oğlu Nəzərov, i.ü.f.d., dos. - İqtisadiyyat kafedrasının müdiri;
İbrahim Zülfüqar oğlu Əliyev, t.e.n., dos. - İctimai fənlər kafedrasının müdiri;
Arzu Alim qızı Hüseyn, i.ü.f.d., dos. – Menecment kafedrasının müdiri;
Azad Yəhya oğlu Məmmədov, fil.ü.e.d., prof. - İngilis dili kafedrasının professoru;
Minaxanım Rafiq qızı Əsədova, t.ü.e.d. - İctimai fənlər kafedrasının professoru;
Rəna Polad qızı Sultanova, i.ü.e.d. prof., - iqtisadiyyat kafedrasının professoru.

MÜNDƏRİCAT

Giriş sözü
İlham MƏDƏTOV.....

Nəsirulla NƏSİRLİ
Yeni əsrdə turizmin inkişaf istiqamətləri .....

Anar EMİNOV
Ümumilli lider Heydər Əliyevin iqtisadi siyasətində multikultural dəyərlərin təhlili .....

Məhərrəm ZÜLFÜQARLI
Kommunist rejimi daxilində milli dəyərlər uğrunda mübarizə.....

Axilles TALIBOV
Azərbaycan Respublikasında turizm sahəsinin müasir inkişaf perspektivləri.....

İlqar RÜSTƏMOV
Mətbuat azadlığı Azərbaycanda multikulturalizm siyasətinin mühüm amillərinindən biri kimi.....

Jalə FƏRHADOVA, Nərgiz NƏSİROVA
Qərbi Avropa ölkələrində multikulturalizm.....

Sevinc DADAŞZADƏ
Multikultural yanaşmaya tarixi siyasi zəmin.....

Odər HÜSEYNLİ

Etnik münaqişələrə nəzəri yanaşmalar.....

Əfsanə MƏMMƏDYAROVA
Multikultural dəyərlərin formalaşmasında medianın rolu……

Elnarə MÜRSƏLOVA
Abşeronun dini-memarlıq abidələri multikulturalizm kontekstində……

Nargilə BƏDƏLOVA, Hökümə HACIYEVA
Azərbaycan Respublikasının multikultural təhlükəsizliyi və onun əsas prinsipləri……..

Emil AĞAYEV
Altay Hacıyevin yaradıcılığında multikulturalizm ənənələri……

Rafiq AXUNDOV
Развитие культуры и туризма в Азербайджанской Республике.....

Tofiq İMANOV
Туризм Азербайджанской Республики в контексте мультукультурализма……

Elnur HƏSƏNOV
Значение исследования историко-религиозных памятников Гянджи как хранителей толерантных ценностей.....

Nikolay ZÜLAYEV, Azər EMİNOV

Анализ туристического потока россиян в Азербайджан.....

Sadiq İMAMVERDİYEV
İşğal altındakı Qarabağ abidələrinin qorunma probleminin həllində beynəlxalq təşkilat və konvensiyaların rolu.....

Ləman FƏRMANLI
Çexiya- məşhur turizm destinasiyası kimi.....

Vüsalə BEYDULLAZADƏ
Şirvanşahlar sarayına daxil olan türbələr…….....

Orxan MƏMMƏDOV
Gədəbəy Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi…….....

Səbinə ƏLİYEVA
Etnomusiqişünas-alim Bayram Hüseynlinin elmi yaradıcılığında Azərbaycan xalq rəqsi mövzusu…….....

Fəhmin HACIZADƏ
Naxçıvan Muxtar Respublikasının tarixi-memarlıq abidələri və onların turizm üçün əhəmiyyəti .....

Zərxanım NƏHMƏTOVA
Milli Bayramlar Turizm potensialı kimi……

Fidan VƏLİZADƏ

Turizmin inkişafında mədəni irsin rolu……

Fəridə MƏMMƏDOVA
XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda multikultural dəyərlər.....

Gülmira ABDULLAYEVA
Gəncə şəhəri Mir Cəlal Paşayevin ev muzeyi.....

Eldar İSPAROV
Azərbaycan Respublikasında turizm sektoru.....

Elman ƏZİZOV
Müasir turizm sahəsinin davamlı inkişafının təmini məsələləri.....

Kamran ABDULLAYEV
Azərbaycan Respublikasında turizm sahəsinin ölkənin sosial-iqtisadi inkişafına təsiri məsələləri.....

Roza ƏLİYEVA
Azərbaycan turizm sənayesinin iqtisadi səmərəliliyi.....

Emin QULİYEV
Turizm klasterlərinin sosial-iqtisadi inkişafa təsiri .....

Gülnar SƏMƏDOVA
Azərbaycanda müalicəvi turizmin təhlili və qiymətləndirilməsi.....

Lalə NEYMƏTOVA
Вопросы влияния индустрии туризма на развитие отраслей экономики страны.....

Münəvvər MƏMMƏDLİ
Turizmin sosial-iqtisadi inkişafa təsiri……
Turqay ƏLİYEV
Çin iqtisadiyyatında “one belt, one road” (obor) layihəsi və Azərbaycanın bu layihədə siyasi və iqtisadi rolu……

Elmar MƏHƏRRƏMZADƏ
“Hilton Baku” mehmanxanasında restoran xidmətləri……

Çingiz ƏLIYEV, Novruz QULIYEV, Maqsud SÜLEYMANOV ,
Emal olunmuş bəzi tərəvəz məhsullarının kimyəvi – texnoloji göstəricilərinin qiymətləndirilməsi……

Lətif KAZIMOV
Dünyada dəmir yolu nəqliyyatının yaranması tarixi……..

Cavid ƏKBƏRLİ
Sərnişin qatarlarında gediş qaydaları.....

Ceyran MƏMMƏDZADƏ
Turizmdə informasiya kommunikasiya sistemlərindən istifadə imkanları.....

Aida BAYRAMOVA
Cəmiyyətin inkişafında sosial sahibkarlığın rolu və Azərbaycanda onun inkişaf istiqamətləri .....

Yusif RƏSULZADƏ
Turizmin sosial-iqtisadi inkişafa təsiri.....

Aygün ƏLİYEVA
Turizm sektorunun Milli İqtisadiyyatın inkişafında rolu.....

Dilarə ƏMİRASLANOVA
Böhranlı müəssisənin maliyyə vəziyyətinin idarə olunması istiqamətləri.....

Kəyan HACIYEV, Akifə AĞAYAROVA,
Azərbaycanda miqrantların pul köçürmələrinin əsas xüsusiyyətləri.....

Bədəl ƏHMƏDOV
Yüksək texnologiyaların cəmiyyətin həyatına təsiri.....

Zaur MƏMMƏDOV, Vüqar ŞAHBAZOV
Milli idarəetmədə Multikultural dəyərlər.....

Rinard ŞƏRİFOV
Müasir qloballaşan dünyada mədəniyyətlərarası dialoqun səciyyəvi özəllikləri.....

Nübar HƏSƏNOVA
Əlavə təhsilin idarə edilməsinin aktual problemləri.....

Lamiyə NOVRUZOVA
Səmərəli idarəetmənin prinsipləri əsasında idarəetmənin təkmilləşdirilməsinin aktual problemləri (beynəlxalq və yerli təcrübə).....

Nərmin HÜSEYNOVA

Electronic money: Is there any possibility of a cashless society…..

Nurlan NƏSİRLİ
Azərbaycan Biznes mühiti və onun prioritet istiqamətləri……

Ramilə HÜSEYNOVA
Azərbaycan Demokratik Respublikası dövründə idarəetmədə multikultural dəyərlər.....

İlahə HƏSƏNOVA
Beynəlxalq təşkilatlar çərçivəsində mədəni əməkdaşlıq.....

Vüqar CAVADZADƏ
Azərbaycanda insan resurslarının idarəedilməsində elektron hökümət layihəsi.....

Севда АЛИЕВА

Особенности формирования и развития туризма в Германии....

İsmayıl MURADOV
Dövlət qulluğunda ictimayyətlə əlaqələr.....

GİRİŞ SÖZÜ

Hörmətli konfrans iştirakçıları!

Hər birinizi Azərbaycan Turizm və Menecment Universitetində "İdarəetmədə multikultural dəyərlər" mövzusunda 4-cü respublika elmi konfransında səmimi qəlbdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə multikultural dəyərlər arasında yaranan ziddiyyətlərin aradan qaldırılması, elm, texnika, texnologiya kimi ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə qərəzsiz riayət edilməsinə şərait yaratmaqdır. Multikultural dəyərlər insan cəmiyyətində ziddiyətsiz yaşam, inkişafa istiqamətlənən davranış qaydalarıdır. Dünyada onlarla din, yüzlərlə təriqət və dini dünyagörüşü formalaşmışdır. Amma insanların yaşaya biləcəyi planet hələlik birdir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, insanlar bu planetdə birgə yaşamağa və onu paylaşmağa məhkumdurlar.

Konfransın əsas məqsədi multikulturalizm dəyərləri daşıyıcılarının və mədəni müxtəlifliyi qəbul edərək birgəyaşayış qaydalarına əməl etməklə iqtisadi inkişafa nail olmaq yollarının araşdırılması nəticələrinin müzakirə edilməsidir. Tarixi proseslərdə formalaşan etnik-mədəni müxtəliflikər və onların əsasını təşkil edən etnik-mədəni dəyərlər xalqların və dövlətlərin inkişafında mühüm rol oynayır. Bu müxtəliflikər dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün istiqamətləndirilmədikdə, ölkədə uyğun multikultural siyasət formalaşmadıqda ciddi problemlər, hətta münaqişələr baş verir. Buna görə də bu proseslərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük əhəmiyyət kəsb edir. Dünyanın inkişaf etmiş bir sıra ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır,

amma mənəvi təcrübəsi böyükdür. Tarix boyu Azərbaycanın mənəvi həyatında tolerantlıqdan çox danışmaq mümkündür. Bunlar multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur. Bütün yuxarıda deyilənləri nəzərə alan ATMU-nun "Elm və innovasiya" şobəsi doktorant, dissertant və müstəqil tədqiqatçıların elmi-tədqiqatlarının bu mövzuya istiqamətləndirilməsi prosesini genişləndirmişdir. Göstərilən istiqamətli elmi-tədqiqat işlərinin respublika miqyasında müzakirələrinin keçirilməsi və onların müsbət nəticələrinin ümumiləşdirərək tətbiq edilməsi konfransın keçirilməsinin əsas məqsədi olmuşdur. Əsasən göstərilən dəyərlərə malik kadrların hazırlanması indi bütün dünya təhsili qarşısında duran əsas vəzifələrdəndir.Turizm sahəsində fəaliyyət göstərən kadrlar üçün yuxarıda göstərilən keyfiyyətlərin formalaşdırılması və möhkəmləndirilməsi isə zəruridir. Ümumiyyətlə, hər bir cəmiyyətin öz mədəniyyətinə aid tarixi faktlara müraciəti qloballaşma dövründə artmaqdadır. Bu vəziyyət isə bir çox hallarda bir xalqın mədəniyyətinin (müxtəlif sahələrə aid) digər xalqlar tərəfindən özününküləşdirilməsi kimi pis bir ənənənin yaranması ilə müşayiət olunur.

Konfransın mövzu genişliyindən də görünür ki, idarəetmədə multikultural dəyərlərin mövcudluğu və inkişaf mexanizminin çoxaspektliliyi cəmiyyətin bütün istiqamətlərdə tərəqqiyə nail olması üçün bu dəyərlərə malik kadrların hazırlanması günün tələbidir.

Diqqətinizə görə təşəkkür edirəm!

İlham Mədətov
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

PLENAR İCLAS

Nəsirulla NƏSİRLİ
Azərbaycan Turizm və Menecment Universiteti
Elm və innovasiya şöbəsinin müdiri, f-r.e.n., dos.

XXI ƏSRİN TURİZM İMKANLARI

ТУРИСТИЧЕСКИЕ ВОЗМОЖНОСТИ XXI ВЕКА

TOURISM OPPORTUNITIES OF THE XXI CENTURY

Açar sözlər: Turizm, turizm məhsulu, turizm bazarı, səyahət, gəlmə turizmi, getmə turizmi, bərpa resursları, xidmət sahələri.

Ключевые слова: туризм, туристический продукт, туристический рынок, путешествия, въездной туризм, туристический туризм, реставрационные ресурсы, зоны обслуживания.

Keywords: Tourism, tourism product, tourism market, travel, inbound tourism, travel tourism, restoration resources, service areas.

Xülasə: Müasir dövrdə turizm sosial infrastrukturunun inkişafı ilə bağlı bütün məsələlərə birbaşa və dolayı yolla təsir göstərən sosial-iqtisadi fenomen hesab olunur. Müasir turizm yüksək səviyyədə inkişaf etmiş nəqliyyat, sosial sfera və sosial xidmətlər bazasına əsaslanır və nəticə etibarı ilə iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevrilir.

Резюме: В современном мире туризм считается социально-экономическим феноменом, прямо или косвенно влияющим на все, что связано с развитием социальной инфраструктуры. Современный туризм основывается на высокоразвитом транспорте, социальной сфере и базе социальных услуг. Сегодня туризм превратился в высокооплачиваемую сферу экономики.

Abstract: In the modern world tourism is considered a socio-economic phenomenon, directly or indirectly affecting everything related to the development of social infrastructure. Modern tourism is based on highly developed transport, social sphere and the base of social services. Today, tourism has become a highly paid sector of the economy.

Dünya Turizm təşkilatının məlumatına görə, bu gün turizm dünya iqtisadiyatının ən gəlirli və dinamik inkişaf edən sahələrdindən biridir. Gəlirlilik səviyyəsinə görə turizm yalnız neft hasilatı və emalı, maşınqayırma sahələrindən geri qalır. Qlobal milli gəlirin təxminən 6%-i, investisiya qoyuluşunun 7%-i, hər 16 iş yerindən biri, vergidaxilolmalarının 5%-i, istehlak xərclərinin 11%-i turizmin payına düşür Bu baxımdan bir çox ölkələrdə turizmin aktiv inkişafı dövlətin dəstəyi ilə baş verir Tədqiqatın əsas məqsədi turizmin dünyada inkişafının təhlil edilməsidir.

Turizm tələbatı kütləvi və sosial kateqoriyadır. Bu tələbat çoxsaylı faktorların təsiri ilə formalaşır, faktoraların təsiri tələbatı artıra və azalda bilər. Turizm bazarında tələbata təsir edən ən vacib amillər aşağıdakılardır:

1. Ümumi iqtisadi amillər: maddi rifahın kütləvi tələbata təsiri, işləyən əhalinin iş və asudə vaxt münasibətləri (nisbəti) xüsusi investisiya sahələri, turizmin inkişaf proqramının inkişafı səviyyəsi;

2. Sosial-demoqrafik amillər: yaş, cins, ixtisas, peşə, təhsil , sosial qrup; ailə vəziyyəti, maddi vəziyyət, ailə tərkibi, yaşadığı region, yaşayış yeri (şəhər, kənd), turistin yaşadığı yerin ölçüsü, məşğulluq növü;
3. İctimai-psixoloji və mədəni amillər: cəmiyyətin mənəvi dəyərləri sistemində prioritetlər, psixoloji tələbat, geniş kredit proqramı;
4. Şəxsi davranış faktorları: şəxsi keyfiyyətlər, həyat tərzi, asudə vaxta münasibət, dini dəyərlər sistemi, maraq hədəfi (məqsədi), motiv; paylanış mentaliteti.

Turizm bazarı çoxsaylı funksiyalar həyata keçirir: məlumatlandırma, əlaqələndirmə, dəyəryaratma, stimullaşdırıcı, yaradıcı-dağıdıcı və fərqləndirici, lakin onun əsas funksiyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Turizm məhsulu üçün bağlanmış müqavilə əsasında dəyərin və tələbat dəyərinin ödənilməsi;
2. Turizm məhsulunun turistə çatdırılması prosesinin təşkili;
3. Əməyə maddi stimulun iqtisadi təminatı.

Turizm bazarında ikinci funksiyanın yerinə yetirilməsi, turizm məhsulu üçün ödənişin həyata keçirilməsi prosesi ilə başa çatır. Bu mübadilənin həyata keçirilməsi əmtəə-pul münasibətinin başa çatması, turizm məhsulu üçün bağlanmış müqavilənin tələbat dəyərinin ictimaiyyət tərəfindən tanınması anlamına gəlir. Nəticədə turizm sənayesinin inkişaf etdirilməsi üçün vəsait, vəsaitin toplanması prosesi həyata keçirilir.

Turizm sənayesinin unikal strukturu, onun bir sıra elementlərin özündə saxlanması ilə səciyyəvidir, belə ki, turizm sənayesi özündə müxtəlif xidmət sahələrini, restoranları, motelləri, otelləri, istirahət evlərini, təmizlik müəssisələrini, maqazinləri, bərpa və istirahət müəssisələrini, sanatoriya-kurort müəssisələrini və s.bir sıra digər sahələri saxlayır.

Beləliklə, dövlət tərəfindən infrastruktura qoyulan investisiya və bir çox hallarda turizmin çox xərc tələb edən maddi-texniki bazasını kiçik-biznes müəssisələri tərəfindən yatırılan investisiyalar stimullaşdırır. Bəzi hallarda, zaman-zaman başlanğıc daha tutumlu investisiyanı turizm köməkçi sahələrdən: mehmanxana, restoran, ticarət mərkəzi, liman, aeroport və s.kimi müəssisələrdən cəlb edir.

Qloballaşma dövründə fərdin yalnız öz ölkəsinin deyil , əvvələ həm də dünyanın vətəndaşı olduğunu dərk etməsi, xüsusilə hədəflənən turist səfərləri bazarının genişlənməsinə getirib çıxarır. ÜTT-nın Lissabonda keçirilən "Turizm:2020 Vision" konfransının nəticələrinin araşdırılmasından aydın göründüyü kimi XXI əsr turizminin beş perspektivli istiqaməti olacaq.

1. Macəra turizmi: Dünyada araşdırılmayan turizm bölgələrinin sayı azalmışdır və azalmaqda davam edir. Real romantiklər. Yer kürəsinin ən ucqar nöqtələrinə, dağ zirvələrinə və dənizlərin görməyə can atır. Onlar bu səfərin həyata keçəcəyinə böyük inam bəsləyirlər. Yeni ehtiyyaclar müfaviq turizm məhsullarının yaradılmasını zərurətə çevirir. Deməli dünyanən ən yüksək dağ zirvələrinə və dənizlərin dərinliklərinə səfərlərin təşkili dama etdiriləcək.

1985 –ci ildə dənizlərdə səyahətlərin təşkili üçün 46 su altı qayığdan istifadə edilmişdir. 1996-cı ildə sualtı səyahətlərə iki milyon turist qatılmışdır və onların turoperatorlara ödədiyi ödənişin miqdarı 147 milyard ABŞ dollarından artıq olmuşdur. Dünyadakı sualtı dərinliklərin mükəmməl gürüntüsünü seyr etməyə imkan verən şəffaf gövdəli sualtı qayıqların istehsalı başlanmışdır. 1998-ci ilim avqustunda belə bir sualtı qayıqla məşhur "Titanik" gəmisinin qəzaya uğradığı Şimali Atlantikaya səfəri təklif etdi. Yer kürəsinin ən cazibədar nöqtəsi-

Antarktidadır. 10 min turist artıq bu buzlu məkana səfər etmişdir. Antarktida turu 10-16 min ABŞ dolları ilə dəyərləndirilir. Antarktidada üç araşdırma bazasının turizm mərkəzinə çevrilməsi məsələsi Avstraliya tərəfindən (qərarlaşdırılır) həll edilir. Böyük Britaniya, Yeni Zelandiya və Rusiya Antarktida su nəqliyyat ilə gələn turistlər üçün bazalar açdılar.

2. Kruizlər. Bu turizm sektoru fenomenal bir tempdə inkişaf edir. 1997-ci ildə Kruiz gəmilərində dəniz və çay marşrutları ilə 7 milyon turist səfər etmişdir, sonrakı illərdə bu rəqəmin 9 milyondan yuxarı olmuşdur.
3. Ekoturizm. Ekoturizmin əsas məqsədi-ətraf mühitin qorunmasıdır. Ekoturizm sevənlər üçün tanışlıq turlarının təşkil edilməsi, bunu kurortlarda istirahət edənlər üçün qoruqlara turların təşkili daha yaxşı olar. Ekoturizmdən gələn gəlirin bir hissəsi təbiəti mühafizə layihələrinin maliyyələşdirməsinə yönəldilir.
4. Mədəniyyət və tanışlıq turizmi. Tanışlıq məqsədilə səyahət edən turistlərin böyük axını Avropada, Asyada, Yaxın Şərqdə müşahidə edilir. Çox da böyük olmayan qruplar üçün əsasən gündüz səfərləri şəklində mədəniyyət abidələri və tarixi abidələrlə tanışlıq üçün tanışlıq turları təşkil edilir. Turizmin bu sahəsinin inkişafı ilə bağlı tarixi və mədəniyyət abidələrinin qorunmasının əhəmiyyəti getdikcə artmaqdadır. Abidələrlə tanışlıq və onlara turist axınının səmərəli idarə edilməsi məqsədli fəaliyyətlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir.
5. Tematik turizm. Bu tip turizm konkret mövzuya, təzahürə marağın artması səbəbilə təşkil edilir, məsələn müəyyən ərazinin iqlim şəraiti hər hansı təbii abidə, hansı ki, turizmin digər növlərinə nisbətən üstün maraq kəsb edir və bu marağı təmin edir. ÜTT proqramına görə XXI əsrdə turizmin yüksəlişi gözlənilir: səyahət edənlərin sayının

2020-ci ildə 1,6 milyard olacağı gözlənilir(1997-ci ildə bu rəqəm 612 milyon olmuşdur).

ÜTT proqnozuna görə getmə turizminin sürətli inkişafı gözlənilir. Almaniya, Yaponiya, ABŞ, Çin, Böyük Britaniya, Rusiya kimi böyük ölkələr 2020-ci ilə qədər turizm bazarına 30 çilyona qədər turist ixrac edəcək.

Turizm sektoruna bərpa resursları, turist xidmətləri, turizm sənayesi, turizm infrastrukturu, turizm fəaliyyəti və digər ehtiyyatlar və xidmət sahələri daxildir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, turizmin müxtəlif növlərinin inkişafı iqtisadiyyatın nəqliyyat, rabitə, ticarət, tikinti, kənd təsərrüfatı, xalq istehlakı mallarının istehsalı kimi sahələrinin stimullaşdırılmasına təsir edir, büdcə gəlirlərinin artmasına səbəb olur. Nəticədə, turizm dünya iqtisadiyyatının mübaliqəsiz ixrac liderinə çevriləcəkdir.

Dünyada iqtisadi proseslərin qloballaşması kontekstində beynəlxalq turizm yüksək gəlirli, sektorlararası kompleks kimi, dünya iqtisadiyyatının aparıcı ixracılatçılarından biri olmaqla, ölkələr (bölgələr) arasında fərqli (iqtisadi, siyasi, mədəni və digər) əlaqələrin güclənməsinə yardım edir, müasir cəmiyyətdə sosial oryentasiya məqsədli xarakter daşıyır. XXİ əsrdə beynəlxalq turizm, fərqli kontinqent üçün nəzərdə tutulmuş, kütləvi əlverişli və demək olar ki, müstəqil sektorlararası bir təsərrüfat halına gəlmişdir. Beynəlxalq turizm, bu gün müasir cəmiyyətin inkişafının vacib fenomeninə çevrilmişdir.

Bir sıra müəlliflər beynəlxalq turizmi sadəcə “başqa ölkədən gələn “ və “ xarici turizm” terminlərini birgə baxılması ilə ekvivalentləşdirirlər. N.S.Barsukova heab edir ki, “başqa ölkədə olan turizm termini xarici ölkədən turist qəbul edən ölkəyə gələn turistlər üçün işlədilir. “Xarici turizm” termini turisti başqa ölkəyə öz ölkəsi sərhədlərindən kənara göndərilməsi üçün istifadə edilir. Yəni beynəlxalq turizm sərhədlərindən kənar

ölkədən və sərhədlərindən kənardakı ölkəyə göndərilən turistlər terminlərini özündə saxlayır (3,58). A.B.Zdorov qeyd edir ki, Beynəlxalq turizm mövcud beynəlxalq standartları və dövlətlərarası müqavilələr əsasında həyata keçirilən səyahət və mübadilə sistemidir.

Beynəlxalq turizm hər hansı bir ölkədə başqa ölkələrdən gələn turistlərin qəbulu, bu ölkə vətəndaşlarının digər xarici ölkələrə səfərlərini əhatə edir. Beynəlxalq turizm-xarici iqtisadi əlaqələrin aktiv istiqamətidir. (5, s.241). Yuxarıda adı çəkilən müəllif, beynəlxalq turizm terminə beynəlxalq-hüquqi nöqtəi nəzərdən yanaşır.

Turizmin inkişaf etdirilməsi ilə bağlı dünya miqyasında aparılan işlər turizmin dünya iqtisadiyyatının ixrac qrupları arasında liderliyini təmin etdi. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr turizm sənayesinin inkişafına böyük əhəmiyyət verir.
Məlumdur ki. Turizm həm iqtisadiyyata, həm məşğulluq və gəlir səviyyəsinə birbaşa və dolayı təsir göstərir. Əgər turizm iqtisadi inkişafın əsas sahəsinə çevrilərsə, onda dövlətin regionları təbii və tarixi mühiti qorumaq qayğısına qalmalıdır, bu turizmin cəlbediciliyni artıracaq və gəlir mənbəyinə çevirmək üçün əsas yaradar. Turizmin sosial yönümü aşağıdakı istiqamətləri əhatə edir:

- İdman-sağlamlıq, mədəniyət-təhsil, ekoloji-ekspedisiya və elmi-turizmin üstünlük təşkil etməsi;
- Xarici ölkələr qarşısında daxili iqtisadi maraqların üstünlük təşkil etməsi;
- Vətəndaş cəmiyyətinə doğru bir hərəkət olaraq əhalinin turizm tələbatının ödənilməsini qorunmasına dövlət dəstəyi;
- Bazar iqtisadiyyatının sosial problemlərin həllinə yönləndirilməsi;

- Tənzimlənən bazar münasibətlərinin yeni formalaşdırılması; və sosial məhsulunun qiymətlərinin liberallaşması mexanizminin işlənməsi;
- ən son kopüter texnologiyalardan və kommunikativ əlaqələrdən istifadə;
- sosial yönümlü bazar infrastrukturu vasitəsilə ölkə turizmində institusional dəyişikliklərin həyata keçirilməsi-bankların, birjaların, fondların, kütləvi tipli ictimai təşkilatların yaradılması;

Müasir turizm sənayesi boş vaxtlarına müxtəlif əyləncə və əyləncə növlərinə aid olan müxtəlif və daaha mürəkkən tələbatları ödəyən müəssisə və təşkilatları təmsil edən iqtisadiyyatın böyük müstəqil kompleksidir.

Turizm sənayesinin əsas artım faktorları aşağıdakılardır:

- əhalinin gəlirlirinin artması, hansı ki, əhalinin ilkin yaşayış yeri, yemək, geyim. Tələbatları çoxluğunu təmin edən, bərpa ehtiyyaclarının ödənilməsini təmin edir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əhalisinin istehlak kopleksinin xərc strukturunda turizm xidmətlərinə çəkilən xərclər, yaşayış üçün çəkilən xərclərdən sonra ikinci yerdə gedir;
- şəhərlərdə artan şəhərləşmə prosesi və ekoloji şəraitin pisləşməsi, ekoloji cəhətdən təmiz mühitdə istirahət etmək tələbatını tez aktivləşdirir, urbanizasiyadan sonrakı yaşayış stereotipinin dəyişilməsini tələb edir, gündəlik qayğı və məişət stresinin qarşısının alınması fəaliyyətlərinə təhrik edir.
- boş vaxtın artması, yəni o vaxtın ki, bir insanın məcburi deyil, sərbəst olacağı.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsində turizmin aşağıdakı kimi fərqləndirilməsi təklif edirlər: məzuniyyət müddətindən xarici turist səfəri üçün istifadə

edilməsi həftəsonu ölkədaxili eksursiyalar axşam saatlarındakı boş vaxtlarda isə şəhərdə istirahət.Həftə sonu asudə vaxt strukturunda lider mövqedə durduğundan, inkişaf emiş ölkələrdə daxili turizm ehtiyacları daha da, artmaqdadır və buna görə də daxili turizm sektoru yüksək sürətlə inkişaf edir.

-təşkilati mühitin və infrasturukturun inkişafı, unkila turizm resurslarını istifadə etmək üçün daha əlverişli etmək;

-insan kapitalının inkişafına və cəmiyyətin sosial ehtiyaclarının təmin edilməsinə yönəlmiş sosial və mədəni xidmətlərin əhəmiyyətini artırmaq üçün müasir şəraitdə beynəlxalq turizm, ölkə iqtisadiyyatının və fərdi milli iqtisadiyyatın strateji inkişaf istiqamətinin əsas aparıcı sahəsinə çevrilməsi zərurətinin yaradılması. Beynəlxalq turizm bu gün milli sərvətin genişləndirilməsi, artırılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün bir faktor rolunu oynayır; müasir dünya iqtisadiyyatının ən yüksək səmərəlilik sektorlarından biri kimi yüksək gəlir və məşğulluq təmin edir.

XXI əsrin əvvələrində dünya turizm sənayesi qarşısında duran kəskin problem bərpa resurslarının qorunması və inkişaf etdirilməsidir, hansı ki, III minillikdə bundan faydalanma sağlamlığın qorunması üçün qiymətli vasitədir.Rekreasiya resurslarından maksimum səmərəli istifadə, bu resursa olan artan tələbatla, onların istifadə edilməsi üçün ən əlverişli şəraitin yaradılması arasında tarazlıq nisbətinə nail olmaq lazımdır. Bu tarazlığa nail olmaq üçün infrasturuktur yaratmaq lazımdır. Hər bir regionda məhdud təsərrüfat sahələrində müəyyən elementlər konsentrasiya olunmuşdur;

-unikal təbii bərpa resursları kompleksi (su,hava,müalicə palçığı, təmiz ərzaq və s.);

-zəruri texnologiyaya malik bərpa xidməti təşkilatları, ixtisaslı insan faktoru, yaxşı qurulmuş təşkilati sturuktur, bu cür fəaliyyətin iqtisadi mədəniyyət kapitalı;
-xüsusi bərpa infrasturukturu (su müalicəsi, palçıq müalicəsi, çimərlik, günəş salonu, park və s.)
-marketinq funksiyası, maliyyə -investisiya təminatı, bərpa xidmətləri istehsalları və istehlakları üçün nəqliyyat təminatı və s.

ÜTT ekspertlərinin proqnozlarına görə qlobal turizm saənayesi turist qəbul edən regionlar, ölkələr arasında, ekskursiya və səyahətlərin daim artan həcminə görə rəqabətin artmasına səbəb olur. Eyni zamanda turizm xidmətləri tələbatlarının yaxşı məlumatlandırılması keyfiyyət və təhlükəsizliyə xüsusi diqqət yetirilməsinə səbəb olur. Faktiki olaraq, "kosmik turizm" kimi bir anlayışın ortaya çıxdığı dövrdə təhlükəsizlik məsələsi daha da aktuallaşır. Beynəlxalq dəniz bürosunun illik hesabtlarında belə təhlükəli sahələr kimi Cənubi Şərqi Asiya, xüsusilə İndoneziya və Banqladeş ətrafındakı dəniz suları göstərilir.
Gələcək üçün proqnoz ekspertlərinin proqnozlarına qayıtmaqla qeyd edə bilərik ki, qlobal turizm bazarının gələcək inkişafı ən son informasiya texnologiyalarının inkişafı ilə müəyyənləşəcəkdir. Dünyada daha bir yeni tendensiya meylinin artması müşahidə edilir-özünəxidmət təklif edən yerləşdirmə yerlərinin sayının artması.

Turistlərin səyahət müddətində sərbəst olmaları, seçimin yüksək dəyəri, təlim və texniki xidmət personalının saxlanması yüksək xidmət səviyyəsinin yalnız turizm bazarının elit sektorunda əsaslandırılması deməkdir. Bundan əlavə, hazırda qərb turizm bazarında az bir qism turist qrup halında təklif edilən paketlərdən istifadə edir, yəni gələcək istehlakçıların güclü individuallıq meyli barədə düşünmək lazımdır və məqsədə uyğundur. Bütün bunlarla bağlı yaxın gələcəkdə beynəlxalq

turizm sektorunun aşağıdakı inkişaf istiqamətlərini proqnozlaşdırmaq olar:
-turist qəbul edən ölkənin turizm resurslarını (təbiət, mədəni, tarixi) nəzərə alaraq, mövcud turizm xidmətlərinin və bazarının yenidən təşkili, inkişaf etdirilməsi;
-yerli icmaların və icra orqanlarının turizm fəaliyyətinin planlaşdırılması və inkişafına geniş şəkildə cəlb olunması, təhlükəsizliyin təmin edilməsi;
-turizmi təşkil edən dövlət qurumları və yerli icra orqanları arasında əlaqələrin inkişaf etdirilməsi, onların hər birinin ehtiyaclarının nəzərə alınması, ehtiyacların qarşılanması yollarının müəyyənləşdirilməsi;
-yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, vergi, gömrük və turizmin inkişafına maneçilik törədən digər çətinliklərin aradan qaldırılması;
-turizm xidmətlərinin qiymətlərinin turist üçün məqbul olan və bu sahə üçün faydalı olan səviyyədə saxlanılmasına diqqət yetirilməsi;
-kapitalın sərmayələşdirilməsi zamanı ətraf mühitin qorunması məsələlərinə (tikinti, memarlıq, antropogen təzyiq) diqqət yetirilməsi;
-dəqiq marketin fəaliyyətinin həyata keçirilməsi və xidmətlərin təşviqi üçün daha çox resursların ayrılması, müəyyən turist qruplarının axtarışı və onlara təklif olunan xidmətlər üzrə hədəf məlumatların hazırlanması;
-turizm sahəsi işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
-klub istirahət sisteminin yaradılması və inkişaf etdirilməsi.
Yuxarıda deyilənləri ümumiləşdirərək, deyə bilərik ki, üçüncü minillikdə turizm sahəsinin inkişafı daha da sürətlənəcək, bu sahənin inkişaf tempi daha da yüksələcək, bu sahənin sürətli inkişafına diqqət daha da artırılacaq. Bu isə tamamilə başadüşüləndir, inkişafın bu mərhələsində insan cəmiyyəti

məhsuldarlıq və rifah cəmiyyətindən “asudə vaxt cəmiyyətinə” çevrilmək halına gələcək.

Beləliklə, XXI əsr turizmi, hər şeydən əvvəl müştəri yönümlü, turizm məhsulları və xidmətlərinə istehlakçılar üçün xüsusi əhəmiyyətə malik olacaq. ÜTT araşdırmalarına görə [10, s.55-59] XXI əsr turizminin əsas inkişaf istiqamətlərini

10. Dwyer, L. Megatrends underpining tourizm to 2020: analysis of key drivers for change /L.Dwyer, A.Rayner//First published in Australia /Gold Coast, Queenslands in 2008 by CRC for Sustainable Tourism Pty ltd-65p.

-macəra turizmi, daha əvvəl turistlər tərəfindən öyrənilməyən bölgələrin öyrənilməsi;

-kruizlər-sektor son vaxtlarda sürətlə inkişaf edir;

-ekoturizmin əsas məqsədi ətraf mühitin qorunmasıdır. Turizmin bu növündən gələn gəlirin bir hissəsi ətraf mühitin mühafizəsi layihələrini müəyyənləşdirməyə yönəldilir. Seqment özündə ekoturizm həvəskarları üçün mövzu üzrə tanışlıq turları, kurortlarda istirahət edənlər üçün turlar, milli qoruqlara təşkil olunan turlar formasında həyata keçirilir. Mədəniyyət-tanışlıq turizmi Avropaya, Asiyaya, Yaxın Şərqə səyahət edən turistlər arasında məşhurdur.

Tematik turizm: müəyyən bir fenomenə məsələn, bir ərazinin iqliminin öyrənilməsinə əsaslanan tematik turizm:Tematik parkların populyarlığı istirahət zonaları kimi (dünyada bir neçə belə bir park var) ilbəil artacaq. Son on il ərzində turizm sinif və başlanğıc çərçivəni aşaraq ictimai hadisədən həyat tərzinə, müasir insanın yaşayış tərzinə çevrildi. Turizm xarici marka maşın və şəhərətrafı bağ evi kimi müvəffəqiyyət və rifah halı simvoluna gəldi. Turizm bir sirr olaraq, status simvoluna çevrildi. Mübaliğəsiz demək olar ki, turizm insan biliklərinin və bacarıqlarının bütün sahələrini əhatə edir:tarixi, dini, incəsənəti, tibbi, texnika və texnologiyanı,

sənayeni və istehsal. Dinamik inkişaf edən turizm sahəsi hər şeydən əvvəl elmin və mədəniyyətin görüntü sahəsinə düşdü. Müasir dövrdə turizmin inkişafına mane olan əsas amil kimi terrorizmin və məhəlli münaqişələrin genişlənməsini göstərmək olar. ÜTT-nın proqramına görə turizmin inkişafına dəstək verən əsas faktorlar isə:

-yaşayış keyfiyyətinin yüksəlməsi və elmi-texniki tərəqqi;
-asudə vaxtın artan müddəti;
-ətraf mühitin vəziyyətidir.

ƏDƏBİYYAT

1. Казыбайкызы А., Муханова А.Е., Смагулова Ж.Б. Особенности и перспективы развития туризма в мире//Успехи современного естествознания-2015-№1,2.с.265-269.
2. acces:htpp//www.cretourism.com.an/wms/apload.

Anar EMİNOV
Azərbaycan Turizm və Menecment Universiteti
i.ü.f.d.,dos.

ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNDƏ MULTİKULTURAL DƏYƏRLƏRİN TƏHLİLİ

АНАЛИЗ МУЛЬТИКУЛЬТУРАЛЬНЫХ ЦЕННОСТЕЙ В ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

ANALYSIS OF THE MULTICULTURAL VALUES OF THE ECONOMIC POLICY OF NATIONAL LEADER HEYDAR ALIYEV

Açar sözlər: Multikulturalizm, multikultural dəyərlər, iqtisadi siyasət, multikultural model anlayışı.

Ключевые слова: мультикультурализм, мультикультурные ценности, экономическая политика, понятие мультикультуральной модели.

Keywords: Multiculturalism, multicultural values, economic politics, multicultural model concept.

Xülasə: Ümumilli lider Heydər Əliyevin iqtisadi siyasətində multikultural dəyərlərin təhlili mühüm rol oynayır. Bilirik ki, Azərbaycanda multikulturalizmin dərin kökləri var və bu sahədə Ümumilli Lider Heydər Əliyevin rolu əvəolunmazdır. Bu məqsədlə məqalədə ölkəmizin iqtisadi siyasətində multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin xidmətləri kompleks şəkildə təhlil olunmuşdur.

Резюме: Анализ мультикультуральных ценностей играет важную роль в экономической политике общенационального лидера Гейдара Алиева. Известно, что мультикультурализм имеет глубокие корни в Азербайджане. Роль общенационального лидера Гейдара Алиева в данном вопросе неоспорима. С этой целью в статье были анализированы формирование мультикультуральных ценностей в экономической политике страны, а также заслуги Гейдара Алиева в создании данной модели.

Abstract: The analysis of multicultural values plays an important role in the economic policy of national leader Heydar Aliyev. It is known that multiculturalism has deep roots in

Azerbaijan. The role of national leader Heydar Aliyev in this matter is undeniable. To this end, the article analyzed the formation of multicultural values in the country's economic policy, as well as the merits of Heydar Aliyev in creating this model.

Azərbaycandakı multikulturalizmlə bağlı Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycanın vətəndaşları dini, irqi, siyasi, dil mənsubiyyətindən asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və onların hüquqları Azərbaycan tərəfindən qorunur və mühafizə olunur. Siz əmin olabilərsiniz ki, biz bu məqsədlərimizə, bu prinsiplərimizə daim sadiq olacağıq və gələcəkdə də Azərbaycan vətəndaşlarının dini mənsubiyyəti, yaxud dil mənsubiyyəti, siyasi mənsubiyyətindən asılı olmayaraq, bir-birilə münaqişəyə girməsinə yol verməyəcəyik".

Ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən, Konstitusiyada əks olunması ilə əlaqədar, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Buna görə də Heydər Əliyevi Azərbaycan multikulturalizminin siyasi banisi hesab etmək olar: "Ulu öndər Heydər Əliyev ilk növbədə bununla Heydər Əliyev siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür, biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq deyən ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Milli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə Prezident İlham Əliyev uğurla inkişaf etdirir. Bu

siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verilir. Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu əhəmiyyətli layihələr həyata keçirir. Fondun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar". Dövlət müşaviri bildirib ki, müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti və bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən bu sahədə tarixən öz zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunədir. "Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr vermişdir"-deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edirdi.

Bilirik ki, əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh şəraitində bir ailə kimi yaşamışlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Düşünürəm ki, bu bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk". Vurğulayaq ki, Azərbaycanda tolerantlıq kimi multikulturalizm ideyalarına sadiqlik hər zaman güclü olub və bu gün də eyni vəziyyətdədir. Azərbaycanda insanları yaxınlaşdıran, xalqları sülh, sabitlik, insanları mehribanlıq, qarşılıqlı hörmət naminə birləşdirən azərbaycançılıq və multikulturalizm olduqca böyük dəyərdir. Tədqiqatçılar qeyd edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xalqa

"Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur" çağırışı da dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın bir amal ətrafında sıx birliyini təmin edib, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakları ilə Azərbaycan həqiqətlərinin təbliğinə öz böyük töhfələrini vermələrinə stimul olub. Bir sözlə, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir.

Dünya Azərbaycanlılarının III Qurultayında möhtərəm Prezidentimiz İlham Əliyevin bildirdiyi kimi, bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin ifadəsidir. Azərbaycan xalqının, dövlətinin xilaskarı ümummilli lider Heydər Əliyevin müstəqilliyimizə bəxş etdiyi və müstəsna əhəmiyyət daşıdığı bu ideologiya ən mütərəqqi və müasir tələblər səviyyəsində bu gün də inkişaf etdirilir. Təkcə türk dünyasına deyil, beynəlxalq aləmdə baş verən proseslərə təsir imkanları artan Azərbaycan diasporunun güclənməsi, dost xalqlarla birgə fəaliyyəti dünyada mövqelərimizin möhkəmlənməsinə xidmət edir. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması, həyata keçirilən tədbirlər nəticəsində təşkilatlanma işinin sürətləndirilməsinin nəticəsidir ki, diaspor təşkilatlarımızın sayı artır. "Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir" - deyən cənab İlham Əliyev soydaşlarımızın fəaliyyətini yüksək qiymətləndirir.

Azərbaycan xalqının milli bayramları, əlamətdar günlər, 20 Yanvar və Xocalı faciələri ilə əlaqədar dünyanın müxtəlif ölkələrində çoxsaylı insanların iştirakı ilə keçirilən aksiyalar göstərir ki, təşkilatlar arasında koordinasiya işlərini yerinə yetirən diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə siyasi qüvvə kimi tanınır. Azərbaycan dövlətinin xarici ölkələrdə bir parçası, simvolu olan səfirlik, konsulluqlarımızla, diplomatik nümayəndəliklərlə birgə çalışan diaspor təşkilatları ölkəmizin xarici siyasətinin dünyada dəstəklənməsində, təbliğində yaxından iştirak edirlər. "Bir millət, iki dövlət" olan Azərbaycanla Türkiyənin diaspor təşkilatları gücləri birləşdirməklə, siyasi, iqtisadi məsələlərin müzakirəsində vahid mövqedən çıxış edirlər.

Diasporumuzun güclənməsi o deməkdir ki, biz səsi dünyanın bütün qitələrindən eşidilən böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir. İndi qürurla deyə bilərik ki, bizim xaricdə yaşayan, çoxsaylı üzvləri ilə milli maraqlarımızın, adət-ənənələrimizin, tariximizin, həqiqətlərimizin, inkişaf konsepsiyamızın təbliğində fəallıq göstərən böyük ailəmiz var. Çoxminli soydaşımızı birləşdirən bu ailənin bir vətəni var - Azərbaycan! 50 milyondan artıq soydaşımızı birləşdirən Azərbaycan dilinə maraq artır. Ulu öndər Heydər Əliyevin formalaşdırıb təkmilləşdirdiyi ümumxalq ideologiyamız və təfəkkürümüz azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət edir. Türk dünyasının həmrəyliyində əvəzsiz rolu etiraf edilən, türkdilli xalqların birliyinin də təminatçısı olan Azərbaycan belə əhəmiyyətli missiyada daşıdığı rola sadiqliyini dövlət siyasətinin əsas prioritetləri kimi qoruyur və qoruyacaq. Milli ideyanın formalaşması, millətin məqsədyönlülüyünün dəstəklənməsi iqtisadi uğurlarımızın əsasını təşkil etməklə soydaşlarımızın birlik və həmrəyliyi üçün də başlıca amildir".

Təbii ki, bütün bu uğurlar möhkəm təmələ əsaslanan siyasətin nəticəsidir. Möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndər Heydər Əliyev ideyalarının davam etdirilməsini aparılan məqsədyönlü siyasətin uğuru kimi diqqətə çatdırır, ölkəmizin keçdiyi inkişaf yolunda hər bir soydaşımızın payı olduğunu vurğulayır: "Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliğinə, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsinə öz töhfələrini verir".

Dünyada hərbi-siyasi münaqişələrin artdığı bir zamanda Azərbaycanın sabitlik diyarı kimi tanınması, dünya birliyində müsbət təəssürat yaradan ölkəmizin tolerantlıq və multikulturalizm sahəsində qazandığı nailiyyətlərin təbliğ olunması milli həmrəylik və birliyimiz nəticəsində mümkün olub. Ulu öndər Heydər Əliyevin "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" - fikirləri Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın tolerant ölkə imicini yüksək səviyyədə qorumasına bələdçilik etməklə yanaşı, bu gerçəkliyi də ortaya qoyur ki, ölkəmizdə dilindən, irqindən asılı olmayaraq, bütün vətəndaşlar eyni hüquqlara malikdir və bu hüquqlar müvafiq qanunlar əsasında qorunur. Ümummilli lider Azərbaycanın ən başlıca sərvətlərini qeyd edərkən qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən insanları xüsusi vurğulayırdı: "Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır. Azərbaycanlı sözü bizi həmişə birləşdirib". Bu gün Azərbaycanın tolerantlıq təcrübəsi digər ölkələrə nümunə göstərilirsə və öyrənilməsinin vacibliyi qeyd olunursa, bu, dövlətimizin uğurlu siyasətinin

göstəricisidir. Bu günün reallıqlarını düzgün dəyərləndirmək hər zaman keçilən yola nəzər salmağa, düzgün təhlillər aparmağa böyük zərurət yaradır. Məlum olduğu kimi, ötən əsrin sonlarında sovetlərin dağılması ilə yaranan reallıq dünya birliyi üçün yeni proses olsa da, çox sürətlə yayılan qlobal dəyişikliklər, iqtisadi, siyasi, sosial, demoqrafik sahələrdə olduğu kimi, dini dözümlülük ənənələrinin qorunması üçün də əsl sınağa çevrildi. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri ilə tarixən zəngin olan Azərbaycan bir çox millətlərin və dini konfessiyaların yanaşı yaşamasını təmin edən ölkə kimi nümunə göstərilir. Dövlət-din münasibətləri modeli çərçivəsində inkişaf edən Azərbaycanda bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir". Müasir dövrdə Azərbaycan Respublikasının multikulturalizm siyasətinin uğurla həyata keçirilməsi Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir. Bilirik ki, tarixən hər bir dövlətin qüdrətinin əsasında iqtisadi güc, siyasi nüfuz dayanır. Lakin ölkədə milli birlik, bunun əsasını təşkil edən humanitar problemlərin xalqın da qəbul etdiyi kimi həlli olmadan qüdrətli səviyyə gəlib çatması mümkün deyildir. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas lokomotivlərindəndir, onun da kökündə təbii ki, humanitar məsələlərin vaxtında, operativ həlli durur. Əgər humanitar məsələ və problemlər vaxtında və həm də beynəlxalq normalara uyğun həll olunmasa gec-tez ölkədə bu zəmində çox ciddi böhran yaşana bilər. Bu da öz növbəsində iqtisadi və siyasi proseslərə çox mənfi təsir göstərər. Bundan başqa hər bir insan müəyyən intellekt sahibidir. Ölkədə müxəlif dini, milli dəyərlərə məxsus insanların siyasi və hüquqi

bərabərliyinin təmin olunması, etnik azlıqların milli-mədəni inkişafına qanunla əsas yaradılması, cəmiyyətin də bu prosesə adi normal yaşayış qaydası kimi baxması ölkədə birliyin sarsılmazlığını təmin edir. Bu gün ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin düşünülmüş siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir. Dövlət başçısı Azərbaycanda multikulturalizmə münasibət barədə deyib: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir.

ƏDƏBİYYAT

1.Əliyev, H.Ə Müstəqilliyimiz əbədidir. 17 cilddə. VI cild, Bakı: Azərnəşr, 1997-2007, 800 s.

2.Əliyev, O Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Zahid, 2003, 246 s

3. Məqsədimiz Azərbaycanın hərtərəfli inkişafına, xalqın rifahının daim yüksəlməsinə nail olmaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Dirçəliş-XXI əsr. 2004, № 78-79, s. 21-25

4."Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru" mövzusunda dəyirmi masanın proqramı: 03 oktyabr 2014-cü il.- Bakı: 2014.- 44 s

Bölmə 1. Azərbaycançılıq və multikultural dəyərlər

Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti
t.ü.e.d.,prof.

KOMMUNİST REJİMİ DAXİLİNDƏ MİLLİ DƏYƏRLƏR UĞRUNDA MÜBARİZƏ (1950-1980-Cİ İLLƏR)

БОРЬБА ЗА НАЦИОНАЛЬНЫЕ ЦЕННОСТИ ВНУТРИ КОММУНИСТИЧЕСКОГО РЕЖИМА (1950-1980-ЫЕ ГОДЫ)

THE STRUGGLE FOR NATİONAL VALUES WİTHİN THE COMMUNİST REGİME (1950-1980S)

Açar sözlər: sovet rejimi, tarixin saxtalaşdırılması, tarixşünaslıq.

Ключевые слова: советская власть, фальсификация истории, историография.

Keywords: Soviet regime, falsification of the history, historiography,

Xülasə: Məqalədə Azərbaycan xalqının kommunist rejimi daxilində milli dəyərlərin qorunması uğrunda mübarizəsindən bəhs edir. Müəllif qeyd edir ki, sovet hakimiyyəti dövründə "xalqlar dostluğu", "sovet xalqının formalaşdırılması" pərdəsi altında aparılan ruslaşma siyətinə qarşı təkcə ziyalılar deyil, həmçinin Azərbaycanın kommunist rəhbərləri də daim mübarizə aparmışdır. Bu mübarizə Stalının ölümündən sonra, 1950-1960-cı illərdə yeni vüsət almışdı. Bu dövrdə Ziya Bünyadov, Mahmud İsmayılov, Süleyman Əliyarov, Bəxtiyar Vahabzadə kimi ziyalılarla yanaşı, İmam Mustafayev, Mirzə İbrahimov, Şıxəli Qurbanov, Heydər Əliyev kimi yüksək vəzifəli şəxslər də milli dəyərlər uğrunda mübarizədə fəal rol oynamışlar.

Резюме: в статье рассматривается борьба азербайджанского народа за защиту национальных ценностей в коммунистическом режиме. Автор отмечает, что не только интеллигенция, но и коммунистические лидеры Азербайджана всегда боролись против русификации народа

под видом «дружбы народов», «образования советских людей» в советский период. Эта борьба приобрела новое измерение в 1950-х и 1960-х годах после смерти Сталина. Наряду с интеллигенцией, такими как Зия Буньядов, Махмуд Исмайлов, Сулейман Алияров, Бахтияр Вахабзаде, высокопоставленные чиновники, такие как Имам Мустафаев, Мирза Ибрагимов, Шихали Гурбанов и Гейдар Алиев, также играли активную роль в борьбе за национальные ценности.

Abstract: The article deals with the struggle of the Azerbaijani people for the protection of national values within the communist regime. The author notes that not only the intelligentsia, but also the communist leaders of Azerbaijan, have always fought against the Russification of the people under the guise of "friendship of peoples", "the formation of Soviet people" during the Soviet period. This fight took on a new dimension in the 1950s and 1960s after Stalin's death. Along with intelligentsia such as Ziya Bunyadov, Mahmud Ismayilov, Suleyman Aliyarov, Bakhtiyar Vahabzade, high-ranking officials such as Imam Mustafayev, Mirza Ibrahimov, Shikhali Gurbanov and Heydar Aliyev also played an active role in the struggle for national values.

Azərbaycan xalqı kommunist rejiminin bütün mərhumiyyətlərinə baxmayaraq daim milli dəyərlərin qorunması uğrunda mübarizə aparmış, ğz varlığını qoruyub saxlamışdır. Sovet hakimiyyəti dövründə “xalqlar dostluğu”, “sovet xalqının formalaşdırılması” pərdəsi altında aparılan ruslaşma siyətinə qarşı təkcə ziyalılar deyil, həmçinin Azərbaycanın kommunist rəhbərləri də daim mübarizə aparmışdır. Bu mübarizə Stalının ölümündən sonra, 1950-1960-cı illərdə yeni vüsət almışdı. Bu dövrdə Ziya Bünyadov, Mahmud İsmayılov, Süleyman Əliyarov, Bəxtiyar Vahabzadə kimi ziyalılarla yanaşı, İmam Mustafayev,

Mirzə İbrahimov, Şıxəli Qurbanov kimi yüksək vəzifəli şəxslər də milli dəyərlər uğrunda mübarizədə fəal rol oynamışlar.

Təkpartiyalı siyasi sistemdə böyük səlahiyyətləri olan partiya rəhbərlərinin şəxsi keyfiyyətlərindən, iradələrindən, millətə bağlılığından çox şey asılı idi. 1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə yüksəlmiş İmam Mustafayev yaranmış şəraitdən istifadə edərək Azərbaycan xalqının vəziyyətini yaxşılaşdırmağa, ona qarşı əvvəllər edilmiş haqsızlıqları nisbətən aradan qaldırmağa, böyük aşınmalara məruz qalmış milli dəyərləri qoruyub saxlamağa və inkişaf etdirməyə müəyyən cəhdlər göstərmişdi. Məsələn, N.Xruşşovun beynəlmiləl şəhər olan, 50-ci illərdə azərbaycanlıların digər millətlərə nisbətən azlıq təşkil etdiyi böyük sənaye mərkəzi Bakının Azərbaycanın tərkibindən çıxarılıb müstəqil inzibati bölgü kimi birbaşa Moskvaya tabe etdirmək planı məhz İ.Mustafayevin apardığı gərgin fəaliyyət nəticəsində pozulmuşdur. Onun birbaşa rəhbərliyi ilə yeni açılmış iş yerlərinə Azərbaycanın kənd rayonlarından əhalinin cəlb edilməsi nəticəsində Bakının demoqrafik vəziyyəti dəyişmiş, 50-ci illərin əvvələrindən fərqli olaraq Bakıda azərbaycanlıların sayı artmış və bu proses sonrakı illərdə də davam etmişdir. (1,s.65-66)

İ.Mustafayev iqtisadiyyatın Mərkəzdən asılılığına son qoymaq istiqamətində bir sıra işlər həyata keçirmiş, pambıq istehsalı azaldılaraq əvəzində taxıl, kartof, tərəvəz, meyvə və digər məhsulların istehsalı artırılmışdır.

O zamanlar Moskvanın Bakının Qaradağ rayonu ərazisindən çıxan qazın Tiflis və Yerevana nəql olunmasına dair göstərişinə Azərbaycan rəhbərliyi etiraz etmişdir. Azərbaycan mütəxxəssisləri sübut etmişlər ki, bu qaz yataqları Gürcüstan və Ermənistanı təmin etmək gücünə malik deyil. Bu yataqlar yalnız Azərbaycanın ehtiyaclarını təmin etməyə sərf olunmalıdır. Bu

mövqe N.S. Xruşşov başda olmaqla Moskva rəhbərliyinin hiddətinə səbəb olmuşdur. Bu zaman Azərbaycan KP MK-nın şöbə müdiri erməni əsilli P.Aruşanovun Moskvaya Azərbaycan rəhbərliyinin əleyhinə gizli məlumatlar göndərməsi vəziyyəti daha da gərginləşdirirdi.

50-ci illərin sonlarında Azərbaycan dilinin statusu haqqında məsələ ictimai fikirdə mərkəzi yer tuturdu. Lakin sovet tarixşünaslığında bu sahədə Azərbaycanda gedən proseslər ümumiyyətlə işıqlandırılmayıb, əksinə rus dilinin təbliğinə daha çox fikir verilib.

İ.Mustafayevin təşəbbüsü ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına cəhd edilmiş və mətbuatda bu məsələnin açıq müzakirəsi təşkil olunmuşdur. Bu zaman Gürcüstan və Ermənistan istisna olmaqla heç bir müttəfiq respublikanın, hətta digər sosialist ölkələrinin əksəriyyətinin konstitusiyasında dil haqqında maddə yox idi. Azərbaycan rəhbərliyinin bu təşəbbüsü çox cəsarətli və riskli idi. Azərbaycan KP MK Bürosu 1956-cı il 2 iyul tarixli iclasında "Azərbaycan SSR Konstitusiyasına dövlət dili haqqında maddə əlavə edilməsi haqqında" qərar qəbul etmişdir. Azərbaycan KP MK Bürosunun qərarında qeyd olunurdu ki, "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir." Bu qərar İ. Mustafayevin imzası ilə 3 avqust 1956-cı il tarixində Ali Sovetə göndərilmişdi. Ali Sovetin sessiyası nəzərdə tutulduğu kimi avqustun 15-də deyil, 21-də çağrılmış və "Azərbaycan SSR Konstitusiyasına (Əsas qanuna) Azərbaycan SSR-in dövlət dili barəsində maddə əlavə edilməsi haqqında qanun" qəbul etmişdi. Konstitusiyanın yeni maddəsi Gürcüstan SSR və Ermənistan SSR konstitusiyalarının müvafiq maddəsindən tərcümə edilmişdir. (1, s.69-70)

Dövlət dili haqqında qanun qəbul edildikdən az sonra Mirzə İbrahimovun "Azərbaycan dili dövlət idarələrində" məqa-

ləsi (4, 26 oktyabr1956) dərc olunub. Məqalədə çarizmin simasında Rusiyanın müstəmləkəçi siyasəti ifşa edilir, milli zülmün, milli təzyiqin insanlığa zidd vəhşi bir hərəkət olduğu göstərilirdi.

Müəllif yazırdı: "Hakim" millətin, "böyük" millətin "məzlum" millətə, "kiçik" millətə göstərdiyi hər hansı təzyiq ancaq nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözləməyə məcbur edir… çarizm qeyri-rus xalqları ən kobud və vəhşi jandarm üsulu ilə əzir, həyasızcasına "ruslaşdırmaq" siyasəti aparırdı, milli mədəniyyətlərə və milli dillərə qarşı təcavüzkar hərəkət edirdi, hətta milli qırğınlar törətməkdən belə çəkinmirdi. Başqa xalqları əzib məhv etmək və imperiyanın daxilində "əritmək" məqsədilə çarizm ucqarları zorla rus köçmələrlə doldururdu. Çarizm bu vəhşi siyasəti ilə böyük rus xalqını bədnam edir, təbii olaraq imperiyanın əzilən xalqlarının ürəyində ona qarşı etimadsızlıq oyadırdı."

Məqalədə daha sonra deyilirdi: "Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da tamamilə cavabsız buraxan bürokratlar da tapılır." (4, 26 oktyabr1956)

Məqalədə çar Rusiyası haqqında deyilənlər milli məsələdə sovet siyasətinin gerçək tərəflərini ortaya qoyduğuna görə böyük mübahisəyə və respublika rəhbərliyinə qarşı Moskvanın hücumlarına səbəb oldu. Azərbaycan dilinin dövlət dili kimi təbliğinin güclənməsi mərkəzi hakimiyyətin ciddi müqaviməti ilə üzləşdi. Sonradan bu məsələ bir sıra şəxslərin, o cumlədən İ. Mustafayevin və M.İbrahimovun Azərbaycan rəhbərliyindən çıxarılmasında əsas səbəblərdən biri oldu. Sov.İKP katibi Mühitdinovun iştirakı ilə keçirilmiş Azərbaycan KP MK-nın plenumu (7 iyul 1959) İ.Mustafayevi tutduğu vəzifədən azad etdi.

Onun yerinə Vəli Yusif oğlu Axundov təyin olundu. O, 10 il (8 iyul 1959- 14 iyul 1969) Azərbaycana rəhbərlik edib.

1959-cu il mart ayının 25-də Azərbaycan SSR Ali Sovetinin sessiyasıda V.Axundov "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında" geniş məruzə ilə çıxış etmişdi. Ali Sovetin sessiyası "Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və Azərbaycan SSR-də xalq təhsilinin sonrakı inkişafı haqqında" qanunu qəbul etdi. Qanunun 11-ci maddəsi respublikanın rus məktəblərində Azərbaycan dilinin tədrisinin icbari xarakter daşıdığını təsbit edirdi.

Kommunist partiyasının göstərişi ilə 60-cı illərdə Zaqafqaziya xalqları Azərbaycanın Rusiyaynın tərkibinə daxil olmasının 150 illiyini bayram etdilər. 1959-cu ilin martında Tbilisidə keçirilən Zaqafqaziya respublikaları elmi idarələrinin ictimaiyyatşünaslarının birinci müşavirəsində Elmi Əlaqələndirmə Şurası yaradıldı. Həmin müşavirədə ictimai elmlər üzrə elmi tədqiqat işinin əlaqələndirilməsi sahəsində problem komissiyaları da təşkil olundu. Həmin ilin dekabrında Tbilisidə keçirilən Zaqafqaziya respublikalarının ictimai elmlər üzrə ikinci elmi əlaqələndirmə müşavirəsində "Zaqafqaziya zəhmət¬keşlərinin sosialist inqilabı uğrunda mübarizəsi", "Zaqafqa¬ziyanın Rusiyaya birləşməsinin mütərəqqi əhəmiyyəti", "Zaqafqaziya xalqlarının mədəni əlaqəsi", "Zaqafqaziya dağlıq rayon¬larının iqtisadiyyatı", "Əmək məhsuldarlığı və Zaqafqaziya kənd təsərrüfatında onun yüksəldilməsi" kimi mövzular müəyyən olunmuşdu.

"SSRİ Elmlər Akademiyası və müttəfiq respublikaların elmlər akademiyalarının fəaliyyətini yaxşılaşdırmaq üzrə tədbirlər haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1963-cü il 11 aprel tarixli qərarı Zaqafqaziya respublikalarının elmi idarələri arasında əlaqələrin daha da genişlənməsinə səbəb

oldu. 1963-cü ilin aprel-may aylarında Kirovabadda (indiki Gəncə) keçirilən Kirovabad, Kutaisi Pedaqoji İnstitutlarının və Yerevan Pedaqoji İnstitutunun Leninakan filialının birgə elmi konfransının materialları kitab şəklində çap edilmişdir. Məc¬muədəki materialların ictimai elmlərə dair birinci bölümündə məruzələrin çoxu Azərbaycan, erməni və gürcü xalqları ilə rus xalqının dostluğu tarixinə, yadelli işğalçılara, xarici müdaxiləçilərə, mütləqiyyət və kapital əsarətinə qarşı onların birgə mübarizəsinə, sosializm və kommunizm quruculuğu uğrunda mübarizədə Zaqafqaziya xalqlarının yeni forma və məzmunda zənginləşən, getdikcə daha da möhkəmlənən dostluğuna həsr olunmuşdur.

1964-cü ilin aprelində bu münasibətlə Bakı,Yerevan və Tbilisidə Zaqafqaziya elmi idarələrinin sessiyaları oldu. Respublikalarda keçirilən bu elmi sessiyalarda Zaqafqaziyanın Rusiyanın tərkibinə daxil olmasının bu regionun həyatında böyük rol oynadığı onun mütərəqqi əhəmiyyəti geniş qeyd edildi.Bu dövrdə ictimai elmlər sahəsində Zaqafqaziya respublikalarının əməkdaşlığı tarixi hadisələrin obyektiv tədqiqnə deyil, əksinə tarixin saxtalaşdırılmasına xidmət etmişdir. Fikrimizcə "Zaqafqaziyanın Rusiyaya birləşməsinin mütərəqqi əhə¬miyyəti" adlı mövzu, Azərbaycanın Rusiyaynın tərkibinə daxil olmasının 150 illiyinin bayram edilməsi kimi hadisələr Azərbaycanın 1813 və 1828-ci illərdə çar Rusiyası və 27 aprel 1920-ci ildə XI qırmızı bölşevik ordusu tərəfində işğalını pərdələmək məqsədilə edilmişdi. Buna görə də hətta bu mövzuların "Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi", "Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi" kimi yazılmasına belə Moskavadan icazə verilməmişdir. (2, s.279-280)

Ş.Qurbanov 1957-ci ildə Azərbaycan KP MK- nın ideologiya şöbəsininin müdiri vəzifəsində işləyərkən 3-cildlik "Azərbaycan tarixi" kitabının müzakirəsi gedirdi. Moskvadan

gəlmiş nümayəndə heyəti Azərbaycan tarixini Moskvanın istəyinə uyğun saxta şəkildə yazılmasına çalışırdı. Ş.Qurbanov öz çıxışında yenicə millətçi damğası üstündən götürülmüş N.Nərimanovdan sitatlar gətirməklə onlara "icazə verin biz öz tariximizi özümüz yazaq" kimi sərt cavab verib. Bu çıxış bəlkə də Ş.Qurbanovun Moskvanın qara siyahısına salınmasının əsas səbəblərindən biri olmuşdu. Onun prinsipial mövqeyi Moskvadan gələnlərin etirazına səbəb olmuş və onlar biz bunu belə qoymayacağıq deyərək iclası tərk etmişdilər.

Bu hadisələrdən sonra o, vəzifədən azad olunur və elmi fəaliyyətini davam etdirmək üçün Nizami adına Dil və Ədəbiyyat İnstitutunda ədəbi əlaqələr şöbəsinin müdiri kimi səmərəli fəaliyyət göstərir.

Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi kimi Ş.Qurbanov 1966-cı ildə SSRİ ilə münasibəti yaxşı olan bir neçə müsəlman ölkəsi rəhbərlərinə məktub yazaraq Novruzun dini bayram olub-olmaması barədə arayış vermələrini xahiş etmişdi. Həmin ölkələrdən Moskvaya cavab gəldikdən sonra Ş.Qurbanov Moskvaya çağırılır və o, 12 saat Kremlin kabinetlərinin birində oturaraq izahat yazmağa məcbur olur. Sov. İKP MK-nın yüksək vəzifəli şəxsi izahatı oxuduqdan sonra ona bildirir ki, "biz həqiqətən əmin olduq ki, Novruz dini bayram deyil. Sizi təbrik edirik." Bununla da Ş.Qurbanov Novruz bayramının keçirilməsinə Moskvadan rəsmi icazə alır. Bundan sonra məhz onun gərgin fəaliyyəti nəticəsində 1967-ci il martın 20-də Bakıda, kommunist rejimi dövründə ilk dəfə olaraq təntənəli surətdə Novruz bayramı keçirilmişdi.

Ş.Qurbanovun Novruz bayramın təntənəli şəkildə qeyd olunması barədə Moskvadan razılıq almasına baxmayaraq, tədbirdən dərhal sonra bu prosesin qarşısının alınması barədə gizli tapşırıqlar verilməyə başlandı.

Mayın 23-də iki gün əvvəldən sızıldayan dişini Azərbaycan KP Bakı şəhər təşkilatının katibi Qədirovun təkidi ilə müalicə etdirmək üçün həkimə getmiş, həkimin vurduğu iynədən 10 dəqiqə sonra o keçinmişdi. (2, s.293)

Milli dəyərlər uğrunda mübarizə sonrakı illərdə davam etmişdir. Ümumilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə, yəni 1969-1982-ci illərdə milli dəyərlərin qorunması sahəsində daha çox işlər görülmüşdü.

H.Əliyevin öz çıxışlarında Azərbaycan elm və ədəbiyyatının inkişafına, Azərbaycan ədəbi dilinin saflığının qorunub saxlanmasına aid dediyi fikirlər müasir dövrdə də aktual olaraq qalır. H.Əliyev qeyd edirdi ki, "dahi rus şairi M.Y.Lermontov Azərbaycanın tarixi ilə yaxından maraqlanmış və Azərbaycan dilini yüksək qiymətləndirmişdi. O, dostu Rayevskiyə yazmışdı: "Azərbaycan dilini öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə, Asiyada zəruridir".(3, 7 oktyabr 1972-ci il)

Digər çıxışında bu fikri davam edirərək demişdi: "Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol vermək olmaz. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər" [4, 13 iyun 1981].

Azərbaycan rəhbərliyinin milli dilin inkişafına göstərdiyi qayğısı öz nəticəsini verirdi. 1979-cu ildə Azərbaycan SSR-in əhalisinin 21,9%-i başqa millət və xalqlar təşkil edirdi ki, onların da 287 min nəfəri azərbaycan dilində sərbəst danışırdı [9,s. 314,336].

Yekun olaraq qeyd etmək lazımdır ki, sovet rejimi dövründə milli dəyərlər uğrunda mübarizə aparmış görkəmli

şəxsiyyətlərin əməyi yerdə qalmadı. Bu mübarizə 1988-1991-ci illərdə baş vermiş milli-azadlıq hərəkatı ilə davam etdirildi və nəticəsində Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa edərək Birləşmiş Millətlər Təşkilatı qarşısında öz üçrəgli bayrağını yüksəklərə qaldırdı.

ƏDƏBİYYAT

1. Azərbaycanı kimlər idarə edib? (may 1918-oktyabr 2003).Bakı, Qanun nəşriyyatı,2006, 135s.
2. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi-DƏSRLİK. Bakı "MEKAN SERVES NN" 2017, 486 s.
3. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, (Azərb. dilində)
4. "Kommunist" qəz., Bakı (Azərb. dilində)

İlqar RÜSTƏMOV
Azərbaycan jurnalistlər birliyinin üzvi,
"Xalq qəzeti"nin məsul katibi

MƏTBUAT AZADLIĞI AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİNİN MÜHİM AMİLLƏRİNİNDƏN BİRİ KİMİ

СВОБОДА ПРЕССЫ КАК ВАЖНЫЙ ФАКТОР МУЛЬТИКУЛЬТУРАЛЬНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ

FREEDOM OF PRESS AS AN IMPORTANT FACTOR OF MULTICULTURAL POLICY IN AZERBAIJAN

Açar sözlər: mətbuat, mətbuat azadlığı, multikulturalizm siyasəti

Ключевые слова: пресса, свобода прессы, мультикультурализм

Keywords: Press, freedom of the press, multiculturalism.

Xülasə: Məqalədə Azərbaycan mətbuatında azad mətbuatın problemləri və milli və mədəni çoxmədəniyyətli dəyərlərin formalaşması təhlil edilir.

Резюме:В статье анализируются проблемы свободной прессы и формирования национально-культурных мультикультурных ценностей в азербайджанской прессе.

Abstract: The article analyzes the problems of free press and the formation of national and cultural multicultural values in the Azerbaijani press..

Yaşı 135-i ötsə da Azərbaycan mətbuatının müstəqilliyinin və azadlığının ömrü elə də uzun deyil. 1991-ci ildə imperiya rejiminin əsarətindən qurtulub xalqımızın uzun illər həsrətində olduğu müstəqil dövlətçiliyimizə qərar veriləndə, insanların söz azadlığı haqqına, nə kommunist rejimindən qalan hakimiyyət, nə də azadlığı bütün nemətləri ilə vəd edib iqtidara yiyələnən "müstəqillik mücahidləri" hökm çıxarmağa tələsmədilər. Səbəb bəlli idi. Həmin illərdə milli azadlıq hərəkatının ən kəskin və güclü silahı söz idi. Sözü azadlığa buraxmaq, uğrunda vuruşduqları hakimiyyətə şərikin vətəndaşlıq hüququnu tanımaq kimi bir şey idi. Lakin xalqı, milləti və dövləti üçün azadlıq qazanmaq savaşında təcrübəsi olan mətbuat özünə azadlıq qazanmaq mübarizəsindən bir addım belə geri çəkilmədi. 1993-cü ildə azad, ancaq başı bəlalar içində olan müstəqil Azərbaycanda çevrilişlərin xronikası davam etməkdə ikən, ölkənin dövlətçiliyini qorumaq və xilas etmək kimi mühüm

vəzifə qarşıya çıxanda milli maraqları və mənafeyi üstün tutan milli mətbuat orqanları bu mübarizəni arxa plana keçirdilər. Təkcə postsovet məkanında deyil, bütün dünyada mahir və uzaqgörən siyasətçi kimi tanınan ümummilli lider Heydər Əliyevin xalqın təkid və tələbilə hakimiyyətə qayıdışı ölkədaxili çəkişmələrə, xaos və anarxiyaya son verdi. Bu isə az vaxt istəmədi. Azərbaycanda güclü dövlətçiliyin olmasını istəməyən qüvvələr bütün vasitələrlə quruculuq prosesinə mane olmağa çalışırdılar. Etiraf etmək lazımdır ki, bu məqamlarda dağıdıcı qüvvələrin maraqlarına uyğun fəaliyyət göstərən mətbu orqanlar da az deyildi. Lakin milli mənafeyi və milli maraqları üstün tutan kütləvi informasiya vasitələri bu məqamlarda üzərlərinə düşən məsuliyyəti dərk edir və ən doğru yolu — xalqa səhih, düzgün və qərəzsiz informasiya verməyə çalışırdılar. Qeyd etməliyik ki, mətbuat azadlığı syasətinin multikulturalizm prosesində rolunu əsaslandırmaq üçün ilk növbədə bu məvhumun əhatə dairəsini müəyyənləşdirərək o sərhəd daxilində nələrin olduğunu aydınlaşdırmağa, muqayisəli təhlillər apararaq dövlətin multikulturalizm siyasəti məsələlərini problem kimi araşdırmağa çalışmalıyıq. Həmin məsələləri zəruri edən amillərdən biri də Azərbaycanda yaşayan azxsaylı xalqların yaşamalarıdır. Bu bəşəri bir nemətdir və hətta xalqların yaradılmasının çeşidliliyinin Tanrının xidmətinin olduğu müqəddəs Qurani-Kərimdə də əksini tapmışdır. Ayələrin birində deylir:"Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq."[4;49;13]. Millət və azsaylı xalqlar məsələsinə gəldikdə isə deyə bilərik ki, millətin dövləti, dili, ərazisi, dini, psixologiyası, iqtisadi birliyi,mədəniyyət ümumiliyi olmalıdır.

Tarixən özünün multikultural dəyərləri və tolerantlığı ilə seçilən Azərbaycanda siyasi gərginliyin zaman-zaman sabitliklə əvəz olunmasına baxmayaraq, yəni seperatçıların Şimalda

Ləzgistan, cənubda isə Talış Muğan respublikalarının yaradılmasına cəhdlərin olduğu bir dövrdə ölkə iqtidarı artıq eyni vaxtda üç mühüm vəzifəni yerinə yetirmək zəruriyyəti qarşısında qalmışdı: dövlətçiliyi qurmaq, demokratik institutları yaratmaq və bazar iqtisadiyyatını formalaşdırmaq. İnkişaf etmiş ölkələrdə buna bir neçə onilliklərdən iki yüzilliyə qədər vaxt sərf olunmuşdur. Azərbaycana isə qısa vaxtda daha böyük işlər görmək lazım gələcəkdi. Bütün bu proseslərin sonluğunun uğurla bitəcəyini proqnozlaşdıran ulu öndər Heydər Əliyev Azərbaycanın əzəli multikultural dəyərlərini böyük həssaslıqla daima diqqətdə saxlayır və müxtəlif siyasi gedişlərlərlə bunu ustalıqla nizamlayırdı. Təbii ki, minilliklərdən bu günə yol gəlib formalaşan milli-mənəvi dəyərlərin, multikulturalizmin aşınmaya məruz qalmasının qarşısının alınması üçün O, dərhal zəruri vasitələrdən istifadə etməyə başladı. Çünki, bir sıra mühüm sənədlərin qəbul edilməsi ləngisəydi ölkəni separatizm hərəkatı bürüyər və Azərbaycanın bütövlüyü pozular, parçalana bilərdi. Belə olan halda müstəqillikdən danışmaq belə mümkün olmazdı. Ona görə də vacib addımlardan biri kimi mətbuat azadlığına, ümumilikdə kütləvi informasiya vasitələrini tənzimləyən mühüm bir qanunun qəbuluna ciddi ehtiyac var idi. Bu məqsədlə milli lider Heydər Əliyevin rəhbərliyi ilə ilk növbədə müstəqil ölkənin Konstitusiyasının hazırlanmasına başlanıldı.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə "Azərbaycan Respublikasının ilk milli Konstitusiyası"[1;] qəbul edildi və müstəqil dövlətimizin bu ali sənədi ölkəmizdə demokratik quruluşa və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə təminat verməklə, "hər kəsin fikir və söz azadlığını, məlumat azadlığını və kütləvi informasiya azadlığını" [1;] da rəsmən bəyan etdi. Bununla da cəmiyyətin, kütləvi informasiya vasitələrinin hər hansı hakimiyyətdən və şəxsiyyətdən asılılığı aradan qalxdı. Çünki, Konstitusiyamızın mühüm cəhətlərindən

biri ondan ibarətdir ki, digər qanunvericilik aktlarına münasibətdə, Konstitusiya normaları, onların aliliyi birbaşa təsir gücünə malikdir. Nə qədər qəribə olsa da bu, Azərbaycan mətbuatının yalnız hüquqi müstəvidə qazandığı azadlıq idi və senzura ləğv olunmayana qədər, söz azadlığının hər hansı formada bərqərar olmasına kimsəni inandırmaq mümkün deyildi. Ulu öndər yaxşı bilirdi ki, Azərbaycan demokratik ölkə anlamına dövlət başçısının demokratik şəxs olması ilə gəlmir. Ölkənin demokratik quruluşunu, cəmiyyətin demokratik dəyərlərə söykənərək yaşamasını qanunların demokratiya üçün verdiyi imkanlar müəyyənləşdirir. Milli Konstitusiyamızın qəbulundan üç il sonra — 1998-ci il avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında"[2] fərmanı söz və mətbuat azadlığını rəsmən pasportlaşdırdı. Bu, insanların Azərbaycan respublikasında əzəli haqqının tanınması ilə yanaşı, həm də azad mətbuatın qarşısındakı geniş imkanlara bir qapı açdı.

Nəzərə alsaq ki, araşdırmağa çalışdığımız mətbuat azadlığı siyasəti multikulturalizmin inkişafının mühüm amillərindən biridir mövzusu problem müstəvisindədir, o zaman təkrarən fikrimizi Az.Res. Konstitusiyasına yönəltməyi vacib sayırıq. Əvvəla qeyd etmək lazımdır ki, Azərbaycan dövləti müstəqilliyin Heydər Əliyev mərjhələsindən başlayaraq milli azlıqların hüquqlarının qorunması üzrə multikulturalizm siyasətini ardıcıl şəkildə davam etdirir. Qanunvericiliyin bəzi müddəalarının təyinat istiqamətlərinə diqqət yetirməklə problemə aydınlıq gətirməyə çalışaq. Məsələn, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası[1;]nda yazılır ki, mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörməti təmin edir. Azərbaycan Respublikasının suverenliyi haqqında Konstitusiya aktı

Azərbaycan Respublikasının bütün vətəndaşlarının Qanun qarşısında bərabər olduğunu təsdiq edir. Digər bir müddəanın təyinatında isə bildirilir ki, yəni, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi[1;]nə əsasən, "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən və mənşəyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir"[1;25]. Həmin maddənin təyinatının davamı kimi eyni zamanda vurğulanır ki, "İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır"[1;25]. Tədqiq etməyə çalışdığımız problemlə bağlı bir amil də konkret olaraq Azərbaycan Respublikasının Konstitusiyası[1;]nın 44-cü maddəsində əksini tapmışdır. Yəni, Konstitusiyanın bu maddəsinə əsasən, «hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz [1;44] təyinatı özünün təsdiqini tapmışdır.

Göründüyü kimi, Azərbaycan qanunvericiliyi multikulturalizm siyasətini tam şəkildə özündə ehtiva edir. Bütün Azərbaycan vətəndaşlarına məxsus bütün hüquqlar eyni zamanda heç bir fərq qoyulmadan milli azlıqlara da şamil edilir. Zənnimizcə, mətbuat azadlığı, ümumilikdə kütləvi informasiya vasitələrinə bu şəkildə azadlığın verilməsi multikultural dəyərlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərdi ki, azərbaycanda informasiya siyasəti ardıcıl olaraq davam etdirilir və bu, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Çünki, ulu öndər Heydər Əliyevin çıxışlarında və məruzələrində də həmin məsələ tez-tez vurğulanır. Məsələn, Azərbaycan milli mətbuatının 125 illiyində ümummilli lider Heydər Əliyev jurnalistlərlə görüşündə, verdiyi qərarların məramını açıqlayaraq deyir: "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq verməkdir. Söz

azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir... Sözlər deyil, bu mənim geniş siyasətimin bir hissəsidir".

Həmin fikrin təsdiqi kimi, çox az bir zamanda bu siyasətin davamı özünü "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu[3;]nun qəbul edilməsi ilə göstərdi. Təbii ki, bu qanun artıq ölkədə demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına və formalaşmasına təsir göstərən qanunlardan oldu. Burada artıq mətbuat azadlığı və jurnalistlərin öz mövqeyini qorumaq hüququ çox dəqiq əksini tapır. Digər tərəfdən "KİV haqqında" Qanun[3;] artıq başqa hüquq və azadlıqlardan asılı olmayaraq, mətbuat azadlığının hüquqi mexanizmini yaratdı. Bu da redaksiyalara və jurnalistlərə müstəqil peşəkar fəaliyyət üçün geniş imkanlar açdı. 1999-cu il dekabrın 7-də məhz bu Qanun qəbul edildikdən sonra Azərbaycanda xüsusilə mətbu nəşrlərin sayı sürətlə artmağa başladı. Təbii, bura XX əsrin sonu və XXI əsrin əvvəllərində KİV-in maddi-texniki bazasının gücləndirilməsi, söz, fikir və mətbuat azadlığının imkanlarını genişləndirmək üçün dövlət başçısının verdiyi sərəncam və fərmanları da əlavə etsək, bütövlükdə mətbu nəşrlərin artımının səbəbi daha aydın görünər.

Şübhə yoxdur ki, Azərbaycanda KİV-in inkişafı və formalaşması bütövlükdə dövlət sisteminin demokratikləşməsi və plüralizmləşməsi ilə yanaşı getmişdir. Nahaq deyil ki, bu gün informasiya baxımından Azərbaycan regionun ən açıq ölkələrindən sayılır. KİV sürətlə inkişaf edir, kommunikasiya proseslərinin intensivliyi artır. Masmedia insan və cəmiyyət həyatında daha böyük əhəmiyyət daşıyır, sosial proseslərə və eləcə də insan həyatına fəal təsir göstərməyə başlayır ki, bu da eyni zamanda multikulturalizm siyasətinin daha yaxşı formalaşmasına önəmli şəkildə kömək edir.

Azad mətbuatın təsir imkanları istər-istəməz informasiya çatdırmaqdan daha çox sosial nəzarət sisteminə çevrilir. Bu günün gerçəkliyi ondan ibarətdir ki, kütləvi mətbuat orqanları müxalifətin də, hökumətin də, ayrı-ayrı yüksək çinli məmurların da fəaliyyətləri haqqında kifayət qədər tənqidi materiallar dərc edirlər. Ulu öndər azad Azərbaycan mətbuatını perspektivdə məhz belə görmək arzusunda idi: "Mətbuat, ya müstəqil mətbuat, yaxud da müxalifət mətbuatı, təbiidir ki, cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir".

Ulu öndər Heydər Əliyevin bu qiymətli fikirlərində fəlsəfi dəyərlər açıq şəkildə görünür. Biz jurnalistlərə isə həqiqət hissini, məşhur rus filosofu İvan İlinin təbirincə desək, — "göz bəbəyi kimi qorumaq lazımdır. Özümüzdən və insanlardan həqiqət hüququmuzun olduğunu tələb etməliyik, yoxsa həqiqət hissi olmadan biz yalançını tanımarıq, həqiqətə hüquqsuz isə biz istənilən haqqı, istənilən əqidəni, hər hansı sübutu və həyatda nə varsa hamısını məhv edərik" yanaşmasına əməl etmək qalır. Araşdırmamızın yekunu olaraq belə bir qənaətə gəlmək olar ki, məhz dövlətimizin düşünülmüş azad mətbuat, multikulturalizm siyasətinin nüvəsini insan hüquqlarının qorunması, şəxsiyyətin toxunulmazlığı və bu yönümdə məsələlərin ölkə qanunvericiliyi ilə tənzimlənməsinin nəticəsidir ki, Azərbaycan ümumən tolerant bir dövlət kimi dünyaya nümunə ola bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Konstitusiyası". 12 noyabr 1995-ci il

2. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman. 1998-ci il 6 avqust

3. Azərbaycan Respublikasının "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanunu. 1999-cu il 7 dekabr.
4. Bünyadov Z., Məmmədəliyev V. "Qurani-Kərimin Məalı", Əl Hucurad S.49;13., Bakı şəhəri, İpək Yolu nəşriyyatı, 2007.

Səbinə BABAYEVA
Azərbycan Turizm və Menecment Universiteti

MULTİKULTURAL TƏHSİLİN ƏHƏMİYYƏTİ

ВАЖНОСТЬ МУЛЬТИКУЛЬТУРАЛЬНОГО ОБРАЗОВАНИЯ

THE IMPORTANCE OF MULTICULTURAL EDUCATION

Açar sözlər: multikulturalizm, multikultural təhsil, tolerant, etnik azlıq, cəmiyyət.
Ключевые слова: мультикультурализм, мультикультурное образование, толерантность, этническое меньшинство, общество.
Keywords: multiculturalism, multicultural education, tolerant, ethnic minority, society.

Xülasə: Multikultural təhsil, müxtəlif sənədlərdə qəbul edilən azadlıq, ədalət, bərabərlik və insan ləyaqəti idealları üzərində qurulmuş fəlsəfi bir anlayışdır. Multikultural təhsil bütün tələbələr üçün ən yüksək səviyyədə akademik nailiyyətlərin təmin edilməsi üçün təhsil təcrübələrinin, siyasətinin və təşkilatının bütün aspektlərinə təsir edən bir prosesdir. Bu təhsil forması tələbələrə tarix, mədəniyyət və müxtəlif qrupların yaşam tərzləri ilə bağlı məlumat verərək, öz

fikirlərini müsbət inkişaf etdirməyə kömək edir. Beləliklə, məktəb kurikulumu birbaşa irqçilik, cinsiyətçilik, klassisizm, linqvistik, yaşçılıq, heteroseksiya, dini dözümsüzlük və s. bu kimi məsələlərə birbaşa müraciət etməlidir. Multikultural təhsil tələbələri və onların həyat tarixçələrini, təcrübələrini tədris və təlim prosesinin mərkəzində yerləşdirməli və bu pedaqogika tələbələrin bir çox düşüncə tərzinə toxunan bir kontekstdə meydana gəlməsi inancını müdafiə edir. Bundan əlavə, müəllimlər və tələbələr öz cəmiyyətlərində ətrafın və yaşadıqları mühitin təzyiq və güc əlaqələrini tənqidi şəkildə təhlil etməlidirlər. Bu məqsədlərə nail olmaq üçün multikultural təhsil, mədəni cəhətdən yetkin olan və ən irqçi, mədəni və linqvistik cəhətdən fərqli bir məktəb heyətini tələb edir. Kadrlar hərtərəfli savadlı, çoxçeşidli perspektivləri, təcrübələri və demokratiyanı dəstəkləyən bir mühit yaratmaq üçün ailələri və icmaları əhatə etmək bacarığı olmalıdır.

Резюме: Мультикультурное образование - это философская концепция, основанная на идеалах свободы, справедливости, равенства, справедливости и человеческого достоинства, которые отражены в различных документах. Мультикультурное образование - это процесс, который пронизывает все аспекты школьной практики, политики и организации как средство обеспечения наивысшего уровня успеваемости для всех учащихся. Он помогает студентам развить позитивную самооценку, предоставляя знания об истории, культуре и вкладе различных групп. Он подготавливает всех студентов к активной работе по достижению структурного равенства в организациях и учреждениях, предоставляя знания, расположение и навыки для перераспределения власти и доходов между различными группами. Таким образом, школьная программа должна непосредственно затрагивать проблемы расизма, сексизма,

классизма, лингвизма, аблизма, эйджизма, гетеросексуализма, религиозной нетерпимости. Мультикультурное образование отстаивает веру в то, что студенты и их жизненные истории и опыт должны быть в центре процесса преподавания и обучения, и что педагогика должна происходить в контексте, который знаком студентам и который затрагивает различные способы мышления. Кроме того, учителя и ученики должны критически анализировать угнетение и отношения власти в своих сообществах, обществе и мире. Для достижения этих целей поликультурное образование требует от школьного персонала, обладающего культурной компетентностью и в максимально возможной степени расового, культурного и лингвистического разнообразия. Персонал должен быть грамотным в разных культурах и иметь возможность вовлекать и охватывать семьи и общины, чтобы создать среду, способствующую многоплановости, опыту и демократии.

Abstract:: Multicultural education is a philosophical concept built on the ideals of freedom, justice, equality, equity, and human dignity as acknowledged in various documents. Multicultural education is a process that permeates all aspects of school practices, policies and organization as a means to ensure the highest levels of academic achievement for all students. It helps students develop a positive self-concept by providing knowledge about the histories, cultures, and contributions of diverse groups. It prepares all students to work actively toward structural equality in organizations and institutions by providing the knowledge, dispositions, and skills for the redistribution of power and income among diverse groups. Thus, school curriculum must directly address issues of racism, sexism, classism, linguicism, ablism, ageism, heterosexism, religious

intolerance. Multicultural education advocates the belief that students and their life histories and experiences should be placed at the center of the teaching and learning process and that pedagogy should occur in a context that is familiar to students and that addresses multiple ways of thinking. In addition, teachers and students must critically analyze oppression and power relations in their communities, society and the world. To accomplish these goals, multicultural education demands a school staff that is culturally competent, and to the greatest extent possible racially, culturally, and linguistically diverse. Staff must be multiculturally literate and capable of including and embracing families and communities to create an environment that is supportive of multiple perspectives, experiences, and democracy.

Multikultural təhsil, tələbələrin sürətlə dəyişən demoqrafik göstəriciləri ilə yaranan bir çox məsələlərə cavab verən, müəllimlərə yardım etmək üçün hazırlanmış bir təhsil strategiyasıdır. Burada tələbələrə müxtəlif etnik qrupların tarixi, mədəniyyəti, adət ənənələri və fəaliyyətləri haqqında məlumat verilir. Eyni zamanda gələcək cəmiyyətin plüralist olduğunu hesab edir. Bu sahə etnik araşdırmalar və qadın tədqiqatları da daxil olmaqla bir sıra müxtəlif sahələrdən misallar çəkərək müvafiq akademik fənlərin məzmunu qarşılıqlı surətdə təhlil edir. Bu, tədrisin bir yolu kimi qəbul edilərək müxtəliflik, demokratiya, bacarıq əldə etmə, araşdırma, tənqidi fikir, perspektiv dəyərləri və özünü əks etdirən prinsipləri dəstəkləyir. Bu tədris metodu immiqrantlar arasında təhsil effektinin artırılmasında təsirli olduğu və bununla da məktəblərin yeni islahatlar keçirilməsinə şərait yaradır [3].

İrq münasibətlərinin inkişafı əsasən, Birləşmiş Ştatlarda, İngiltərədə, Avstraliyada və digər ölkələrdəki mülki hüquqlar hərəkatından sonra yaranmış olsa da, cəmiyyətdə və məktəblərdə bərabərlik ikinci dünya müharibəsindən sonra oldu. Bu geniş

sahəyə - uşaq, gənc və yaşlılar, eyni zamanda etnik mənsubiyyət, mədəniyyət, sinif, cins, əlillər, dil, cinsi azlıqlar və dini kimi xüsusiyyətlər daxildir. Göstərilən qaynaqlar əsaslı və konseptual araşdırma və müasir analizlərdən ibarətdir. Multikulturalizm və multikultural təhsil şərtlərinin istifadəsi ilə bağlı mübahisələr mövcuddur. Bəzi alimlər deyirlər ki, ifadələr tarixlidir və əvəz edilməlidir. Bu, daha əhatəli və təbiətdəki ümumi mənbələrdir; Beləliklə, şərtlər zamanla dəyişdi. Məsələn, 1970-ci illərdə bu sahə "multietnik təhsil" olaraq təyin olunmuşdu. Təhsil sahəsi daha əhatəli olanda, o " multietnik təhsil" dən "multikulturalizmə" qədər dəyişdi [6].

XX əsrin əvvəlindən etibarən mədəni müxtəliflik və ya mədəni və linqvistik müxtəliflik kimi ifadələrin istifadəsinə yönəldilmiş bir ifadə olmuşdur. Bu biblioqrafiyanın məqsədi üçün tələbə şəxsiyyətinin inkişafı, bilik, dil inkişafı, öyrənmə prosesi, tədris metodları və təhsil siyasəti kontekstində multikulturalizmə aid olan resursları təqdim edirik. Bu, uşaqların və tələbələrin yetişməsini, nəzəri çərçivələrin təsvirlərini, konseptual modellərin müayinəsini və mədəni cəhətdən müvafiq məzmunun təqdimatını əks etdirən istinadları əhatə edəcəkdir.

1. Multikultural təhsilin aşağıda göstərilən beş ölçüsü vardır

(1) məzmun inteqrasiyası; (2) bilik quruculuğu prosesi; (3) önyargının azalması; (4) ədalətli pedaqogika; və (5) gücləndirən məktəb mədəniyyəti və sosial struktur.

2. Müxtəlif mədəniyyətli təhsilin vacibliyi nədir?

Multikultural təhsil insanları tanıyır, qəbul edir, fərqləndirir. Multikultural təhsil, müəllimlərin şəxsi, mədəni və etnik kimliklə əlaqəli olmasına kömək edir və eyni zamanda tələbələrə öz mədəniyyəti və etnikliyi baxımından auditoriyaya, olduqları cəmiyyətə uyğunlaşmalarını təmin edir.

3. Multikultural təhsilin mənası nədir?

Multikultural təhsil, müxtəlif mədəni mənşələrdən olan insanların tarixlərini, folklorlarını, dəyərlərini, inanclarını və gələcək planlarını birləşdirən hər hansı bir təhsil və tədris formasıdır.

4. Multikulturalizmin üstünlükləri hansılardır?

Multikulturalizmin üstünlüyü, mədəniyyətimizi zənginləşdirməkdir. O yeni anlayışlar və yeni fikirlər gətirir. Çox mədəniyyətli bir cəmiyyətdə yaşamağın bir çox üstünlükləri var. Multikultural bir cəmiyyətdə yaşamağın üstünlükləri digər mədəniyyətlər üzərində daha dərin, geniş və açıq fikir yaradır [6].

Auditoriyalarda multikultural təhsilin üstünlükləri və çatışmazlıqları...

Multikultural təhsilin bir çox faydaları var. Amerika multietnik bir dövlətdir və burada fərqli mədəniyyətləri və mədəni kökləri olan bir çox tələbələr təhsil almaqdadır. Multikultural təhsilə diqqət yetirsək "ön mühakimə və irqçiliyi ortadan qaldırmağa kömək edə bilər", "eyni zamanda fərqli irqləri bir araya gətirir", "müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqə qurur", "iki qrup arasında tolerantlıq yaradır" və "mədəni maneələri ortadan qaldırır" kimi məsələləri görmüş olarıq (Daniel, 2011) [7]. Müxtəlif irqləri və mədəniyyətləri başa düşmək baş verəcək narahatçılıqları və mədəni anlaşılmazlıqları azaltmağa kömək edə bilər. Məktəblər, ali təhsil müəssisələri daxilində multikulturalizmin tədrisinin bu faydaları ilə razıyam. Bir addım daha atmaq üçün, biz qlobal iqtisadiyyatda rəqabət qabiliyyətinə görə gələcəklə əlaqədar narahatlıq duyuruq. İnanıram ki, əgər tələbələrimiz müxtəlif mədəniyyətlər haqqında öyrədilərsə və fərqli mədəniyyətlər tədris sistemimizdə qəbul edilərsə və tədris edilərsə, bu tələbələrə qloballaşmanın güclü və zəif cəhətlərini daha yaxşı başa düşməyə kömək edə bilər.

Multikultural təhsilin müsbət və mənfi cəhətləri

Multikultural təhsil, 1970-ci illərin əvvəllərində, vətəndaş cəmiyyəti hərəkatının təhsil sistemindəki dəyişiklik təşəbbüsünü nəzərə alaraq diqqət mərkəzinə keçdi. Məqsəd, tələbə və müəllimlərə mədəni müxtəlifliyi dəstəkləmək, qiymətləndirmək və anlamaqda kömək etməkdir. Multikultural təhsilə sahib olan tələbələr tez-tez müxtəlif sinif və ya iş yerlərində işləmək üçün daha yaxşı təchiz olunmuşdur və güclü ictimai məlumatlandırmaya malikdirlər. Çatışmazlıqlara-tələbələr və müəllimlərin çoxmədəniyyətli, anti-ayrıseçkilik sinifdə mövcud təkmilləşdirmə prosesini asanlaşdırmaq üçün təlim almadığı zaman narazılıq və təcridolnma daxildir [8].

Üstünlük: Bərabər təhsil imkanları

Multikultural təhsil, bütün irq və etnik mənşələri bir qırağa qoyaraq tələbələr üçün bərabər təhsil imkanları təklif edir. Bu, mədəni fərqliliklərə hörmət və minnətdarlığı təşviq etməklə müxtəlifliyə həvəsləndirir və tələbələrə ictimai ədalətsizlikləri, məsələn, qərəzlilik,ayrı-seçkilik kimi münasibətlərlə mübarizə aparır. Çox mədəniyyətli bir təhsil, stereotipləri aradan qaldırmağa və əməkdaşlıq və bərabərliyə həvəsləndirir. Müəllimlər Louise Derman-Sparks və Patricia Ramseyin "All Kids Are White" adlı kitabında verdiyi məlumata əsasən "Multikultural təhsil ilə tələbələr dərilərinin rəngini deyil, onların maraqlarına, qabiliyyətlərinə, ailə dəyərlərinə və mədəni köklərinə əsaslanan güclü şəxsiyyətləri inkişaf etdirir" [8].

Çox mədəniyyətli təhsilə dəstək verən müəllimlər əsasən ağ Anglo-Saxon şəxsiyyətinə diqqət yetirən dərsliklərdən çəkinmirlər və daha geniş mədəniyyətlər və tarixi kökləri əhatə edən dərsliklər və əlavə materiallar üçün seçim edirlər. Bu çoxtərəfli yanaşma, Minnesota ştatının Gustavus Adolphus Kollecində Beynəlxalq və Mədəniyyət Təhsili Mərkəzinin direktoru Carolyn O'Grady tərəfindən hazırlanmış bir kitaba

əsasən, məlumatlı, əhatəli, cəmiyyətə yönəlmiş və şəfqətli olan tələbələr və işçilər çıxarır.

Güclü inzibati dəstək olmadan, çoxmədəniyyətli cəhdləri dəstəkləyən və təşviq edən bir çox tədris proqramı və məktəb siyasəti olmadan, bəzi tələbələr yadlaşa bilərlər. Mədəni fərqliliklərinə hörmət qazanmaq və onları bölüşmək və təcrübə etmək imkanı əldə etmək əvəzinə, onlar nəhəng bir "əridən qazan" kimi qarışmaq məcburiyyətində qaldıqlarını hiss edə bilərlər. Digər məktəblər mövcud məktəb ənənələrində dəyişikliklər edə bilərlər və multikulturalizmin inkişafı üçün nəzərdə tutulmuş akademik tələbləri yenidən nəzərdən keçirə bilərlər. Bunu, Carbondale-də Cənubi İllinois Universitetinin Təhsil və İnsan Xidmətləri fakültəsinin dekanı Keith Wilson'ı təklif edir [5].

Bəzi müəllimlər öz dərslərinin bir hissəsini itirməməli və ya daha geniş mədəni və tarixi perspektivləri yerləşdirmək üçün yenidən qurmalıdırlar. Beləliklə, onların dərsləri daha möhkəm və daha ümumiləşdirilmiş olur. Misal üçün, bir nitq mədəniyyəti fənnini tədris edən bir müəllimin müzakirə üçün vaxtı yalnız William Shakespearenin əsərlərindən birini və ya Robert Frostun şeirlərindən birini, Çin, Almaniya, Meksika və ya Fransa kimi digər ölkələrin yazıçılarının digər ədəbi əsərlərinə verə bilər. Tələbələr daha geniş bir məlumat bazası əldə edə bilər, ancaq xüsusi detalları və sesifik sahələr haqqında daha az məlumat əldə etmiş olacaqlar. Bu misalda ümumiləşdirilmiş bir yanaşma yalnız o tələbələrə aid edilir ki hansı ki kollecdə və ya orta məktəbdə İngilis ədəbiyyatı üzrə müəllim olmaq istəyir.

ƏDƏBİYYAT

1. https://en.wikipedia.org/wiki/Multicultural_education
2. https://www.edglossary.org/multicultural-education/

3. Bennett, C. (1995). Comprehensive multicultural education: Theory and practice (3rd ed.). Massachusetts: Allen & Bacon.
4. https://www.academia.edu/Documents/in/Multicultural_Education
5. From ―The Importance of Multicultural Education,‖ by G. Gay, 2004, *Educational Leadership, 61(*4), pp. 30–35. Copyright 2004 by ASCD. Reprinted with permission.
6. Daniel, H., (2011, May 13). *Benefits of multicultural education.* Retrieved from http://benefitof.net/benefits-of-multicultural-education/
7. Mitchell, S., (2011, May 10). *The disadvantages of teaching in a multicultural classroom*. Retrieved from http://www.ehow.com/info_8394471_disadvantages-teaching-multicultural-classroom.html

Odər HÜSEYNLİ
Azərbaycan Turizm və Menecment Universiteti

ETNİK MÜNAQİŞƏLƏRƏ NƏZƏRİ YANAŞMALAR

THEORETICAL APPROACHES TO ETHNIC CONFLICTS

ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К ЭТНИЧЕСКИМ КОНФЛИКТАМ

Açar sözlər: Etnik münaqişələr, etnosiyasi nəzəriyyələr, etnik münaqişələrin xarakteristikası

Ключевые слова: Этнические конфликты, этнические теории, характеристика этнических конфликтов

Keywords: Ethnic conflicts, Ethnic theories, Characteristics of ethnic conflicts

Xülasə: Siyasi münaqişələrin və ümumiyyətlə, zorakılığın səbəblərini izah etmək üçün problemlə əlaqədar bir sıra nəzəriyyələr diqqətə çatdırılmalıdır. Qeyd etmək lazımdır ki, etnik münaqişələrin özünəməxsusluğundan irəli gələrək onun səbəb və nəticələri haqqında əhatəli və ümumi qəbul olunmuş nəzəriyyələr yoxdur. Yalnız etnik münaqişələrin ayrı-ayrı aspektlərini izah etməyə çalışan hipotez və yanaşmalar irəli sürülür.

Резюме: Чтобы объяснить политические проблемы и причины насилия, необходимо принять во внимание ряд теорий. Следует отметить, что этнические конфликты не имеют всеобъемлющих и общепринятых теорий о его причинах и последствиях. Только гипотезы и подходы пытаются объяснить отдельные аспекты этнических проблем.

Abstract: In order to explain the political problems and the causes of violence, a number of theories should be taken into account. It should be noted that ethnic conflicts do not have comprehensive and generally accepted theories about its causes and consequences. Only hypotheses and approaches are tried to explain the individual aspects of ethnic problems.

Etnik münaqişələrin səbəblərini izah etmək üçün ilk növbədə etnik qrupların necə və nə üçün səfərbər olduğunu müəyyən etmək lazımdır. Yeni nəzəriyyələr adətən, yeni siyasi hadisələrin izahını verməyə çalışır. Etnosiyasi nəzəriyyələr əsasən XX əsrin 70- ci illərində ortaya çıxdı. Vaşinqton universitetin professoru Maykl Heçterin irəli sürdüyü "daxili müstəmləkəçilik" [4] nəzəriyyəsi geniş yayılmağa başladı. Bu nəzəriyyəyə əsasən daxili müstəmləkəçiliyin nəticəsində eyni ölkədə zəngin və yoxsul regionlar formalaşır. M.Hetçer əsərində

bu nəzəriyyənin vasitəsi ilə İngiltərə, Şotlandiya, Uels və İrlandiya arasında münasibətlərin mahiyyətini açıqlayır.

Kolumbiya universitetinin professoru C.Rotşild əsərində modernləşdirmə zamanı milli azlıqların liderlərinin siyasiləşməsi, bununla da, bütün sosial qrupun siyasiləşməsi prosesinin baş verdiyi fikrini irəli sürür. Tədqiqatçı yazır : "Etnik qrupun məqsədi cəmiyyətdə mövcud olan etnik qrupların qeyri-bərabərliyini dəyişdirmək və ya sabitləşdirmək olduqda, etnikliyin psixoloji, mədəni, sosial-iqtisadi amildən siyasi qüvvəyə çevrilməsi prosesi baş verir. Etnosiyasi münaqişə etnik birliklərin qarşı-qarşıya durduğu təşkil olunmuş siyasi fəaliyyətinin müəyyən bir səviyyəsi, ictimai hərəkatların iştirakı, kütləvi ixtişaşlar, seperat çıxışlar və hətta vətəndaş müharibələri ilə səciyyələnən münaqişəni ehtiva edir. [1, s-71]. Beləliklə, yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək olar ki, insanların bütün fəaliyyəti, o cümlədən münaqişələrlə bağlı fəaliyyəti sosial xarakter daşıyır, çünki onlar bu və ya digər formada sosial mühitlə əlaqəlidirlər. Münaqişə, onun səbəbləri, ifaədolunma formaları və tənzimlənmə vasitələri yalnız cəmiyyətin və xüsusilə insan təbiətini dərindən öyrənilməsi, sosial münasibətlər və insanların qarşılıqlı fəaliyyətinin qanunauyğunluqlarının təhlili əsasında mümkündür. XX əsrin 50-60-cı illərində sosioloqlar iqtisadi inkişafın, kənd əhalisinin şəhərə miqrasiyasının və savad dərəcəsinin artmasının bütün dünyada inteqrasiya olunmuş cəmiyyətlərin yaranması ilə nəticələnəcəyini proqnozlaşdırırdılar. Modernləşmə nəzəriyyəsi bu fikri irəli sürərək etnik identiklik haqqında aşağıdakı proqnozu verir : insanlar arasında iqtisadi və siyasi əlaqənin artması və informasiya şəbəkələrinin genişlənməsi tədricən insanların yerli etnik qruplarla identikliyinin zəifləməsinə və onların Kanada, Avropa İttifaqı kimi daha böyük cəmiyyətlərə meyl etməsinə səbəb olacaq. Lakin XX əsrin 70-80-ci illərinin siyasi faktları bu

proqnozu təkzib etdi. Həmin illərdə etnik identiklik və mənafe münaqişələri azalmaq əvəzinə kəskin surətdə artdı. XX əsrin 60-cı illərində etnosiyasi münaqişələr inkişaf etməkdə olan ölkələrlə yanaşı, regioanl seperat hərəkatların baş verdiyi inkişaf etmiş Qərb ölkələrində də gücləndi. Etnik münaqişələrin xarakterini müəyyən etmək üçün ilk növbədə zorakı mübarizənin yenidən başlamasının səbəblərini izah edən nəzəri yanaşmalar, əsasən də primordializm (ekzistensializm), instrumentalizm və konstruktivizm nəzəriyyələri təhlil olunmalıdır. Primordializm – (lat. Primordium - başlanğıc) siyasiləşmiş etnik qrupun həmtəyliyini insanların etnik identikliyə tələbatı kimi izah edir. Primordializmin tərəfdarları iki istiqamətə ayrılırlar: sosiobioloji və təkamül-tarixi. Primordializm nəzəriyyəsində etnos qan qohumluğu əlaqələri olan birlik kimi göstərilir. Bu nəzəriyyə hələ antik dövr fəlsəfəsində öz əksini tapmışdır. XX əsrin sonlarında münaqişə vəziyyətində olan xalqların idarə olunmasının öyrənilməsi üçün antropologiyadan geniş istifadə olunurdu. Məsələn, 1880-ci ildə ABŞ hökuməti antropoloqların vasitəsi ilə hindu icmalarının idarə olnuması məsələsini öyrənirdi. 1908-ci ildən ingilis antropoloqları Nigeriyada, daha sonra Sudanda ilk etnoqrafik tədqiqatlar apardılar. Bir sıra müstəmləkələrdə rəsmi olaraq "hökumət antropoloqu" vəzifəsi var idi. Birinci və ikinci müharibələri dövründə antropoloqların böyük əksəriyyəti İngiltərənin Xarici İşlər Nazirliyində və Müstəmləkələr Üzrə Nazirliyində xidmət edirdilər. 1950-ci ildən antropoloqlar və etnoloqlar fəal olaraq ABŞ hökumətinə və xüsusi xidmət orqanlarına Latin Amerikası, eləcə də Vyetnam müharibəsi ilə əlaqədar tədqiqatlara cəlb olundular. Antropoloqlar böyük emprik material toplayaraq müstəmləkə siyasətinin işlənib hazırlanmasında və müstəmləkə xalqlarının idarə olunmasının öyrənilməsində mühüm rol oynayırdılar.Primordializmin bioloji istiqamətinin nümayəndəsi Amerika sosioloqu və antropoloqu

Pyer Van der Berqdir. İnsanların fərdilikdən daha çox qohumluq münasibətlərinə üstünlük vermələri onların bioloji şərtləndirilmiş xüsusiyyətləridir. Əks təqdirdə onlar yaşamazlar və öz genlərini gələcək nəsillərə ötürə bilməzlər. Etnik qrupun daxilində qohumluq münasibətləri və əməkdaşlıqları yalnız qohumlar arasında münasibəti və əməkdaşlığı nəzərdə tutmur. Bu nəzəriyyəyə əsasən etnik qrup üçün qonşular uzaqdan gəlmiş "yadlara" nisbətən genotipik xüsusiyyətlərinə görə "özününkü" hesab olunurlar. Onun sağ qalmasına təhdid, məsələn, ərazi mübahisəsi etnik qrup üzvlərinin xarici aqressiyasına səbəb ola bilər. Bu nəzəriyyənin digər görkəmli nümayəndəsi məşhur etnoqraf və coğrafiyaçı L.N.Qumilyov hesab olunur.

Güclü dövlətin olmaması şəraitində etnik qrupun üzvlərinin fiziki təhlükəsizliyinə təhdid olduğu zaman zorakı mübarizənin bərpasına şərait yaranır. Bioloji primordializmə görə etnik həmrəyliyin sosial nəzarət ilə yatırılması münaqişənin destruktiv nəticələrini artıra bilər. Bu nəzəriyyənin opponentləri onların bu mövqeyi ilə razılaşmırlar. Onlar bioloji primordializmin nümayəndələrinin fikirlərinə etiraz edərək xarici vəziyyətin təsiri altında insanların davranışının dəyişdiyini qeyd edirlər. Primordializm kulturoloji variantı insanların anadangəlmə həmrəyliyi fikrini inkar edir. Fərdin qrupa birləşmək tələbatı etnik mədəniyyətin təsiri altında siyasiləşmənin gedişində formalaşır. Alman sosioloqu M.Veber hesab edir ki, ümumi dil, din, adət və tale il birləşən insanlarda öz dövlətini yaratmağa can atmaq üstünlük təşkil edir. O etnik qrupun mədəni irsinə təhdidin olması onun öz milli dövlətinin yaradılmasında şüurlu surətdə iştirakına təkan verdiyini qeyd edir. [3, s-49]Etnik mədəniyyətə təhdid amili etnik fəallığa təsir edir. Beləliklə, problemə kulturoloji yanaşmaya əsasən insanların fiziki və mənəvi həyatda qalması üçün təhdid qorxusu keçmiş münaqişələrin yaddaşı ilə gücləndirildiyindən etnik qruplar silahlı münaqişəni

dəstəkləməyə meyllidir. Siyasi muxtariyyət və ya müstəqillik etnik qrup tərəfindən onların təhlükəsizliyinin təminatı kimi nəzərdən keçirilir. Hökumətin mədəni assimilyasiya siyasəti münaqişəyə səbəb olur.

Entik münaqişələrin səbəblərinin psixisosioloji təhlili insanların dəyərlərə münasibəti ilə izah olunur. Etnik identiklik fərdin qürur mənbəyidir. Etnik identiklik hissinin təhqir olunması etnik qrupun geniş kütləsinin uzunsürən münaqişədə iştirakına səbəb olur. Kütləvi zorakılığın yenidən başlaması üçün əsas səbəb hökumətin münaqişəni idarə sistemindədir. Bu sistemə danışıqlar və normatin nəzarəti daxildir. Etnik elita ilə danışıqlar hökumət tərəfindən aparılır. Normativ nəzarət isə qayda-qanunu pozanlara qarşı qanunun məcburi qəbul etdirilməsini və güc tətbiq olunmasını nəzərdə tutur. Bu nəzarət sistemi etnik identiklik hissinin sıxışdırır və ya təhqir edir və bununla da, zorakılığın əsası qorunub saxlanır. Mərkəzi hakimiyyətlə etnik qrup arasında qüvvələr balansı pozulduqda uzunsürən münaqişə hər dəfə yenidən bərpa olunur. Beləliklə, primordializm nəzəriyyəsinə əsasən insanların etnik və dini identikliyi dərin sosial, tarixi və genetik əsaslara malikdir. Bu nöqteyi-nəzərdən modernləşmə etnik həmrəyliyə təhdid yaradır, bu da azlıqları öz mədəniyyətlərini həyat tərzini müdafiə etmək üçün səfərbərliyə sövq edir. İnstrumentalizmin baniləri olan Amerika tədqiqatçıları: N.Gleyzer, və D.Moynihan etnikliyi etnik qrupun mənafelərinin həyata keçirmək üçün siyasi səfərbərlik aləti kimi qiymətləndirirlər [2]. Bu anlayışa əsasən modernləşmə daha çox iqtisadi fərqlərin artmasına təsir edir və ya bu fərqdən narazı olan üstün qruplar və milli azlıqlar arasında narazılığa səbəb olur. “Siyasi işbazlar” etnik əsasda siyasi hərəkatların meydana çıxması üçün bu fərqdən istifadə edirlər. Bu hərəkatların əsas məqsədi isə müəyyən regionun və ya qrupun iqtisadi və siyasi rifahının artmasıdır. İnkişaf etmiş Avropa cəmiyyətində etnik

münaqişələrin (Britaniyada uelslilər, şotlandlar, Fransada bretonlar və korsikalılar, İspaniyada basklar) kəskinləşməsinin səbəblərini izah etmək üçün Ç.Tilli, M.Heçter "daxili müstəmləkəçilik" adlanan ideyanı irəli sürmüşlər. İnstrumental yanaşmaya əsasən qrupun etnik səfərbərliyi madd və siyasi mənafelər kimi amillərə əsaslanır. Lakin primordializm və instrumentalizm nəzəriyyələri bir-birilərinə əsaslı şəkildə ziddiyət təşkil etmirlər. Etnik qruplar iki şərtin olması əsasında səfərbər olurlar: etnik qrupların güclü identiklik hisləri və əlverişsiz amillərin təsiri. Münaqişənin əhatə dairəsi və intensivliyi etnik qrupların rəhbərlərinin eləcə də hökumətin həyata keçirdiyi strategiyalardan asılıdır. Etnik səfərbərliyə etnik qrupların hüquq bərabərliyinin olmaması və etnik identiklik birbaşa təsir edir. Çox az hallarda müstəqil olaraq institutlara və cəmiyyətə çağırış edən insanlara rast gəlmək olar. Özlərinə həmfikir insanları taparaq onların narazılığını və hərəkət etmək istəklərini gücləndirirlər. İnsan özünü hüququ pozulmuş etnik qrupa daha çox identifikasiya etdikcə onun hər hansı bir fəaliyyətə keçməsi labüd olur. Ümumi narazılıqla yanaşı qrupun identikliyini digər amillər də gücləndirir. Məsələn, ümumi dil, din, tarix, mədəniyyət, yaşayış ərazisi. Qrupun ümumi dəyərləri nə qədər çox olursa, onun identikliyi də bir o qədər güclü olur. Beləliklə, instrumentalizmin nümayəndələri münaqişənin yenidən başlanmasına səbəb olan siyasi elitaların rəqabətlərinə xüsusi diqqət verirlər. Konstruktivizm nəzəriyyəsi XX əsrin 70-ci illərində primordializmə cavab olaraq yaranmışdır. Bu nəzəriyyəyə görə etniklik cəmiyyətin sosial təməlini təşkil edir və cəmiyyət tərəfindən ona ehtiyac olduğu təqdirdə yaradılır. Etniklik dəyişkın təbiətə malikdir, eləcə də etnik mənsubiyyətin sərhədləri dəyişə bilər. Konstruktivizmin banisi Norveç alimi F.Bart hesab olunur. Bartın nəzəriyyəsində etnik sərhədlər əsas kateqoriya kimi çıxış edir. O etnik sərhədlərin sosial həyatı

istiqamətləndirdiyini və davranışın və sosial münasibətlərin kifayət qədər mürəkkəb təşkilinə səbəb olduğunu hesab edir. Digər tərəfdən, etnik sərhədlərin qorunub saxlanması müxtəlif mədəniyyətlərin nümayəndələri arasında sosial əlaqələrdən asılıdır: etnik qruplar yalnız davranışlarında müəyyən fərqlər olduqda ayrı-ayrı vahidlər kimi mövcud olurlar. Konstruktivizmin nümayəndələri etnik zorakılığın yenidən bərpa olunmasının səbəblərini izah edərkən, mədəni elitanın ideoloji fəallığına xüsusi yer verirlər. Mədəni irsdə xalqların əməkdaşlıqlarının və qarşıdurmalarının nümunələri qorunub saxlanır. Bu yaddaş etnik qrupun məhv olmasına təhdid haqqında təsəvvürü azalda və ya gücləndirə bilər. Mədəni irsə müraciət üstünlüklərinə elita malikdir. O lazım olan təsəvvürləri formalaşdıra bilər, lazım olmayanları isə aradan qaldıra bilər. Konstruktivizmi iki əsas növə bölmək olar : 1) sosiomədəni 2) etnosimvolik Sosiomədəni yanaşmanın tərəfdarları millətçilik ideologiyasının yaranması və genişlənməsinin səbəblərini müasirləşmiş cəmiyyətdə mədəni elitanın mənəvi təsirə nail olmaq üstündə rəqabəti kimi izah edirlər. Ənənəvi aqrar cəmiyyətlərdə millətçiliyin genişlənməsi mümkün deyil. Bu tip cəmiyyətlərdə müxtəlif təbəqələrin mədəniyyətləri arasında fərqlər və dünyəvi və dini hakimiyyətin transmilli institutları qorunub saxlanır. Cəmiyyətin müasirləşməsi və dünyəviləşməsi ənənəvi həyat tərzini dağıdır, əhalinin anonim şəhərlərdə sıxlaşmasına kömək edir. Urbanizasiya şəraitində müxtəlif mədəniyyətlərə malik insanların əlaqəsi yalnız dil və standart təhsil sistemi vasitəsi ilə mümkündür. Kütləvi təhsil yalnız iki amillə-dövlətin idarəçiliyinin unifikasiyası və sənayenin inkişafı amilləri ilə şərtlənir.

ƏDƏBİYYAT

1. C.Rothschild: Ethno political

2. Daniel Patrick Moynihan: Miles to Go: A Personal History of Social Policy (1996)
3. Max Weber: Economy and society (1922)
4. Michael Hechter. International Colonialism: The Celtic Fringe in British National Development (1972)

Əfsanə MƏMMƏDYAROVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistr

MULTİKULTURAL DƏYƏRLƏRİN FOMALAŞMASINDA MEDİANIN ROLU

РОЛЬ СМИ В ФОРМИРОВАНИИ МУЛЬТИКУЛЬТУРАЛЬНЫХ ЦЕННОСТЕЙ

THE ROLE OF THE MEDIA IN THE FORMATION OF MULTICULTURAL VALUES

Açar sözlər: media və onun funksiyaları ,multikulturalizm, Azərbaycanda multikultural dəyərlər
Ключевые слова: СМИ и их функции, мультикультурализм, мультикультурные ценности в Азербайджане
Keywords: media and its functions, multiculturalism, multicultural values in Azerbaijan

Xülasə: Məqalədə multikultural dəyərlərinin formalaşmasında medianın rolu haqqında məlumat verilmişdir.Müəllif multikultural dəyərlərin formalaşmasında medianın hansı gücə malik olmasına diqqət çəkir.Məqalədə multikultural dəyərlərin formalaşması haqqında yığcam məlumatlar verilməklə yanaşı, bu sahədə mövcud olan problemlər də qeyd olunmuşdur.

Резюме: В статье раскрывается роль СМИ в формировании мультикультурных ценностей. Автор обращает внимание на силу медиа в формировании поликультурных ценностей. В статье дается краткий обзор формирования мультикультурных ценностей, а также существующих проблем в этой области.

Abstract: The article gives information on the role of the media in shaping multicultural values. The author draws attention to the power of the media in the formation of multicultural values. The article gives a brief overview on the formation of multicultural values, as well as the existing problems in this area.

XXI əsr media əsridir. Medianın maarifləndirmə,informasiya və əyləncə kimi funksiyaları var. Nəzərə alsaq ki, bu sahə durmadan surətlə inkişaf edir,o zaman yeni əsrin tələblərinə uyğun olaraq yeni funksiyalar da formalaşır. Medianın cəmiyyətə təsir gücü çox böyükdür. İctimayyətin gündəmini müəyyən edən və fikirlərin lideri olaraq çıxış edən media, potensial olaraq tolerant ruhları formalaşdırmağa və kütləvi şəkildə yaymağa qadirdir.O fərdin şüuruna birbaşa təsir göstərərək onun mənəvi dəyərlərinin formalaşdıran mexanizmdir.Bu medianın həm müsbət ,həm də mənfi tərəfidir. Müsbət tərəfi odur ki,əgər media düzgün istiqamətdə fəaliyyət göstərərsə, o zaman biz arzuladığımız nəticələri daha tez əldə edə bilərik. Mənfi tərəfi isə onun cəmiyyəti istədiyi kimi idarə edə bilməsidir.Bu media ilə dəyərlər arasında əlaqənin göstəricisidir.

Peşə etikasında ümumiyyətlə, beynəlxalq jurnalistikada umumibəşəri dəyərlərə ehtiram adlı prinsip var.Həmin prinsipdən irəli gələn başıca tələblər mediada fəlaiyyət götərən jurnalistlərin müxtəlif xalqların ,etnosların dəyərlərinə hörmət etməyə məcbur olmasıdır. Bu baxımdan media tədqiatçısı Mark Dyuzun fikiri diqqət çəkir:"Rəqəmsal inqilabla yanaşı, multikulturalizm də jurnalistlərin bu gün qarşılaşdığı əsas problem hesab edilə bilər."Bu gün Amerika ,Qərbi Avropa mediasında multikultural xəbərlərin verilməsində müəyyən problemlər qarşıya çıxır ki ,bunlar Beynəlxalq Jurnalistlər Federasiyasında müzakirə mövzusu olur. "İslam terrorizmi" anlayışının təqdim olunması və ya internet şəbəkələrində,sosial mediada,sosial şəbəkələrdə bu mövzu ilə bağlı müəyyən müəyyən qeyri-adekvat yanaşmaların təbliği,vətəndaş jurnalistikasında mövcud olan problemlər bu gün multikultural dəyərlərin media vasitəsilə, daha geniş mənada kütləvi kommunikasiya vasitələri ilə təqdimatında kifayət qədər problemlərin mövcud olduğunu götərir.Bu mənada təsadüfi deyilki aparıcı media orqanları,jurnalist təşkilatları bir sıra etik kodekslərinə ümumibəşəri dəyərlərə ehtiram,milli,irqi,dini ayrıseçkiliyə yolverilməzliyi kimi başlıca prinsipləri əsas element olaraq daxil edirlər.Bunlar jurnalistikanın dəqiqlik, qərəzsizlik, tərəfsizlik, obyektivlik, vicdanlılıq və s. prinsipləri ilə bərabər,paralel olaraq eyni müstəvidə təqdim olunur.Media əslində konfilikti təbliğ etməməlidir.Ümumiyyətlə medianın fəlsəfəsində konfiliktlərin təbliği yer almır.Məhz bu anlamda kifayət qədər buna ciddi nəzarət var. Juralistika ictimayyətə təsir etmək gücünə malik sosial siyasi institutdur.Jurnalistikanın öz funksiyaları var .Bu funksiyaların içərisində informasiya,maarifləndirmə,əyləncə olmaqla yanaşı eyni zamanada ictimai nəzrarət funksiyası var. Jurnaistika o zamana öz fəlsəfəsindən kənarlaşır ki ,o ictimai nəzarət funksiyasını klassik funksiyalarından (informasiya,maarifçilik,əyləncə)

ayrılaraq həyata keçirir.Nəticədə fərqli mənzərə qarşımıza çıxır. Bu gün ənənəvi media öz yerini rəqəmsal mediaya verir.Bunun müsbət tərəfləri olduğu kimi mənfi tərəfləri də var.Biz müsbət tərəflərindən yararlandığımız kimi mənfi tərəflərinə də hazır olmalıyıq.İnformasiya həm dağıdıcı gücü malikdir,həm də maarifləndirici gücə malikdir.Qlobal informasiya məkanı böyük bir anlayışıdır. Qlobal informasiya məkanına kifayət qədər ciddi təsir etmək gücünə malik olan media korporasiyaları mövcuddur. Məsələn ,"islam terorizmi" ifadəsini leksiona media gətirib.80-ci illərin sonun 90-cı illərdə əvvələrindən başlayaq müxtəlif radikal qruplaşamaların fəaliyyəti ilə bağlı xəbərlər bir sıra media orqanlarında beynəlxalq ictimayyətə təqdim olunduqda "islam terrorizmi" ifadəsindən istifadə edildi.Bu gün internet axtarış sistemlərində bu ifadəni axtrsaq, kifayət qədər nəticələr əldə edərik.Halbuki "islam" və "terorizm" bir birinə yad anlayışlardır.Bütün bunlar ciddi bir həyəcan siqnalıdır.

Qlobal informasiya resuslarından istifadə olunaraq milli dəyərlər hədəfə alınır.Əksər hallarda bu o qədər cəlbedici metodlarla həyata keçirilir ki ,insanlar bunun fərqində olmur. Jurnalist peşəkardırsa,informasiyanın necə təqdim olunmasını bilirsə,informasiyanın mahiyyətinə bələddirsə,informasiyanın gücünü anlayırsa və onun cəmiyyət qarşısında daşımalı olduğu sosial məsuliyyətini dərk edirsə, bu zaman heç bir problem ortaya çıxmır.Media dəyərləri cəmiyyətə müsbət yöndə təqdim edən inistutdur.Media konfiliktlər üçün bir açar funksiasına daşıyan bir inistut deyil. Medianın özəyində multikultrallıq dayanır.Buna baxmayaq,dünya mediasında həm dini, həm etnik nifrət oyadan məqalalələrə rast gəlirik. Bununla bağlı aparılan araşdırmalar göstərir ki, həqiqətən də media əvvəlki funksiyasını unudaraq daha çox kofiliktin üzərinə gedir. Halbuki media bəşəri anlayışdır.Media müxtəlifliklərin,dəyərlərin politikasını özündə əks etdirib dünyaya çatdırmalıdır. Son onlilliklərdə multikultural

cəmiyyətdə jurnalistikanın əhəmiyyətini daha çox nəzərə çarpır. İqtisadi, siyasi və sosial qeyri-sabitlik şəraitində münaqişələr üçün daha çox əsaslar yaranır, xüsusilə də fövqəladə hallarda bu daha da kəskinləşir. Mütəxəssislər, bu münaqişələrin zehniyyət, mədəniyyət, din, təhsil və müxtəlif xalqların və sivilizasiyaların etikasındakı fərqləri əks etdirən demoqrafik, iqtisadi, ekoloji, texnoloji, siyasi və sosial-mədəni amillərə əsaslandığını başa düşsələr də, çoxları mətbuatı günahlandırır. Azərbaycan multikultutal dəyərlərə sahib ölkədir.Hazırki mərhələdə milli mətbuatının əsas vəzifəsi ondan ibarərdir ki ,əsrlərdən bəri Azərbaycanda formalaşmış,ənənə halını almış, mədəniyyət hadisəsi olan multukultralizmi təbliğ etsin və bundan sonrakı mərhələrdə də öz töhvələrini versin. Azərbaycanda milli azlıqlar ölkə əhalisinin 9,4%-ni təşkil edir[2].Azərbaycanda milli azlıqların öz məktəbləri, mədəniyyət mərkəzləri ilə yanaşı həm də çoxsaylı kütləvi informasiya vasitələri və internet resursları vardır. Azərbaycan dövləti milli azlıqlara azad mətbuat yaratmaqda heç bir maneə yaratmır. Birbaşa dövlət orqanı olan rəsmi qəzetlərdə milli azlıqların məişəti, adət-ənənələri haqqında materiallar çap olunur [1]. Azərbaycan teleməkanında 11 ümumirespublika, 13 regional televiziya yayımçısı fəaliyyət göstərir.Telekanallarda milli azlıqların etnik mədəni həyatı, etnoqrafiyası haqqında müntəzəm materilallar hazırlayaq tamaşaçılara təqdim edirlər. Regionların Sosial İqtisadi İnkişafı Dövlət Proqramı çərçivəsində yaradılan televiziyalar bu gün həmin ərazilərdə yaşayan azsaylı xalqlar üçün daha əlçatandır. Şimal regionunda ARB Şimal, Şimal-qərb bölgəsini əhatə edən ARB Şəki,Qərb bölgəsində Kəpəztv bu gün ərazilərində məskunlaşmış milli azlıqların,etnik qrupların ,azsaylı xalqların həyatını özündə əks etdirən verilişlər və sənədli filmlər hazırlayırlar. ARB Şimalın hazırladığı “Buralar” verlişi Azərbaycan ərazisində olan azsaylı xalqların mədəniyyəti,adət-

ənənəsi,mətbəxi ilə izləyiciləri yaxından tanış edir. Bu gün dünyada elə azsaylı xalq, elə etnik qruplar var ki, onlar yalnız Azərbaycan ərazisində mövcuddurlar. Onlardan yalnız birinin adını qeyd etmək istərdik, Quba rayonunun Xınalıq kəndi. Bu, o xınalıqdır ki, dünyanın etnik xəritəsində ancaq bir Xınalıq kəndi və yeganə xınalıq dili var.Bu kənd haqqında kifayət qədər çox sujetlər,sənədli filmlər hazırlanıb.Fərqlilik baxımında ARBTV-nin istehsalı olan "Xınalıq" sənədli filimi daha çox diqqqət çəkir.Bu filmdə kəndin bir günü canlandırılıb.

Bakı Media Mərkəzi tərəfindən çəkilən "Bir günəş altında" sənədli filmi Azərbaycanda tolerant bir mühitin olması və burada dinindən, dilindən, milliyyətindən asılı olmayaraq hamının bərabər yaşamasını göstərir.Filmin hazırlıq prosesində 15 nəfərdən ibarət çəkiliş heyəti bir ilə yaxın müddətdə Azərbaycanın müxtəlif bölgələrində olub, 54 kənd və qəsəbəyə ekspedisiyalar təşkil edilib. Eksperiment xarakteri daşıyan bu səfərlər zamanı 17 etnik qrupun 134 nümayəndəsinin müsahibəsi lentə alınıb. Çəkiliş üçün hər etnik qrupun onlarla nümayəndəsindən yalnız biri seçilib. Seçim zamanı təmsil etdiyi xalqın kimliyini öz nitqi, antropoloji cizgiləri, gündəlik fəaliyyəti ilə daha dəqiq təqdim edən şəxsə üstünlük verilib. Filmin qəhrəmanları 17 dildə danışır - hər kəs öz ana dilində. Televiziya və radio yayımında müxtəlif dillərin istifadəsini və yaxud cəmiyyətin, habelə, onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin etməyə, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirməyə yönəlmiş, dolğun məzmunlu, tarazlaşdırılmış informasiyalar hazırlamaq, bu informasiyaları yayımlamasına şərait yaratmaq məqsədi ilə 28 sentyabr 2004-cü il tarixində "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Həmin Qanunun 12.3-cü və 13.2-ci maddələrinə əsasən, ictimai yayım

proqramlarına Azərbaycan Respublikası ərazisində yaşayan milli azlıqların dillərində verilişlər də daxil edilir. Proqramlar milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir [1]. Bu gün Azərbaycan dövləti heç bir fərq qoymadan milli azlıqların mətbuat sahəsindəki fəaliyyətinin ardıcıl və davamlı olaraq inkişaf etdirilməsi üçün bütün lazımı tədbirləri həyata keçirir.

ƏDƏBİYYAT

1.http://multiculturalism.preslib.az/az_a7.html
2.http://mfa.gov.az/content/114
3.https://az.wikipedia.org/wiki/ARB_Media_Qrup
4.https://heydar-aliyev-foundation.org

Elnarə MÜRSƏLOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr

ABŞERONUN DİNİ-MEMARLIQ ABİDƏLƏRİ MULTİKULTURALİZM KONTEKSTİNDƏ

РЕЛИГИОЗНО-АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ АПШЕРОНА В МУЛЬТИКУЛЬТУРАЛЬНОМ КОНТЕКСТЕ

RELIGIOUS-ARCHITECTURAL MONUMENTS OF APSHERON IN MULTICULTURAL CONTEXT

Açar sözlər: Abşeron, məscid, İslam, Zərdüştlük, memarlıq

Ключевые слова: Апшерон, мечеть, Ислам, Зороастризм, архитектура

Keywords: Absheron, mosque, Islam, Zoroastrianism, architecture

Xülasə: Məqalədə Abşeronun çoxəsrlik tarixində dini etiqadın atəşpərəstlik, zərdüştlük və İslam memarlığına kimi dəyişməsi ilə multikulturalizm izlənilir. Yarımadada atəşpərəstlik ocaqları olan Qız qalası, Xıdır məscidi, Məhəmməd məscidi, İçərişəhərin şəhərsalma quruluşunda və Suraxanı ərazisindəki Atəşgah məbədinin memarlıq-plan həlli araşdırılır. Sasanilərin hakimiyyəti dövründən İslam dininə qədər olan, VII əsrə qədər Abşerondakı od məbədləri sonralar İslamın bərqərar olması ilə məscidlərə çevrilmişlər. Məqalədə Abşeronun dini abidələri, xüsusi ilə Nardaranda Rahimə xanım piri, Bibiheybətdə Hakimə xanım piri, Bilgəhdə Leyla xanım piri, Şüvəlanda MirMövsüm Ağa piri və Heydər məscidi barədə məlumatlar verilmişdir.

Резюме: В статье рассматривается мультикультурализм как изменение вероисповедания от зороастризма до ислама в многовековой истории Абшерона. Исследуются очаги зороастризма - Девичья башня, мечеть Хыдыр, мечеть Мухаммеда, особенности градостроения Ичеришехер и архитектурный план храма Огнепоклонников в Сураханы. Существовавшие в Абшероне со времен правления Сасанидов до зарождения ислама, до VII века храмы огнепоклонничества впоследствии, с установлением ислама, стали мечетями. В статье представлена информация о религиозных памятниках Абшерона, в особенности, о святыне Рахима ханым в Нардаране, святыне Хакиме ханым в Бибиэйбате, святыне Лейла ханым в Бильгя, святые Мирмовсум Ага в Шувеляне и мечети Гейдар.

Abstract: The article examines the multiculturalism by the change of religious beliefs of Absheron in the centuries from Zoroastrianism to the change of İslam. The center of the Zoroastrianism of the peninsula which are The Maiden Tower,

the Khidir Mosque, the Mohammed Mosque, Icharishahar urban development organization and the Ateshgah Temple in Surakhani are investigated in this article. From the Sassanid rule to the Islamic religion, the fire temples of Absheron until the 7th century became the mosques with the establishment of Islam. The article deals with the religious monument of Absheron, in particular, Rakhima khanum pir in Nardaran, Hakima khanum pir in Bibiheybat, Leyla khanum pir in Bilgah, Mir Movsum Aga pir in Shuvalan and Haydar mosque.

Abşeron Azərbaycanın ən qədim məkanlarından biridir və xüsusi geosiyasi mövqeyə malikdir. Minilliklər boyu burada formalaşan siyasi, dini, iqtisadi təcrübə maddi və mənəvi mədəniyyətin spesifikasını müəyyən etmişdir. Yarımadanın Xəzərətrafı, Qafqaz, Ön Asiya mədəniyyətləri ilə əlaqələri nəticəsində burada mütəmadi olaraq multikultural dəyərlərin fərqli seqmentləri formalaşıb. Burada ilk növbədə dini aspekt qeyd olunur ki, onun da göstəricisi qismində adət-ənənə, mərasimlərlə yanaşı, memarlıq abidələri xüsusi yer tutur. Müxtəlif dini təriqətlərin bərqərar olduğu Abşeronun dini memarlıq abidələrini hərtərəfli tədqiq etməkdən ötrü bu dəyərlərin yarandığı zamanlara ekskurs etmək mütləqdir. Bu səbəbdən Azərbaycan tarixində yaranan ilk dini dünyagörüşün yaranma səbəblərini və bu dinlərin sayəsində müxtəlif zamanlarda ölkəmizdə yaradılmış dini memarlıq abidələrindən söhbət açılmalıdır. Aparılmış tarixi araşdırmalar və arxeoloji qazıntılar nəticəsində sübuta yetirilmişdir ki, müxtəlif dövrlərdə mövcud olmuş dini memarlıq abidələrinin bir çoxu, dünya arenasında olduğu kimi, ilk illərdə özündən əvvəlki dinlərin təsiri nəticəsində, mövcud tikilinin yerində yeni dinə uyğunlaşdırılmaqla istifadə olunmuşdur. Yeni inşa olunmuş dini tikililər, Azərbaycanda mövcud olmuş dinlərə uyğun olaraq inşa olunmuşdur. Abşeron ərazisində yerləşən dini memarlıq abidələri

tolerantlığın rəmzi, qiymətli mədəni irs kimi öz əhəmiyyətini daima qorumaqda davam etdirir. Bildiyimiz kimi Azərbaycan tarixində ən əsas yeri tutmuş üç din möhkəmləmişdir. Bunlardan ilki atəşpərəstlik dini, xristianlıq və nəhayət İslam dinidir. Ölkə ərazisində bir çox abidələr vardır ki, onlar zamanında özündən öncəki dinə xidmət etsə də, sonradan fəaliyyətini uyğun dinə görə dəyişmiş və ya yerində yeni memarlıq nümunəsi ucaldılmışdır. Bakı şəhərinin simvolu sayılan Qız Qalasının dəqiq olaraq hansı məqsədlə tikildiyi aşkar olunmasa da bir çox fərziyyələr irəli sürülmüşdür. Qalanın tarixi haqqında tədqiqatçılar arasında fikir ayrılıqları ortaya çıxmışdır. Müasir dövrün tədqiqatçıları "Qız Qalası"nın mərtəbələrinin sayını, onun hündürlüyündəki rəqəmlərin əlaqəsini, "Qız Qalası"nın müsəlmanların müqəddəs torpağı sayılan "Məkkə" şəhərinə istiqamətləndirilməsini və s. bu kimi iddiaları İslamla əlaqələndirirlər. S.Veliyev öz "Древний, древний Азербайджан: историко-географические очерки" kitabında Qız qalasının tədqiqat tarixini göstərmişdir. Kitaba əsasən hələ 1930-cu ilə dair M. Sayapinin Qız qalası ilə bağlı əlyazma yazısı o zamanlar E.Paxomovun fondunun tərkibində kitabxanaya təqdim olunmuşdur. [10]. D.Axundov, S.Aşurbəyli, M.Nəbiyev, L.Bretanitskiy isə Qız qalası ilə bağlı fərqli və maraqlı məlumatlar vermişlər. Bütün bu məlumatları ayrılıqda analiz edib bir kitab şəklinə gətirən isə H.Həsənov olmuşdur. H.Həsənovun "Девичья башня" kitabında Qız qalasının hansı məqsədlərlə, kimlər tərəfindən tikildiyi, tarixinin öyrənilməsində arxeoloji və hidroloji faktorların rolu, xüsusi ilə də buradan tapılan bürünc balıq (arxeoloji faktor kimi), divarların qalınlığı ilə bağlı məlumatlar xüsusən qeyd olunmuşdur. Ən əsas məqam isə Vedizm və Zərdüştlük simasında Qız qalasının təhlil olunmuş olmasıdır. [9]. Daha öncədən biz abidənin XII əsrdə tikilməsini mübahisəsiz qəbul edirdik. Lakin diqqət yetirsək burada əlaqələndirmələr tam üst–üstə düşmür. Çünki İslamın hökmranlıq

etdiyi bir dövrdə atəşpərəstliyin ən möhtəşəm qalası tikilə bilməzdi. Bəzi araşdırmalar belə göstərir ki, Qız qalası üzərində bir vaxtlar 10–15 metr hündürlüyündə alov yanırmış. Bu gün bir çoxlarımız abidənin atəşpərəstlərin qibləgahı olduğunu bilmirik. Lakin bu barədə Davud Axundov öz "Архитектура Древнего и ранне – средневекового Азербайджана" kitabında "Bakının qala-məbədi – Qız qalasının yaranması" başlığında ətraflı məlumat vermişdir. Onun sözlərinə görə, hələ S.Aşurbəyli vaxtilə öz kitabındakı aydın tərcümədən sonra bu qalanın heç də XII əsrə aid olmadığını ortaya çıxarmışdır. Eyni zamanda qalanın müdafiə üçün yararsız olduğunu, hətta atıcıların belə oxlardan külək və yüksək hündürlük nəticəsində istifadə edə bilməz olduqlarınına aydınlıq gətirir. Məbədin kənar hissəsindəki kontrforsun hələ qədim zamanlarda bu tip məbədlərdə abidənin dayaq sistemi üçün nəzərdə tutulduğunu, lakin Abşeron yarımadası ərazisinin tikinti materialının möhkəm olmasına baxmayaraq bu kontrforsun və məbədin divar qalınlığının 5 metr olmasının artıq adət halında tikilməyinə izah vermişdir. Bununla da Xanıkov, Nasifi, Paxomovun təkrarən bu qalanı XII əsrə aid etməsinə baxmayaraq, günümüzdə bu fərziyyə artıq düzgün hesab olunmuş [8, s 101].

Əsas atəşpərəstlik məbədlərindən biri də Suraxanı rayonu ərazisindəki Atəşgah məbədidir. XVIII yüzilliyə aid "Atəşgah" məbəd kompleksinin ərazisində aparılan qazıntılar zamanı müəyyən olunmuşdur ki, o, atəşpərəstliyin daha qədim məbədinin üzərində ucaldılmışdır. Bu tədqiqatlar, kompleksdə memarlıq tarixi XVIII yüzilliyin inşaat qalıqları, bir neçə qaz quyuları, ayin ocaqları, qurbanlıq heyvanlar üçün mərəzlər aşkar edilmiş, saxsı qəlyanlar və digər saxsı materiallar, aralarında 1841-ci ildə zərb edilmiş qızıl dukatın olduğu sikkələr tapılmışdır. Burada üzə çıxarılan qaz xətləri çox maraq doğurur [3, s 193].

Ş.Fətullayev öz "Abşeron memarlığı" kitabında Atəşgah barədə belə deyib: "Abşeronun bu ərazisində Atəşgahın

yaranması təsadüfi deyildi, yüksəklikdə təbii qazların çıxması, ya da zərdüştlüyün yayılması məbədin yaranma səbəbi ola bilərdi".

Neft çıxarılışı və ətraf mühitin tikintisi qədim tikililərdən heç bir iz qoymamışdır, yalnız 1713-cü ilin məbəd kompleksi xüsusi əhəmiyyətli dəyişikliklər olmadan dövrümüzə qədər gəlib çıxmışdır. Od səcdəgahı böyük ilahi qüvvəyə malik bir varlıq kimi qəbul edilir və qədim dövrdən bəri əhali ətraf dünyaya öz münasibətini bildirərək ona itaət edirdilər [4, s 65].

Qız qalası ilə yanaşı atəşpərəstlik məbədlərinin əvvəllər Məhəmməd məscidi, Cümə məscidi Xıdır və Aşur məscidin yerində olduğu deyilir. Məhəmməd məscidi və ya Sınıqqala məscidi Bakının dövrümüzə çatmış ən qədim məscididir. İki yeraltı və yerüstü mərtəbələrdən ibarət olan məscid binası X – XI əsrlərdə inşa edilmişdir. 1988-ci ilin arxeoloji qazıntıları tamamilə gözlənilmədən məscidin həcmli-məkan strukturunu üzə çıxartdı. Həmişə özünün alçaq forması ilə qəbul edilən minarə, kvadrat şəkilli bünövrədə düzgün tənasüblü formada meydana çıxdı, ibadətgah zalının altında isə çatma formalı daş tağtavanla örtülmüş daha aşağı otağın olması meydana çıxdı. Bu yerin alt təbəqəsində İslamaqədər sitayişlərin dini mərasimlərinin elementləri görsənirdi [4, s 85]. Məscidə Sınıqqala adı 1723 – cü ildə rusların Bakını top atəşinə tutmasından sonra verilib. Məscidin Şimal tərəfindəki kufi yazıda deyilir ki; bu məscidin binasını tikməyi əmr etdi ustad ər – rəis Məhəmməd ibn Əbu Bəkr 1471 – ci ildə. Bəzi mütəxəssislər Məhəmməd ibn Əbu Bəkri məscidin memarı, Cəfər Qiyas isə sifarişçisi həm də, şəhərin rəisi olduğunu deyir. Sınıqqala Bakının ən qədim məscidi, minarəsi isə Şimali Azərbaycan minarələrinin ən qocamanıdır.

Digər belə məscid isə Xıdır məscididir. Bu məscid də İçərişəhər ərazisindədir. Xıdır məscidi, 1301-ci ildə inşa edilmişdir. Məscidin birinci mərtəbəsinin vaxtikən atəşpərəstlik

məbədi olmasını burada aşkarlanmış atəş izləri sübut edir. [4, s 86]. İrəliyə çox çıxmış daş suaşıranlarla məscidin perimetri boyu zəif profillənmiş daş merlonlar çələngi bu dövrdə artıq formalaşmış kompozisiya üsullarını meydana çıxarır. Məscid milli memarlıq abidələrinə məxsusdur və "İçərişəhər" qoruq zonasının ərazisində yerləşir. 1988-ci ildə daş tağ-tavanın aşağı mərtəbəsində, giriş portalında və ibadətgah zalının interyerində qismən bərpa işləri aparılmışdı [4, s 86-87].

Cümə məscidi də Bakıda yerləşən qədim məscidlərdən biridir. Sınıqqala məscidi kimi bu məscidin də qədim atəşgah binasının özülü üzərində inşa olunması haqqında fikirlər var. Köhnə Bakı Came məscidi 1899 – cu ildə uçurulmuş və yerində yenisi inşa edilmişdir. Bu səbəbdən məscid haqqında mühakimələr foto təsvirlər əsasında yürüdülür. Məscid Səlcuqlar dövrünün köşk tipli məscidlərinə bənzəyir. Bu özünəməxsusluqlarına görə eləcə də minarəsinin kürsülüyünə hörülmüş tikinti kitabələrinin ən əskisinin XII əsrə aid edilməsini nəzərə alan tanınmış alim Cəfər Qiyasi Bakı Came məscidinin əski gümbəzli salonunun həmin əsrdə tikildiyi qənaətinə gəlir. Başqa bir kitabə hicri 709 – cu ildə bu binanın tikildiyini bildirir. Görünür həmin dövrdə məscid təmir edilib. Məscidin minarəsi isə 1437 – ci ildə ucaldılmışdı. Bakı Came məscidi kompleksində dövrümüzə yalnız İçərişəhərin ən uca minarəsi qalmışdır

[6, s 47].

Sasanilərin hakimiyyəti dövründən İslam dininə qədər olan Abşerondakı od məbədləri sonralar İslamın bərqərar olması ilə məscidlərə çevrilmişlər. Bu məsidlərin dövrümüzə gəlib çatmış tikililəri isə adətən XV-XX əsrləri əhatə edir.

Abşeron yarımadasında dini tikililərin tiplərindən olan pirlər də geniş yayılmışdır. Nardaran məscidi və ya Rəhimə xanım piri XIV əsrdə inşa olunmuş, 1994-cü ildə Nardaran əhalisindən toplanmış vəsait hesabına qədim türbənin üzərində

ikinci mərtəbə inşa edilib. İki mərtəbəli olan məscidin birinci mərtəbəsi ziyarətgah kimi saxlanılır. Əsas ibadət zalı 2 günbəzə malikdir [14].

Rəhimə xanım pirinin II mərtəbəsində, terrasda 4 minarəli, mərkəzi günbəzli yeni məscidin binasının tikintisi 2010 -cu ildə başa çatdırılmışdır. Əhalinin verdiyi məlumata görə yeraltı yol müdafiə qalasına, Şirvanşahların yay iqamətgahına və dənizə açılır. Birinci otaq özlüyündə iki hissəyə bölünür. Oxvari tağlı qapının əlaqələndirdiyi kiçik sahə tutumlu məkanda, Rahimə xanım və onun həyat yoldaşı Mir Abdullah ağanın qəbr daşları yerləşir. Paralel ikinci otaq məscidin əsas ibadət zalı kimi fəaliyyət göstərməkdədir. Mehrab zalın interyer kompozisiyasında yeganə dekor elementidir [3, s 414].

Başqa bir pir isə hamımızın yaxşı tanıdığımız Mir Mövsüm Ağa piridir. Ziyarətgah Bakının Şüvəlan qəsəbəsindəki "qədim qəbirstanlıq" deyilən ərazidə yerləşir. Ziyarətgah - kompleksin mərkəzində xalq arasında böyük inam sahibi olan Ağa Seyid Əli Mir Abutalıb oğlu Mir Mövsümzadənin türbəsi ucalıb. Sovet rejimi onun məzarı üzərində məqbərə tikilməsinə icazə verməmişdir [12]. Mir Mövsüm Ağanın məzarı üstündə 1992-ci ildə əvvəlcə kiçik məqbərə inşa edilmiş, daha sonra onun yerində möhtəşəm və əzəmətli abidə ucaldılmışdır. Kompleks qəbristan ərazisində yerləşdiyi üçün burada, demək olar ki, texnikadan istifadə edilməmiş, bütün işlər əl əməyi ilə görülmüşdür [13]. Müxtəlif əllərin təmasına gigiyenik tədbir üçün bahalı metal sərf olunub. Divarlardakı bütün şüşələr xrustaldır. Qadın və kişilərin məzarı ayrı ziyarət etməsi üçün ziyarətgah 2 mərtəbəyə ayrılıb [12]. Türbənin bərpası İran İslam Respublikasının memarlarının Azərbaycan memarları ilə birgə işidir.

Bakının hazırkı ən gözəl məscidlərindən biri multikultural dəyərləri özündə ehtiva edən Heydər məscididir. Məscid 2014-

cü ildən xalqın istifadəsinə verilmişdir. Məscidin fasadı Şirvan – Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənilmiş, hündürlüyü 95 metr olan 4 minarə inşa olunmuşdur. [15]. Məscid dini icma olmadan fəaliyyət göstərir. Qafqaz Müsəlmanları İdarəsi məscidə sünni təriqəti üzrə imam və şiə təriqəti üzrə axund təyin edib. Bununla da sünni və şiələrin təriqətdən asılı olmayaraq birlikdə tam rahatlıqla ibadət edə biləcəkləri bir məscid istifadəyə verilib. Məsciddə sünni və şiələrin birlikdə namaz qılması artıq multikultural dəyərlərin ölkəmizdəki yerini göstərir.

ƏDƏBİYYAT

1. Aşurbəyli S. Bakı şəhərinin tarixi, Bakı: Avrasiya press NPM, 2006, s 416.
2. Azərbaycan Respublikası Prezidentinin Bakı şəhəri, Suraxanı qəsəbəsində "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğu yaradılması haqda 2007-ci il Sərəncamı.
3. Əliyeva R., Abşeronun tarixi-mədəniyyət qoruqları, Bakı: Avropa, 2018, s 468.
4. Fətullayev Ş., Abşeron memarlığı, Bakı: Şərq-Qərb, 2013, s 476.
5. Fətullayev Ş., Bakının memarlıq ensiklopediyası. Bakı: Şərq-Qərb, 2013, s 528.
6. Qiyasi C., Nizami dövrü abidələri, Bakı: İşıq, 1991, s 258.
7. Nemətova. M., Azərbaycanda pirlər, Azərbaycan Dövlət Poliqrafiya birliyi, Bakı, 1992, s 102.
8. Ахундов Д.А., Архитектура Древнего и ранне – средневекового Азербайджана, Баку: АГИ, 1986, стр 311.

9. Гасанов Г., Девичья Башня, Баку: Чашыоглы, 2014, с 488.
10. Велиев. С., Древний, древний Азербайджан: историко-географические очерки, Баку: Гянджлик, 1983, с 148.
11. Mir Mövsüm Ağa. https://az.wikipedia.org/wiki/Mir_M%C3%B6vs%C3%BCm_A%C4%9Fa
12. Mir Mövsüm Ağa haqda nadir faktlar – İradə İsaq. 17.11.2014. http://hafta.az/index2.php?m=yazi&id=138861
13. Mir Mövsüm Ağa ziyarətgah kompleksi. http://www.dqdk.gov.az/az/view/objects/55
14. Rəhimə Xanım ziyarətgahı. http://sabunchu-ih.gov.az/page/129.html
15. İlham Əliyev Bakıda Heydər məscidinin açılışında iştirak edib https://president.az/articles/13889

Nargilə BƏDƏLOVA
Hökümə HACIYEVA
Sumqayıt Dövlət Universiteti

AZƏRBAYCAN RESPUBLİKASININ MULTİKULTURAL TƏHLÜKƏSİZLİYİ VƏ ONUN ƏSAS PRİNSİPLƏRİ

МУЛЬТИКУЛЬТУРАЛЬНАЯ БЕЗОПАСНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛІШИКИ И ЕЕ ПРИНЦИПЫ

MULTICULTURAL SAFETY OF THE AZERBAIJAN REPUBLIC AND ITS PRINCIPLES

Açar sözlər: tolerant, təhlükəsizlik, millət, cəmiyyət.

Ключевые слова: терпимость, безопасность, нация, общества.

Keywords: tolerant, security, nation, society.

Xülasə: Multikultural təhlükəsizliyin əsası dedikdə əhalinin və etnik qrupların etnik,irqi,dini və mədəni dəyərlərinin qorunması nəzərdə tutulur. Multikultural təhlükəsizlik prinsiplər toplusudur. Bu prinsiplər dövlətin daimi keyfiyyətli təşkilatçılığın yenidən bərpasında özünəinamı, ədaləti aşılayır.

Резюме: Общий характер многокультурной безопасности означает защиту культурных ценностей всех народов и этнических групп независимо от их этнической, расовой, религиозной или культурной самобытности. Мультикультурная безопасность - это набор принципов. Эти принципы заставляют государство чувствовать себя самоуверенным, справедливым, качественным, постоянно обновляемым организмом.

Abstract: The general nature of multicultural security means the protection of the cultural values of all peoples and ethnic groups irrespective of their ethnic, racial, religious or cultural identity. Multicultural security is a set of principles. These principles make the state feel like a self-confident, fair, quality-constantly renewed organism.

Milli təhlükəsizlik sisteminin bir çox komponentləri vardır. İqtisadi təhlükəsizlik, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və s. hər biri ayrılıqda və bütövlükdə dövlətin yaşaması üçün vacib komponentlərdir. Bu

sistemin içərisinə mənəvi, ideoloji həyatın ayrılmaz hissəsi olan multikultural dəyərləri də bir bütöv təhlükəsizlik komponenti kimi daxil etmək vacibdir. Ölkə öz enerji, iqtisadi, milli təhlükəsizliyini qoruduğu kimi multikultural təhlükəsizliyini də təmin etməlidir.

Multikultural təhlükəsizliyin ümumi mahiyyəti etnik, irqi, dini, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması deməkdir. Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunması qarşısında yaranan problemlər inkişaf edərsə, bu etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olur. Son dövrlərdə Avropanın bir sıra ölkələrində etnik və dini radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyllərinin artması qeyd olunanların bariz nümunəsidir.

Multikultural təhlükəsizlik bir sıra prinsiplərdən ibarətdir. Bu prinsiplər dövlətin özünü inamlı, ədalətli, keyfiyyətcə daim yeniləşən bir mahiyyətə malik orqanizm kimi hiss etməsini şərtləndirir.

Multikultural təhlükəsizliyin prinsipləri aşağıdakılardır:

1. Cəmiyyət daxilindəki bütün konfessiyalara və onun nümayəndələrinə dövlət tərəfindən siyasi münasibətin bərabər şəkildə yönəlməsi.

Prezident İlham Əliyev öz çıxışlarının birində qeyd etdi ki, ondan xarici ölkələrdə tez-tez təəccüblə soruşurlar: Azərbaycanda müxtəlif konfessiya rəhbərlərinin və üzvlərinin bir-birinə belə tolerant, dostluq münasibətinin əsasında nə durur? Bunun səbəbi nədir?

Bu sualın özü bir azərbaycanlı üçün qəribə səslənir. Çünki müasir azərbaycanlı bu münasibətin mahiyyətini ruhu ilə, mənəviyyatı ilə hiss edir. O, bunun səbəbini bilməyə bilər. Udduğumuz hava, içdiyimiz su kimi bu münasibət də bizim həyatımız üçün son dərəcə vacibdir. Amma bu sualın, əlbəttə ki,

ciddi cavabı da yox deyil. Azərbaycanda belə bir mühitin olması onunla bağlıdır ki, ölkə başçısı, bütövlükdə dövlət müxtəlif konfessiyalara eyni siyasi münasibət bəsləyir, birini digərindən fərqləndirmir. Bərabər siyasi münasibət də öz növbəsində konfesiyyaların bir-birinə və hər birinin ayrılıqda dövlətə tolerant münasibətini şərtləndirir. Beləliklə, multikultural təhlükəsizliyin əsas və ən vacib prinsiplərindən biri məhz ölkə daxilindəki müxtəlif konfesiyyalara siyasi münasibətin bərabər şəkildə yönəlməsi mexanizmini qurmaqdan doğur.

2. Multikultural təhlükəsizliyin başqa bir prinsipi ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına yönəlmiş dövlət qayğısının formalaşdırılması ilə müəyyən edilir.

Azərbaycan müxtəlif xalqların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı,sevinci və kədəri birgə bölüşdüyü məkandır. Bu məkanı qədim Qafqaz albanlarının bugünki varisləri olan udilər, inqloylar, buduqlar, xınalıqlılar, qrızlar, habelə yəhudilər, talışlar, ruslar, avarlar , ləzgilər, gürcülər, kürdlər, yaxın keçmişdə almanlar və digər xalqlar və etnik qruplar öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən seperatçılarla eyni millətdən olan, ancaq bu seperatçıların əsassız iddialarını qəbul etməyən Azərbaycan ermənilər də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar və ceklilər də Azərbaycana məxsusdur. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Ulu öndər Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" (1. səh. 39). Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində - siyasətdə, iqtisadi sferada, təhsildə, mədəni-mənəvi müstəvidə, bir sözlə bütün

sahələrdə görmək mümkündür. Ölkədə məskunlaşmışbütün xalqların və etnik qrupların nümayəndələrinə dövlət tərəfindən bərabər, eyni münasibətin göstərilməsi bu prinsipin əsasını təşkil edir.

Bu gün Azərbaycanda formalaşan yeni, demokratik cəmiyyət müstəqil dövlət quruculuğunda fəal iştirak edir. Hər bir kəsin milli kimliyi onun bu gün özünü azərbaycanlı kimi hiss etməsinə mane olmur. Hər bir kəs öz ana dilində danışa, yaza bilər və özünün digər vacib olan mədəni ehtiyaclarını ödəyə bilər. Konstitusiyamzın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişməyə məcbur edilə bilməz".

Azərbaycanda yaşayan müxtəlif xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində - siyasətdə, iqtisadiyyatda, təhsildə, idmanda, mənəvi həyatda, bir sözlə bütün sahələrdə görmək mümkündür.

3. Multikultural təhlükəsizliyin bir vacib prinsipi də ölədə mövcud olan etnik-mədəni müxtəlifliyin qorunmasına və inkişafına dövlət və cəmiyyət tərəfindən dəstək verilməsinin təmin edilməsindən formalaşır.

Azərbaycanda bütün milli azlıqların dili, tarixi, ədəbiyyatı öz-özlüyündə öyrənilməsi üçün şərait vardır. Bunun nəticəsində milli azlıqlar ölkə daxilində özlərini yad elementlər kimi hiss etmirlər. Ümumazərbaycan mədəni konteksti onların hər biri üçün mənəvi məkana çevrilmişdir. Bu siyasi xətt bu gün Azərbaycan dövlətinin əsas hədəflərindən biridir.

Təhsil sahəsi ilə bağlı konkret olaraq onu qeyd etmək olar ki, müstəqilliyin ilk dövründən başlayaraq ölkəmizdə Azərbaycan dili ilə yanaşı rus və gürcü dillərində fəaliyyət göstərən orta məktəblər olmuşdur. Bundan başqa ölkəmizdə tədris ləzgi dilində olan 108 məktəb fəaliyyət göstərir. Milli

azlıqların sıx yaşadıqları bəzi rayonların orta məktəblərinin ibtidai siniflərində ana dili (avar, kürd, ləzgi, talış, saxur, tat, udi, xınalıq və s.) dərslərinin tədrisi həyata keçirilir. 2003-cü ildə Bakıda ivrit, yəhudi tarixini və mədəniyyətini tədris edən özəl yəhudi orta məktəbi açılmışdır. Bütün ali məktəblərdə rusdilli bölmələr fəaliyyət göstərir. Dövlət vəsaiti hesabına rus, avar, talış, kürd, ləzgi, saxur, tat, udi, xınalıq, ivrit dillərində əlifbalar, tədris proqramları və digər dərsliklər, məktəbli lüğətləri mütəmadi olaraq çap edilir.

Multikultural təhlükəsizliyin Azərbaycan nümunəsindəki təhlili göstərir ki, onun prinsiplərinə məqsədyönlü şəkildə riayət etdikdə ölkənin həm daxili potensialı öz zənginliklərini ən dərin qatlardan daha həvəslə üzə çıxarır, həm də ölkə öz beynəlxalq imicinə müsbət çalarlar əlavə edir. Bu sonuncu məqam 2016-cı ilin 25-27 aprel tarixlərində Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun xarici iştirakçıları tərəfindən dəfələrlə vurğulandı. Bir çox xalqların hələ də ayrıla bilmədiyi bir qarşıdurma var: "öz-özgə" qarşıdurması. Amma "öz və özgə" qarşıdurması bizim həmvətənlərimiz üçün öz kəskin əhəmiyyətini hələ orta əsrlərdə itirmişdir. Bu gün bu qarşıdurma özünün ən "yumşaq" formasını yaşayır.

Multikultural təhlükəsizliyin tərkib hissələrindən biri də ölkənin ideoloji konsepsiyasının həyata keçirilməsidir. Azərbaycançılıq ideyası – Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə yönələn bir ideyadır. Bu ideyanın əsasında Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi durur. Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi tarixi Azərbaycançılıq ideyasının formalaşması prosesi ilə bağlıdır. Bu proses XIX əsrin ikinci yarısında başlamışdır. Məlum olduğu kimi, o vaxt Azərbaycan Çar Rusiyasının bir əyaləti idi. Çar Rusiyasının millətlərarası münasibətlər siyasəti

milli azlıqların ruslaşdırılması, diskriminasiyası və istismarına əsaslanırdı. Məhz həmin dövrdə Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi Azərbaycançılıq ideyasının formalaşmasının əsas hərəkətverici qüvvəsi idi.

Tanınmış türk sosioloqu Ziya Göyalpa və qərb politoloqu Royd Cavana görə, şərq xalqlarının milli hərəkatı ardıcıl olaraq 3 mərhələdən keçir: mədəni, siyasi və iqtisadi. Şərq xalqlarının milli hərəkatı onların mədəni oyanışından başlayaraq, siyasi hərəkat formasını qəbul edir və daha sonra iqtisadi proqramların tərtib olunması mərhələsinə daxil olur.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan ədəbiyyatının, incəsənətinin və maarifçilik hərəkatının görkəmli xadimləri "mədəni Azərbaycançılıq" hərəkatına başçılıq edirdilər. Onlar Mirzə Fətəli Axundzadənin başladığı ənənəni davam etdirərək dini fanatizmi, xalqın inkişafına mane olan köhnə adət-ənənələri tənqid edir, xalqı elmə və təhsilə yiyələnməyə çağırırdılar.

yoxdur. Məscidin arxa tərəfində demək olar ki, xarabalıq şəklində olan tikililər var; yəqin burada dama pilləkən qoyulurdu...”

XX əsrin 20-ci illərində Y.Paxomovun türbə və qədim məscidin qalıqlarını nəzərdən keçirilərkən məscidin sütunlarından birinin bünövrəsi olan postamentin dar, yerdə düzəldilmiş və suvaqlanmış xəndəyi örtdüyü aşkar edildi. Xəndək türbənin yeraltı sərdabəsi ilə əlaqəlidir. Bu xəndəkdə bir neçə daş başdaşı var idi. Sərdabə nəzərdən keçiriləndə onda iyirmi insan skeletinə aid natamam sümüklər olduğu aşkar edildi. Sümüklər hər hansı bir qaydaya riayət edilmədən yığılıb. Bu da göstərir ki, türbənin olduğu yerdə və ətrafında bir vaxt qəbiristanlıq olub. Məscidin tikilməsi və özül yeri qazılanda dəfnlərin sırası pozulub. Pozulmuş qəbrlərin sümükləri yığılıb və türbəyə qoyulub, başdaşıları isə xəndəyə qoyulub. Başdaşıları saxlanmayıb.Məscidin olduğu yerdə indi vaxtilə onun içərisində olan iki sütun, həmçinin damla birlikdə divarın bir hissəsi var.

Mənbələr Seyid Yahyənin məzarının ətrafınfda,oğlu Fəthullah və Şeyx Şükrüllahın qəbrlərinin olmasını xəbər verir.Bu yerdə,1915-ci ildə on beşə qədər məzar olduğu,1920-ci illərdə aparılan berpa və qazıntılar əsnasında Seyid Yəhyanın məzarı ətrafında məzar daşları tapılmış və türbənin sərdabəsindən on səkkiz insan skeleti aşkarlanıb.XX əsrin əvvəllərində araşdırmaçılar və şəhərin sakinləri məzarlarının sökülməsi və onların sümüyü türbəyə salındığı barədə məlumat verdilər [11].Şirvansahlar sarayı kompleksində divar üzərində xüsusi naxışlar,xəttatlıq işləri nəzərə çarpır.Bu yazılar sayəsində tarixləri aydınlaşdırmaq daha da asanlaşır.Ümumiyyətlə daş üzərində oyma sənəti Şirvan-Abşeron memarlıq məktəbində geniş yayılmışdır.Şirvanşahar sarayı da elə buna çox gözəl nümunədir.Divanxananın və türbənin baş portallarında timpan hörgüsündə incə ornamentlər işlənmişdir. Burada bəzən ornamentlərin eni 2mm,dərinliyi isə 20mm-ə çatır.Timpanda əsas

yeri nəbati ornamentlər tutur.Daş üzərində oyma iş prosesi əsas üç prosesdən ibarətdir:
1) Ornament fonunun dəyişilməsi;
2) Ornamentə qabarıq fonun verilməsi;
3)Detalların hazırlanması.

XII-XV əsrlərdə Azərbaycanın tikinti mədəniyyətində ornamentlə bəzədilmə texnikasında başqa bir üsuldan da oyma üsulundan istifadə edirdilər. Buna misal olaraq Seyid Yəhya Bakuvi türbəsində daş üzərində oyma ornamenti – daş şəbəkəsini göstərmək olar. Burada daş şəbəkə pəncərə boşluğunu tutmuşdur. Qeyd etmək lazımdır ki, divarlara oyma üsulu ilə üz çəkilmə Yaxın Şərq ölkələrində xüsusilə İranda, Əfqanıstanda və Orta Asiyada geniş yayılmışdır [2].

Şirvanşahların türbəsi Şirvanşahlar saray kompleksinin aşağı həyəti ərazisində yerləşən üç tikilidən biridir. Türbəyə yuxarıdan baxdıqda kəsmə ulduzlarla bəzədilmiş və altıbucaqlı günbəzlə tamamlanmış düzbucaqlı olması görünür. Orta əsrlərdə günbəz üzərindəki ulduz şəkilli yarıqlara mavi rəngli kaşı yerləşdirilmişdi. Binanın simasının mənalığını kompozisiyanın aydınlığı və memarlıq formalarının təfsirinin ciddiliyi müəyyən edir. Gözəl və ustalıqla yerləşdirilmiş işıq və kölgə ləkələrinin təzadına cəhd, üfüqi detallara şaquli detalların, həmçinin sıx naxışlı böyük səthlərə daş hörgü şəbəkələrinin qarşı qoyulması, Şirvan memarlıq çevrəsi üçün ənənəvi şəkildə səciyyəvidir, oyma naxışlar isə ustalıqla yerinə yetirilmişdir. Giriş üzərindəki kitabə bu tikilinin inşa tarixi və memarı haqqında məlumat verir. Orada yazılmışdır: “Dinin müdafiəçisi, peyğəmbərin adamı, böyük sultan Şirvanşah Xəlilullah, Allah onun şahlığını və hakimiyyətini daimi etsin, bu işıqlı türbəni öz anası və yeddi yaşlı oğlu üçün, Allah onlara rəhmət eləsin, tikdirməyi əmr etdi, 839-cu il”. 1954-cü ildə şərqşünas alim Ə.Ələsgərzadə portal üzərindki bu yazıları oxumuşdur. Digər

yazılar Quran surələrindən götürülmüşdür. Portalı bəzəyən medalyonda yalnız güzgü vasitəsilə oxunan yazı ilə memarın adı yazılmışdır: "Allah, memar Məhəmməd Əli". Məlumdur ki, memarlara tikililər üzərində öz adlarını yazmaq qadağan olunmuşdu.[1] Ona görə də sənətkar öz adını bu yolla şriftləşdirmişdir. Bu isə memarlıq əqlinin kəskinliyini və ziddiyyətdən çıxış yolu tapma məharətini və işini layiqincə yerinə yetirdiyini göstərir. M. Nemət isə belə qərara gəlmişdir ki, türbənin giriş portalı üzərindəki medalyonda memarın adı yazılmayıb. O, medalyondakı yazını belə oxuyur: "Əlhəmdülillahi və əla həəma'ihi" (Allaha və onun nemətlərinə həmd olsun). Türbə binasının sonradan mədrəsə kimi istifadə edilməsi, həmin qəbirlərin pis vəziyyətə salınması ilə nəticələnmişdir.[9] 1947-ci ildə türbə təmir edilərkən aparılan arxeoloji qazıntılar zamanı döşəmənin səthindən xeyli dərində 6 qəbir meydana çıxarılmışdır.

XV əsrdə tarixçi Xondəmir *"Xəbisus-as-Siyar"* adlı əsərində yazır ki, Səfəvi şahı I İsmayılata və babasının qisasını almaq üçün söz vermişdir ki, Şirvanşahların sümüklərini bifrət odunda yandıraraq külünü göyə sovurub, onları təhqir edəcəkdir. Görünür, 1501-ci ildə Bakının Səfəvilər tərəfindən ələ keçirilməsi zamanı, iki qəbir açılmış və oradakı sümüklər məhv edilmişdir. Digər beş qəbirə isə toxunulmamışdır.

Şirvanşahların saray şairi olmuş Bədr Şirvani qəsidə, mədh və qəzəllərində burada dəfn edilənlərin adları ayırd edilmiş və dəqiqləşdirilmişdir. Bədr Şirvani XIV əsrin sonu-XV əsrin sonlarında Şirvanın ən məşhur şairlərindən biri olmuşdur. Onun 12473 beytdən ibarət külliyatı Şirvan hakimlərinə, vəzirlərinə, məhkəmə işçilərinə həsr etdiyi mədhlər ayrı-ayrı tarixi şəxslərin xüsusiyyətləri, Şirvanın dövlət və ictimai quruluşunu öyrənmək baxımından çox əhəmiyyətlidir. Bu külliyatına daxil olan əsərlərində Bədr türbədə dəfn edilmiş şah nəsli nümayəndələrinin

adlarını və anadan olduğu illəri göstərmişdir. Birinci qəbirdə Şirvanşahın 6-7 yaşlı oğlu Fərrux Yəmin dəfn edilmişdir. Kəllə sümüyündə və döş qövsündə tüklər qalmışdır. Sümükləri təmizlənərkən kəfən qalıqlarının olması müəyyənləşdirilmişdi. Məbədlərdən birində qeyd olunur ki, Şirvanşahın bu oğlu (1435-1442) 7 yaşında vəfat etmişdir. İkinci qəbir qoca qadına məxsusdur. Bunu onun dişləri və sümüklərinin nazikliyi də sübut edir. Mədhlərin birində Şirvanşahın anasının adının Bikə olması və çox hörmətli qadın kimi tanınmasını, hicri təqvimi ilə 839-cu ildə (1435-1436) vəfat etməsi qeyd olunur. Üçüncü qəbirdə Şirvanşah Şahruxun həyat yoldaşı olan Xanikə xanım dəfn edilmişdir. Bədr Şirvani öz mədhlərində Xanikə adını yada salaraq onun sultanlara layiq gözəlliyindən danışır. Xanikə xanım Qara Yusifin əsiri olub, onun ölümündən sonra Şirvanşah Şahruxun yanına gətirilmiş və zəngin toy mərasimindən sonra ərə getmişdir.

Dördüncü qəbirdə Şirvanşahın Şeyx Salah adlı iki yaşlı oğlu dəfn edilmişdir. O, hicri tarixi ilə 847-849-cu illərdə (1443-1445) yaşamışdır. Bu qəbirdən şirli keramika və çilçıraq hissələri aşkarlanmışdır. Beşinci qəbir 19 yaşlı II İbrahimin (1432) qəbridir. Bu qəbirdən ipək parçanın qalıqları, mavi muncuq, iynəsinin uzunluğu 36 sm olan qızıl sancaq aşkar olunmuşdur. Sancaq üzərində bir firuzə və altı yaqut qaş yerləşdirilmişdir. Girişin əks tərəfində iri bədənli, hündürlüyü 2.10 metr olan skelet aşkar edilmişdir. Bu məzarın I Xəlilullahın özünə aid olması ehtimal edilir.Buradan daraq və qızıl sırğa tapılmışdır.

Beləliklə məqalənin nəticəsi olaraq onu deyim ki, Şirvanşahlar saray kompleksi dünya inciləri arasında qiymətli bir abidədir.Ona daxil olan türbələr və başqa tikililər isə tarixi araşdırmağa, təbliğ etməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. İskəndər Tağıyev–Şirvanşahlar Sarayı,yaxud Seyid Yəhya Bakuvinin Xanəgahı,Bakı,2004,152 səh.
2. K.M.Məmmədzadə - Azərbaycanda inşaat sənəti,"Elm"nəşriyyəti,1976,210 səh.
3. "İrfan jurnalı" Rafiz Manafov,2008,Səh 7,12.
4. A.Bakıxanov "Gülüstani İrəm" Bakı,1951,302 səh)
5. S.Aşurbəyli " Şirvanşahlar dövləti" Bakı-2006,189 səh
6. Şamil Fətullayev "Azərbaycanın şəhərsalma və memarlığı" "Şərq-Qərb" nəşriyyat evi,2013,480səh https://az.wikipedia.org/wiki/%C5%9Eirvan%C5%9Fahlar_saray%C4%B1
7. https://nedir.az/turb%C9%99-nedir-turb%C9%99-haqqinda
8. http://www.azerislam.com/?lngs=aze&cats=1&ids=1197
9. https://az.wikipedia.org/wiki/Seyid_Y%C9%99hya_Bakuvi
10. http://yabende.com.tr/?p=19474
11. https://az.wikipedia.org/wiki/%C5%9Eirvan%C5%9Fahlar_t%C3%BCrb%C9%99si

Orxan MƏMMƏDOV
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistr

GƏDƏBƏY AZƏRBAYCANIN ƏN QƏDİM MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

КЕДАБЕК КАК ОДИН ИЗ ЦЕНТРОВ ДРВНЕЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

GADABAY AS ONE OF THE CENTERS OF THE AVERAGE CULTURE OF AZERBAIJAN

Açar sözlər: tarix, Gədəbəy, irs, yaradıcılıq, mədəniyyət, məbəd, abidə.

Ключевые слова: история, Гадабай, наследие, творчество, культура, храм, памятник

Key words: history, Gadabay, heritage, creation, culture, temple, monument

Xülasə: Bu məqalə Gədəbəy bölgəsi haqqında məlumat verir. Gədəbəy rayonu Azərbaycanın ən qədim bölgələrindəndir, inkişaf yolu böyükdür. Paleolit dövründən bəri Gədəbəy bölgəsində müxtəlif növ mədəniyyət nümunələri yaradılmışdır. 19-cu əsrə bəri bölgədə geniş miqyaslı araşdırmalar aparılmışdır. Bu tədqiqatlar nəticəsində xeyli sayda materiallar əldə edilmişdir. Təəssüf ki, bu nümunələrin əksəriyyəti ölkədən çıxarıldı. Hal-hazırda dünyanın müxtəlif muzeylərində nümayiş olunur.

Резюме: Эта статья содержит общую информацию о культуре и истории региона Гедебей. Гадабайский район стал одним из старейших регионов Азербайджана, с огромным путем развития. Различные типы культурных образцов были созданы в регионе Галеб со времен палеолита. Первоначальная история исследований этих примеров восходит к 19 веку. С тех пор в регионе проводятся масштабные исследования. В результате этих исследований были получены тысячи ценных артефактов. К сожалению, большинство этих образцов было выслано из страны. В настоящее время он выставлен в различных музеях по всему миру. Единственная причина, по которой исследуется культура

Abstract: This article provides general information on the culture and history of the Gedebey region. Gadabay region has become one of the oldest regions of Azerbaijan, with a great development path. Various types of cultural samples have been created in the Galeb region since the Paleolithic era. The initial

research history of these examples dates back to the 19th century. Since then, large-scale research has been carried out in the region. As a result of these studies thousands of valuable artifacts have been obtained. Unfortunately, most of these samples were expelled from the country. It is currently exhibited in various museums around the world.

Azərbaycan dünyanın ən qədim insan məskənlərindən biridir. Buranın üstün coğrafi xüsusiyyətləri ta qədim dövürlərdən bu günə qədər insanların diqqətini cəlb etmişdir. Elə bu faktın nəticəsidir ki, ölkəmiz rəngarəng etnik tərkibə sahibdir. Təbii ki, bu faktın yeganə üstünlüyü bu deyil. Bununla yanaşı məskunlaşmanın uzaq keçmişə təsadüf etməsi mədəniyyətin uzun inkişaf yolu keçməsinə səbəb olmuşdur. Çox əsrlik inkişaf yolu keçən Azərbaycan mədəniyyəti bir çox amillərin təsiri ilə bu gün ki, formasını almışdır. Vahid şəkildə öyrənilən Azərbaycan mədəniyyəti tarixi, tipoloji və regional olaraq bir çox qruplara bölünür. Təkcə mədəniyyətin maddi və mənəvi olmaqla 2 əsas qrupdan formalaşdığını düşünsək, nəyi nəzərdə tutduğumu anlamış olarıq. Regionun özünəməxsus xüsusiyyətləri, müxtəlif coğrafi amilləri özündə cəmləməsi və eyni zamanda daşıdığı tarixi əhəmiyyət bizi vadar edir ki, ölkəmizin hər bir rayonunu ayrı – ayrılıqda tədqiq edək. Minilliklər ərzində burada yaradılan maddi və mənəvi mədəniyyət nümunələrini ayrı – ayrılıqda tədqiq etdikdə bir çox gizli məqamlar üzə çıxmış olur. Qeyd etdiyimiz məsələ respublikamızın şəhər və rayonlarının maddi və mənəvi mədəniyyət nümunələrinin tədqiqinə də birbaşa addir. Nəzərə alsaq ki, ölkəmiz 10 şəhər, 59 rayon, 1 şəhər , 7 rayondan ibarət olan 1 muxtar respublikadan ibarətdir. Deyə bilərik ki, qeydə alınan fərqliliklər başa düşüləndir. Azərbaycan xalqının inkişafında mühüm rol oynamış ölkənin inzibati ərazi quruluşu onun ərazi bölgüsünün coğrafi əsasını təşkil edir. Azərbaycanın yaşayış məntəqələrinin yaranması qədim zamanlardan başlayaraq mürəkkəb tarixi dövr

keçmişdir. Hər bir tarixi dövrdə məskunlaşma sisteminin təşəkkülü, yüksəlməsi və tənəzzülü prosesləri baş vermiş və bunun üçün konkret iqtisadi-siyasi zəmin yaranmışdır. Mövcud olan sosial, iqtisadi münasibətlərin dəyişməsi ilə birgə dövlətin inzibati ərazi quruluşu da dəyişmişdir. Hakimiyyətə gələn sinif özünə xas olan dövlət quruluşunu və ona uyğun inzibati ərazi bölgüsünü yaratmışdır. Azərbaycanda ictimai quruluş dövlətlər, əmirliklər, bəylərbəyiklər, xanlıqlar, sultanlıqlar, vilayətlər, əyalətlər, quberniyalar, qəzalar, dairələr, mahallar və rayonlardan ibarət olmaqla bir neçə dəfə köklü surətdə dəyişmişdir. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində bir çox xırda xanlıqlar və sultanlıqlar digərləri ilə birləşmişdi. Azərbaycanı öz təsir dairəsinə salmaq uğrunda aparılan rəqabət nəticəsində 1801-1828-ci illər ərzində Azərbaycan bir sıra imperiyaların təcavüzlərinə məruz qalmışdır [4]. "Azərbaycan 20 – ci əsrin sonlarına qədər müxtəlif fasilələrlə ərazi itirmişdir. Bu itkilər özü ilə bərabər bir çox mədəniyyət nümunəsinin məhvini və itkisini gətirmişdir. I Qarabağ müharibəsi zamanı yalnız hal – hazırda işğal altında olan torpaqlarda yerləşən maddi mədəniyyət nümunələri deyil, Gədəbəy, Qazax, Tovuz kimi sərhəd zonalarında yaradılmış nümunələr də məhv olmuş və ya dağıntılara məruz qalmışdır. Bu fakt əyani olaraq tədqiq etmək imkanı olan və siyasi və coğrafi olaraq bir çox məqamlarla diqqət cəlb edən bu rayonların tədqiqi məsələsini vacib nüansa çevirir. Xüsusilə də qeyd etsək ki, sərhəd rayonların maddi mədəniyyəti bu günə qədərdə diqqətdən kənarda qalır, Gədəbəy məəniyQərb və cənub-qərb tərəfdən 123 km məsafədə Ermənistan Respublikası ilə, şimal tərəfdən Azərbaycan Respublikasının Tovuz, şimal-şərq və şərq tərəfdən Şəmkir və Daşkəsən rayonları ilə həmsərhəddir. Mərkəzi Gədəbəy şəhəridir. Gədəbəy şəhəri 1935-ci ildən 1990-cı ilədək şəhər tipli qəsəbə, 1990-cı ildən isə şəhər adlanır. Rayonda 40 inzibati ərazi vahidi var. Rayona Gədəbəy şəhəri və Qoşabulaq, Totuxlu, Pərizamanlı, Samanlıq, Moruxlu, Nərimankənd, Çanaqçı,

Slavyanka, Maarif, Zəhmətkənd, Qarabulaq, Xar-xar, Soyuqbulaq, Ərtəpə, Pirbulaq, Söyüdlü, Arıqdam, Qaradağ, Daşbulaq, Düzyurd, Talakənd, Dəyərqarabulaq, Musayal, Miskinli, Plankənd, Qalakənd, Çalburun, Çaldaş, Səbətkeçməz, Əlinağılar, Arısu, Gərgər, Yenikənd, Qarıkənd, Dəyirmandağ, Quru-dərə, Köhnəkənd, Sarıköynək, Hacıələkbərli, Şəkərbəy, Heydərli, Gödək-dərə, Sarıhəsənli, Yaqublu, Qasımağalı, Əmiraslanlı, Kiçik Qaramurad, Leşgər, Parakənd, Qarovultomba, Daryurd, Cəfərli, Nağılar, İnəkboğan, Köhnəqışlaq, Kərimli, Qasımlı, Anqıran, Əyrivəng, Böyük Qaramurad, Qurudərə, Ataxal, Toplar, Poladlı, Kələman, Emir, Höriknaz, Qozqaralı, Qaraməmmədli, Kəsəmən, Qıziltorpaq, Novosaratovka, Novoivanovka, Çobankənd, Yenikənd, Arabaçı, Mutudərə, Qasımağalı, Dördlər, Cücənli, İsalı, Arabaçı, Fərzalı, Mormor, Zamanlı, Düzrəsullu, Təkyemişan, Rəhimli, Hüseynqululular, Gərməşeyli, Göyəmli, Çayrəsullu, Bəydəmirli, Turşsu, Kollu, Şınıx, Hacılar, Sonalar, Əyridərə, Qaravəllilər, Məmmədcəfərli, Rəmə, Tərs yer, Günəşli, Əliismayıllı, Hacılılar, Şahdağ, Göyəlli kəndləri daxildir. Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşir. Ərazisi Şahdağ silsiləsinin şimal yamacını, Başkənd-Dəstəfur çökəkliyinin və Şəmkir dağ massivinin bir hissəsini əhatə edir. Ən yüksək zirvələri: Qoşabulaq (3549 m), Qocadağ (3317 m), Qaraarxac (3063 m) və s. Rayonda Yura, Tabaşir, Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Qara və ağ mərmər, mis, qızıl, firuzə yataqları var. Yayı quraq keçən mülayim isti, qışı quraq keçən soyuq iqlim üstündür. Orta temperatur yanvarda -10°C-dən -2°C-yədək, iyulda 10-20°C-dir. İllik yağıntı 600-900 mm-dir. Çay şəbəkəsi sıxdır. Axınca, Zəyəm və Şəmkir çaylarının yuxarı axını rayon ərazisindədir. Qonur dağ-meşə, çimli dağ-çəmən və s. torpaqlar yayılmışdır. Orta dağlıqda kollu və seyrək meşəli çəmənliklər, enliyarpaq meşələr (palıd, fıstıq, vələs), yüksək dağlıqda subalp və alp çəmənlikləri geniş yer tutur. Heyvanları: qayakeçisi, cüyür, qonur ayı, canavar və s. Quşları: tetra, ular, qartal

və s. Qızılca Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Gədəbəy, əsasən, kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında kartofçuluq, heyvandarlıq və taxılçılıq əsas yer tutur. Rayonda kərpic, əhəng istehsal olunur, mineral və süfrə sularyətinin tədqiqi məsələsinin nə qədər vacib olduğun anlamış oluruq" [4, s.77]. Bu qeydlər Gədəbəy rayonunun coğrafi, iqtisadi, ekoloji və demoqrafik vəziyyətini əks etdirir. Bütün bunlarla yanaşı Gədəbəy ta qədim zamanlardan regionun mədəniyyət mərkəzlərindən biri olmuşdur. Baxmayaraq ki, bu rayon ilkin şəhər mərkəzlərindən biri deyil, bununla belə bütün dövürlərdə öz tarixi əhəmiyyətini saxlamışdır. Çox təəssüflər olsun ki, uzun illər Gədəbəy rayonu və ətraf kəndlər tədqiqatdan kənarda qalmışdır. Bunun da əsas səbəbi dünyəvi məktəblərin olmaması və kadr çatışmazlığı idi. Gədəbəy rayonunun inkişaf salnaməsi başlıca iki mərhələdən təşkil olunmuşdur. Birinci mərhələ regionda xristianlığın yayılması ilə əlaqədardır. Tarixdən də bildiyimiz kimi Azərbaycanın qərb bölgələri xristianlığı daha tez və geniş şəkildə qəbul etmişdir. Bu mərhələdə Gədəbəy və ətraf kəndlər bir çox dəyərli memarlıq abidəsi ilə zənginləşmişdir. Təbii ki, bundan əvvəlki dövürlərdə də bir çox arxeoloji və tarixi memarlıq abidəsi yaradılmışdır. Xristianlıqdan əvvəl yaradılan nümunələr həmin dövürdə də öz mövcudluğunu qorumaqda idi. İkinci mərhələ almanların buraya gəlməsi ilə əlaqədardır. Almanlar buraya gəldikdən sonra qədim ənənələr əsasında formalaşan Gədəbəy memarlığı müasir ənənələrə keçid etdi. Lakin bu fakt Paleolit dövründən başlayaraq inkişaf edən Gədəbəy mədəniyyətinin qədimiliyini kölgə altına sala bilməz. 19-cu əsrin ikinci yarısından etibarən yerli və əcnəbi mütəxəssislər tərəfindən Gədəbəy ərazisində arxeoloji qazıntılar aparılmışdır. Bu qazıntı və tədqiqatlar nəticəsində Gədəbəyin tarixinə dair bir çox nümunələr aşkarlanmışdır. Aşkarlanan nümunələr əsasən iki qrupa bölünür: abidələr və artefaktlar. Bu nümunələr də öz növbəsində bir neçə tipoloji qrupa bölünür. Hələ 19 – cu əsrin ikinci yarısında almanlar

tərəfindən burada aparılan qazıntılar nəticəsində arxeoloji abidələrlə yanaşı bir çox qiymətli zinət əşyası, məişət əşyası, silahlar və s. tapılaraq Almaniya və Avropanın digər ölkələrinə aparılmışdır. İlkin qazıntılar zamanı əsasən qəbir abidələri aşkarlanaraq talan edilmişdir. Sadaladığımız nümunələr hamısı Xocalı – Gədəbəy mədəniyyəti nümunələridir. Xocalı – Gədəbəy mədəniyyətinin inkişaf tarixi ibtidai icma dövründən başlayır. Bu məlumatlar bir çox qaynaqlarda öz əksini tapır. Xüsusilə arxeoloji qazıntıların nəticələri toplanan elmi mənbələrdə daha ətraflı tanış olmaq mümkündür. "Kəlbəcərdə Yazyurdu adı ilə tanınan ilk tunc dövrü yaşayış yeri Qaraarxac çayının sahilində yerləşir. Bu yaşayış yerinin ətrafı 2 metr qalınlığı olan müdafiə divarı ilə əhatə edilmişdir. Daşkəsən ərazisində və Tovuz rayonunun dağlıq yerlərində qismən də olsa tikili qalıqlarını araşdırmış, onların bir neçəsinin daxilində yerüstü zəngin arxeoloji material əldə edilmişdir. Müəyyən edilmişdir ki, bütün bu tikililər qədim maldar əhali tərəfindən inşa edilmişdir. Açıq, dəyə tipli bu tikililərdən maldarlar özləri və mal-qara üçün sığınacaq kimi istifadə etmişlər. Heç şübhəsiz ki, bütün bu tikililər mövsümi səciyyə daşımışdır. Gədəbəy ərazisində isə daş tikinti qalıqları dağətəyi və düzən ərazilərinin oturaq əkinçi-maldar əhalisinin yaylaq maldarlığı ilə əlaqədar yay aylarında yaşadıqları dəyə tipli yurdların bünövrələridir. Qeyd edilən yurd yerlərinin, dəyələrin tikintisində heç bir bərkidici məhluldan istifadə edilməmişdir. Hörgüdə əsasən iri (50-60 x 30-40 sm) daşlardan istifadə edilmiş, onların araları isə kiçik ölçülü daşlarla doldurulmuşdur. Divarların hündürlüyü çox güman ki, 1,5 m-dən artıq olmamışdır. Şübhəsiz ki, təbii-coğrafi şərait amili burda əsas götürülməlidir. Tikinti materialı kimi ərazinin iri qaya parçaları və ağır çay daşlarından istifadə edilmişdir. Qazıntı zamanı əldə edilən tapıntılar saxsı qabların qalıqlarından ibarətdir. Onlar qazıntının bütün sahəsindən aşkar edilmişdir. Bu keramika nümunələrinin bir neçəsi son tunc-ilk dəmir dövrünə, qalanları isə orta əsrlərə aiddir.

Son tunc-ilk dəmir dövrü saxsı məmulatı narıncı rəngdə olub zəif bişirilmişdir. Gilinin tərkibinə iri dənəli qum qatılmışdır. Bu saxsı məmulatının hamısı çox da böyük olmayan qabların gövdə hissələrinə aiddir" [3, s. 12-13]. Gədəbəy və ətraf rayonlardan aşkarlanan maddi mədəniyyət nümunələri istifadə olunan material və təsvir xüsusiyyətləri iə bir çox məqamlarda özünəməxsusluğunu qoruyur. Belə ki, Gədəbəydə aşkarlanan artefaktlar daha çox dini simvolikaya meyllidir. Bu cəhət özünü bir çox məqamlarda , dəfn xüsusiyyətlərində, əşyaların bəzədilməsində və s. Geniş əksini tapır. "Xocalı-Gədəbəy mədəniyyəti abidələri həm də emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası, demək olar ki, eynidir. Qəbirlərdən tunc qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardaq, qazan, cilov, bilərzik, üzük, sümükdən düzəldilmiş bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilmişdir" [7]. Hələ ibtidai icma dövründə Gədəbəy ərzaisində ilkin yaşayış obyektləri inşa edilməyə başlanmışdır. Mağaralardan kənara çıxan insanlar ilk vaxtlar siklopik tikililər, sonralar isə yaşayış evləri inşa etməyə başlamışlar. Gədəbəy dağlıq ərazi olduğundan əsas tikinti materialı bütün dövrlərdə daş olmuşdur. Bu xüsusiyyətin əsas üstün cəhəti ondan ibarətdir ki, əksəriyyət nümunələr bu günə qədər öz mövcudluğunu qorumuşdur. Ümumilikdə Xocalı – Gədəbəy mədəniyyətinin bir hissəsi olan Gədəbəy mədəniyyəti Belk, E.Resler, M.Mansurov, R.Göyüşov, N.Qədirova kimi tədqiqatçılar tərəfindən tədqiq edilmişdir. Bütün bu tədqiqatlarda Gədəbəyin tarixi və mədəniyyəti müəyyən qədər öz əksini tapmışdır. "Xocalı-Gədəbəy mədəniyyətinin ən yaxşı öyrənilmiş abidələrindən biridir. Abidə Xocalı yaxınlığındakı Tunc

dövrü qəbiristanlığıdır. Burada çox da böyük olmayan kurqanlar və kromlexlər aşkar olunmuşdur. Bu kurqanlarda tək və kollektiv dəfnlər olmuşdur. Bəzi kurqanlarda yandırma adəti də qeydə alınmışdır. Abidələrdən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika, silah və bəzək əşyaları aşkar edilmişdir. Xocalıda tədqiq edilən 11 №- li kurqan, xüsusilə əhəmiyyətli nəticələr vermişdir. Bu kurqandan Assuriya padşahı Adadnirarinin adı yazılmış muncuq tapılmışdır. İ.İ. Meşaninov bu muncuğu e.ə. VIII əsrə aid etmişdir. Lakin, sonrakı tədqiqatlarda tədqiqatçılar bu muncuğu I Adadnirarinin yaşadığı dövrə, yəni təqribən e.ə. IX əsrin sonu və VIII əsrin əvvəlinə aid edirlər. Xocalı kurqanlarından tapılan təsərrüfat küplərinin birinin qulpunda buğda təsviri vardır" [3, s.198]. İstinadda qeyd olunan əlamətlər Gədəbəy mədəniyyəti nümunələrində də öz əksini tapır. Başlıca olaraq onu qeyd etməliyik ki, Gədəbəy mədəniyyət nümunələri yalnız özünün deyil, bütünlükdə Azərbaycanın qərb bölgələrinin müxtəlif dövürlər üçün siyasi, iqtisadi və mədəni vəziyyətini əks etdirir. Gədəbəy öz folklor nümunələri ilə Azərbaycan mədəniyyəinə böyük töhvələr vermişdir. Rayon və ətraf kəndlərdə uzun əsrlər ərzində formalaşan musiqi nümunələri, şifahi xalq ədəbiyyatı nümunələri bir çox məqamlarda ətraf rayonlara geniş təsir göstərmişdir. Təkcə Gədəbəy aşıq mədəniyyətinin üslub xüsusiyyətləri Qərbi Azəbaycan, Borçalı, Qazax və s. ərazilərin aşıq yaradıcılığında öz təsirini göstərməsini qeyd etmək kifayətdir. "Aşıq ədəbiyyatına aid nümunənin folklorun digər nümunələri ilə eyni sırada xatırlanması fürsətindən istifadə edib bir məsələyə də toxunmaq istəyirik. Bu məqamda toxunmağa ehtiyac duyduğumuz məsələ tək Gədəbəydə yox, ümumən Gəncəbasar bölgəsində aşıq sənətinin yeri və çəkisi ilə bağlı məsələdir. Aşıq sənətinin bu bölgədə nə qədər mötəbər yer tutması, ağır çəkisinə görə necə sayılıb-seçilməsi şəksiz-şübhəsizdir. Amma bu mötəbərlik və sayılıb-seçilmək biz folklorşünaslara əsas vermir ki, Gəncəbasar folklorunun digər sahələrinə biganə yanaşaq,

gəncəbasarlının yaşayış, davranış və düşüncə tərzində bola-bol qorunub saxlanan etnoqrafik zənginliyə göz yumaq. Əgər oğuzlar (yerli ləhcə ilə desək, uğuzlar) haqda rəvayətlər ən çox bu bölgədən toplanırsa; Hal (Hal anası, Hal arvadı) haqda məlum və məşhur mətnlərə bu bölgədə "yeni" portret cizgiləri əlavə olunursa; ruhların çağırılması ilə səciyyəvi olan şaman mərasimlərinin izlərini bu bölgədə tapmaq heç bir çətinlik törətmirsə; biz folklorşünasların əli ilə dolaşığa salınmış Novruz kələfinin açılıb-çözülməsində bu bölgədən toplanmış materiallar köməyimizə gəlirsə, onda doğrudan da, bu bölgədəki etnoqrafik zənginliyə biganə qalmağa haqqımız yoxdur" [6, s. 11 - 12]. Burada da qeyd olunduğu kimi Gədəbəy folkloru və etnoqrafiyasının tədqiqi yalnız bir rayonun taleyi baxımından deyil, regional baxımdan qiymətləndirilmədi və tədqiq olunmalıdır. Bu tədqiqat işi imkan verəcək ki, dünyanın ən qədim insan məskənlərindən biri olan Gədəbəy rayonunun turizm imkanlarını və ehtiyatlarını daha məhsuldar şəkildə istifadə edək.

ƏDƏBİYYAT

1. Alışov N., "Gədəbəyin xristian abidələri", AMEA – Xəbərlər (Tarix, Fəlsəfə, Hüquq), № 1, 2013
2. Haqverdiyev. T, Gədəbəy: Ulu yurdun yaddaşı, Bakı, 1998
3. Azərbaycan arxeologiyası, I cild. Bakı: s.12-13, 198.
4. İnzibati vahidlər (elektron resurs), s.77
5. Məmmədova G., Qafqaz Albaniyası abidələri, Bakı, 2004
6. Gədəbəy folklor örnəkləri, Bakı,2016, s 11,12
7. http://medeniyyet.az/page/news/12835/XocaliGedebeymedeniyyeti .html?lang=en
8. http://map.virtualkarabakh.az/monument.php?ID=225
9. www.preslib.az
10. www.azerbaijan.tourism.az
11. http://medeniyyet.az/page/news/6358/Gedebey--tarixi-abideler-diyari.html

Səbinə ƏLİYEVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr

ETNOMUSİQİŞÜNAS-ALİM BAYRAM HÜSEYNLININ ELMI YARADICILIĞINDA AZƏRBAYCAN XALQ RƏQSİ MÖVZUSU

ТЕМА АЗЕРБАЙДЖАНСКОГО НАРОДНОГО ТАНЦА В НАУЧНОМ ТВОРЧЕСТВЕ ЭТНОМУЗЫКОВЕДА-УЧЕНОГО БАЙРАМА ГУСЕЙНЛИ

THEME OF AZERBAIJANI NATIONAL DANCE IN THE SCIENTIFIC WORKS OF ETHNOMUSICOLOGIST SCIENTIST BAYRAM HUSEYNLI

Açar sözlər: etno-musiqişünas, Bayram Hüseynli, xalq rəqs musiqisi, qeydlər, elmi məqalələr, konfrans nitqləri, metodik işlər, akademik məsləhətçi.

Ключевые слова: этномузыколог, Байрам Гусейнли, народная танцевальная музыка, нотные записи, научные статьи, доклады конференций, методические работы, научный руководитель.

Keywords: ethno-musicologist, Bayram Huseynli, folk dance music, note remarks, scientific articles, conference speeches, methodical works, academic adviser.

Xülasə: Professor, etnomusikoloq Hüseynli Bayramın tədqiqat işinin əsas mövzusu Azərbaycan xalq rəqs musiqisi idi. Məqalədə bu sahə üzrə tədqiqat işi aparılmışdır.

Резюме: Основной темой научно-исследовательской работы профессора, учёного-этномузыколога Гусейнли Байрама являлась азербайджанская народная танцевальная музыка. Изучение темы «Народной танцевальной музыкиАзербайджана» в творчестве Байрама Гусейнли охватывает разные виды работы. На протяжении всей своей жизни он изучал, углублял и пропагандировал эту область как ученый, педагог и композитор.

Abstract: Azerbaijani folk dance theme is the main subject of the research work of professor, ethno-musicologist - scientist Bayram Huseynli.

The research works of Bayram Huseynli on "Azerbaijan folk dance music" is diverse and the ethno-musicologist studied and developed this sphere throughout the lifetime as a scientist, educator, composer.

XX əsrdə Azərbaycan xalq rəqsi mövzusuna bir çox görkəmli musiqişünas-alimlərimiz müraciət etmişlər. Rəqslərin toplanılması, nota köçürülməsi, klassifikasiyası, melodik və ritmik təhlillər əsasında öyrənilməsi bu günə qədər musiqişünaslarımızın maraq dairəsindədir. Yeni dövrdə də Azərbaycan rəqs musiqisi istiqamətində bir çox kitablar nəşr olunmasına baxmayaraq, mövzunun öyrənilməsində Bayram Hüseynlinin elmi yaradıcılığı əsas mənbələrdən biri olaraq qalır. Professor, etnomusiqişünas Hüseynli Bayram Xəlil oğlu (1923–1992) XX əsrin görkəmli alimi, musiqişünası V.Belyayev

məktəbinin parlaq nümayəndələrindən biri olaraq, onun metodoloji prinsiplərini davam etdirib. B.X.Hüseynli Azərbaycan musiqi elmində xalq rəqs musiqisi ilə bağlı ilk fundamental tədqiqat işinin müəllifidir. O, 1959–1962-ci illərdə Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun aspiranturasında namizədlik işi üzərində çalışıb, 1966-cı ildə «Azərbaycan xalq rəqs musiqisi» mövzusunda dissertasiya müdafiə edərək, sənətşünaslıq namizədi elmi dərəcəsi alıb.

1984-cü ildə B.Hüseynli tərəfindən "Azərbaycan xalq musiqi yaradıcılığı" kursu üçün tərtib olunan proqram, biblioqrafiya və notoqrafiya kitabçasında müəllifin həmin dövrə qədər yaratdığı bütün əsərlərin siyahısı verilib. Bu proqramın müxtəlif bölmələrində onun 41 elmi işinin adı qeyd olunub. B.Hüseynlinin yaradıcılığında Azərbaycan xalq rəqsi mövzusu əsas xətt idi və bu mövzu istiqamətində onun fəaliyyəti çox genişdir. Alimin həmin sahədə gördüyü işlərin nəticələrini qeyd edək:

1) Bir neçə xalq məcmuəsinin redaktoru və şərhlərin müəllifi olub.

2) "Azərbaycan xalq rəqs musiqisi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

3) İki dəftərdən ibarət «Azərbaycan xalq rəqs melodiyaları» məcmuəsi nəşr olunub. Məcmuənin birinci dəftərinə (1965) 25 yallı nümunəsi və toy-mərasim mahnıları daxildir. İkinci dəftər (1966) Halay nümunələrindən ibarətdir.

4) Azərbaycan xalq rəqsi mövzusuna aid elmi məqalələr, konfrans məruzələri (Bakı, Moskva şəhərlərində), metodiki işlərin müəllifidir.

XX əsrin 60-cı illərində B.Hüseynlinin elmi publikasiyaları yalnız Azərbaycan xalq rəqslərinin tədqiqinə həsr olunmuşdu. Bu mövzu ilə bağlı rus və Azərbaycan dillərində monoqrafiyalar, bir sıra dərs vəsaitləri, elmi və

elmi-metodik məqalələri nəşr edilib. Onların sırasında: “Azərbaycan xalq rəqs musiqisinin forma və janrı”, “Azərbaycan xalq rəqs musiqisi”, “Azərbaycan xalq rəqs melodiyaları” (tədqiqat).1-ci dəftər («Yallı»), “Azərbaycan xalq rəqs melodiyaları” (tədqiqat). 2-ci dəftər («Halay»), “Azərbaycan xalq rəqs musiqisi”, “Azərbaycan xalq rəqs musiqisinin janr klassifikasiyası”.

XX əsrin 70-ci illərində B.Hüseynlinin bir çox elmi işləri Bakı, Moskva və Alma-Ata şəhərlərində işıq üzü görüb. Bunların arasında rəqs mövzusuna həsr olunmuş işlər üstünlük təşkil edir: “Azərbaycan xalq rəqs musiqisinin janr təsnifatının sosial-tarixi əsaslandırılması məsələsi", "Azərbaycan xalq rəqs musiqisinin janr təsnifatının prinsipləri" (tarixi-sosioloji əsaslara görə)», «Azərbaycan xalq rəqs musiqisinin janr təsnifatının sosial-tarixi əsaslandırılması» və «Müasir Azərbaycan xalq musiqisi yaradıcılığı».

XX əsrin 80-ci illərində B. Hüseynlinin nəşr olunmuş elmi əsərlərindən “Azərbaycan xalq instrumental rəqs musiqisi” oçerkini qeyd edə bilərik.

5) Tədris proqramlarının tərtibatçısıdır.

1970-ci ildən ömrünün sonuna kimi o, Azərbaycan Dövlət Konservatoriyasının “Xalq musiqisinin tarixi və nəzəriyyəsi” kafedrasında elmi-pedaqoji fəaliyyət göstərib. 1976-cı ildə kafedranın dosenti, 1991-ci ildə isə professoru seçilib. Həmin dövrdə bir çox metodik tövsiyələr və proqramlar tərtib edib. Uzun illər konservatoriyada “Azərbaycan xalq musiqi yaradıcılığı” fənnindən dərs deyib və dərsliklər üçün “Azərbaycan rəqs musiqisi” bölməsini işləyib.

6) XX əsrin 70-ci illərində xalq ifaçılarının M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilmiş etnokonsertlərinin təşkilatçısı;

7) XX əsrin 70-ci illərində elmi ekspedisiyaların rəhbəri olub. B.X.Hüseynli uzun müddət Azərbaycan Dövlət Konservatoriyasının "Xalq musiqisi kabineti"nə başçılıq edib. Xalq musiqisi nümunələrinin toplanması, sənədləşdirilməsi, yazıya alınması sahəsində mühüm xidmətlər göstərib. Elmi yaradıcılığında xalq rəqs musiqisinin araşdırılmasına böyük diqqət yetirib, yallı, halay kimi rəqs janrlarına aid nümunələri toplayaraq, sistemləşdirib, xalq rəqslərinin təsnifatını verib.

1972–1973-cü illərdə Şəki, Zaqatala, Balakən rayonlarına ekspedisiyaların rəhbəri kimi böyük uğurlara imza atıb. Ekspedisiyaların nəticələri bir çox elmi məqalələrdə və məruzələrdə əks olunub. "Müasir Azərbaycan xalq musiqi yaradıcılığının növləri", «Azərbaycan xalq rəqs musiqisinin janrlı təsnifinin prinsipləri (tarixi-sosioloji əsaslara görə)» məqalələri bu qəbildəndir.

8) Bayram müəllimin bəstəkarlıq fəaliyyəti də var və bu sahədə də xalq rəqslərini diqqət mərkəzində saxlayıb. Belə ki, o, 1970-ci ildə Azərbaycan xalq çalğı alətləri orkestri üçün 10 Azərbaycan xalq rəqs melodiyasının işləmələrini yazıb (əlyazma şəklindədir, S.Mümtaz adına Azərbaycan Respublikasının Ədəbiyyat və İncəsənət Arxivində saxlanılır. Fond № 134).

9) B.Hüseynli 1972-ci ildən SSRİ Bəstəkarlar İttifaqı Xalq musiqisi komissiyasının daimi üzvü, 1980-ci ildən Beynəlxalq folklor festivalları Sovet Komitəsinin YUNESKO tərəfindən təsdiqlənmiş fəxri üzvü məqamına yüksəlib. Bir neçə dəfə Moskva şəhərində keçirilən musiqişünaslıq müsabiqələrində münsif kimi iştirak edib. "Raduqa" ("Göy qurşağı") folklor musiqisi üzrə beynəlxalq festivalın münsiflər heyətində təmsil olunub.

10) “Azərbaycan xalq rəqs musiqisi” mövzusu istiqamətində onun rəhbərliyi altında çoxsaylı diplom işləri yazılıb: S.Əlizadənin “Naxçıvan yallıları” (1971), D.Məmmədovanın “Azərbaycan lirik xalq rəqs melodiyalarında formaların bəzi xüsusiyyətləri” (1972) və başqaları.

Azərbaycan xalq rəqs musiqisinin öyrənilməsi tarixində iki klassik klassifikasiya var. Biri – Əməkdar İncəsənət xadimi, professor Məmməd Saleh İsmayılova məxsusdur, rəqslərin temp xüsusiyyətlərinə əsaslanır; o biri isə rəqslərin mövzularına görə – Bayram Hüseynlinin klassifikasiyasıdır. Bayram Hüseynli Azərbaycan xalq rəqs musiqini mövzularına görə böyük janr qruplarına bölüb: 1) əmək rəqsləri; 2) ənənəvi mərasim rəqsləri; 3) ailə və məişət rəqsləri; 4) hərbi, idman və oyun rəqsləri; 5) kütləvi xorovod (yallı) rəqsləri.

Bayram Hüseynlinin rəqs musiqisi sahəsindəki tədqiqat işlərinin bir çox davamçıları olub. Onlardan biri Əhməd İsazadədir. O, yallı melodiyalarının klassifikasiyasını yaradarkən, rəqsləri mövzularına görə 6 növə ayırmışdır.

Bayram Hüseynlinin elmi işlərində bir çox istisna, klassifikasiyasına daxil olmayan rəqs nümunələri də göstərilib. Bununla da Azərbaycan rəqs musiqisinin müasir elmi folklorşünaslığın vacib tədqiq obyekti olması vurğulanıb.

Bayram Hüseynlinin “Azərbaycan xalq rəqs musiqisi” mövzusunda gördüyü işlər, apardığı tədqiqatlar müxtəlifdir və görkəmli etnomusiqişünas ömrü boyu bu sahəni alim, pedaqoq, bəstəkar kimi öyrənərək, dərinləşdirib, təbliğ edib.

ƏDƏBİYYAT

1. Musiqişünas A.Abduləliyevin “Bayram Hüseynli – alim, pedaqoq, bəstəkar” məqaləsində adı çəkilən dissertasiyanın quruluşu və məzmunu təhlil olunub.
2. «Материалы сессии, посвященной итогам археологических и этнографических исследований 1964 г. В СССР». Изд. АН Азерб. ССР, Баку, 1965.
3.Биб-ка АН Азерб. ССР, Баку, 1965.
4.Azərnəşr, Bakı, 1965.
5.Azərnəşr, Bakı, 1966.
6.(автореф., дисс. на соиск.учен. степ. канд. искусствовед.). Баку, 1966.
7.«Искусство Азербайджана», т. XII, изд. АН Азерб. ССР, Баку, 1968.
8.«Ученые записки АГК», сер. XII, №2, Баку, 1974.
9.«Проблемы музыкального фольклора народов СССР». Изд. «Музыка», М., 1978.
10.«Социологические аспекты изучения музыкального фольклора». Изд. «Наука», Казахской ССР, Алма-Ата, 1978.
11.«Азербайджанская народная музыка» (очерки). Изд. «Наука», Баку, 1981 (на азерб. языке).
12.Hüseynli B.X. Azərbaycan instrumental xalq rəqs musiqisi // Azərbaycan xalq musiqisi məcmuəsi. Bakı, Elm, 1981. S. 168-197.
13.Тезисы доклада. Научная конференция, посв. 50-летию Азерб. гос. консерватории им. Уз. Гаджибекова («Фольклор и современность»). Баку, 1972.
14.Ученые записки АГК, сер. XII, №2. Баку, 1974.

Fidan VƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, dissertant

TURİZMİN İNKİŞAFINDA MƏDƏNİ İRSİN ROLU

РОЛЬ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В РАЗВИТИИ ТУРИЗМА

THE ROLE OF CULTURAL HERITAGE IN THE DEVELOPMENT OF TOURISM

Açar sözlər: dini turizm, islami turizm, Azərbaycanda dini abidələr, işğal altında olan mədəniyyət nümunələri.

Ключевые слова: религиозный туризм, исламский туризм, религиозные памятники в Азербайджане, образцы оккупированной культуры.

Keywords: religious tourism, Islamic tourism, religious monuments in Azerbaijan, samples of the occupied culture

Xülasə: Azərbaycan çoxəsrlik mədəniyyətə sahib bir dövlətdir. Əlverişli coğrafi şəraiti, zəngin flora və faunası, bir birindən gözəl valehedici mədəniyyət nümünələri turistlərin ölkəmizə səfər etmələrinə zəmin yaratmışdır. Turizmin inkişafında mədəni irsin rolu böyükdür. Mədəni irs nümunələrimizin bir istiqaməti də dini abidələrimiz hesab edilir. Bu gün beynəlxalq turizmdə dini turizm özünün yüksək inkişaf istiqaməti ilə nəzərə çarpır. Ölkəmiz dini turizm abidələri baxımından zəngin hesab edilir. Bu məqsədlə turizmin bu istiqamətini inkişaf etdirərək mədəni irsimizi daha geniş şəkildə təbliğ edə bilərik. Bu həm mədəniyyətimizin tanıdılması, həm də turizmin inkişaf etdirilməsi ilə nəticələnəcəkdir.

Резюме: Азербайджан - государство с многовековой культурой. Благоприятные географические условия, богатая флора и фауна, прекрасные примеры архитектуры с давних пор привлекали туристов посетить нашу страну. Роль культурного наследия в развитии туризма велика. Наши

религиозные памятники являются одним из направлений нашего культурного наследия. Сегодня религиозный туризм в международном туризме примечателен своей высокой направленностью развития. Наша страна богата памятниками религиозного туризма. Развивая этот аспект туризма мы сможем более широко продвигать наше культурное наследие, что приведет к продвижению нашей культуры, а также развитию туризма.

Abstract: Azerbaijan is a state with a centuries-old culture. Favorable geographical conditions, rich flora and fauna, excellent examples of architecture have long attracted tourists to visit our country. The role of cultural heritage in the development of tourism is great. Our religious monuments are one of the areas of our cultural heritage. Today, religious tourism in international tourism is notable for its high development orientation. Our country is rich in religious tourism monuments. By developing this aspect of tourism we will be able to more widely promote our cultural heritage, which will lead to the promotion of our culture, as well as the development of tourism.

Azərbaycana ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqəli olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolunun (BİY) üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur[3, s.12]. Azərbaycan Respublikası coğrafi yerləşmə mövqeyi baxımından zəngin iqlim qurşağı sayəsində daim turisləri cəlb etməyi bacarmışdır. Ölkəmizdə dörd fəslin tamlıqla müşahidə olunması təbiətin rəngarəngliyini görməyə şərait yaratmışdır. Hər bir xalqın özünəməxsus mədəniyyəti mövcuddur. Mədəniyyət digər elm sahələri kimi (məsələn fizika, kimya) bütün dünyada qəbul olunmuş standartlar üzərinə tədris

olunmur. Dünyanın hər yerində riyazi hesablamalar eyni nəticə verdiyi halda, dünyanın hər yerində eyni mədəniyyətin nüsxəsini görmək mümkün olmur. Mədəniyyət zəngin və çoxçeşidli bir sərvətdir. O elə bir sərvətdir ki, bir dəfə alınmaqla bir kəsə məxsus olmur. Bu sərvətlər daim satılmaqla (məsələn turizm paketlərindən yararlanmaqla müxtəlif ölkələrə səfər etmək, oradakı mədəniyyət abidələri ilə tanışlıq) dövrü gəlir gətirir. Bu məqsədlə səfərlər təşkil etmək mədəniyyət nümunələrinin daha çox tanıdılması, daha çox gəlir gətirməsi deməkdir.

Turizm sahəsi elə bir sahədir ki, ondan yalnız inkişaf etmiş ölkələr deyil, iqtisadiyyatı zəif olan ölkələr də istifadə etməklə iqtisadiyyatlarına gəlir qazandıra bilərlər. Bunun üçün ölkənin 2 istiqamətdə sərvətlərinin olması mühüm və müsbət hesab edilir. Bunlar təbii ehtiyatlar, təbiət ecazkarlığı və tarixi – mədəni sərvətlərdir.

Tarixi-mədəni abidələrdən istifadə xüsusiyyətləri iki qrupa ayrılır ki, bunlara da - mövcud ehtiyatlardan yalnız səyahət məqsədilə istifadə olunması, digəri isə elmi-təcrübi əhəmiyyət kəsb etməsidir[3, s.62].

Tarix və mədəniyyət abidələrinin tərkib hissələrindən biri də dini abidələrdir. Dini abidələrdən əsasən əhalinin müəyyən dini tədbirlər və ya tarixi hadisələrlə bağlı olan əlamətdar günlərində istifadə olunur. Dini abidələrin yerləşdiyi ərazi, onun tarixi, əhalinin mənəvi tələbatında oynadığı rol və istifadə üçün yararlılığı əsas götürülür. İl ərzində 200 mln.-a qədər
insan dini abidələrdən istifadə edir. Dini abidələrdən istifadə aşağıdakı xüsusiyyətlərinə görə seçilir- müxtəlif dini kitablarda qeyd olunan ibadətlərin yerinə yetirilməsi üçün mövcud olan dini abidələr (Məkkə, Mədinə, Kərbəla, Məşhəd, Yerusəlim), əsas dini ziyarət yerləri və din tarixində əhəmiyyətli yeri olan abidələr (ziyarətgahlar, məscidlər, kilsələr), tarixi memarlığı ilə seçilən gündəlik ibadət yerləri (mədrəsə, məscid və s) [3, s. 63].

Müxtəlif ölkələrə səyahət edən, yeni insanlarla ünsiyyətdə olan turistlər özlərinə yeni dostlar qazanır, müxtəlif ölkələrin vətəndaşları ilə qarşılıqlı əlaqə yaradır, bununla da " sülhün elçilərinə" çevrilirlər. Turizm, müxtəlif irqlərə, mədəniyyət və dinlərə mənsub olan, ayrı-ayrı ölkələrdə yaşayan və müxtəlif sosial –iqtisadi səviyyədə olan insanlar arasında fiziki və psixoloji səddin aradan qaldırılmasına kömək edir [2, s. 10].

Turizm özünün çoxçeşidliliyi baxımından müxtəlif yaş qruplarına xitab etməyi bacarmışdır. Qloballaşan dünyada artıq insanlar, ölkələr və mədəniyyətlər arasında sədlər aşılmış, texnologiyanın sürətli inkişafı uzaq məsafələrə səyahəti yaxın etmişdir. Bu turizm fəaliyyətinə daha çox insanı cəlb olunması ilə müşayiət olunmuşdur. İstər uşaq, istərsə də yaşlı nəsil bu gün uzaq məsafələrə rahat səyahət etdiklərindən turizmin bir çox istiqamətlərinin turist balansına təsir göstərməyi bacarmışlar.

XXI əsr özünün sürətli inkişafı ilə bütün dünyada səciyyəvi hal almışdır. Düzdür hər əsrin özünün digər əsrlərə görə inkişafı, intibahı, yetişdirdiyi dahi sənətkarları, mədəniyyətləri mövcuddur. Biz onları müasir əsrlərdə tanımağa, öyrənməyə müəffəq olmuşuq. XII-XIII əsrlərdə yaşamış dahi Nizamini elə həmin əsrlərə mövcud olan avropa bu gün ki, kimi tanıyırdımı? O dövrlərdə hər mədəniyyət, hər kəşf əsasən həmin çevrələrdə daha çox tanınırdı. Böyük elmi kəşflər, tanınmış səyyahların səyahətləri daha çox geniş çevrələrdə bilinirdi. Bu gün elədirmi? Xeyr. Bu gün biz internetə cüzi zaman kəsiyində nəzər yetirməklə Amerikada nəşr olunan hansısa bir bəyəndiyimiz kitabı əldə edə, istədiyimiz xarici muzeylərin virtual gəzintisi ilə muzeyə qiyabi səyahət edə bilərik. Bütün bunlar yer kürəsi deyilən planetimizin əslində bəlkədə yüzlərlə ölkələrdən ibarət olmadığını, sərhədsiz bir ölkə olduğunu göstərir.

Qloballaşma, qloballaşan dünya müxtəlif peşə sahiblərini düşünməyə vadar etmişdir. Burada iki məsələ köhnəlik və yenilik

daim qarşı-qarşıya gəlmişdir. Alimlərin çoxu əsasən XIX əsr avropa sosioloqları düşünürdülər ki, modernizm yaşam tərzinin hakim mövqedə çıxış etməyə başlaması, texnologiyanin inkişafı, sənayenin sürətli irəliləyişi bir müddət sonra artıq dini düşüncənin, milli mədəniyyətin mövcudluğunu aradan aparacaqdır. Ancaq müasir zaman bunun əksini isbat etdi. Texnologiya nə qədər inkişaf etsə də, nə din, nə də milli düşüncə və mədəniyyət məhv olaraq aradan getmədi. Əksinə bu gün turizm mədəniyyətlərin, millətlərin qovuşmasına xidmət göstərməklə qloballaşmanın müsbət təsirini artıran bir vasitəyə çevrilmişdi.

Bu gün mədəni irsimiz olaraq təqdim etdiyimiz əksər mədəniyyət abidələrimizdə dini səciyyəvi xüsüsiyyətləri görmək mümkündür. Buna səbəb uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan dinlərə qarşı hörmətin, ehtiramın daim qorunduğunu söyləmək kifayətdir.

İslam mədəniyyətinin təkamülü çətin və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu təkamülün başlanğıcında aparıcı rolu ərəblər oynamış, dinamik inkişafında və varisliyində onu qəbul edən bütün xalqların, o cümlədən türklərin müştərək səyləri və mədəniyyətlərinin əvəzsiz rolu olmuşdur [1,s.194].

Azərbaycan alimlərinin fikrincə “ Mədəni olan mahiyyətcə dinidir və dini olan mahiyyətcə mədənidir”, yaxud müsəlman mədəniyyətinin mənəvi məhvərini islam dini təşkil edir, mədəniyyət tarixində dinin yerini danmaq, tarixin özünü danmaqdır. Azərbaycan fəlsəfi və ictimai siyasi fikri, xüsusən də çoxəsrlik zəngin ədəbiyyatı, eləcədə bütövlükdə elmi və mədəniyyəti İslamın güclü təsiri altında inkişaf etmişdir. On dörd əsrdir ki, dünyaya ölməz şəxsiyyətlər, elm və mədəniyyət xadimləri bəxş edən islamın rolu ən geniş şəkildə öyrənilməyə, tədqiq və təbliğ edilməyə layiqdir [1,s. 187].

Dini abidələrimiz mədəni irsimizin ayrılmaz hissəsidir. Din və mədəniyyət daim vəhdət şəklində biri-birinə bütün zamanlarda təsir etmişdir. Məhz bu səbəbdən mədəni abidələrimiz deyərkən dini abidələrimizin də öyrənilməsi böyük əhəmiyyət daşıyır. Bu gün turizmin bir istiqaməti kimi "dini turizm" günü –gündən ziyarətçi sayının artımı ilə seçilir. Bu baxımdan ölkəmizin zəngin potensialı nəzərə alınmalıdır.

Ölkə ərazisində 2250 məscid(onlardan 136-sı Bakı şəhərində yerləşir), 14 kilsə, **7** sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir(onlardan 25-i Bakı-Abşeron bölgəsinin payına düşür) [4].

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıda işğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidənin olduğu göstərilib. Onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Onlardan 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub [4].

Ermənistan ərazisindəki Azərbaycana məxsus tarixi və mədəni irs Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə "yenidən təmir edilib". İrəvanda Hacı Novruzəli bəy məscidi, Sərdar sarayı, Sərdar məscidi tamamilə dağıdılmışdır. Zəngin təbii və mədəni irsin, o cümlədən dünya əhəmiyyətli unikal abidələrin işğal altında olması, əslində, dünya irsinə qarşı qəsd deməkdir [4].

Dini abidələrimizi təbliğ edərək geniş auditoriyalara çatdırmaq bizlərə nə vəd edir.

1. Keçmişin izlərini özündə yaşadan dini abidələrə bir daha uzunmüddətli yaşamaq hüququ vermək.

2. Zəngin memarlıq tərtibatlı tikililərinin dünya ictimaiyyətinə tanıdılması və bununla tariximizin qədimliyini bir daha nümayiş etdirmək.
3. İsğal altında olan dini, tarixi, mədəni abidələrimizin düşmən vandalizmindən uzaq qalmasına nail olmaq, Azərbaycan xalqına məxsus dini, tarixi, mədəni abidələri düşmənin özünkiləşdirmək siyasətinin qarşısını almaq.
4. Dini inanc sahiblərinin ziyarətlərinə şərait yaratmağa vasitəçi olmaq.
5. Xarici turist səfərlərinin artımı
6. Turistlərin gəlişi ilə turizm sektorunda canlanma
7. İqtisadiyyatın dini turizm paketləri hesabına artışı
8. Mənəviyyatı zəngin və mədəni dəyərlərə daha çox diqqət yetirən gənclik yetişdirməyə nail olmaq.
9. Müəyyən dərəcədə işsizliyin azalması
10. Dini savadlılığın artmasına nail olmaqla cahilikdən uzaqlaşmaq.

Dini turizmin inkişafına necə nail ola bilərik?

1. Hal-hazırda fərdi şəxslər tərəfindən dini məkanlara səfərlərin təşkili mövcuddur. Lakin turizm şirkətləri olaraq dini turizm turlarının mövcud olması daha labud haldır ki, bu zaman ölkə daxili marşrutlarla dini məkanlara səfər etmək daha rahat olacaqdır.
2. Xüsusi təşkilatların özünün belə bir təşəbbüs etməsi sayəsində müəssisə işçilərinin dini məkanlara səfəri.
3. Reklam əhəmiyyətli videoroliklərin çəkilişi sayəsində ölkə daxilində dini turizmin daha çox tanıdılması.
4. Nəqliyyat vasitələrində (xüsüsilə metroda) reklam əhəmiyyətli bilbordların yerləşdirilməsi və metro xəritəsinin daha geniş təsviri, bu təsvirdə dini məkanların sayının artırılması.

5. Turizm agentliklərində dini məkanların broşuralarının mövcudluğu və hərəkət edən turizm məlumat maşınlarında məlumatlandırıcı kitabçaların mövcudluğu.
6.Turizm təşkilatlarının dövlət idarələri ilə vəhdətdə çalışaraq səfərlərin təşkili

Azərbaycan Turizm və Menecment Universiteti mahiyyəti etibarilə daim turizmin bütün sahələri ilə yaxından maraqlanır və bu sahədə müxtəlif işlər görərək istər turizmin inkişafına, istərsə də tələbələrin məlumat dairələrinin genişlənməsinə yardımçı olur. Düşünürəm ki, universitet olaraq dini turizmin yetişməkdə olan gənc nəslə tanıdılması məqsədilə turizm marşrutlarının təşkilinə yardımçı olmaq dini turizmin inkişafını artırmaqla xoşməramlı bir addım olaraq qiymətləndiriləcəkdir. Daha geniş auditoriya üçün addımlar atılaraq universitetin nəzdində fəaliyyət göstərən xüsusi turizm səyahət şirkəti (dini turizm, mədəni turizm) yaradıla bilər ki, (universitetdə təhsil alan bələdçilərin bu turizm şirkətində fəaliyyəti təmin olunmaqla) bunlar həm turizmdən yararlanmaq istəyən turistlərin ehtiyaclarının(çatdırılma, yerləşdirilmə və.s) təmin olunması , həm də ATMU-nun şəxsi büdcəsinin artması ilə nəticələnər. Düşünürəm ki, universitet olaraq belə bir lahiyəni həyata keçirmək ölkəmizdə olan dini məkanları yerli və xarici inanc sahibləri, həmçinin turizm həvəskarları müsbət qarşılayacaqlar.

ƏDƏBİYYAT

1. Aslanova Rəbiyyət. Qloballaşma və Mədəni Müxtəliflik. Bakı-Elm-2004
2. Məmmədov C.A., Soltanova H.B, Rəhimov S.H. Beynəlxalq Turizmin Coğrafiyası. Bakı-Mütərcim-2002
3. Soltanova Həbibə. Azərbaycan Respublikasında Turizm və Onun İnkişafı. AzTU-nun mətbəəsi.monoqrafiya.çapa imzalanıb 30.10.2015-ci i

4. www.dqdk.gov.az

Fəridə MƏMMƏDOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistr

XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MULTİKULTURAL DƏYƏRLƏR

МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX-НАЧАЛЕ XX ВЕКА

MULTICULTURAL VALUES IN AZERBAIJAN IN THE LATE XIX-EARLY XX CENTURIES

Açar sözlər: Maarifçilik, Azərbaycan maarifçiliyi, XX əsr,, Azərbaycanda multikultural dəyərlər;

Ключевые слова: Просвещение, Просвещение Азербайджана, XX век, Многокультурные ценности в Азербайджане;

Keywords: Enlightenment, Azerbaijani Enlightenment, 20th Century, Multicultural Values in Azerbaijan

Xülasə: Məqalədə multikultural dəyərlərinin formalaşmasında maarifçiliyin rolu haqqında məlumat verilmişdir. Müəllif multikultural dəyərlərin formalaşmasında maarifçiliyin hansı gücə malik olmasına diqqət çəkir. Məqalədə multikultural dəyərlərin formalaşması haqqında yığcam məlumatlar verilməklə yanaşı, bu sahədə mövcud olan problemlər də qeyd olunmuşdur.

Резюме: В статье представлена информация о роли просвещения в формировании мультикультурных ценностей. Автор обращает внимание на силу просвещения в формировании мультикультурных ценностей. В статье дается краткий обзор формирования мультикультурных ценностей, а также существующих проблем в этой области.

Abstract: The article provides information on the role of enlightenment in shaping multicultural values. The author draws attention to the power of enlightenment in the formation of multicultural values. The article gives a brief overview on the formation of multicultural values, as well as the existing problems in this area.

Multikultural dəyərlərin içində elmin, maarifin və təhsilin də özünəməxsus yeri vardır. Hələ XIX əsrdən başlayaraq zəmanəsinin bir sıra maarifçiləri öz cəmiyyətlərinə savadlanmanı, elmə-biliyə yiyələnməni və nəhayət maariflənməni aşılamağın mücadələsini vermişlər.Bəs Azərbaycan maarifçiliyi nədir? O, iki müxtəlif mədəniyyətin çarpışması sayəsində əmələ gələn ictimai-mədəni dirçəlişdir. Qeyd edək ki, maarifçilik həm də bir çox səciyyələrinə görə bir-birindən seçilən mədəniyyətlərin, ənənələrin, mentallığın coşğun mübarizəsi şəraitində tərəqqi etmişdir. Azərbaycan maarifçiliyi Şərq və Qərbin dialoq və görüş formalarından biridir. Azərbaycan tarixi boyu bir neçə sivilizasiyaların çarpışması sayəsində bir çox dirçəliş mərhələləri yaşamışdır. Maarifçilik daim və hər yerdə milli intibahın, milli özünüdərkin, istisnasız bütün sahələrdə və çağdaş mənada etnik mentalitetin, ədəbi dilin və realist milli ədəbiyyatın ən qəti təşəkkülü dövrünün ideoloji hadisəsi kimi yaranır. O, həm də bütünlükdə xalqın tarixi, taleyi ilə əlaqədar məsələlər qaldırır və onlara xalq, millət miqyasında da çözümlər tapır. M.F.Axundov xalqın iqtisadi-mədəni həyatda mövcud

problemləri duyan, onların çiçəklənməsinə zəmin yaradan görkəmli Azərbaycan maarifçilərindən biri olmuşdur. O, maarifçi-realist metodunun ədəbiyyat tariximizdə böyük nümayəndəsidir. Fikir azadlığını tərəqqinin əsası hesab edən M.F.Axundov yazır: "Canlılar aləmində insan hər zaman tərəqqiyə ehtiyac duyan bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasyon elə bir ümumi sözdür ki, onun məzmununda bütün sənətlər, fəndlər, qüdrətli dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur. Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə onları ata-babanın və övliyaların qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməyə məcbur edərsə, bu halda fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və dərk etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edərlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könül açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar". O, bərabərliyi insan tərəqqisinin özülü sayırdı, hesab edirdi ki, o, Anayasanın əsasında durmalıdır. Mənəvi, milli və ictimai bərabərlik tələblərini M.F.Axundzadə dialektik vəhdətdə və qarşılıqlı əlaqədə ələ alır, azadlıq və hüquq, hakimiyyət və maarif problemini həm fərd, şəxsiyyət, həm də cəmiyyət və xalq miqyasında irəli sürürdü. Böyük mütəfəkkir qeyd edirdi ki,"...Bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olsun və bütün işlərdə də, təfəkkürdə də

hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi - mütləq olsun". Şərqin dinçi və heç bir düşüncə və din pluralizminə haqq tanımayan qaranlıq kültüründə M.F.Axundov ilk dəfə olaraq sekularizm sözünü tələffüz etmiş, dinin siyasətdən ayrı olması zərurətini üstün tutmuşdur. O, öz nəzərini konstitusiya quruluşunun təsdiqləndiyi Avropa ölkələrinə istiqamətləndirirdi. Beləliklə, Axundov Şərqin müsəlman mütəfəkkirləri arasında ilk olaraq konstitusionalizm ideyalarını dəstəkləyən mütəfəkkir idi. "Mən elə bir dinə üstünlük verə bilərdim ki, onun vasitəsilə insan bu dünyada azad və xoşbəxt yaşaya biləydi. Heydər Hüseynovun fikrincə, M.F.Axundov öz xalqını savadlı görməyi çox istəyirdi. Buna görə də ilk növbədə Azərbaycan xalqı tərəfindən yeni əlifbanın (latın əlifbası) qəbul edilməsini zəruri sayırdı. O, bildirirdi ki, ərəb əlifbası elmin və mədəniyyətin inkişafına, geniş xalq kütlələri arasında maarifin yayılmasına böyük maneə yaradır. M.F.Axundov əlifba islahatını elmi cəhətdən əsaslandırmış və praktiki olaraq yeni əlifbanın qəbul edilməsi-Şərqdəki mədəni inqilab- uğrunda mübarizə aparırdı. Bu iş uğrunda yorulmadan, cəsarətlə mübarizə aparan M.F.Axundov yazırdı: "Mənim əlifbam yüz ildən sonra şərq ədəbiyyatında öz layiqli yerini tutacaq... Bu əlifba ilə yeni əsərlər yazılacaq, həmçinin onun hərfləri ilə köhnə kitablardakılar oxuculara çatdırılacaq... O zaman mənim məqsədimə nail olunacaq və mən qabaqcadan arxayın ola bilərəm, baxmayaraq ki, o xoşbəxt günü görməyəcəyəm. O, "Kəmalüddövlə məktubları"nı fars və rus dillərinə çevirmişdir. Dünyagörüşü Şərq fəlsəfəsi ilə yanaşı XVII – XVIII əsrlər Avropa, daha çox Fransa materialistlərinin baxışları əsasında formalaşan Mirzə Fətəli "Həkim ingilis Yuma cavab", "Yek kəlmə haqqında" əsərlərində Qərb idealizminin, təsəvvüfün, Şərq arestotelçiliyinin, babilər məzhəbinin mistik nəzəriyyələrinə birmənalı şəkildə qarşı çıxırdı. Məktublarının birində qayəsini izah edən alim və maarifçi

yazırdı: “Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətinin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir”. M.F.Axundovun A.S.Puşkini yaxından tanıyıb, duyması, dərin məhəbbətlə sevməsi ən çox Belinskinin əsərləri ilə tanışlıqdan irəli gəlirdi. O, Rusiyada dünyəvi elmlərin banisi Lomonosovun, şair Derjavinin, Karamzinin, A.S.Puşkinin əsərlərini oxuyub, onların ədəbi fəaliyyəti ilə yaxından tanış olurdu. Belə bir vaxtda A.S.Puşkinin öldürülməsi (1837-ci il yanvarın sonu) kimi bədbəxt və gözlənilməz bir hadisə üz verdi. Bu hadisə bütün Rusiyanı sarsıtdı. Ölkənin hər yerində bu xəbər milli matəm kimi qeyd edilirdi. M.F.Axundov 1837-ci ildə xəyanətin qurbanı olan bu böyük şairin faciəsinə çox təsirlənmişdi. Bu münasibətlə o, özünün ən yaxşı şeiri olan “A.S.Puşkinin ölümünə Şərq poeması”nı yazmışdır. Azərbaycan Maarifçiliyinin inkişafında müstəsna rolu olan Əhməd bəy Ağaoğlunun yaradıcılığında xüsusi yer tutan «Üç mədəniyyət» traktatı 1920-ci ildə Maltada sürgündə ikən yazılmış, ancaq, ilk dəfə 1927-ci ildə İstanbulda nəşr olunmuşdur. Mədəniyyətdə dil ortaqlığı amilini Şərq ilə Qərbin nümunəsində qarşılaşdıran ədib yazır ki, «... bu gün ən azı üç Avropa dilini - fransızcanı, inciliscəni, almancanı bilməyən ciddi bir avropalı alim və ədibinə həmən-həmən rastlanmaz. Bunlar zatən ortaq olan və Avropa mədəniyyəti amillərindən bulunan əski yunan və latıncanı da ta çocuqluqlarından öyrənirlər. Bir zamanlar bu iki dil, İslam aləmində ərəbcə və farsca kimi, Qərb aləmində ortaq elm və ədəbiyyat dili idi. Bütün alimlər latınca yazarlardı» Şərq mədəniyyətinin süqutunu və zaman-zaman öz yerini Qərb mədəniyyətinə verməsinin səbəbini Şərqdə fəzilətin hökmdara, Qərbdə isə qanunlara itaətdə dərk olunması ilə səciyyələndirən müəllif «həyat tərzi» kimi ifadə etdiyi mədəniyyət amilinin

mütəlif tərəflərinin (ailə, dövlət, hökumət, din, təlim-tərbiyə, əxlaq və s.) bu kontekstdə təfsirini verir. «Üç mədəniyyət» əsərində millətin əxlaqının formalaşmasında dindən sonra ən çox ədəbi və fəlsəfi əsərlərin rol oynadığını göstərən Ə.Ağaoğlunun fikrincə, «bizim ta dünənə qədər təqlid etdiyimiz ədəbiyyat və fəlsəfə əsərlərinin nümunələri ərəb və fars mənbələrindən alınmış olanlarıdır. Bunların arasında bu gün əsrin ruhuna müvafiq, onu təmin edəcək tək bir əsər göstərilə bilərmi?» Bu səbəblər sırasında, Ağaoğlunun yazılarında da müşahidə etdiyimiz kimi, islam cəmiyyətlərinin durğunluğu, idarəçilərin və üləmanın insani qüsur və ya yetərsizliyindən çənəsini götürən problemlər, cəhalət və təəssüb, qadının ictimai həyatda passiv iştirakı, zehni və elmi düşüncəyə qapalılıq, qədərçilik, despotizm və.s. göstərilməkdədir. İslam aləminin süqutunu dinin əsaslarına bağlamaması, ona bir sıra istiqamətlərdən haqq qazandırmaqdadır. Bu mövzudakı təhlillərində o, islam dininin hal-hazırkı durumunu xristianlığın vaxtilə yaşadığı analoji proseslə qarşılaşdırmaq yolu ilə araşdırır və labüd sonun dinin mahiyyətindən mənbə götürməsinə məxsus analitik mühakimələr yürüdür. Ağaoğlu düşünürdü ki, "millətçilik özü-özlüyündə hörmətə layiq, hətta möhtəşəm bir hadisədir, çünki o, xalqların həyatında bir zərurətdir. Mən hətta düşünürəm ki, bəşəriyyətin təkamülü tarixində millətçilik dindən sonra insan ruhunun ikinci böyük mərhələsidir. O, tarixdə ən böyük qəhrəmanlıqların nədəni olmuş, yenə də olacaq. Onsuz bir sıra xalqlar yenə də yadların zülmü altında inləməli olacaqdı və məhz onun sayəsində hələ bir çoxları uyğun çıxış yolu tapacaq... Həqiqi, dürüst, sonunadək özünə sadiq qalan millətçi, özününkünü müdafiə edərkən, başqasınınkı üzərində hər hansı zülmü də rədd etməlidir". Amma hakim millətçilik bu zaman Rusiyada azlıqlara qarşı nifrət püskürür, onları assimiliyasiyaya uğratmağa səy göstərirdii. Məsələn, "Novoye vremya" jurnalının yazarı Menşikov

ermənilər, bolqarları, serbləri və başqa azlıqları dilindən imtinaya məcbur etmədiyi, onlara zorla İslamı qəbul etdirmədiyi, başqa sözlə, assimiliyasiyaya uğratmağa səy göstərmədiyi üçün Osmanlını "axmaq" adlandırır. Əhməd bəy Ağayev rusiyasayağı bu tip millətçiliyi, müasir terminlə - şovinizmi rədd edir.Avropa ölkələrindən öyrənməyin vacib olduğunu deyir, Avropa tarixində millətçiliyin oynadığı müsbət quruculuq rolundan danışır və göstərir: "... cümlə millətlərin ən parlaq mərhələləri haman "millətçilik" deyilən dövrələridir! Əlan ümumdünyanı heyrətdə qoyan, ümumdünyaya hökm - fərman olan, o moşəşe (parlaq), o müqtədir, öz ülum, sənayesi ilə övci-əlayə (yüksəklərə) çatmış Fransanı, İngiltərəni, Almaniyanı, İtaliyanı bu əzəmətə, bu həşəmətə çıxaran haman millətçilik, haman nasionalizm dövrəsi oldu!".

Əhməd bəy Ağaoğlu digər məsələlərlə birlikdə, hər millətçiliyin müsbət olmadığı düşüncəsində də təkid edir. Rusiyada Pruşkeviçin millətçiliyi ilə Turgenevin millətçiliyi arasında böyük fərq olduğunu izah edir. Elə buradaca o, öz millətinin eyiblərini, başqa millətlərin müsbət keyfiyyətlərini gizlətməyi xəyanət sayır: "Həqiqi millətçi millətini tənqid etməkdən, millətinin eyyubatını (eyiblərini), qüsuratını görkəzməkdən, millətinin azarlarını, dərdlərini arıyıb da açıq-açığa deməkdən nəinki çəkinmiyorlar, bəlkə bir an böylə qafil olmuyorlar. Eyni zamanda gerçək millətçilər qeyri - millətlərin arasında olan gözəl sifətləri, gözəl adətləri, gözəl binaları öz milləti üçün imtisal edüb (örnək bilib), millətini bu gunə şeyləri əxz etməyə təhrik və təşviq etməkdən çəkinmiyorlar".

"İslama görə və İslamiyyətdə Qadın" əsərində Ə.Ağaoğlu yazırdı: "Quranın mətni İslamın peyğəmbəri, onu ilk dəfə Xristosun təlimi ilə tanış etmiş sabinləri necə də nəcib minnətdarlıq hissləri ilə xatırlayır. İsanın iztirabları haqqında, Onun mövludu, Məryəm, "İlahi ruh"un anası haqqında bəhs

olunan yerlər elə dərin həyəcan, şəfqət və ehtiram ifadə edir, o qədər ülvi və əzəmətlidir ki, buna Quranın üslubunda nadir hallarda rast gəlmək olar".

Müsəlmanlar arasında Məryəm bəzi xristian sektalarında olduğundan daha hörmətlidir. O, Allahın seçdiyi günahsız, saf bir qızdır; Məhəmməd ona qarşı dərin ehtiram hissləri bəsləyir; öz qızı Fatimə haqqında o, deyir: "İlahi ruhun anası olan Məryəmdən sonra Fatimə ikinci qadındır". O, İsanın təlimini özünəməxsus tərzdə dərk etmişdi və Məhəmmədin yaratdığı din, onun təbirincə, İsanın dininin təhrif olunmasına qarşı etirazın təzahürü idi; Quranda tez-tez təkrar olunur: "Mən İsanın təliminin həqiqətlərini bərpa etmək üçün gəlmişəm"

ƏDƏBİYYAT

1. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.
2. - s. 293 H.Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, Zəkioğlu nəşriyyatı-2006, 544 səh
3. - Əhməd bəy Ağayev. Millət və millətçilik. – Tərəqqi, 22 yanvar 1909, № 16, s. 2.
4. - s. 56 Mübariz Süleymanlı Əhməd bəy Ağaoğlunun "İslama görə və İslamiyyətdə Qadın" əsərində elmİ-tənqidİ yanaşmalar. Bakı, 2008, 148 s.

Eldar İSPAROV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr

AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SEKTORU

СЕКТОР ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

TOURISM SECTOR IN THE REPUBLIC OF AZERBAIJAN

Açar sözlər: Turizm, turizm sənayesi, turizm sektoru

Ключевые слова: туризм, индустрия туризма, туристический сектор

Keywords: Tourism, tourism industry, tourism sector.

Xülasə: Dünyadakı yeni iqtisadi quruluş bütün sektorları fərqli bir proses formasına təhrik etmişdir. Bu qloballaşma adı ilə tanınan proses bütün xarici və daxili bazarlarda müqayisəli üstünülkləri rəqabət üstünlüyünə çevirən bir prosesdir. Gələcəyin ən vacib sektorlarından olan "Turizm sektoru"nunda bu baş verən hadisələrdən təsirlənmə ehtimalı da yoxdur. Bu iş ilə turizm sektorunda ; qloballaşma və texnoloji inkişaflarla birlikdə dəyişən bazar quruluşu analiz edilməsi, sektorun rəqabət gücünü bəlli edən və bunların ölkə iqtisadiyyatına qazandıra biləcəyi mövzularda qiymətləndirmə aparılması nəzərdən keçirilir.

Резюме: Новая экономическая структура в мире - это различное формирование всех секторов в втянул. Этот процесс называется процессом глобализации и на всех внутренних и внешних рынках процессом смещения сравнительного преимущества в конкурентное преимущество. «Сектор туризма», который является одним из наиболее важных секторов будущего, вряд ли будет затронут этими событиями. В рамках этого исследования в секторе туризма не только пытаются проанализировать изменяющуюся структуру рынка вместе с глобализацией и технологическими

достижениями, но также проводится оценка для определяющих факторов конкурентоспособности сектора и того, как они могут способствовать экономике.

Abstract:: World's new economic structure has dragged all sectors into a different formation. This process known as globalization shifts the comparative advantage to competitive advantage in all internal and external markets. It is unlikely ,for the "Tourism Sector" that is shown as the most important sector of the future, not to be affected among all the experiences. Within this study, in the tourism sector, not only it is tried to be analyzed the changing market structure together with globalization and technological advances, but also an evaluation is done for determinants of competitiveness of the sector and how these can contribute to economy.

Azərbaycan Respublikasında turizm sektorunun daha çox inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli mühitin, imknlarının yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından daha səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin, eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında 2011-ci il "Turizm ili" elan edilmişdir. Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda

turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsini mütləq edir. Bu məqsədlə, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamında müvafiq dövlət qurumlarına bir sıra tapşırıqlar verilmişdir. Son təhlillərin nəticəsi göstərir ki, Azərbaycanın turizm sektoru, bütövlükdə, irəliləyiş dövrünü yaşayır. 2010-2015-ci illər müddətində Azərbaycanda turizm müəssisələrinin sayında ortalama ildə 4,5 faiz, turizm bölməsində məşğulluq səviyyəsində ildə 6 faiz, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 8,5 faiz yüksəliş müşahidə edilmişdir. Dünya Səyahət və Turizm Şurasının məlumatlarına əsasən, Azərbaycanda turizm sektoru birbaşa ÜDM-in 2,8 faizini, məşğulluğun isə 2,6 faizini təşkil edir ki, bu da dünyada orta hesabla 3 faiz birbaşa ÜDM və 3,6 faiz birbaşa məşğulluq göstəricilərindən cüzi fərqlənir. Bu isə gələcək inkişaf potensialından xəbər verir.Qeyd olunanları nəzərə alaraq, turizm üzrə uğurlu layihələrin həyata keçirilməsi istiqamətində müvafiq infrastrukturun yaradılması, regionlarda yerli əhalinin gəlirlərinin artırılması ilə bağlı maarifləndirmə işlərinin aparılması, müxtəlif çeşidli turizm marşrutlarının hazırlanması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dünya təcrübəsində yüksək gəlir əldə etmək potensialına malik olan turizm məhsulları və xidmətləri daim diqqət və istehlakçı istəklərinə uyğunlaşma tələb edir. Azərbaycan Respublikasında turizm məhsulunun inkişafı üçün özəl təşəbbüslərin dəstəklənməsi, yerli və regional səviyyədə əlverişli koordinasiyanın qurulması, bütün

diqqətin istehlakçının tələbinə yönəldilməsi, məhsulun inkişafında regional və tematik hədəfin gücləndirilməsi, həmçinin maraqlı və cəlbedici məhsulların bir-biri ilə əlaqələndirilməsi vacib məqamlardandır. Ümumiyyətlə, Azərbaycanın bir çox turizm növləri üzrə potensialı vardır və həmin potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyi vacib faktorlardandır. Mədəni turizm bölgələrin mədəni irsini, xalqının həyat tərzini, tarixini,tarixi abidələrini incəsənətini, memarlığını, dinini və s. Özündə cəmləşdirən turizm növü kimi müəyyən olunur. Mədəni turizm şəhərlərdə, həmçinin rayon və kənd yerlərində tarixi məkanlara, mədəniyyət obyektləri olan qoruqlara, mədəniyyət mərkəzlərinə, abidələrə, muzeylərə, teatrlara, rəsm sərgilərinə, köhnə və yeni memarlıq nümunələrini, eləcə də yerli əhalinin həyat tərzini və milli dəyərlərini əks etdirən festivallara və bayramlara ziyarəti nəzərdə tutan turizm növüdür. Məlum olduğu kimi, mədəni turizm məqsədi ilə ölkəyə gələn şəxslər adi turistlərlə müqayisədə öz pullarının çox hissəsini xidmətlərə xərcləyirlər. Turizmin bu sahəsi bütün dünyada artıq kifayət qədər məşhurlaşmışdır. Ölkənin mədəni turizm potensialına Bakıda incəsənət qalereyaları, milli musiqi növü olan – muğam, yüksək səviyyədə inkişaf etmiş dünya caz musiqisi, milli və xarici rəqslər, ləziz dada malik zəngin mətbəx, bütün fərqli dini və dünyəvi görüşlərə tolerant yanaşma nümunə kimi göstərilə bilər.

Sağlamlıq turizmi - Azərbaycanda həm ənənəvi, həm də müasir müalicə imkanları mövcuddur. Ölkədə isti və mineral bulaqların sayı minlərlədir və bunlar nümunə olaraq İstisu, Turşsu, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı suları ən tanınmış müalicəvi su mənbələrindəndir. Eləcə də Azərbaycanın ən mühüm tibbi reabilitasiya resurslarından

biri Naftalan neftidir. Naftalan neftindən yel xəstəliyinin, damarlarda və hərəkət orqanlarında olan xəstəliklərin, həmçinin maddələr mübadiləsinin sıradan çıxması, dəri və ginekoloji xəstəliklərin müalicəsi zamanı istifadə olunur. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası nadir duz dağı ilə çox məşhurdur.

Dağ və qış turizmi - Dağ və qış turizm növləri Azərbaycanda gələcəyi və inkişaf etməyə şəraiti olan sahələrdəndir. Belə ki, Azərbaycan Respublikasının dağlıq ərazilərində turizmdən istifadə imkanları mövcuddur. Bu ərazilər əsasən təbiəti sevən, quşları və vəhşi heyvanları müşahidə etməyi, fiziki gərginliyi və həyəcanlı idman növlərini bəyənən şəxslərin daxil olduğu xüsusi turist qruplarını cəlb edir. Ölkə ərazisində dağ və qış turizminin inkişafı istiqamətində atılmış məqsədyönlü addımlar nəticəsində dağların yamacları turizm məkanı kimi inkişaf etdirilmişdir. Belə ki, bu gün "Şahdağ" Turizm Mərkəzi QSC və "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi kimi istirahət zonaları məşhur istirahət mərkəzlərinə çevrilmişdir.

İdman turizmi - Ümumiyyətlə, qeyd etmək lazımdır ki, idman Azərbaycanda ən sürətlə inkişaf edən sahələrdəndir. Son illərdə idman infrastrukturunun inkişafına dövlət tərəfindən böyükhəcmli maliyyə vəsaiti qoyulmuşdur. Belə ki, Bakı və onun bölgələrində, Masallı, Şəki, Quba, Qazax, Gəncə, Naxçıvan, Bərdə, Lənkəran, Zaqatala, Şamaxı, Ağdam, Biləsuvar, Oğuz, Şəmkir, Kürdəmir, Sabirabad və digər şəhər və rayonlarda olimpiya kompleks və mərkəzlərinin istifadəyə verilməsi, həmçinin müxtəlif sahələr üzrə idman meydançalarının və təsisatlarının yaradılması ölkədə müvafiq idman növləri üzrə nüfuzlu idman yarışlarının (Avropa və dünya

çempionatlarının) təşkilinə imkan verir. Buna misal olaraq, güləş, gimnastika, boks, voleybol və s. üzrə beynəlxalq yarışları qeyd etmək olar.

Ekoloji turizm - Azərbaycan zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malikdir. 11 iqlim tipindən 9-nun (yarımsəhra və quru çöl iqlimindən dağ tundra iqliminə kimi) müşahidə olunduğu Azərbaycan ərazisi 4100-dən çox müxtəlif bitki növlərinin vətənidir. Azərbaycanda bitkilərin müxtəlifliyi təbiət tarixinin dərin izlərini daşıyır. Bu, eyni zamanda, bir neçə floristik bölgələrin cəmləşməsi və hazırkı təbii şəraitin fərqliliyi ilə bağlıdır. Eyni zamanda, Azərbaycan ərazisinin 10 faizi əsasən palıd, vələs, fıstıq, ağcaqayın və göyrüş ağaclarından ibarət dağ meşələri ilə örtülüdür. Bu imkanlardan istifadə edərək açıq təbiətə (dağlara, çaylara, meşələrə, şəlalələrə) turist gəzintiləri və ekskursiyalar təşkil oluna bilər.

Ailə turizmi. Ailə turizmi bu gün açılmış imkanlar sayəsində ailəvi insanların ehtiyaclarının böyük hissəsini ödəməklə geniş yayılmışdır. Azərbaycan Respublikasında ailəvi turizmin inkişafı üçün müalicəvi təbii ehtiyatlar əsasında (müalicəvi mineral su mənbələri və palçıq Xəzər dənizinin sahili və s.) turizm və kurort obyektlər şəbəkəsi yaranıb və fəaliyyət göstərir. Bu obyektlər şəbəkəsi Abşeron yarmadasının sahilində-Bilgəh, Buzovna, Mərdəkan, Şıxov kurort yerlərində və HacıkəndGöygöl, Şəki-Zaqatala, Xudat-Yalama rayonlarda yerləşir. Ailəvi turizmin inkişafı üçün ölkəmizdə başqa rayonlarda da ehtiyat potensialı var.

Ov turizmi - Azərbaycanda müvafiq lisenziyası olan ovçulara bir çox meşə heyvanlarını və çöl quşlarını ovlamaq imkanı verilir. Ölkədə su-bataqlıq quşlarının daimi qışladığı yerlərə Ağcabədi, Astara, Cəlilabad (Qırmızı kənd ovçuluq təsərrüfatı istisna olmaqla), Beyləqan, İmişli (Sarısu

və Bozqobu ovçuluq təsərrüfatları istisna olmaqla), Lənkəran (Havzava ovçuluq təsərrüfatı istisna olmaqla), Masallı, Biləsuvar (Mahmudçala və Zavvar ovçuluq təsərrüfatları istisna olmaqla), Ceyranbatan gölü və Abşeron yarımadasının başqa su anbarları, həmçinin Mingəçevir su anbarını aid etmək olar. Dağkeçisi və digər meşə heyvanları isə xüsusi icazə əsasında Quba, İsmayıllı və Şəki rayonu ərazilərindəki ovçuluq təsərrüfatlarında ovlana bilər.

Turizm dünya iqtisadiyyatının daha çox əmək tutumlu sektorlarından biridir. Dünya üzrə işləyən əhalinin 200 mln. nəfərdən çoxu və ya 8%-ə qədəri turizm sahəsində çalışır. Ayrı-ayrı ölkələrdə bu pay prta dünya göstəriciləri səviyyəsindən 38 yüksəkdir, məsələn Barbadosda 10%, İspaniyada 11%, Ficidə 11,4% təşkil edir. Onu da qeyd etmək lazımdır ki, ziyarətçilərə birbaşa xidmət göstərən turizm sənayesinə nisbətən , turizmlə əlaqəli olan iqtisadiyyatın digər sahələri (ticarət, tikinti, kənd təsərrüfatı və s.) daha çox əmək tutumlu sahələrdir.Avropa İttifaqında turizm sənayesində iş yerlərinin yaranması 4% onunla qarşılıqlı əlaqədə olan sahələrdə isə 3 dəfə çox, yəni 12% təşkil edir. Bütün düyada turistlərə xidmət sahəsində çalışanların yarıdan çoxu Asiya-Sakit okean regionunun payına düşür. Bu ölkələr üzrə əmək qabiliyyətli əhalinin 12 %-ə qədəri birbaşa və ya dolayı yolla turistlərə xidmət sahəsində iştirak edir.

ƏDƏBİYYAT

1. Azərbaycanda turizm sənayesinin inkişafı ilə əlaqədar strateji yol xəritəsi, 6 dekabr -2016 –cı il, səh 32-47
2. Azərbaycan iqtisadi islahatlar icmalı, azərbaycan respublikasında ixtısaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi, iyul 2017 (səhifə 5-12)

3. BMT inkişaf proqramı - azərbaycanazərbaycan respublikasında turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri, səh. 21-30
4. Azərbaycan iqtisadi islahatlar icmalı, azərbaycan respublikasında ixtısaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi, iyul 2017 ,səh. 5-12
5. Faiq Nadirov, mahir qəhrəmanov "ekoturizm", bakı-2008, səh. 78-85
6. Məmmədov E.Q. "azərbaycanda idman turizminin inkişaf perspektivləri" turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnal "azav" mmc, bakı, 2015, səh. 120-129
7. Məmmədov E.Q. "azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri", bakı- "gənclik" nəşriyyatı – 2013, səh 56-90.

Bölmə 3. Turizmin sosial-iqtisadi inkişafa təsiri

Kamran ABDULLAYEV
AMEA İqtisadiyyat İnstitutu,
i.ü.f.d., dosent

AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SAHƏSİNİN ÖLKƏNİN SOSİAL - İQTİSADİ İNKİŞAFINA TƏSİRİ MƏSƏLƏLƏRİ

ВОПРОСЫ ВЛИЯНИЯ ТУРИСТИЧЕСКОГО СЕКТОРА НА РАЗВИТИЕ ЭКОНОМИКИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

QUESTIONS OF THE IMPACT OF THE TOURISM SECTOR ON THE DEVELOPMENT OF THE ECONOMY IN THE REPUBLIC OF AZERBAIJAN

Açar sözlər: Turizm sektoru, sosial-iqtisadi inkişaf, turizmin inkişaf istiqamətləri.

Ключевые слова: Сектор туризма, социально-экономическое развитие, тенденции развития туризма.

Keywords: Tourism sector, socio-economic development, tourism development trends.

Xülasə: Məqalədə turizm üzrə servisin səviyyəsi artdıqca xidmətlərdən əldə olunan gəlirin həcmi, Azərbaycan Respublikasında turizm sahəsinin ölkənin sosial-iqtisadi inkişafına təsiri məsələləri kompleks şəkildə təhlil edilmişdir.

Резюме: В статье анализируются масштабы доходов от услуг, а также влияние туризма на социально-экономическое развитие страны.

Abstract: The article analyzes the scope of income from services, as well as the impact of tourism on the socio-economic development of the country.

Son illər inkişaf etmiş ölkələrdə turizm sahəsinin inkişafı sahəsində davamlı olaraq səmərəli tədbirlər həyata keçirilməkdədir. Nəzərə almaq lazımdır ki, məhz turizm əksər ölkələrdə xidmət sahələrinin strukturunda ən yüksək paya malikdir və bu tendensiya artmaqdadır. Ümumiyyətlə, turizm sənayesi digər sahələrlə müqayisədə ən çox gəlirli sahələrdən biri hesab olunur. Turizm sahəsi ölkə büdcəsinin formalaşmasında, ölkədə işsizliyin aradan qaldırılmasında, ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafında müsbət rol oynayır [1, s.56].

Aparılmış təhlillər göstərir ki, turizm üzrə servisin səviyyəsi artdıqca xidmətlərdən əldə olunan gəlirin həcmi də yüksəlir. Bəzi dünya ölkələrində turizmin iqtisadi sahələrə təsiri daha böyükdür. Qabaqcıl ölkələrdə turizmdən əldə olunan gəlir milli

gəlirin 30-40%-ni təşkil etməkdədir. Məsələn, Yunanıstan, Türkiyə kimi dövlətlərin dövlət büdcəsinə daxil olan xarici valyutanın yarısı məhz turizm sektorunun hesabına təmin olunur. Meksika, Sinqapur, Tailand kimi dövlətlərin milli gəlirinin 80%-dən çoxu turizm sahəsinin payına düşür. Azərbaycanda da turizm sahəsi üzrə özəl sektorun inkişaf etdirilməsi prosesi son illər intensiv olarq davam etdirilməkdədir. Daxili turizm bazarında özəl turizm şirkətlərinin fəaliyyətinin çoxalması ölkənin turizm sektorunun inkişafını təmin edir. Turizm üzrə özəl sektorun fəaliyyətinin genişlənməsi bu sahəyə investisiya axınlarını cəlb etməklə, reklam-informasiya məkanını formalaşdırır, turizm obyektlərinin sayını artırır. Beynəlxalq turizm xidmətləri bazarında güclü rəqabətin artmasını nəzərə alaraq, bütün ölkələrdə olduğu kimi ölkəmizdə də dövlət tərəfindən bu sahənin yaxın dövrlər üzrə inkişafını dəstəkləyən yeni inkişaf planlarının, proqramlarının, strategiyalarının hazırlanması zəruridir. Turizmin sahəsinin inkişafında mühüm rol oynayan özəl, ictimai və dövlət sektorlarının hər birinin öz funksiyaları vardır. Onların üçünün də fəaliyyəti bir-biri ilə əlaqəli olduğundan, məhz ona görə də onlar, bir-biri ilə əməkdaşlığı gücləndirməlidirlər. Qeyd edilən sahələr üzrə əməkdaşlıq səviyyəsi nə qədər səmərəli olarsa, turizm sahəsində olan problemlər tamamilə aradan qalxa bilər. Buna görə də ölkəmizi inkişaf etmiş turist ölkəsinə çevirmək üçün müştərək olaraq səmərəli iqtisadi tədbirlərin görülməsi məqsədəuyğundur.

Cədvəl 1


Azərbaycan Respublikasında son illər üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin ümumi iqtisadi göstəriciləri

İllər	2013	2014	2015	2016	2017

Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid	530	535	536	548	563
Müəssisələrin əldə etdiyi gəlir, mln. manat	171,3	181,1	183,1	240,1	284,5

Son illər üzrə ölkəmizdə mehmanxana və mehmanxana tipli müəssisələrin sayında da ciddi dəyişikliklər qeydə alınmışdır. Belə ki, əgər 2013-cü ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 530, 2015-ci ildə isə bu göstərici artaraq 536 , 2017-ci ildə isə 563 vahid olmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ildə ölkədə turizm sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin əldə etdiyi gəlir artaraq 284,5 mln manat olmuşdur (Cədvəl 1). Təhlildən də göründüyü kimi ölkəmiz üzrə son illər turizm axınının çoxalması regionlar üzrə turizm təsisatlarının, əlaqəli infrastruktur sahələrinin çoxalmasını təmin etmişdir [5]. Azərbaycanın turizm sahəsində yeni beynəlxalq tələblərə uyğun iqtisadi siyasətin formalaşdırılması zəruridir. Qeyd edək ki, turizm sahəsi ölkədə sosial-iqtisadi və onun ətraf mühit problemlərini həll etməyə qadir olan əsas amil hesab olunur. Bundan başqa turizm regionlar üzrə məşğulluğu və iqtisadi inkişafı təmin edən, cəmiyyətdə sabitliyi və sosial bərabərliyi qoruyan vasitə kimi də qəbul olunur. Məhz turizm sahəsi milli gəlirin əhali arasında bərabər bölünməsini təmin etməklə, əhalinin təhsil, yaşayış və mədəni inkişaf səviyyəsini də yüksəldə bilir. Nəzərə almaq lazımdır ki, turizm sahəsinin milli iqtisadiyyatın bütün

sahələri ilə sıx əlaqəsi mövcuddur. Belə ki, turizm sahəsinin inkişafı üçün ilk növbədə regional turizm infrastrukturlarının fəaliyyət dairəsi genişləndirilməlidir. Turizm üzrə yeni təsisatların, xidmət infrastrukturlarının yaradılması milli iqtisadiyyatın başqa sahələrinin də paralel olaraq inkişafını təmin edə bilər. Ümumiyyətlə, turizm sahəsi üzrə aparılan iqtisadi siyasəti düzgün idarə etmək vacib şərtdir. Beynəlxalq təcrübələrin təhlili onu göstərir ki, turizm bazarı özünü azad bazar qanunları əsasında tənzimlənmək imkanlarına malikdir. Məhz ölkədə aparılan milli turizm siyasətinin əsas funksiyası daxili turizm xidmətləri bazarını inkişaf etdirməkdir. Məsələn, yerli və xarici turizm xidmətləri bazarına çıxarılan milli turizm xidmətləri innovativ və rəqabətqabiliyyətli olmalıdır [2, s.64]. Azərbaycan Respublikasında bütün regionlarda turizm müəssisələrinin, əlaqəli infrastruktur sahələrinin yerli və xarici sahibkarlar tərəfindən regionlarda da inkişafı təmin olunmalıdır..



Şəkil 1

Azərbaycana turizm məqsədilə gələn xarici turistlərin sayı (min nəfər)

Son illər Azərbaycana gələn xarici turistlərin sayında da ciddi dəyişikliklər qeydə alınmışdır. Məsələn, 2013-cü illə müqayisədə 2017-ci ildə ölkəmizdə turizm məqsədilə gələn xarici turistlərin sayı artaraq 2454 min nəfər təşkil etmişdir (Şəkil 1). 2015-ci ildə ölkəyə gələn xarici turistlərin sayı azalsa da, sonrakı illər bu sahədə artım tempi təmin olunmuşdur [5]. Bunun da əsas səbəbi ölkəmizin bütün dünyada tanıdılması prosesinin dövlət

səviyyəsində gücləndirilməsi və ölkəmizdə beynəlxalq idman və mədəni tədbirlərin sayının artırılmasıdır. Turizmin inkişafı birbaşa həmin ərazinin iqtisadi inkişafını da təmin edə bilir. Respublikamız üzrə turizm sahəsinin inkişafının əsas əraziləri Bakı şəhəri və onun ətrafı, Gəncə-Qazax, Şirvan, Naxçıvan, Qax, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara bölgələridir. Bu ərazilər tarixi-memarlıq abidələri, təbii gözəllikləri və yeni turizm obyektləri ilə turistlər üçün cəlbedici hesab olunur. Azərbaycanda turizm sektorunun inkişaf etməsində regionlar üzrə əlverişli iqlim və təbii şərait, mineral sular və tarixi abidələr böyük təsir imkanlarına malikdir. Ölkə üzrə regionların mineral sularla, təbii-coğrafi relyeflə zəngin olması həmin ərazilərdə kurort-sanatoriya komplekslərinin yaradılmasını və bu prosesin genişləndirilməsini də zəruri edir. Turizm xidmətlərinin genşlənməsi milli iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusi ilə də nəqliyyat, rabitə və ticarət sahələrinin inkişafına da ciddi təsir edir. Ölkənin turizm imkalarının yüksəldilməsi üçün mühüm amillərdən biri də ərazinin tranzit potensialından səmərəli istifadə olunmasıdır. Məhz bu halda ölkəyə turizm axınlarının cəlbinin stimullaşdırılması təmin oluna bilər [3, s.125]. Azərbaycanda turizm üzrə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühitinin olması əsas şərtdir. Bunun üçün turizm sahəsində lisenziyalaşdırma prosesi sadələşdirilməli və dövlət tərəfindən regionlarda yeni turizm xidmətləri daha da genişləndirilməlidir. Bütün dünyada turizm sənayesi sürətlə inkişaf etməkdədir. Müvafiq sahəni inkişaf etdirmək üçün ölkəmizdə mövcud olan əlverişli təbii-iqlimin, sosial-iqtisadi şəraitin olması və sosial-iqtisadi islahatların uğurla reallaşdırılması bu sahənin inkişaf tempinin artmasını təmin edir [4,s.110]. Son illər davamlı olaraq həyata keçirilən iqtisadi tədbirlər nəticəsində turizm sahəsində bir sıra müsbət iqtisadi göstəricilərə nail olunmuşdur. Azərbaycanın çox böyük turizm

imkanlarının olmasına baxmayaraq, regional dövlətlərlə müqayisədə hələ də turizm ölkə iqtisadiyyatında, xüsusən Ümum Daxili Məhsulun strukturunda aşağı paya malikdir. Ümumiyyətlə, yaxın dövrlər ərzində turizm sahəsinin ölkənin sosial-iqtisadi inkişafına olan təsirlərinin artırılması üçün aşağıdakı iqtisadi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur :

- Azərbaycanda regional turizm mərkəzlərinin inkişafı üçün Bakı şəhərindən regionlar üzrə yerli və xarici turistlər üçün gündəlik pulsuz avtobus, dəmir yol, dəniz nəqliyyat xidmətlərinin, qismən də olsa, pulsuz tanıtım xarakterli hava nəqliyyat (helikopter, az sərnişin tutumlu təyyarə xidmətlərinin) uçuşlarının təşkili;

- Azərbaycanla Avropa Birliyi və qeyri-Avropa ölkələri arasında tam aviasiya razılaşmasının (Açıq səma sazişinin) imzalanması; bu ikitərəfli hava nəqliyyatı üzrə asanlıqla sərnişin daşımalarının həcminin (xüsusilə, turizm axınlarının), göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəldə bilər;

- ölkəmizə müntəzəm uçuş həyata keçirən xarici hava şirkətlərinin rəsmi saytlarında həftəsonu turistlərin gəlməsini stimullaşdırılması üçün ölkəmizin mərkəz və regionları üzrə mövcud turizm imkanları haqqında məlumatlar yerləşdirilməsi, onlar tərəfindən ölkəmiz üzrə aşağı qiymətə gediş-gəliş avia biletlərin satışının təşkili, müəyyən dövr ərzində onların xərclərinin dövlətimiz tərəfindən kompensasiya olunaraq ödənilməsi, eləcə də aşağı büdcəyə malik xarici avia şirkətlərin daxili hava nəqliyyat xidmətləri bazarında sayının artırılması;

- ölkəmizin nəqliyyat-tranzit potensialından səmərəli istifadə etmək məqsədilə, ayrı-ayrı nəqliyyat növləri tərəfindən tranzit turizm sərnişin daşıma xidmətlərinin həcminin artırılması;

- Avropa ölkələrinin turizm sahəsində qabaqcıl şəhərləri üzrə mövcud təcrübəsi nəzərə alınmaqla Azərbaycanda mərkəz şəhərlərdə və turizm üzrə qabaqcıl regionlar üzrə yeni növ şəhər ictimai nəqliyyatında (məsələn, elektrobus, tramvay, trolleybus, pilotsuz ictimai nəqliyyat vasitələri və s.) yaradılacaq özəl sektor hesabına (dövlət tərəfindən xərclərin tam və ya müəyyən hissəsinin maliyyələşdirilməsi şərti ilə) xarici turist axınlarının ölkəyə cəlbi üçün pulsuz sərnişin daşımalarının təşkili xidmətlərinin yaradılması və s.

ƏDƏBİYYAT

1. Yeganlı Ş. T., Haciyev E.M. " Turizm". Dərs vəsait. Baku ABU, 2006, 324 s.
2. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2006-280 s.
3. Ушакова, Е. О. Методологические основы оценки ресурсов развития туризма региона: монография / Е. О. Ушакова, И. И. Золотарев, С. А. Вдовин. – Новосибирск : СГГА, 2014. – 194 с.
4. Основы туризма : учебник / коллектив авторов ; под ред. Е. Л. Писаревского. — М. : Федеральное агентство по туризму, 2014, 384 с.
5. www.stat.gov.az/turizm/2018

Gülnar SƏMƏDOVA
AMEA İqtisadiyyat İnstitutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin aparıcı elmi işçisi, i.ü.f.d., dos.

AZƏRBAYCANDA MÜALİCƏVİ TURİZMİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

ОЦЕНКА И АНАЛИЗ ЛЕЧЕБНОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

ASSESSMENT AND ANALYSIS OF MEDICAL TOURISM IN AZERBAIJAN

Açar sözlər: turizm, regional turizm, təbii ehtiyatlar, xarici turizm.

Ключевые слова: туризм, региональный туризм, природные ресурсы, иностранный туризм.

Keywords: tourism, regional tourism, natural resources, foreign tourism

Xülasə: Məqalədə Azərbaycanda müalicəvi-balneoloji turizmin müasir vəziyyəti və inkişafı istiqamətləri təhlil edilmiş və qiymətləndirilmişdir. Eyni zamanda turizm sahəsində fəaliyyət göstərən müəssisələrin sayının artmasının, bu sahədə çalışan işçilərin və ölkəyə gələ turistlərin sayına təsirinə nəzər yetirilmişdir. Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi - tərcüməçilər və bələdçi-təlimatçılara tələbat artması ilə əlaqədar turizm sahəsində problemlərin mövcud olduğunu xüsusilə qeyd etmək olar.

Резюме: В статье анализируется и оценивается современное состояние оздоровительного и бальнеологического туризма в Азербайджане. В то же время, было изучено влияние числа предприятий, работающих в сфере туризма, количества работников, работающих в этой области, и количества туристов, посещающих страну.

Стоит отметить, что существуют проблемы в сфере туризма из-за увеличения спроса на квалифицированные кадры - профессиональных гидов - переводчиков и гидов-инструкторов, которые будут работать с ними по мере увеличения числа туристов, приезжающих в страну.

Abstract: The article analyzes and assesses the current state of health and balneological tourism in Azerbaijan. At the same time, the influence of the number of enterprises operating in the field of tourism, the number of employees working in this area and the number of tourists visiting the country has been studied. There are problems in the field of tourism due to the increase in the demand for qualified personnel - professional guide - translators and guide-trainers, who will work with them as the number of tourists coming to the country.

Giriş: Azərbaycanda müalicəvi-balneoloji turizmin müasir vəziyyəti və inkişafı istiqamətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Son illər ölkədə fəaliyyət göstərən turizm şirkətlərinin və turistlərin sayının artması bu sahədə çalışan işçilərin sayına birbaşa təsir göstərdiyi müşahidə olunur. Məsələn, bir turistə normal 7-9 işçi xidmət göstərir. Qeyd edək ki, bunlar ölkədə işsizlik probleminin tədricən həllinə kömək edəcəkdir. Ölkəyə daha çox turist cəlb edilməsi yeni iş yerlərinin açılması deməkdir. Bunun üçün, ölkədə turizmin maddi-texniki bazası, infrastrukturu inkişaf etdirilməli, fəaliyyət göstərən turizm müəssisələrində servis səviyyəsi yaxşılaşdırılmalı, istehsal və təklif edilən milli turizm məhsullarının çeşidi artırılmalı, yüksək hazırlıqlı peşəkar kadrlar hazırlanmalıdır.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra onun iqtisadiyyatının yeni münasibətlərə uyğun qurulması zərurəti qarşıya çıxır. Təbii ki, yeni iqtisadi münasibətlər xalq təsərrüfatının bütün sahələrində köklü islahatlar aparılmasını tələb edir. Bu cəhətdən turizm industriyasının inkişafına müasir kontekstdən yanaşmaq tələb olunur. Məlumdur ki, turizm dünyada ən gəlirli biznes növlərindən biridir, bir çox dünya ölkələrinin büdcələrinin formalaşmasında əhəmiyyətli rol oynayır. Turizmin formalaşması və inkişafında ərazinin coğrafi mövqeyinin özünəməxsus rolu vardır. Azərbaycanın tarixən

karvan yollarının üzərində yerləşməsi turist axınının yaranmasını şərtləndirən amillərdən biridir.

Azərbaycanda turizmin müasir vəziyyətinin qiymətləndirilməsi Azərbaycan Respublikasında "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" na aid tövsiyələrdə bu amillərin bəziləri artıq öz həllini tapmışdır. Bu proqramda daxili və beynəlxalq turizm marşrutlarının yaradılması, xarici ölkələrdə geniş reklam kompaniyası aparmaq, xarici ölkələrin turizmlə məşğul olan dövlət qurumları ilə əlaqələri möhkəmləndirmək, dövlət səviyyəsində müqavilələr bağlamaq, mövcud infrastrukturun təkmilləşdirilməsi, işsizliyin aradan qaldırılması başlıca vəzifələrdir. Belə ki, turistlərin işgüzarlığı, istirahət və əyləncə məqsədilə mehmanxana, otel, motellərin, restoran, kafe və s. şəbəkələrinin genişləndirilməsinə şərait yaradılmalıdır. Hazırda Böyük Qafqazın bir çox bölgələrində, həmçinin Bakıda dünya standartlarına cavab verə bilən qonaq evləri, əyləncə və istirahət zonaları, restoranlar turistlərin istirahəti üçün əlverişli şərait yaradılır. Həmçinin yeni turizm obyektləri inşa edilir, Bakıda "EDELWEISS Recidence" otel və biznes mərkəzi, Nabranda "Bella Bonty" turizm kurortu, İsmayıllıda "Şirin su", Şamaxıda "Dədə Qorqud" istirahət mərkəzlərinin tikilməsi planlaşdırılır. Ölkəmizin iqtisadi inkişafının sürəti turizmin maddi-texniki bazasının genişləndirilməsi üçün əlverişli şərait yaradır [1].

Respublika Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunmuş regionların sosial-iqtisadi inkişaf proqramlarına əsasən bir çox karvansara, qalalar və tarixi abidələr bərpa olunur. XVII əsrə aid İsmayıllı rayonu Basqal kənd hamamının, Balakən rayonundakı Minarəli məscidin, Zaqatala şəhərindəki Qala divarlarının, Şəki şəhərindəki Aşağı karvansara və Şəkixanovların evinin, Bakı şəhəri Nardaran qəsəbəsindəki XIV əsrə aid hamamın konservasiya layihələri hazırlanıb. Şəki

rayonundakı “Gələrsən-görərsən” qalasının, Qax rayonu Həsənxan qalasının, Şamaxı rayonu “Yeddi Günbəz” kompleksinin, Salyan rayonu “Cümə” məscidinin, Quba rayonu 1-ci Nügədi kəndindəki məscid və minarələrin bərpası nəzərdə tutulub. Təmir işləri əsasən dövlət büdcəsi hesabına aparılır. Qeyd etdiyimiz abidələrin hamısı buna aiddir. Lakin qrant hesabına da təmir olunanlar da var. Qəbələ rayonu Nic kəndindəki Ağdam məbədi, Şəkinin Kiş kəndindəki məbəd qrant hesabına bərpa edilib. Artıq dünya təcrübəsindən məlumdur ki, abidələrdən turizm məqsədilə istifadə üçün hansı perspektivli yollar açа bilər. Bu, həm ölkənin iqtisadiyyatına, həm də abidələrini tanıtmaqla onu qorumağa imkan verir. Abidələr bərpa edilərkən onlarda turizm infrastrukturunun yaranması önə çəkilir. Bunun əhəmiyyəti ondan ibarətdir ki, yeni iş yerləri açılır, əhalinin yaşayışı üçün müəyyən şərait yaradılır.

Ölkənin turizm sərvətləri nə qədər dəyərli olarsa, nəqliyyat və yol sistemi yüksək səviyyədə inkişaf etməzsə, o ölkədə turizm əhəmiyyətli dərəcədə inkişaf edə bilməz. Nəqliyyat vasitələrinin sürət, güvənlik, komfort və ucuzluq baxımlarından inkişaf etməri tələb olunur. Ancaq belə bir nəqliyyat sisteminə malik region, turizm sahəsində uğur qazana bilər.

Azərbaycanda turizmin inkişaf istiqamətləri Rekreasiya məqsədləri üçün şəhərətrafı və regional nəqliyyat sistemlərindən geniş istifadə olunur. Regionlarda turizmi inkişaf etdirməkdən ötrü ilk növbədə yollar müasir tələblər səviyyəsinə çatdırılmalıdır. Buna görə də, Azərbaycan Respublikasının inkişafının dövlət proqramlarında nəqliyyat infrastrukturunun bərpasına xüsusi yer verilir. Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının qərarı ilə yaradılmış xüsusi işçi qrupunun üzərində çalışdığı “Azərbaycanda turizmin inkişafı Proqramı” nda bütün bölgələrdə yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Dövlət əhəmiyyətli magistrallar dövlət büdcəsi

hesabına, yerli əhəmiyyətli yolları bələdiyyələrin vəsaitləri hesabına təzələmək planlaşdırılır. Dünya Bankı və Asiya İnkişaf Bankı Azərbaycanda nəqliyyat şəbəkəsinin modernləşdirilməsinə maliyyə vəsaiti ayırıblar. Rusiya sərhədindən Bakıya qədər, habelə Ələt-Astara və Bakı-Şamaxı-Muğan yolu yenidən qurulur. Şəki, Qax, Zaqatala və Balakən rayonlarında kəndlərarası yollar təkmilləşdiriləcək. Ölkənin yol infrastrukturunun təkmilləşdirilməsi üçün əlavə sərmayə qoyulacaq, yollarımız dünya standartlarına uyğunlaşdırılacaq.

Qeyd edək ki, regionlardakı otellər və mehmanxanalar, restoranlar və istirahət mərkəzləri arxitektura cəhətdən göz oxşayan olsa da, bu sahədə də problemlər var. Bu əsasən ixtisaslı kadrların çatışmamasında özünü büruzə verir. Bu da öz növbəsində xidmət mədəniyyətinin aşağı səviyyədə olmasına gətirib çıxarır. Bu problemi təkcə yerləşdirmə müəssisələrinə və iaşə obyektlərinə deyil, həmçinin nəqliyyata və tur agentliklərə də aid etmək olar. Rayonlarda turizm sahəsində işləyənlər əsasən yerli gənclərdir. Turizm sahəsində xidmət etmək çox məsuliyyətli işdir, turistlər çox həssas olurlar. Onlar xidmətin səviyyəsinə ciddi fikir verirlər. Ona görə də, hava limanından başlayaraq, mehmanxanaya yerləşənədək xidmətin səviyyəsi çox yüksək olmalıdır. Bu həm də növbəti il daha çox turistin ölkəmizə gəlməsinə səbəb olur. Eyni zamanda xalqımız, millətimiz haqqında əcnəbilərdə yaxşı təsəvvür formalaşır.

Turizmin ölkə üzrə mövcud vəziyyətinin tədqiqi

Son illər ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi - tərcüməçilər və bələdçi-təlimatçılara tələbat artir, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğunu xüsusilə qeyd etmək lazımdır. Məhz kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir.

Turizmin inkişaf etdiyi ölkələrdə bu fakta xüsusi önəm verilir. Bələdçilərin fəaliyyəti bir neçə qurum tərəfindən tənzimlənir və müvafiq idarənin icazəsi olmadan hər hansı turizm müəssisəsi bələdçi xidmətindən istifadə edə bilmir. Üstəlik, bələdçiliklə məşğul olmaq istəyən şəxsin mütləq lisenziyası olmalıdır. Bir çox ölkələrdə bu işə turizm təhsili verən müəssisələr və həmin ölkələrdə fəaliyyət göstərən turizm şirkətləri (assosiasiyaları) məşquldur.

Dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması üçün ilk növbədə ölkə daxilində sağlam rəqabət mühitini formalaşdırmaq lazımdır.

Eyni zamanda turizmin inkişafı dövlət büdcəsinə xeyli gəlir gətirir. Turizmin inkişafı nəticəsində bir çox yerli sektorlar xeyli gəlir əldə edirlər [2]

1. Turizm növlərinin gələcək inkişafında ən önəmli yerlərdən birini müalicəvi-balneoloji turizm tutur ki, bunun üçün respublikamızda geniş imkanlar vardır. Hal-hazırda yerli əhalinin istifadə etdiyi düz gölü ərazisi baxımsızlığı və çirkliliyinə baxmayaraq çox böyük müalicəvi əhəmiyyətə malik olduğundan yay dövründə yerli əhali və əcnəbilər buraya üz tuturlar. Həmçinin duzlaq, isti su, kükürdlü su olan regionlarımız da vardır ki, onların potensialından səmərəli istifadə olunmur. Bunun üçün yerli əhali ilə bərabər xarici turistlərin cəlb edilməsi üçün həmin ərazilərdə müasir standartlara uyğun yeni müalicəvi turizm obyektlərinin tikilməsi daha vacibdir. Yerli, və xarici investorların cəlb edilməsi üçün həmin ərazilərdə investisiya layihəsinin həyata keçirilməsi və optimal investisiya mühiti vacib şərtdir. Belə ki, aparılmış hesablamalara əsasən, layihənin həyata keçirilməsində orta hesabla müalicəvi turizm obyektinin gücündən asılı olaraq xırda, orta və iri sahibkarlıqdan asılı olmayaraq investisiyanın məbləğinin 50%-dən yuxarı hissəsini

borc kapitalının hesabına həyata keçirmək mümkündür. Adətən bu sahədən əldə olunan gəlir mövsümi xarakter daşıdığından kapital qoyuluşunun ödəmə müddəti üçün orta hesabla 5-10 il tələb olunur. Burada 100 nəfərlik müalicəvi turizm obyektinin istifadəyə verilməsinin təşkilati planına nəzər salsaq, 1.5 il tələb olunur və bu layihəyə 2.100.000 manat vəsait xərclənir.

Cədvəl №1

№	Tədbirlərin adı	Layihənin 1-ci ili											
		1	2	3	4	5	6	7	8	9	10	11	12
1.	İnvestisiya vəsaitinin alınması	©											
2.	Müalicəvi kompleksin qurulması və sənədləşmə		©	©	©	©	©	©	©				
3.	Kadrları qəbulu və öyrədilməsi									©	©		
4.	Fəaliyyətə başlama										©	©	©

Əgər 5 il müddətinə qoyulmuş investisiya layihəsinin səmərəliliyini qiymətləndirsək 12 aylıq intensiv fəaliyyət dövründə 100 nəfərlik turistin müalicəsindən əldə olunan gəlir 12x100x1458 man=1750000, 5 il müddətinə isə 5x1750000=870000 man olacaqdır. Rentabellik səviyyəsi 20% olmaqla illik 350000 manat məbləğində vəsait yaranır. 5 il müddətinə isə bu 1750000 manat mənfəət deməkdir. Layihədə proqnozlaşdırılan gəlirin zamana görə qiymətləndirilməsində Milli bankın mərkəzləşdirilmiş uçot stavkası - 10% nəzərə alınmaqla diskinont norması (R), layihə ili üzrə nəzərdə tutulmuş il (K), proqnozlaşdırılmış gəlir mənbəyi (Pk) nəzərə alınmaqla investisiya dövrünün diskontlaşdırılmış gəlirini aşağıdakı düsturla hesablasaq, $PV=\sum \frac{PK}{(1+R)K}$

1750000/(1+0,1)x5=318181 manat

İnvestisiyanın öz-özünü ödəmə müddəti isə,

PVP=318181/2100000=6,6 il.

olacaqdır ki, bu da uzun müddətli kapital qoyuluşu olduğundan investorları stimullaşdırmaq üçün həmin müddətdə təqdim olunan layihənin səmərəliliyi hesablanmaqla mənfəət vergisindən azad olunması məqsədəuyğundur. Bu halda dövlət büdcəsinə 100 nəfərlik müalicə turizmindən 6,6 il müddətinə orta hesabla 413398 manat məbləğində mənfəət vergisi güzəşt edilsə də bu 45 nəfər yeni iş yerinin açılması və əlavə olaraq müəssisənin fəaliyyəti dövründə DSMF-na həmin işçilərin əmək haqqından 25%(22+3) , muzdlu işlə əlaqədar vergi, əmlak vergisi, torpaq vergisi və s. vergilərin ödənilməsini təmin edəcəkdir. Burada, illik turizm xərcləri aşağıdakı istiqamətlərə yönələcəkdir.

- ✓ Əmək haqqı -324000 man :12:45=600 man. orta aylıq əmək haqqı.

- ✓ Sosial sığorta ayrılması -22%-71280
- ✓ Birbaşa material xərcləri -180000
- ✓ Dolayı xərclər -824048
- ✓ Cəmi xərclər -1400000man
- ✓ Mənfəət yığımı - 350000man
- ✓ Cəmi gəlir -1750000manat.

Bu halda büdcəyə 120938 manat həcmində illik əlavə vergi hesablanacaqdır.

- ✓ Bunlar aşağıdakılardır.
- ✓ Sosial sığorta ödənişi -77760 man,
- ✓ Gəlir vergisi -350078
- ✓ Əmlak vergisi -2100 manat
- ✓ Torpaq vergisi – 6000 manat.
- ✓ Cəmi 120938 manat büdcəyə vəsait yönələcəkdir.

Sahibkarlıq meyarlarını (aşağıda göstərilmişdir) nəzərə almaqla bunları hesablasaq belə bir layihəyə 125 nəfərlik yeni iş yeri daxil olmaqla 2100000 *6,25=13 125 000 manat vəsait tələb olunacaqdır.(Cədvəl 2)

Cədvəl 2

Sahibkarlıq meyarı

Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası	**İşçilərin orta siyahı sayı**	**illik gəliri**
Kiçik sahibkar	25 nəfərədək	200 min manatadək
Orta sahibkar	25 nəfərdən 125 nəfərədək	200 min manatdan 1250 min manatadək

İri sahibkar	125 nəfər və ondan yuxarı	1250 min manat və ondan yuxarı

Hal-hazırda Qum adası ərazisində yerləşən və müalicəvi əhəmiyyətə malik olan "Duzlu göl" ərazisindən bu məqsədlə istifadə etmək daha məqsədəuyğundur.

Bu hesabat müalicə məqsədi ilə turistlərin sayından asılı olaraq iri həcimi layihələrdə də öz əksini tapacaqdır. Xüsusən də bu tip layihələr ölkəyə xarici investorların cəlb olunmasına kömək edəcək.

Nəticə

- **Müalicəvi-balneoloji turizmin inkişaf etdirilməsi** prioritet götürülərək, 100 nəfərlik müalicəvi turizm obyektinin istifadəyə verilməsinin dövlət tərəfindən stimullaşdırılması, bunun üçün təqdim olunan layihənin səmərəliliyi hesablanmaqla mənfəət vergisindən azad olunması;

Əsaslandırma: regionlarda **duzaq, isti, kükürdlü su** potensialından səmərəli istifadə olunmur. Bunun üçün respublikamızda geniş imkanlar vardır. Bu obyektlərin istifadəyə verilməsi orta sahibkarlığın inkişafına kömək göstərə bilər.

Qiymətləndirmə: 100 nəfərlik müalicəvi turizm obyektinin istifadəyə verilməsinə ən intensiv vaxtla 1.5 il tələb olunur və bu layihəyə 2100000 manat vəsait xərclənir. Hesablamalara görə, bu sahədən əldə olunan gəlir mövsümi xarakter daşıdığından kapital qoyuluşunun özünü ödəmə müddətinə orta hesabla 5-10 il tələb olunur və rentabellik 20% təşkil edir. Nəticədə dövlət büdcəsinə 100 nəfərlik müalicə turizmindən 6,6 il müddətinə orta hesabla 413398 manat məbləğində mənfəət vergisi güzəşt edilsə də, bu 45 nəfər yeni iş yerinin açılması və əlavə olaraq müəssisənin fəaliyyəti dövründə DSMF-na həmin işçilərin əmək haqqından 25%(22+3) , muzdlu işlə əlaqədar vergi, əmlak, torpaq vergisi və

s. vergilərin ödənilməsini təmin edilməklə büdcəyə 120938 manat əlavə vəsait daxil olacaqdır.

- Uşaq turizmin inkişaf etdirilməsi;

Uşaq turizminə 7-17 yaşa qədər uşaqlar aid olunur. Hazırda əhalinin 35% - i uşaqlar təşkil edir. Turizmin bu növü mövsümi xarakter daşıyır, yəni tətil vaxtları (qış, bahar -8-12, yay 3 aylıq). Uşaq turizmin daxili turizm (şagirdlər üçün ekskursiyalar, turistik idman yarışları, idrak və istirahət turları), xarici turizm (istedadlı uşaqların yaradıcılıq müsabiqələrinin, təhsil, kommersiya əsasında idrak və istirahət turları, beynəlxalq səfərlər və uşaq mərkəzləri təmsil edir

- **İdman oyunları** zamanı turizmdən daxil olan vəsaitin artırılması; Oyunlar zamanı ölkədə infrastruktur üçün çəkilən xərclərin səmərəlliyini artırmaq üçün yeni beynəlxalq tədbirlərin

Əsaslandırma: Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatlarına əsasən turist yerləşdirilməsi və ictimai iaşədə mənfəət 20 milyon manat, zərər isə 47,1 milyon manatla nəticələnmişdir. Gələcəkdə oyunların keçirilməsi zamanı bu ziyanın mənfəətlə nəticələnməsi nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında 2010 - 2014 - cü illərdə turizmin inkişafına dair dövlət proqramı"
2. Azərbaycanın Statistik Göstəriciləri 2015, 814 s.
3. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az

Lətif KAZIMOV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr

DÜNYADA DƏMİR YOLU NƏQLİYYATININ YARANMASI TARİXİ

ИСТОРИЯ ЗАРОЖДЕНИЯ ЖЕЛЕЗНОДОРОЖНОГО ТРАНСПОРТА В МИРЕ

HISTORY OF THE ORIGIN OF RAILWAY TRANSPORT IN THE WORLD

Açar sözlər: Nəqliyyat, dəmiryolu nəqliyyatı, daşımalar, sərnişin və yük daşımaları, dəmir yolu nəqliyyatının tarixi.

Ключевые слова: Железнодорожный транспорт, транспорт, пассажирские и грузовые перевозки, история железнодорожного транспорта.

Key words: Rail transport, transport, transportation, passenger and cargo transportation, history of railway transport.

Xülasə: Dəmiryolu nəqliyyatı — müxtəlif yükləri kütləvi şəkildə uzaq məsafələrə yüksək sürətlə və digər nəqliyyat vasitələri ilə müqayisədə qat-qat ucuz aparması ilə, həmçinin hərəkətinin müntəzəmliyi ilə fərqlənən nəqliyyat vasitəsi. Dəmir yolu nəqliyyatının tarixi o qədər də qədim deyildir. Bu nəqliyyatın yaranması sənaye inqilabı dövründən başlanmışdır.

Резюме Железнодоро́жный тра́нспорт — вид наземного транспорта, перевозка грузов и пассажиров на котором осуществляется колёсными транспортными средствами по рельсовым путям. В отличие от автомобильного транспорта, где транспортное средство просто движется по подготовленной поверхности, железнодорожный транспорт направляется путями, по которым он идёт. Железнодорожные пути обычно состоят из железных рельс, установленных на шпалы и балласт, по

которому движется подвижной состав, обычно оснащённый металлическими колёсами. Однако возможно и другое устройство путей, например, безбалластный путь, где пути прикреплены к цементной основе. Старейшие железные дороги, где человек сам тянул груз, относятся к VI веку до н. э, а Периандр, один из семи мудрецов, считается её изобретателем. Железные дороги расцвели после изобретения в Великобритании паровой машины, ставшей важным источником энергии в XVIII и XIX веках. Паровые двигатели позволили строить железные дороги на большие расстояния, что, в свою очередь, стало одним из важнейших компонентов индустриальной революции.

Abstract: Rail transport is a means of transferring of passengers and goods on wheeled vehicles running on rails, also known as tracks. It is also commonly referred to as train transport. In contrast to road transport, where vehicles run on a prepared flat surface, rail vehicles (rolling stock) are directionally guided by the tracks on which they run. Tracks usually consist of steel rails, installed on ties (sleepers) and ballast, on which the rolling stock, usually fitted with metal wheels, moves. Other variations are also possible, such as slab track, where the rails are fastened to a concrete foundation resting on a prepared. subsurface Rail transport then commenced in mid 16th century in Germany in the form of horse-powered funiculars and wagonways. Modern rail transport commenced with the British development of the steam locomotives in the early 19th century.

Dəmir yolu nəqliyyatı - yük və sərnişinlərin daşınmasını rels yollarla həyata keçirən nəqliyyat növüdür. Dəmiryol nəqliyyatı XIX əsrin əvvəllərində yaranmışdır. Dəmir yollannın tikintisi XIX və XX əsrin birinci yarısında bir çox ölkələrdə aparılırdı. Məhz bu səbəbdən əksər ölkələrdə dəmiryol nəqliyyatı aparıcı nəqliyyat növlərindən birinə çevrilmişdi. Artıq

1840-cı ildə dünyada domirvol xətlərinin uzunluğu 2,5 min km-ə çatmışdı. Müasir dövrdə bu göstərici 1,3 mln. km təşkil edir. XVIII əsrin 60 - 80-cı illərində əvvəlcə İngiltərədə, daha sonra digər olkələrdə sənaye yüksəlişi başlandı. Əl əməyinin yerinə maşın islehsalatı meydana çıxdı. 1763-cü ildə rus mühəndisi İ.İ.Polzunov sobalara hava vermək üçün olan buxar mühərrikinin layihəsini təqdim etdi. Sənayedə əsl inqilabı Ceyms Uattın 1784-cü ildə yaratdığı buxar maşını etdi.Uattın universal buxar maşınını istənilən istehsalatda və nəqliyyatda tətbiq etmək mümkün idi. 1802 - ci ildə ingilis konstruktoru Riçard Trevitik buxar avtomobili düzəltdi. Bu maşm hərəkət edəndə çox böyük hay - küy salırdı.Onun sürəti 10 km/saat idi.Bu sürəti almaq üçün Trevitik çox böyük aparan təkər hazırlamışdı. Uzun müddət dəmir yollar yalnız mədənlərdə tikilirdi, daha sonra at dartqısı ilə işləyən sərnişin yolları yayılmağa başladı.İlk belə yol 1801-ci ildə İngiltərədə tikilmişdi. İlk parovoz 1804 - cü ildə yaradıldı. Lakin o dövrün çuqun relsləri belə ağır maşına dözə bilmirdi. Sonrakı illər bir çox mühəndislər parovoz yaratmaq fikrinə düşürdülər. Onlardan ən müvəffəqiyyətlisi Corc Stefenson idi. O, 1812 - 1829 - cu illərdə nəinki parovozun daha yaxşı konstruksiyasını təklif etdi, həm də Darlinqtondan Stoktona kimi parovozu saxlaya biləcək ilk dəmir yolu xəttini çəkdi. Dəmir yolu ilə müntəzəm sərnişin daşımaları ilk dəfə 1807 - ci ildə Uelsdə təşkil olundu. O zaman iş qabiliyyətli parovozlar olmadığı üçün dartqı qüvvəsi kimi atlardan istifadə edilirdi. Dəmir yolu çəkilişinin əleyhdarları İngilis kütləvi informasiya vasitələrində aşağıdakı arqumentləri irəli sürüdülər: dəmir yolu inəklərin otlamasına mane olacaq, toyuqlar yumurtlamayacaq, tüstü ilə zəhərlənmiş hava uçan quşları öldürəcək, yolun yaxınlığındakı evlər yanacaq, parovoz

partlasa sərnişinlər hamısı parça - parça olcaqlar və s. Dünyada dəmir yolunun yaranma günü 25 senyabr 1825 - ci il hesab olunur. İngiltərədə meydana gəlmiş dəmir yolu bütün dünyaya yayıldı. İkinci dünya müharibəsinin başlanğıcında dünya dəmir yollarının təxminən yarısı yeddi dövlətin - ABŞ, SSRİ, Böyük Bıitaniy, Fransa, Almaniya, İtaliya və Yaponiyanm payına düşürdü.Teplovoz dartqısına keçidin geniş tətbiqi ikinci dünya müharibəsindən sonra başlandı. Hal-hazırda teplovozlar manevr işlərində parovozları tam əvəz etmiş və şəbəkədə yük dövriyyəsinin təxminən 40 % - ni yerinə yetirirlər.Dəmiryol xətlərinin ümumi uzunluğuna görə ərazicə böyük və əsasən inkişaf etmiş ölkələr fərqlənirlər. Dəmiryollarının uzunluğuna görə dünyanın aparıcı ölkələri

	Ölkələr	**Dəmir yollarmın uzunluğu (min km)**
1	ABŞ	226,6
2	Rusiya	87
3	Çin	86
4	Hindistan	63,2
5	Almaniya	48,2
6	Kanada	48,1
7	Avstraliya	38,5
8	Argentina	32

9	Fransa	29,3
10	Braziliya	29,2

Dəmiryol nəqliyyatı quru nəqliyyatının əsas növlərindən biri olaraq, dünyada ümumi yük və sərnişin daşımalarının təxminən 10%-ni təmin edir. Ölkədə dəmiryol nəqliyyatının inkişaf səviyyəsini əks etdirən digər göstəricilərdən biri onların sıxlığıdır. Bu baxımdan aparılan təhlil onu göstərir ki, dəmiryol xətləri daha sıx olan ərazilər sahəcə orta və kiçik ölçülü ölkələr üçün səciyyəvidir. Qloballaşma dövründə dəmiryol xətlərinin salınmasında transkontinental magistral layihələr mühüm əhəmiyyət kəsb edir. Artıq tarixi İpok yolu marşrutu üzrə, uzunluğu 10 min km-ə çatan, dəmiryol şəbəkəsi yaradılır. Bu layihəyə əsasən Qərbi Avropa ölkələri ən qısa yolla Çinə yükbrini daşımaq imkanı əldə edəcəklər. Daha dəqiq desək, İstanbuldan daşınan yüklər, istifadə edilən ənənəvi yollardan fərqli olaraq zaman çərçivəsində Pekinə təxminən 30% daha tez çatdınlacaqdır.

Dəmir yollarınınn sıxlığına görə dünyanın aparıcı ölkələri

N	Olkələr	Dəmiryol xətlərinin sıxlığı (km/min kv. km)
1	Belçika	313.2
2	Almaniya	125
3	Isveçrə	121.1
4	Polşa	85
5	Yaponiya	75

6	Böyük Britaniya	70
7	İtaliya	65
8	Fransa	60

Dəmir yol nəqliyyatnıın salmmasında relyef amili böyük rol oynayır. Belə ki dağlıq ərazilərdə dəmir yollarınm salınması və lokomotivlərin istismarı daha baha başa gəlir. Bu səbəbdən dünyada istismarda olan dəmiryol xətlərinin təxminən 85%-i 1000 metr hündürlüyə qədər olan ərazilərdə salınmışdır.

ƏDƏBİYYAT

1.Cavadov Ə.Ə. Daşımalar və vahid nəqliyyat sistemi. Dərslik, Bakı, «Təhsil» NPM, 2004, 260 s.
2.Cavadov Ə.Ə. Vahid nəqliyyat sistemi. Dərslik, Bakı, 2010, 332 s.

Cavid ƏKBƏRLİ
Azərbaycan Turizm və Menecment Universiteti,
Magistr

SƏRNİŞİN QATARLARINDA GEDİŞ QAYDALARI

ПРАВИЛА ПЕРЕВОЗКИ В ПАССАЖИРСКИХ ПОЕЗДАХ

RULES OF TRANSPORTATION IN PASSENGER TRAINS

Açar sözlər: Gediş qaydası, sərnişin qatarı sxematikası, gediş sənədlərinin xarakteristikası

Ключевые слова: правила ходьбы, схема пассажирского поезда, характеристика проездных документов.

Keywords: Walking rules, passenger train diagram, characteristic of travel documents.

Xülasə: Məqalədə sərnişinlər qatarlarda yol gedərkən ictimai və dəmir yolu nəqliyyatında mövcüd qaydalara əməl etmək məsələlərinə toxunulmuşdur.

Резюме: В статье затрагиваются вопросы общественного и железнодорожного движения на дороге к пассажирам.

Abstract: The article touches on the issues of public and rail traffic while on the road to passengers.

Dəmir yolu işçiləri sərnişinlərə qaşı mülaim olmalı, onları bəd əməllərdən çəkindirməli və xidmət mədəniyyətinin yaxşılaşdırılması üçün tədbirlər görməlidir. Bu məqsədəqsədlə vaqon bələçisi borcludur :

- Yataq ləvəzimatları vermək və onları təyinat məntəqəsinə çatmasına 30 dəqiqə qalmış geri almaq;
- Qatarın təyinat məntəqəsinə və qatardəyişmə məntəqəsinə çatmasına çatmasına ən azı 30 dəqiqə qalmış sərnişinləri xəbərdar etmək;
- Yolda sərnişinlərin gediş sənədlərinin saxlanmasını təmin etmək və qatarın təynat mənəqəsinə çatmasına 30 dəqiqə qalmış geri qaytarmaq;
- Yataq yeri olan qatarlarda sərnişinlərə müəyyən olunmuş qiymətlərlə sutkada 3 dəfə çayla təmin etmək;
- Hər iki ayaq yolunu açıq saxlamalı.

Sərnişinin səlahiyyətləri:

- Yolda haqqı baha olan vaqonda yer varsa gediş haqqinda fərqi ödəməklə ora keçmə imkanı;
- Yolda gediş sənədinin müddətinə əsasən bir sutkadan çox olmayaraq dayanmalar olrsa gediş sənədində stansiya rəhbərinin qeydi vacibdir;
- Ayrıca yer tutmadan özü ilə 5 yaşdan aşağı bir uşağı pulsuz aparmaq;
- Sərnişinlə beş yaşdan bir uşaqdan çox və ya 5 yaşına qədər bir uşaq, həmçinin 5 yaşından 10 yaşına qədər uşaqlar ayrıca yer tutduqda uşaq gediş sənədləri alınır.
- Çəkisi 50 kq əl yükünün onun üçün ayrılan xüsusi yerdə pulsuz daşımağa. Əl yükünün bütövlüyü və qorunması sərnişinin üzərinə düşür. Yataq yeri olan vaqonlarda gedərkən müəyyən edilmiş haqla televizordan istifadə imkanı.

Beynəlxalq sərnişin qatarlarını bələdçiləri bilməlidir:

- Beynəlxalq sərnişin qatarlarında sənədləşmənin aparılması prosesudurası;
- Vaqonlardan istifadə qaydalarını, daxili sərnişin qatarlarında qüvvədə olan qaydaları və bələdçiyə xidməti vəzifəsini yerinə yetirməsi üçün lazım olan sərəncam və göstərişləri;
- Qatarın hərəkət etdiyi ölkələrdə qüvvədə olan kömrük və valyuta qanunları;

Sərnişinlərlə xidməti məsələlərlə əlaqədar ünsiyyət yaratmaq üçün xarici dil (qatar hərəkət edən ölkənin) bilməli.

Beynəlxalq qatarlarda xidmətlər:

- Vaxtında yerləri salmaq, sərnişinlər arasında qəzet, jurnal, reklam və informasiya materialları yatmaq , çay və mədəni inventarlarla təmin etmək;

- Əgər lazım olarsa sərnişinin tələbi ilə beynəlxalq sərnişin qatarının gediş sənədlərində qeydlər aparmaq, onları stansiyanın möhürü ilə təsdiqləmək;
- Vaqon texniki nasazlıq üzündən açılarsa bu barədə sərnişinlərə məlumat verməli, sərnişinləri onların razılığı ilə başqa vaqonlarda yerləşdirmək üçün tədbirlər görmək, ilk növbədə uşaqlı sərnişinlərə və əlilərə köməklik göstərmək;
- Sərnişinlərin səhər yeməyi, nahar və sair sifarişlərini qəbul etmək, əgər qatarda vaqon-restoran varsa, oradakı qida məhsulları, sərinləşdirici içkilər haqqında sərnişinləri məlumatlandırmaq bəldçinin vəzifə borcudur. Sərnişin qatarlarında gündə 3 dəfədən az olmayaraq yerli vaxtla 15:00-dan 17:00-dək, 20:00-dan 22:00-dək, firma qatarlarında və bütün kateqoriyalı qatarların SV vaqonlarında isə sərnişinlərin tələbi ilə günün istənilən vaxtında çay, qəhvə və şirniyyatla təmin olunmalıdır. Vaqonda daim qaynadılmış su saxlanılmalıdır.

Dövriyyə məntəqələrində qatar çatan zaman bələdçinin vəzifələri:

Qatar dövriyyə məntəqəsinə çatan zaman sərnşinlər qatardan düşdükdən sonra bələdşinin vəzifə borcudur:

- Sərnişinlərin hər hası bir əşyanın yaddan çıxıb-çıxmamasını yoxlamaq;
- Yaddan çıxmış əşya aşkar edildikdə akt tərtib etməklə saxlama kamerasına təhvil verməli;
- Vaqon avadanlıqlarını nəzərdən keçirməli, çatışmamazlıq aşkar etdikdə qatar rəisinə və elektrik–mexanikə məlumat verməli;bələdçinin geyim forması və vaqonlarda sanitar –gigiyena qaydaları.

Bələdçinin geyim forması:

- Reysdən qabaq bələdçi hökmən müəyyən olunmuş vaxtda təmiz və səliqəli forma geyimində işə gəlmlidir. Forma yüksək keyfiyyətli materialdan xüsusi olaraq tikilməlidir;
- Bələdçinin geyim forması rənginə və özəlliyinə görə seçilməlidir;
- Bələdçinin fəaliyyəti dövründə uğurları geyim formasında (orden və medallar) öz əksini tapmalıdır;
- Yaz və qış mövsumuna uyğun bir neçə ağ ütülü köynək və iki ədəd xalatla təmin olunmalıdır;
- Sanitar-gigiyenik qaydalara əməl etmək hər bir bələdçinin borcudur.

Qatarlarda sanitar-gigiyena qaydaları:

- Yolda hərəkət zamanı bələdçi vaqonun təmizliyinə, normal tempratur rejiminə əməl olunması, keçid meydançaların təmizliyi işıqlanması keçid qapılarında iki tərəfli tutacaqların olmasına, kondisionerlərin işlək vəziyyətdə olmasına, işləyən zaman pəncərələrin bağlı olmasına nəzarət etmək;
- Sərnişinlərin vaqonların sanitar qovşaqlarından maneəsiz istifadə edilməsinə nəzarət etmək (qatar dayandığı vaxtdan başqa);
- Stansiyalara və kurort zonalarına çatan zaman sanitar qovşaqları bağlamalı. , zibil və diçər əşyaların tullanmasına yol verməməli
- Sərnişinlərin minməsi üçün qatar stansiyaya verilərkən bələdçi qış aylarında vaqonun tempraturunu +18-22 C^0, yayda isə +22-26 C^0 həddində saxlamalı;
- Bələdçi vaqonda içməli su mənbəyini, su təchizatını və digər işləri daim nəzarətdə saxlamalıdır. Yolda hərəkət zamanı sanitar qaydalara uyğun olaraq gündə iki dəfə vaqonda nəm təmizləmə işləri aparılmalı, gündə dörd

dəfədən az olmayaraq döşəmələrin yuyulması təmin olunmalıdır.

Dəmir yolu nəqliyyatında sərnişinlərə xidmət zamanı bələdçinin davranış etikası:

Hərəkətdə olan sərnişinlərə olan xidmət edərkən. Bələdçi sərnişinlərlə unisiyyətdə aşağıdakı etika qaydalarına əməl etməlidir: -sərnişin gülərüzlə qarşılamalı, diqqətlə dinləməli, ədəbli və nəzakətli rəftar etməlidir.-sərnişinlərlə sakit, səbrlə (təmkinlə) səsini qaldırmadan danışmalı, öz fikrini aydın və qısa ifadə etməlidir. Əgər sərnişinin danışıq tərzi hörmətsiz, təhqiramiz, bələdçiyə qarşı tələbkardırsa, bu zaman xeyirxahlıq və təmkinlik nümayiş etdirmək lazımdır. Nə işin çəinliyi, nə baş vermiş xoşagəlməz hadisələr, nə xəstə olmaq, nə də pis əhval-rühiyyə sərnişinlərlə hörmətsiz tərzdə davranmağa haqq vermir. Yaşından asılı olmayaraq siz deyə müraciət edilməlidir.Sərnişinləri yerləşdirərkən gediş sənədlərinə əsasən yeri göstərməli və yaxşı yol arzulamalı.

-yaşlı sərnişinlərə, əlillərə və uşaqlı sərnişinlərə yerlərində otrmalarına kömək etməli;

-sərnişinlər olan kupeyə daxil olmazdan əvvəl qapını döyməli və icazə almalı;

-Sərnişinlərə xidmət edərkən -Buyurun - zəhmət olmazsa – Təşəkkür edirəm - çox sağ olun – və s kimi xoş sözlərlə müraciət olunmalıdır;

- Gecə vaxtı səfərini tamamlayan sərnişini astaca oyadaraq onun yanında dincələn sərnşini narahat etməməli;

- Qatarın stansiyaya çatmasıına 30 dəqiqə qalmış bələdçi səfərini tamamlayan sərnişini xəərdar etməli və sərnişinin vaqondan düşməsinə köməklik etməlidir. Əşyaların və sənədlərini yaddan çıxamamaları xatırlatmalıdır.

- Qatar çatıb tam dayandıdan sonra qapını açmalı, açılan medan tam qaldırılmalı, onu bağlamalı, hündür platforma

yoxdursa tutacaqlardan tutaraq onların minməsinə və düşməsinə köməklik etməlidir;
- Bələdçi qatarın keçdiyi xarici ölkələrin xalqların adət və ənənələrini blməli, onlara hörmətlə yanaşmalı, özünün və təmsil etdiyi ölkənin ləyaqətini qorumalıdır.

Terrorizmlə mübarizədə bələdçinin əlavə vəzifələri:

Baş vermiş terror aktları ilə əlaqədar sərnişinlərin və qatar tərkibinin təhlükəsizliyini təmin etmək məqsədi ilə vaqon bələdçisi aşağıakılara əməl etməlidir:

- Vətəndaşlardan hər hasnsı əşya və bağlamanı qəbul edib aparmaq qəti qadağandır;
- Vaqona partlayıcı və tez alışan maddələrin keçirılməsinə yol verməmək məqsədi ilə minik vaxtı sərnişinlərin əl yüklərini nəzərdən keçirməli, şübhəli hallarda polisin iştirakı ilə yüklər və çemodan, qutuvə bağlamalar açılıb yoxlanılmalı;
- Yol boyu sərnişinlərə nəzarət etməli;
- Qatardan düşən sərnişinlərin özlərinə məxsus yüklərin götürməsinə bələdçi tam əmin olmalıdır. Yol boyu dayanacaq və stansiyalarda vaqonun hər iki tərəfi müşahidə olunmalı, şübhə yarandıqda qatar rəisinə və ya polisə məlumat verməli;
- Böyük stansiyalarda sərnişinlərə vaqonu uzun müddət tərk etməməyi, diqqətli və sayıq olmalarını xahiş etməli;
- Dövriyyə məntəqələrində sərnişinlər vaqonu tərk etdikdən sonra vaqon, tambur və kupelər diqqətlə yoxlamalı, şübəli əşyalar aşkar olunduqda qatar rəisinə və müvafiq orqnlara məlumat verməli.

ƏDƏBİYYAT

1. Е.В. Покацкая, А. С. Левченко. ПАССАЖИРСКИЙ ЖЕЛЕЗНОДОРОЖНЫЙ КОМПЛЕКС ВОКЗАЛЫ - Самара: СамГАПС, 2007. – 66 с.
2. Е. Е. Смородинцева. ОРГАНИЗАЦИЯ ПАССАЖИРСКИХ ПЕРЕВОЗОК - Екатеринбург: УрГУПС, 2017. –107 с.

Ceyran MƏMMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistr

TURİZMDƏ İNFORMASİYA-KOMMUNİKASİYA SİSTEMLƏRİNDƏN İSTİFADƏ İMKANLARI

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОНЫХ КОММУНИКАЦИОННЫХ СИСТЕМ В ТУРИЗМЕ

POSSIBILITIES OF USING INFORMATION COMMUNICATION SYSTEMS IN TOURISM

Açar sözlər: rezervasiya,kompyuter sistemləri, elektron katoloq, turizm və elektron mühit, E-Ticarət.

Ключевые слова: Бронирование, компьютерные системы, электронные католоки, туризм и электронная среда, электронная коммерция.

Keywords: booking, computer systems, electronic catholoc, tourism and electronic media, E-Commerce

Xülasə: Məqalədə informasiya kommunikasiya sistemlərinin turizmə təsiri araşdırılmışdır. İnformasiya və kommunikasiya texnologiyaları turizm bazarları və strateji turizmin idarə olunması baxımından rəqabət qabiliyyətinin əsas amillərindən biridir. İnternet, turizmdə dəqiq məlumatlar üçün, son dərəcə vacibdir. Turistik məhsullar səyahət etmədən əvvəl yoxlanıla bilməz. Yalnız İKT vasitəsi ilə səyahət etmədən əvvəl

getdiyin yer haqqinda dəqiq və vizual görüntü almaq mümkündür. İKT inqilabı müxtəlif turizm sektorlarında və onunla əlaqəli sənaye sahələrində öz təsirini göstərmişdir. Bu baxımdan da turizm sənayesində İKT sistemlərindən istifadə edilməsi mövzunun aktuallığın əks etdirmiş olur.

Резюме: В статье рассматривается влияние информационно-коммуникационных систем на туризм. Информационно-коммуникационные технологии (ИКТ) являются одним из ключевых факторов конкурентных туристических рынков для туризма и стратегического туризма. Интернет чрезвычайно важен для точной туристической информации. Туристические продукты не могут быть проверены перед поездкой. Это возможно только получить четкую и наглядную картину того места, куда вы ходили до поездки через ИКТ. Революция в области ИКТ оказала влияние на различные сектора туризма и смежные отрасли. В связи с этим использование ИКТ-технологий в туристической индустрии отражает актуализацию.Ключевые слова: интернет, туризм и электронная среда, социальные сети и туристические фирмы, компьютер, электронная коммерция.

Abstract: The article examines the impact of information communication systems on tourism. Information and Communication Technologies (ICT) is one of the key factors in competitive tourism markets for tourism and strategic tourism. The Internet is extremely important for accurate tourism information. Touristic products can not be checked before traveling. It's only possible to get a clear and visual picture of the place you went before traveling through ICT. The ICT revolution has had an impact on various tourism sectors and related industries. In this regard, the use of ICT technologies in the tourism industry reflects the actu- lation.

Müasir dövrdə bir çox sahələrdə olduğu kimi turizm sənayesində də informasiya kommunikasiya texnologiyalarının tətbiqindən geniş istifadə olunur. Bu gün turizm sənayesinin kompüterləşməsi, turizm sənayesində iş prosesini dəyişdirir və tədricən kompüterlər vasitəsilə bütün mühüm məsələlər həll olunur,bununla yanaşı əsas əməyi yüngülləşdirməyə xidmət edir. Bütün kompüter və kommunikasiya şəbəkələrinin ən böyüyü və məşhuru kimi tanınan internet şəxsi və ictimai kompyuter şəbəkələrini istifadə edərək dünya miqyasında məhsul, xidmət və məlumatın bölgüsünü dərhal (online) həyata keçirir. E-ticarətin turizm sənayesində genişlənməsi elektron turizm anlayışını da ortaya çıxarır və bu məfhumla birlikdə turizm sənayesində məhsul və xidmət bazarının quruluşu dəyişir, yeni məhsullar, yeni paylama və marketinq texnikaları, "müştəri məmnuniyyəti" anlayışı, yeni paylama kanalları yaranır. Kompüterləşmə prosesi müxtəlif ölkələrdə, müxtəlif müəssisələrdə müxtəlif cür həyata keçirilir. Bu ölkənin iqtisadi və qonaqpərvərlik sənayesindəki (QS) vəziyyətindən, müəssisənin rəhbərliyi tərəfindən problemlərin başa düşülməsi, müəssisənin maliyyə durumunun və ixtisaslaşmış kadrların mövcudluğundan asılıdır [2, s-187-193]. QS-də kompüterləşmə prosesi başqa sahələrdən gec başlayıb. Bir çox sahələrdə kompüterləşmə 1960-cı ildə başlamışdır. Otellər avtomatlaşdırma imkanlarından 1970-ci ilin əvvəlinədək geniş miqyasda istifadə etmirdi.Turizm və mehmanxana müəssisələri daha çox avtomatlaşdırmaya məruz qalır, maddi vəsait sərf olunur və ixtisaslaşmış personal hazırlanır. Kompüter sistemləri tez bronlaşdırmaq imkanı yaradır. «Bronlaşmanın kompüter sistemi» (BKS) anlayışı ilk dəfə 60-cı illərdə Avropa və ABŞ – da yaranıb [1,s-225-226] .İlk dəfə BKS-lər ayrıca aviaşirkətlər tərəfindən yaradılıb və özəl turizm agentliklərinin ehtiyacını ödəmək üçün nəzərdə tutulub. Aviaşirkətlərin və turizm agentliklərinin inteqrasiyası

nəticəsində, dörd qlobal bronlaşdırma sistemi (Global Distribution Sistem - GDS) yaradılıb.Kompüterli rezervasiya sistemləri, turizm müəssisələrinin və turistik səyahətlərin qlobal miqyasda sürətli yayılmasının asanlaşdırılması və idarə edilməsində istifadə olunur və turistik məhsulun "qan dövranı sistemi" kimi səciyyələndirilir. Kompüterli rezervasiya sistemləri, turistik xidmət provayderlərinə məhsullarını qlobal miqyasda nəzarət, təqdimat və satış imkanı təqdim edərkən, tutum amil səviyyələrini yüksəltmək və mövsümilik problemlərini azaltma məsələlərində yardımçı olur. Bundan başqa, iqtisadi ömürlərini uzatmalarına və gəlirlilik nisbətlərini artırmağa da öz təsirini göstərir. Bu gün dünyada dörd qlobal bronlaşdırma sistemi (Global Distribution System – GDS) : Amadeus, Galileo, Sabre və Wordspan mövcuddur və bu bazarın 90%-i onlara aiddir. Bütün dünya üzrə onların 400 minə yaxın terminalları quraşdırılıb və təsadüfü deyil ki, onları "qızıl dördlük" adlandırırlar. Bronlaşdırma sistemləri ilə işləmək üçün xüsusi iş üsulu yoxdur, ona görə də hər bir mehmanxana müştərilərin tərkibinin strukturunu, qiymət siyasətini və s. təhlil etmək lazımdır. Hər bir GDS qlobal olmasına baxmayaraq özünəməxsus yayılma sahəsi var. Amadeus və Galileo üçün bu ilk növbədə Avropa, Sabre və Wordspan üçün isə Amerikadır. Mehmanxana şəbəkəsinə daxil olan İnterkontinental, Radisson və s. kimi mehmanxanalarda GDS işi mərkəzləşdirilmiş formada yerinə yetirilir [3, s-167-172]. Hər bir bronlaşdırma sisteminin daxil olma rejimi adlanan bir neçə variantı var. Bunlar prinsipcə müxtəlif olan iki A və B tipidir [4, s-143-150]. "A" tipinə daxil olarkən bronu təsdiq etmə haqqında məlumat avtomatik olaraq 7 saniyə ərzində geri qayıdır, bu da müştəri ofisə gəldiyi zaman turagentin ona tam şəkildə xidmət göstərməsinə şərait yaradır. "B" tipinə daxil olarkən bronu təsdiq etmə haqqında məlumat əl ilə personal provayderi (turoperator) və ya mehmanxana ilə 24

saat ərzində agentə qaytarılır. BKS terminologiyasında – tur xidmətlərilə təmin edən şirkət, «provayder» adlanır. Mehmanxanaları hər hansı GDS-ə təmsil edərkən, aşagıdakıları özündə cəmləşdirməlidir: otelin ümumi və nömrə fondunun təsviri, qiymətlər, mövcud olan yerlər haqqında məlumat. Kompüter sisteminə daxil olan proqramlar, struktur vahidlər olan – modullara birləşiblər. Modul – mehmanxana müəssisənin (bronlaşdırma, yerləşdirmə, hesab və s.) müəyyən iş üsulunun qruplarıdır. Qonaqlar ilə iş zamanı əsas modullardan biri «Bronlaşdırma» moduludur [5].

"Bronlaşdırma" modulu (rezervasiya) mehmanxanada nömrə (yer) bronlaşdırma üçündür və vaxta uyğun, təsdiq (ləğv) etmə rejimində işləyir. "Bronlaşdırma" modulu qonaqların sorğusuna əsasən sifarişlərin qəbulu xidmətlərinə, məlumatın tez təhlilinə, otaqların tez hazırlanmasına, həmçinin gəlir haqqında hesabların tərtib olunması və proqnozların tərtib olunmasına imkan verir.

Oteldə mövcud olan nömrələr (yerlər) haqqında məlumatlar kompüter şəbəkələrinin ekranlarında əks etdirilir, mehmanxana şəbəkəsinin ümumi bronlaşdırma sisteminə qoşula və ya müstəqil işləyə bilər.

Mehmanxana "Bronlaşdırma" modulunu istifadə edəndə, bronlaşdırma xidmətinə yeni məlumat daxil edilir və ya onları kompüterin mərkəzləşmiş bronlaşdırma sistemindən alır. Bu ondan sonra gözlənilən gəlir, sifarişçilərin məlumatları və yüklənmə proqnozları fayllarında həmin vaxt təhlil edilir.

Otelin istifadə etdiyi rezervasiya sistemindən asılı olaraq, otellərin rezervasiya prosedurları biri - birindən fərqlənir. Adətən deyirlər ki, rezervasiya sistemi qonaqlama üçün əmlakın mühərrikidir, çünki digər xidmətlər ondan asılı fəaliyyət göstərir. Otellər rezervasiya sistemlərindən asılıdırlar və həmin sistem düzgün işləmədiyi təqdirdə müştəriləri itirə bilərlər.

Bu sistemlərə Azərbaycanın 5 ulduzlu otelləri siyahısına ilk yerlərdən birini tutan Fairmont otelin timsalında nəzər salaq. Fairmont otelində bütün sistemləri idarə etmək üçün OPMS-Opera Prosperity System- dən istifadə edilir. Bu sistem vasitəsi ilə qonaqların chek – in, chek-out prossesləri, eyni zamanda qonaqların ödənişlə bağlı son hesablama nəticələrinin çıxarılması, qonağın vurduğu zərərə görə hesablamaların aparılması prossesini əhatələyir.

Fairmont otelində otaq rezerv etmək istəyən şəxs müxtəlif rezervasiya sistemlərindən istifadə edə bilər. Belə ki:

Booking.com – saytı ilə edilən rezervasiyada ödəniş məbləği rezervasiya zamanı müştəriyə təqdim edilir. Lakin ödəniş otelə gəldikdən sonra edilir.

İxpedia.com, Hotel Beds.com, Destinations of world-sistemi vasitəsi ilə edilən rezervasiya zamanı da eyni qayda tətbiq edilir. Rezervasiya internet vasitəsi ilə edilən zaman ödəniş online şəkildə kartla edilir. Artıq qonaq otelə gəldikdə ondan heç bir ödəniş alınmır.

Bundan başqa Fairmont otelində Royal Service sistemindən istifadə edilir. Belə ki, qonaq otağa yerləşdikdən sonra nömrəylə bağlı və yaxud da hər hansı şəxsi istəyi barədə oteli məlumatlandırdıqda onun istəklərinə görə royal service sistemi vasitəsi ilə ticketlər açılır və bu ticketlərlə qonağın əlavə xərcləri qeydə alınır. Qonağın chek – outu həyata keçirildikdə sistemə daxil olarkən avtomatik bu xərclər də qeydə alınır. Bu sistemin tətbiqi zaman itkisinin qarşısını alır və eyni zamanda müştərinin sifarişlərinin daha dəqiq qeydə alınması üçün əsas rolu oynayır.
Turist marşrutları və ekskursiya xidmətlərində elektron kataloqun hazırlanması. Elektron kataloqun tərtibinin əsas məqsədi həmin məlumatları qısa olaraq anlaşılan şəkildə verilməsindən ibarətdir. Məlumatın verilməsindən sonra onun izah prosesi bələdçiyə aiddir. Kataloq qısa məlumat verir, daha geniş məlumatı isə

bələdçilər tərəfindən yerinə yetirilir. Digər əhəmiyyəti isə həmin obyektə gələn turistin bələdçi xidmətindən istifadə etmədən, həmin elektron kataloquna informasiyanın verilməsidir.

Bu proses beynəlxalq miqyasda tətbiqi qaydaları 1980-ci illərə təsadüf edilir və ilk olaraq Luvr muzeyində tətbiq olunub.

Elektron kataloqlara aiddir :

1. Elektron kataloqun simvollarla tərtibi. Elektron kataloqun obyektlərə bölünməsi - tarixi-mədəni abidələr üzrə elektron kataloq. Azərbaycanda bu kimi elektron kataloqlar – İçərişəhər bəzi abidələrində, Qız qalasında, Qala etnoqrafik muzeyində istifadə olunur.

2.Elektron kataloqun obyektlərə görə seçilməsi. Obyektin tarixi, onun əhəmiyyəti və onun hazırkı istifadə vəziyyəti haqqında qısa informasiya əldə edir. Elektron kataloqa həmin informasiya rəqəmlərlə, simvollarla qeyd olunur. Həmin simvollardan istifadə etməklə həmin informasiyanı götürmək mümkündür. Kataloqlarda nömrələri seçməklə hansı informasiyaların alınması barədə məlumat verilir.

3. Elektron kataloqun nümunəvi mətnlərdə tərtibi. Belə nümunəvi mətnlərin elektron kataloqu ya disk formasında, ya da müxtəlif "mikro cart"-lar vasitəsilə bu formada tətbiq oluna bilər. Bu informasiyalar fərdi qaydada həmin muzeyin və yaxud obyektlərin elektron sisteminə yerləşdirilir, nümunəvi mətni istifadə etmək istəyən bələdçi nümunəvi mətni mövzular üzrə seçir, elektron kataloqdan aldığı informasiyanı təkmilləşdirir, həmin marşrut üçün müəyyən bir nümunəvi mətn hazırlaya bilər. Hazırlanan məlumatlar sonradan marşrut üzrə nümunəvi mətnlərin formalaşması, eyni zamanda fərdi mətn yaranmasına imkan verir. Nümunəvi mətnlər üzrə elektron kataloqlar ekskursiya təşkilatları olaraq ilk dəfə Fransada tətbiq olunub.

4. Fərdi mətnlər üzrə elektron kataloqların hazırlanması. Belə elektron kataloqların hazırlanması çox vaxt fərdi mətnlər

üzrə seçilərkən ekskursiyanın məqsədinə uyğun müəyyən məlumatların sistemləşdirilməsi, yığılması və təqdimatından ibarətdir. Çox vaxt belə fərdi mətnlər üzrə elektron kataloqlar bələdçinin şəxsi təcrübəsi və yaxud, həmin istiqamətdə fəaliyyət göstərən ekskursiya təşkilatının fərdi təcrübəsini əks etdirmiş olur. Bu fərdi kataloqlar, turist şirkəti tərəfindən və ya bələdçi tərəfindən hazırlandıqdan sonra təqdimatı və ekskursiya xidmətlərinin reklamı və piarında istifadə oluna bilər.

5. Muzeylər üzrə elektron kataloqların hazırlanması. Belə kataloqların hazırlanması daha geniş yayılıb, çünki ilk dəfə elektron kataloqlar muzeylərdə tətbiq olunub. Turist muzeyə daxil olduqdan sonra ona aparat verilir və ya onun mobil telefonuna bu informasiya ötürülür. Burada seçdiyimiz dillər beynəlxalq dillərə uyğun olur. Azərbaycanda muzey ekskursiya elektron kataloqu Xalça muzeyində hazırlanıb. Qobustan dövlət tarixi-bədii qoruğunda da elektron kataloqdan istifadə edilir.

Elektron kataloqun tərtibi ekskursiyanın marşrutu üzrə aparılır. Bu halda marşrut üzrə GPS sistemi əlavə olunur, gediləcək yerə hansı istiqamətdə çatacağı göstərilir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun maliyyə dəstəyi ilə Azərbaycanın turizm sektorunda "Robie Guide - elektron bələdçi" adlı maraqlı layihəyə start verilir [6] .

Belə ki, ölkəyə gələn turistlərin artıq bələdçiyə pul ödəməsinə ehtiyac yoxdur. Turist (və ya yerli əhali) proqramı mobil telefona yükləyərək şəhərə çıxdığı zaman istəyindən asılı olaraq, özü axtarıb filtrləyib istiqamət seçə bilər. "Robie Guide" daxili, eləcə də qlobal bazarda turizm sahəsində yeni tendensiyaları özündə ehtiva edir.

"Robie Guide" Bakını və daha sonra bütöv Azərbaycanı əhatə edəcək. Bütün tarixi abidələr, binalar, restoranlar, əyləncə

mərkəzləri, ofislər və s. barədə ətraflı məlumatı səsli (audio) və yazılı şəkildə Azərbaycan, rus və ingilis dillərində istifadəçiyə təqdim edəcək. Bundan əlavə, istifadəçilər xüsusi proqram vasitəsilə ətrafda olan əyləncə və istirahət mərkəzləri, otellər, ofislər, tarixi abidələr, restoranlar, menyular, onların qiymətləri və s. barəsində məlumatlar da əldə edəcəklər.

Layihə çərçivəsində ilk olaraq, "Android" əməliyyat sistemi istifadəçiləri üçün mobil tətbiq hazırlanıb. Daha sonra "İOS" və "Windows Phone" istifadəçiləri üçün də xüsusi proqramların yazılması nəzərdə tutulub. Proqram "Microsoft" sistemi üzərində, "Google Map" və e-gov API-ləri üzərindən də istifadə ediləcək.

ƏDƏBİYYAT

1. Ağakərimov M.M. Otel. Bakı: ” R.N.Novruzov-94”, 2008, s-225-226
2. Браймер Р. А. Основы управления в индустрии гостеприимства / Пер. с англ. - М.: Аспект Пресс, 2011. - 187-193 с.
3. Ляпина И.Ю. Организация и технология гостиничного обслуживания. –167-172 с.
4. Кеглер Т., Доулинг П., Тейлор Б. Реклама и маркетинг в Интернете. - М.: Альпина Паблишер, 2012. - 143-150 с.
5. Иванченко В. Информационные технологии и система управления гостиницей// Экономист. - 2010. - №4.- С.
6. azertag.az/bolme/tourism?page=67

Yusif RƏSULZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistr

TURİZMİN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

ВЛИЯНИЕ ТУРИЗМА НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

INFLUENCE OF TOURISM ON SOCIO-ECONOMIC DEVELOPMENT

Açar sözlər: Turizm, sosial inkişaf, iqtisadi inkişaf,təsir mexanizmi

Ключевые слова: Туризм, социальное развитие, экономическое развитие, механизм воздействия

Key words: Tourism, social development, economic development, impact mechanism

Xülasə: Turizm iqtisadiyyatın önəmli bir sahəsidir . Turizmin inkişafı sosial-iqtisadi inkişafa müsbət təsir edir . Turizmin inkişafı məşğulluğun artırır , büdcəninin gəlirlərini yüksəldir və ölkə iqtisadiyyatını inkişaf etdirir . Xidmət sahələrində olan bizneslərin inkişafını təmin edir .

Резюме: Туризм неотъемая часть экономики.Развитие туризма оказывает положительное влияние на социально-экономическое развитие . Развитие туризма повышает занятость,увеличивает доходы бюджета и развивает экономику страны.Обеспечивает развитие бизнесов в сфере услуг.

Abstract: Tourism is important sector of economy . Tourism development has a positive impact on socio-economic development . Tourism development increases employment ,

increases budget revenues and improves the country's economy . Ensures the development of service business .

Cari statistikalara görə dünyada turizm məhsulunun eksportundan ən çox gəlir götürən ölkələrdən biri Tailanddır . Onlar turizmdən 474 milyard dollar gəlir əldə edirlər . Tailanda gələn turistlərin xərclədiyi fantastik pullar onların ümumi daxili məhsulundakı artıma səbəb olmuşdur . Ümumdünya Ticarət Təşkilatının proqnozlarına görə Tailand Turizmdən əldə etdiyi gəlirləri yaxın müddətdə 600 milyard dollardan yuxarı olacaq .
Karib dənizindəki turizmlər isə əsasən Kruizer gəmiçiliklər dünyada məşhurdur . Burada olan ölkələrin ümumi daxili məhsulunda turizm önəmli yer tutur . Bu kimi ölkələrdə turizm potensialı xarici investorları cəlb edir . Xaricdən gələn investorlar təbii ki öz gəlirlərinin böyük bir qismini ölkədən çıxardığı üçün bu ölkə iqtisadiyyatı üçün mənfi nəticələr verə bilir .
Turizm gəlirlərinin artımı yerli aveareyslərin artımına yerli səyahət agentliklərinin inkişafına gətirib çıxardır . Qısa müddətli dövrdə Turizm infrastrukturuna , konstruksiyalarına çəkilən xərclər itki kimi görsənsə də orta və uzun müddətdə bu xərclər daha böyük gəlirlər olarq ölkə iqtisadiyyatına geri qayıdır. Dəyər zənciri: Dəyər zənciri, istehlakçı üçün ümumi xidmətlərin cəmini yekunlaşdıraraq istehlakçının xidmətlərdən istifadə etməsinə şərait yaradır . Turistin hva yolu ilə ölkəyə gəlməsi , otellər , restoranlar , krort yerləri , qonaqlama servisi və bu kimi xidmətlərdən istifdə etməsi zəncirvari olarq bir biri ilə bağlı olduğundan buna dəyər zənciri deyilir . Turizm bir ölkədə inkişaf edirsə burada hər kəsin ortaq fəaliyyəti vacibdir.

Sahibkarların müəssələrində onlayn ödəniş sistemlərinin olmağı turistlərin ödənişləri daha rahat etməsinə səbəb olur . Bununla yanaşı sahibkarlar turistlərin bütün xidmətləri bir başa onlayn yolla ödənişlərində o qədər maraqlı olmurlar . Onlayn

ödənişlərdə olan dərhal vergi tutulma sistemi ümumi gəlirdə azalmaya səbəb ola bilir . Bununla yanaşı vergilər xidmətlərdə ümumi qiymətin artımına səbəb olur ki , bu da turist sayında azalmaya səbəb ola bilər. Bütün xidmətlərin ayrı ayrı istifadə olunması onların hamısında ayrı vergi tutulmalara səbəb olduğu üçün bunu faydalı sistem adlandırmaq olmaz . Lakin sahibkarlar onlayn xidmətlər təklif edir ki , burada bütün xidmətlərin bir paket halında satılması vahid və daha az verginin ödənilməsinə gətirib çıxarır . Bu da öz növbəsində tur paketlərdə olan qiymətlərin aşağı düşməsi ilə nəticələnir İstənilən bir sahibkar üçün "Müştəri Əlaqələri Menecmenti" vacib sayılır . Müşətrilərlə düzgün kontakt qurmaq onlara vacib məlumatları ötürmək maarifləndirmək şirkətin ümumi satışının həcmindəki artıma səbəb olur . 90 cı illərdə İT sektorunun o qədər də inkişaf etməməsi müştərilərin məhdud informasiyalara çıxışına və nəticədə turizm sektorunun inkişafının ləngiməsinə səbəb olsada . Smartfonların , sosial şəbəkələrin yaranması turizmin inkişafına əvəzsiz rol oynadı . Müasir turizm sahibkarlığının ən önəmli parçası reklam və sosial şəbəkələrdir.Müasir turizm sahibkarlığında səyahət vasitəçilərinin rolu Dünya iqtisadiyyatının ümumi inkişafı koorperasiyaların məhsulun inkişafında olan bütün prosesslərə daxil olmasına səbəb oldu . Yüksək işçi xərcləri buna paralel olaraq rəqabət mühitinin zəifləməsinə səbəb olur . İşçilərin maaşlarının iqtisadiyyatın inkişafına paralel artımı müəyyən problemlərin yaranması ümumi mənfəətin aşağı düşməsi ilə nəticələndi . Bunun nəticəsi olaraq Şimali Amerika və Avropada turizm sektorunda olan sahibkarlar bazarda rəqabət qabiliyyətlərini qorumaq , öz gəlirlərini artırmaq üçün müxtəlif metodlardan istifadə etməyə başladılar . Bunlardan biri "Outsourcing" idi .Məsələn dünyanın hər yerindən şirkətə gələn çox saylı zənglərin cavablandırılması üçün olan bölməni ölkə xaricindəki

“3cü Dünya” ölkələrində yerləşdirərək xərclərdə böyük qənaət etmiş oldular . Bununla aşağı xərclə işçilər çalışdırdılar həm də daha aşağı vergi ödədilər “Outsourcing” turizm sektoru sahibkarlığındakı payının artımı xərcləri minimuma endirmək üçün effektiv metoddur . Lakin bunu aşağı səviyyəli metodlara aid etmək olar . Yuxarı səviyyəli metodlar təbiiki turizmdəki sahibkarlar üçün gəlirlərin artımı demək idi . Gəlirlərin artımını əldə etmək üçün sahibkarlar müxtəlif metodlardan istifadə etdilər . Kreativ dizaynlı məhsullar və xidmətlər

Ənənəvi Rol

Turizm sektorunda sahibkarlararın vasitəçiləri 3 rol üzrə mərkəzləşiblər :

1)Marketinq

2) Dizayn

3)Maliyyə

Səyahət agentliklərinin bu məslələrdəki payı elektronlaşmanı insanların bu sahəsindəki rahatlığını təmin etmək onlara göstərilən servis və xidmətlərin inkişafını təmin etməkdir . Onlar insanların çatdırılmasını , yerlərə görə bölünməsini və istirahətlərinin təmin olunmasına çalışırlar . Təbii ki yuxarıda yazdığımız 3 mərkəzləşmə nöqtəsi turizmdə sahibkarlıq fəaliyyətinin inkişafının ənənəvi rollarından olmaqla yanaşı turizm sahəsinin maliyyə gəlir qaynaqlarını da artıran məsələlərdir .

Marketinq bazarlama deməkdir və sahibkarların ən önəm verdiyi məsələlərdən biridir . Burada şirkətlər öz bizneslərini reklam edir və gəlirlərinin artımına çalışırlar . Ümumiyyətlə marketinq sözünün kökü də market sözündən başlayır yəni bazardakı fəaliyyət deməkdir . Bu geniş anlayış olmaqla yanaşı proqnozlaşdırmanı , istehlakçı , istehsalçı əlaqələrini öyrənir . Burada əsas predment bazardır . Turizmdəki sahibkarlar da bunu əsas götürərək öz tələbatlarını öyrənir , bu tələbatlara əsasən öz

təkliflərini yaradaraq bazarda olan mövqelərini gücləndirəməyə çalışırlar . P Drükerin fikrincə marketinqin vəzifəsi elə məhsul yaratmaqdır ki , məhsul özü özünü satsın əlavə izaha ehtiyacı olmasın. Burada olan ikinci məsələ isə dizayn ilə bağlıdır . Təbiiki Turizm sənayesində dizaynın önəmi çox böyükdür . Turistlər yüksək reklamı olan , dizaynı olan yerlərə gedirlər . Burada məsələn otellərin quruluş dizaynından tutmuş , oradakı otaqların , istirahət yerlərinin dizaynına qədər hər şey önəmlidir . Qeyri adi tikilişi olan binaların , istirahət yerlərinin tələbatının yüksək olmasını bununla əlaqələndirmək mümkündür. Maliyyələşmə Turizm sənayesində önəmlidir . Böyük investisiya layihələrinin baş tutması turistlərə yeni və ən yüksək xidmətlərin göstərilə bilməsi üçün vacib faktorlardan biri kimi qeyd etmək olar . Turizm sənayesində olan sahibkarlaq özlərinə maliyyə mənbələri əldə etmək üçün müxtəlif yollardan istifadə edirlər . Bunlardan biri daxili maliyyələşmənin təmin edilməsi metodudur ki , turizm müəssələri öz səhmlərinin müəyyən hissəsini bazara sataraq buradan böyük maliyyə gəlirləri əldə edirlər . Bu gəlirlər şirkətin maliyyələşməsinə investisiya layihələrinin baş tutmasına xərclənir . Yeni investisiya layihələri şübhəsiz ki yeni gəlirlər deməkdir bir çox hallarda əldə edilən gəlirlər vasitəsi ilə satılan səhmlər yenidən alınır və səhmlərin qiyməti yenidən qalxdıqda satılaraq daha böyük maliyyələşmənin təmini üçün istifadə edilir. Müştərilərin etimadının qazanılması üçün vacib olan məslələrdən biri də düzgün yerlərin seçilməsi məsələsidir . Dağ turizmi üçün ölkəyə gələn turistlər üçün o yerə yaxın və o fəaliyyətə uyğun ərazilərin tapılması vacibdir . Bu məsələdə bazar seqmentasiyasını düzgün bilərək uyğun müştəri bazasının seçilməsi önəmlidir . Burada vacib məslələlərdən biri müştəri vərdişlərini və müştəri seçimlərini düzgün analiz etməkdən ibarətdir .

Nəticə: Turizm sektoru bir iqtisadi sahə kimi müasir iqtisadiyyatın önəmli parçasına çevrilib. Turizm sahəsinin inkişafının təməl şərtlərindən biri də sahibkarlıq fəaliyyətinin inkişafıdır . Sahibkarlıq özünün marketinqini etməklər maliyyə vəsaitlərini cəlb etməklə turizm sektorunun inkişafını təmin edir . Turizm sektorunda sahibkarlıq fəaliyyətinin inkişafı ümumi bir sahə kimi turizmə və ölkə iqtisadiyyatına fayda verir .

Ədəbiyyat

1) "Turizm İqtisadiyyatı və idarə edilməsi" Ə.Q Əlirzayev
2) "Azərbaycanda Turizmin İnkişaf Problemləri" F.İ Qurbanov
3) "Turizmin Əsasları" İlqar H , Nigar Ə

Bölmə 4. Müasir idarəetmənin inkişaf tendensiyaları

Dilarə ƏMİRASLANOVA
Sumqayıt Dövlət Universiteti
i.ü.f.d.,müəllim

BÖHRANLI MÜƏSSİSƏNİN MALİYYƏ VƏZİYYƏTİNİN İDARƏ OLUNMASI İSTİQAMƏTLƏRİ

НАПРАВЛЕНИЯ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМ СОСТОЯНИЕМ КРИЗИСНЫХ ОРГАНИЗАЦИЙ

DIRECTIONS OF THE MANAGEMENT OF THE FINANCIAL CONDITION OF CRISIS ORGANIZATIONS

Açar sözlər: idarəetmə, müəssisə, böhran, maliyyə vəziyyəti, sanasiya

Ключевые слова: управление, предприятие, кризис, финансовое положение, санитария

Keywords: management, enterprise, crisis, financial situation, sanitation.

Xülasə: Müasir şəraitdə hər bir müəsissənin maliyyə vəziyyəti bilavasitə onun istehsal-təsərrüfat fəaliyyətinin nəticələrindən aslıdır. Odur ki, verilmiş tapşırıqların və sifarişlərin vaxtında yerinə yetrilməsi, əmək məhsuldarlığının artması və məhsulun maya dəyərinin aşağı salınması müəsisənin maliyyə vəziyyətinin yaxşı olmasının həledici şərtləridir. Bununla belə, istehsal tapşırıqlarının və sifarişlərin yerinə yetrilməsi xeyli dərəcədə müəsissənin maliyyə vəziyyətindən asalıdır. Məhz bu məqalədə böhran vəziyyətinə düşmüş müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətlərti barədə məlumat verilmişdir.

Резюме: В современных условиях финансовое положение каждого предприятия напрямую зависит от результатов его производственно-хозяйственной деятельности. Поэтому своевременное выполнение заказов и заказов, повышение производительности труда и снижение себестоимости продукции являются решающими условиями для хорошего финансового состояния организации. Однако выполнение производственных задач и заказов в значительной степени зависит от финансового положения предприятия. В этой статье представлена информация о способах улучшения финансового положения пострадавшего от кризиса предприятия.

Abstract: In modern conditions the financial position of each entity is directly dependent on the results of its production

and economic activity. Therefore, timely fulfillment of orders and orders, increase of labor productivity and reduction of product cost are crucial conditions for good financial condition of the organization. However, performance of production tasks and orders is largely dependent on the financial position of the entity. This article provides information on the ways to improve the financial position of a crisis-affected entity.

Giriş: Müasir şəraitdə müəssisələrdə maliyyə resursları variantının əsas mənbəyi, onların özlərinin pul gəlirlərindən ibarət olur. Müəssisənin pul gəlirlərinin həcmi isə bazarda satılan məhsulun miqdarından, onların keyfiyyətindən və qiymətlərindən bilavasitə aslıdır. Nə qədər çox məhsul istehsal edilib satılarsa, onların keyfiyyəti nə qədər yüksək olarsa, müəsissənin pul gəlirləri də bir o qədər çox olacaqdır. Amma buna baxmayaraq bəzi müəssisələr tam gücləri ilə işləmədiyinə görə istehsal olunan və satılan məhsulların həcmi xeyli azalmış və beləliklə də onların maliyyə vəziyyətləri pisləşmişdir. Belə bir hal onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasını zəruri edir. Müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında onların yenidən qurulması və sanasiyası mühüm rol oynayır.

Böhranlı müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətləri

Antiböhran idarəetmə - elə idarəetmədir ki, bu zaman böhran təhlükəsinin müəyyən əlamətlərini və simptomplarını təhlil əsasında qabaqcadan müəyyənləşdirmək və onun mənfi fəsadlarının təsirinin azaldılmasına və son nəticədə sistemin inkişafına səbəb ola biləcək antiböhran idarəetmə tədbirlərinin həyata keçirilməsi mümkün olsun.

Antiböhran idarəetmənin mümkün olması ilk növbədə insan amili ilə, onun idarəetmə təcrübəsi ilə, analtik düşüncələrinə və yaranmış böhranlı vəziyyəti düzgün qiymətləndirmək və ondan irəli gələn qərarlar qəbul etmək

bacarığı ilə müəyyən edilir. İdarə olunan prosesləri hərtərəfli öyrənib dərk edən insan (menecer) böhranlı vəziyyətdən çıxmaq üçün yollar axtarır, topladığı təcrübəni və əsas diqqətini mürəkkəb problemlərin həllinə yönəldir, yaranmış və tam aydın olmayan situasiyaya uyğunlaşmağa çalışır.

Azərbaycanda böhranlı müəssisələrin maliyyə vəziyyətlərini yaxşılaşdırmaq üçün, əsasən, sanasiyadan istifadə edilir. Bu zaman borclu müəssisənin tədiyyə qabiliyyətini bərpa etmək üçün sanasiya prosesi üzrə keçrilmiş tenderdə qalib gəlmiş hüquqi və ya fiziki şəxs tərəfindən maliyyə yardımı göstərilir. Mövcud qanunvericiliyə görə sanasiya tenderində borclu müəssisə, hər hansı bir səhimdar və ya kreditor, habelə hüquqi və fiziki şəxslər iştirak edə bilər. Hansı hüquqi və ya fiziki şəxsin borclu müəssisənin sanasiyası üzrə tədbirləri özündə birləşdirən sanasiya lahiyəsi məhkəmə tərəfindən qənaətbəxş hesab olunarsa, o da sanasiya prosesini həyata keçirir, bunun üçün o, öz şəxsi nümayəndəsini təyin edir [1,s.120].“Müfsilləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununa görə sanasiyanın müddəti 18 ay müəyyən edilmişdir. Əgər sanasiya dövründə obyektiv səbəblər üzündən zərurət yaranarsa, onda sanasiyanın müddəti daha 6 ay uzadıla bilər. Hər bir müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün konkret şəraiti nəzərə almaqla ayrıca sanasiya proqramı (lahiyəsi) işlənib hazırlanır. Bu zaman iki növ taktikadan: müdafiə və hücum taktikasından istifadə edilir. Müdafiə taktikası müdafiə xarakterli tədbirlərə əsaslanır. Belə tədbirlərə maya dəyərinin tərkibinə daxil edilən xərclərin azaldılması, lüzumsuz idarəetmə şöbələrinin ixtisar edilməsi və ya sayının azaldılması, idarəetmə heyəti işçilərinin ixtisar edilməsi və s aiddir. Belə taktikadan müəssisə əlverişsiz xarici mühitə malik olduqda istifadə edir [2, s.132]. Müasir dövrdə Azərbaycanda fəaliyət göstərən həm iri (məsələn, neft və kimya zavodları, “Bakkondisioner” Elmi-İstehsalat birliyi, Dəniz

stasionar özüllər zavodu və s.) həm də kiçik müəssisələr bu cür taktikadan istifadə edirlər. Bu da milli iqtisadiyyatı bürümüş staqflyasiya ilə bağlıdır. Bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, müəssisələr müdafiə taktikasından istifadə etdikdə onların maliyyə vəziyyəti yaxşılaşmaq əvəzinə daha da pisləşir, çünki bu zaman operativ vəzifələrin yerinə yetrilməsinə daha çox fikir verilir. Belə vəzifələrə zərərin aradan qaldırılması, lüzumsuz xərclərin ləğv edilməsi, maliyyə intizamının möhkəmləndirilməsi, kreditlərdən səmərəli istifadə edilməsi, ödənişlərin vaxtının uzadılması, kadr dəyişiklikləri, işgüzar və bacarıqlı mütəxəsislərin işə cəlb olunması, mövcud istehsal ehtiyatlarından səmərəli istifadə olunması və s. aiddir. Müəssisələrin sanasiyasında hücum taktikasından istifadə edilməsi daha məqsədəuyğundur. Çünki bu zaman operativ vəzifələrin həllinə deyil, strateji vəzifələrin həllinə daha çox üstünlük verilir. Hücum taktikasının əsasını istehsal ehtiyatlarından istifadə, aktiv marketinq, daha yüksək qiymətqoyma, istehsalın təkmilləşdirilməsinə çəkilən xərclərin azaldılması, istehsal əsas fondların yeniləşdirilməsi, mütərəqqi və qabaqcıl texnalogiyanın tətbiqi, idarəetmə mexanizminin və prosesinin təkmilləşdirilməsi və s. təşkil edir. Bundan başqa, hücum taktikasından istifadə edildikdə, lazım gələrsə müəssisənin strategiyasında və istehsal proqramında müəyyən düzəlişlər edilir, innovasiyalardan istifadə edilir. Bütün bunların əsasında isə sanasiya üzrə konsepsiya işlənib hazırlanır. Adətən sanasiya üzrə biznes-plan özündə bir-birilə qarşılıqlı surətdə əlaqədar olan istehsal, maliyyə, marketinq, texniki, idarəetmə və investisiyanın sağlamlaşdırılması üzrə tədbirləri əhatə edir [3,s.97]. Ümumiyyətlə, sanasiya üzrə işlənib hazırlanmış biznes-plan iki əsas vəzifəni yerinə yetrir. Birinci vəzifənin tərkibinə məhsul istehsalı və satışı ilə bağlı məqsəd və funksiyaların əsaslandırılması və ya müəssisənin böhran vəziyyətindən

çıxarılmasına və satış bazarında sabit yerin tutulmasına kömək edən dəyişikliklər daxildir. İkinci vəzifə isə müəssisənin böhran vəziyyətindən çıxarılmasına yönələn maliyyələşdirməyə investorları inandırmaqdır. Biz sanasiya üzrə biznes-planların işlənib hazırlanmasından və onların tərkibindən, qurluşundan və yerinə yetirdiyi vəzifələrdən asılı olmayaraq hər şeydən əvvəl biznes-planın nə olduğunu dərk etməliyik.

İnvestisyanın ayrılmasında və real obyektdə tətbiq edilməsində biznes-planların müstəsna əhəmiyyətini nəzərə alaraq, qeyd etməliyik ki, biznes-plan hər hansı bir işi görməyə başlamazdan əvvəl həmin işin nə dərəcədə səmərəli olub-olmayacağını müəyyənləşdirmək üçün lazım gəlir. Biznes-plan hər hansı bir firmanın (şirkətin) inkişaf layihəsinin həyata keçrilmə proqramını özündə cəmləşdirən ən vacib sənəddir. Eyni zamanda, biznes-plan şirkətin ümumi inkişaf konsepsiyasına əsaslanaraq, hazırlanan bir sənəddir . Belə bir sənəddə şirkətin strateji inkişaf prespektivlərinin iqtisadi və maliyyə cəhətləri, eləcə də, ondan irəli gələn konkret tədbirlərin texniki-iqtisadi əsaslandırılması öz əksini tapır. Biznes-plan hər hansı bir müəssisənin strateji inkişaf məqsədlərindən irəli gələn konkret işlərin hansı mərhələlər üzrə və hansı maliyyə və maddi ehtiyyatlar hesabına görüləcəyini göstərir, məqsədə çatmaq üçün nə qədər xərclər çəkəcəyini və çəkilən xərclərin nə dərəcədə səmərə verəcəyini açıqlayır. Kifayət qədər əsaslandırılmış şəkildə işlənmiş biznes-plan, müəssisəyə perspektivli inkişaf istiqamətlərinin, yeni satış bazarlarının, fəaliyyət növlərinin və onların həyata keçrilməsi ardıcıllığının seçilməsində köməklik göstərir. Qərb ölkələrində, tərkibinə, quruluşuna, yerinə yetirdiyi vəzifələrə və fəaliyyətlərinin miqyasına görə sanasiya biznes-planları bir-birindən fərqlənirlər. Buna baxmayaraq elə standart bölmələr var ki, onlar hər bir biznes-planda vardır. Bu bölmələr aşağıdakılardır:

Xülasə və ya annotasiya; müəssisə biznesinin ümumi xüsusiyyətləri; satış bazarının qiymətləndirilməsi; marketinq strategiyası; məhsul və istehsal strategiyası; təşkilati və hüquq; risk və problemlər; elmi axtarışlar və təcrübi-konstruktor işləri; maliyyə strategiyyası.

Bu bölmələrdən hər biri maliyyə monitorinqi keçirilməklə icra olunur və daim nəzarətdə saxlanır. Bunun üçün həm təftiş, həm də audit tətbiq edilə bilər. Müəssisənin müflisləşmə məsələləri ilə məşğul olan auditor şirkətləri analitik qiymətləndirmə zamanı müxtəlif meyarlardan və qiymətləndirmə üsullarından istifadə etməyə üstünlük verirlər [4, s.310]. Azərbaycan Respublikasının iqtisadi sistemi dinamik inkişafda olan bir sistemdir. Bu inkişafı təmin edən amillər kimi əmtəə-pul münasibətlərinin inkişafı, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi, iqtisadi mühitin bazar münasibətlərinə daxil olması, maliyyənin rolunun ictimaiyyətdə daha artıq dərəcədə dərk olunması, siyasi amillərin müsbət dəyişmələri və s. göstərilə bilər.

Nəticə: Müəssisə və təşkilatların idarə olunmalarına mənfi təsir edən amilləri aradan qaldırmaq məqsədilə, maliyyə - kredit, bank, vergi, gömrük, sosial sığorta və innovasiya mexanizminin təkmilləşdirilməsi məqsədilə aşağıdakı məsələlərin həll edilməsini vacib hesab edirik:

1. Müəssisə, təşkilat və idarələrin maliyyə fəaliyyətini təşkil və təmin etmək üçün milli kadrların-səriştəli mütəxəssislərin hazırlanması zəruridir. Bu məqsədlə respublika ərazisini əhatə edən təhsil şəbəkəsinin qurulması, o cümlədən regional təhsil mərkəzlərinin yaradılması vacibdir;

2. Respublikanın istehlak bazarının xarici malların müdaxiləsindən qorunması üçün, yerli müəssisələr tərəfindən respublikada istehsal olunan mallara analoji məhsulların

xaricdən gətirilməsinin iqtisadi yollarla məhdudlaşdırılması, başqa sözlə, proteksionist siyasətin gücləndirilməsi;

3. Müəssisələr innovasiya siyasəti yürütməklə götürdükləri kreditləri və istehsal nəticəsində aldıqları məhsulları yalnız istehsalın fasiləsiz fəaliyyətinin təmin edilməsinə yönəltməli və təyinatı üzrə istifadə etməlidirlər.

Bu deyilənlərin tam və müsbət icrasını təmin etmək üçün antiböhran idarəetmənin və müntəzəm maliyyə monitorinqinin tətbiqi həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. T.Ə.Quliyev Əməyin iqtisadiyyatı, Bakı, Nağıl evi, 2003, 695 s.
2. İmranov A.M. Menecment (dərslik).- Bakı, Nurlan, 2007. 510 s.
3. Ş.Ə.Səmədzadə "İstehsal menecmenti" , Bakı, Təhsil NPM, 2006,375 s.
4. И.Т.Балабанов Основы финансового менеджмента, Москва: Финансы и статистика, 2001.525 с.

Zaur MƏMMƏDOV, Vüqar ŞAHBAZOV
Lənkəran Dövlət Universiteti

MİLLİ İDARƏETMƏDƏ MULTİKULTURAL TƏHLÜKƏSİZLİK

МУЛЬТИКУЛЬТУРАЛЬНАЯ БЕЗОПАСНОСТЬ В НАЦИОНАЛЬНОМ УПРАВЛЕНИИ

MULTICULTURAL SAFETY IN NATIONAL MANAGAMENT

Açar sözlər: Multikulturalizm, mədəniyyət, təhlükəsizlik, siyasət, idarəetmə

Ключевые слова: мультикультурализм, культура, безопасность, политика, управление

Keywords: Multiculturalism, culture, security, politics, governance

Xülasə: Milli-mədəni müxtəliflik indiki dünyanın həyat tərzi olmaqla yanaşı, bir sıra ölkələrdə ciddi dini, etnik, mədəni zəmində münaqişələrin mənbəyi də hesab edilir. Lakin bu müxtəliflikl̈ər dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün tənzimlənmədikdə, ölkədə uyğun multikultural siyasət formalaşmadiqda ciddi problemlər, hətta münaqişələr baş verir. Buna görə də bu müxtəliflikl̈ərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük əhəmiyyət kəsb edir.

Резюме: Культурная политика имеет особую роль в предотвращении международных конфликтов и противостояний. Прежде всего, это нововведение является политическим проявлением глобальных процессов, происходящих в контексте культуры. Принципы мультикультурной безопасности необходимы и важны, как и другие доктрины безопасности для небольших стран с глубокими основной и историей, таких как Азербайджан. Установление принципов, перечисленных здесь стало возможным в результате исторически совместных усилий граждан страны, при поддержке государства и государственной политики. Предотвращение внешних идеологических вмешательств, сведение к минимуму

провокационных тенденций, серьезные языковые, расовые, религиозные и культурные проблемы во внешних и международных отношениях являются важными факторами обеспечения безопасности.

Abstract: The cultural policy has a special role in the preventing of international conflicts and confrontations. First of all, this innovation is a political manifestation of the global processes taking place in the context of culture. The principles of multicultural security are necessary and important as other security doctrines for small countries with deep roots and history like Azerbaijan. The establishment of the principles listed here has been possible as a result of historically joint efforts of the citizens of the country, the support of the state and the state policy. The prevention of external ideological interventions, reducing the provocative tendencies to minimum, serious language, race, religious and cultural problems in foreign and international relations are important factors ensuring security.

İdarəetmədə Multikulturalizm. Ötən əsrin 60-cı illərindən başlayaraq Multikulturalizm beynəlxalq münasibətlər sistemində önəmli faktora çevrildi. İsveçrə, Kanada və oradan da dünyanın müxtəlif ölkələrinə yayılan bu siyasət getdikcə dövlət siyasətinin ayrılmaz hissəsi olmaqla yanaşı ənənəvi assimilyasiya və aparteid siyasətlərinə son qoyuldu. Mədəni qloballaşma dövründə Multikulturalizm inkişaf edərək özünəməxsus fərqli modelləri yarandı: Avropa, Amerika, Kanada, Avstraliya, Azərbaycan və d. ölkələrin modellərini göstərə bilərik. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunu zəruri edən alətə çevrildi.Təəssüf ki, multikulturalizmin özü də müxtəlif ölkələrdə ondan gözlənən eyni müsbət nəticəni vermədi. Bir qrup ölkələr tarixən hər hansi müxtəlifliklərdən yan keçib digər mədəniyyətlərlə təmas nöqtəsinə monoetnik bir birlik kimi gəlib çixmişdir. Bəziləri isə müxtəliflik ilkin xarakterli olmuşdur.

Birinci halda gəlmə multikultural dəyərlər artiq dəyərləri formalaşmiş ölkədə özünə asanliqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alinır. Onun üçün də bir sıra avropa ölkələrində, məsələn, Böyük Britaniyada, Fransada, Almaniyada bu modelin demək olar ki, iflasa uğramasinin obyektiv səbəbləri çox deyil, bəzi ölkələrdə isə müxtəliflik ilkin çağdan başlayir və müxtəlif xalqlar ən qədim zamanlardan etibarən bir-birini formalaşdira-formalaşdira müasir dövrə qədəm qoyurlar. "Ilkin" müxtəliflik və "sonraki" müxtəlifliyi bir-birindən ayirmasaq, bugünkü dünyada hansısa ölkədə multikulturalizmin iflasinin, hansinda isə təntənəsinin sirrini öyrənə bilmərik.Bəzi xalqların nümayəndələri dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya nə də inteqrasiya olmağı arzu edirlər. Bu da özünəməxsus modeldir. Bir sıra mütəxəssislər (Fuad Məmmədov və d.) məsələnin həlli üçün cəmiyyətdə "Homo sapiens" tipli insandan "Homo culturalies" tipli insana keçidi beynəlxalq proqramının bütün dünyada işlənib hazırlanmasını və tətbiqini zəruri hesab edirlər. Son zamanlar Avropanın bir neçə dövlətləri Multikulturalizmdən imtina edərək sonuncu siyasəti dəstəkləyirlər. Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanin demokratik inkişaf sahəsində real təcrübəsi azdir. Lakin tarix boyu Azərbaycan mənəvi həyatinda tolerantliqdan xeyli danişmaq mümkündür. Azərbaycanda normal multikultural əhvalin olmasi - müxtəlif konfessiyalarin, etnik birliklərin dostluq və mehribançiliq şəraitində yaşamasi yenə də tarixin qədim dövrlərindən qidalanir. "İlkin" müxtəliflik azərbaycan ərazisində özünü göstərən nadir xüsusiyyətlərdəndir və bu hal "sonraki" müxtəliflikdən indicə qeyd etdiyim kimi kəskin şəkildə fərqlənir. Məhz "İlkin" müxtəliflik bu gün azərbaycan ərazisində özünü qoruyub saxlamiş sistemli münasibət modeli formalaşdirmişdir[1;147]. Nəticədə isə əsrlərdən bəri şair, yaziçi və alimlərin bədii ədəbiyyatda, elmi

traktatlarda özünü göstərən müxtəlifliyə hüsn-rəğbəti və loyalliği məhz azərbaycanda, özü də müstəqillik dövründə yeni bir siyasi ahəng kəsb edə bildi.

Aydındır ki, müasir dövrdə inteqrasiya prosesində iştirak etmədən, onun imkanlarından faydalanmadan tərəqqiyə nail olmaq mümkün deyil. Digər tərəfdən, bu proseslərə qoşulmaqla qarşılıqlı faydalı əməkdaşlığın bərqərar olunmasına bilavasitə kömək etmiş olur. Qloballaşan dünyada mədəni əməkdaşlıq olduqca aktual məsələyə çevrilmişdir. İstənilən iki dövlət aralarında olan soyuq müharibəni bəzən mədəni əməkdaşlıq tədbirləri ilə yumuşaltmağa çalışırlar[5; 264]. Hətta müasir politoloqlar mədəni siyasəti beynəlxalq münaqişələrin və qarşıdurmanın qabağının alınmasında xüsusi rolun qeyd edirlər. Bu yenilk, ilk növbədə mədəniyyət müstəvisində baş verən qlobal proseslərin siyasi təzahüründən ibarət idi [4;219]. Multikultural təhlükəsizlik. Biz dövlətin milli təhlükəsizlik sisteminin bir çox komponentləri ilə tanişiq və bunlara aid iqtisadi təhlükəsizlik, nəqliyyat təhlükəsizliyi, mədəni təhlükəsizlik, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və s. göstərmək olar. Hər biri ayriliqda və bütövlükdə dövlətin yaşamasi üçün vacib komponentlərdir. Bu sistemin içinə mənəvi, ideoloji həyatin ayrilmaz hissəsi olan multikultural dəyərləri də bir bütöv təhlükəsizlik komponenti kimi daxil etmək mümkündür. Ölkə öz enerji, iqtisadi, mədəni təhlükəsizliyini quruduğu kimi multikultural təhlükəsizliyini də təmin etməlidir. Multikultural təhlükəsizlik bir sira prinsiplərdən ibarətdir. Bu prinsiplər dövlətin özünü inamli, ədalətli, keyfiyyətcə daim yeniləşən bir mahiyyətə malik orqanizm kimi hiss etməsini şərtləndirir. Multikultural təhlükəsizliyin ümumi mahiyyəti - hər hansi bir ölkədə irqindən, milliyyətindən, dinindən, dilindən asili olmayaraq hər kəsin hüquq və azadliqlarinin müdafiə olunmasi, etnik, dini, irqi mənsubiyyətindən asili olmayaraq bütün

xalqlarin, etnik qruplarin mədəni dəyərlərinin qorunmasi və inkişaf etdirilməsi deməkdir [1;34]. Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunmasi qarşisinda yaranan problemlər inkişaf edərsə, etnik, dini, irqi zəmində qarşidurmalara, münaqişələrə səbəb olar. Son dövrdə avropanin bir sira ölkələrində etnik, millətçilik və dini radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyillərinin artmasi qeyd olunanlarin bariz nümunəsidir.təəssüf ki, bəzən avropa ölkələrindən ölkəmizə qarşi azərbaycanda gedən ictimai, ideoloji prosesləri dərindən duymayan bəzi qurumlar və rəsmi şəxslər tərəfindən milli azliqlar və insan hüquqlari ilə bağli ağlasiğmaz və hətta gülünc tələblər, iddialar irəli sürülür. Azərbaycan dövləti daxili sabitliyin qorunması və möhkəmlənməsi üçün multikultural siyasətə böyük önəm verir. Multikulturalizmin qaynaqlarının öyrənilməsi dünya dövlətlərinin və xalqlarının ictimai anlaşma və həmrəylik şəraitində yaşamasının təmin olunması, dözümlü münasibətin formalaşması dövlət başçısının apardığı uğurlu siyasətin tərkib hissəsidir. Son illərdə ölkəmizdə tolerantlıq, milli-mədəni müxtəliflik, humanitar əlaqələrin genişlənməsi və bu sahədə təsisatların yaranması istiqamətində çox böyük işlər görülmüşdür. 2008-ci ildən başlayan "Bakı prosesi" layihəsi çərçivəsində həyata keçirilən humanitar forumların Azərbaycan paytaxtında təşkil olunması dövlətimizin dünyada multikultural dəyərlərə önəm verdiyinin əyani sübutudur [3; 201]. BMT-nin insan hüquqları ilə bağlı olan ən mühüm konvensiyalarından biri İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında konvensiyadir və milli, irqi, cinsi eləcədə etnik ayrı-seçkiliyə qarşı yönəlmişdir. Bu konvensiya 21 dekabr 1965-ci ildə qəbul olunmuş və 4 yanvar 1969-cu ildə isə qüvvəyə minmişdir. Azərbaycan Respublikası prezidentinin 31 may 1996-cı il 95 İC nömrəli qanunu ilə təsdiq olunmuş və qüvvəyə minmişdir. 1995-ci il fevralın 1-də Avropa Şurasının "Milli azlıqların müdafiəsi

haqqında" Çərçivə konvensiyası"nı imzalamış və bu Konvensiya 17 mart 2000-ci ildə 836 İQ ratifikasiya edilmişdi. YUNESKO-nun 2005-ci il oktyabrın 20-də qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya" nı Azərbaycan Respublikası 26 noyabr 2009-cu ildə təsdiq etmişdir [6;1164]. Azərbaycan Respublikası 2001-ci il dekabrın 21-də Avropa Şurasının Regional və ya Milli azlıq dilləri haqqında Avropa Xartiyasını imzalamışdır. 1992-ci ildən bu yana ATƏT-in Milli azlıqlar üzrə Ali Komissarlığının ən vacib sənədlərindən biri "Bolzano tövsiyələrini" göstərmək olar. Hazırda ATƏT in Milli azlıqların işi üzrə Ali Komissarlığı fəaliyyət göstərir. Ali Komissarın siyasi müşaviri milli azlıqların hüquqlarının qorunması məəqsədiylə bir neçə dəfə ölkəmizə səfər etmişdir. Beynəlxalq Əməkdaşlıq Təşkilatının 87-saylı "Assosiasiya azadlığı və təşkilatlanma hüququnun müdafiəsi haqqında", 98 saylı "Təşkilatlanma və kollektiv danışıqların aparılması hüququ haqqına", 135-saylı "Əməkçilərin nümayəndələri haqqında", 154-saylı "Kollektiv danışıqlar haqqında" konevensiyaları Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmişdir. Azərbaycan müxtəlif xalqlarin dinc, dostluq, qardaşliq şəraitində yaşadiği, sevinci və kədəri birgə bölüşdüyü məkandir. Bu məkani qədim Qafqaz albanlarinin bugünkü varisləri olan Udinlər, Avarlar, Ləzgilər, habelə Yəhudilər, Talişlar, Ruslar, Gürcülər, Kürdlər, yaxin keçmişdə Almanlar öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün azərbaycana əsassiz torpaq iddiasi ilə çixiş edən separatçilarla eyni millətdən olan, ancaq bu separatçilarin əsassiz iddialarini qəbul etməyən azərbaycan ermənileri də burani öz vətənləri sayirlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan Xinaliqlilar və Ceklilər[2; 33,169] də azərbaycana məxsusdur. Bütün bu xalqlarin dil və mədəni zənginliklərini azərbaycan dövləti öz zənginliyi, öz gücü sayir. Artıq Azərbaycan da öz siyasətini qeyd

olunan istiqamətdə formalaşdırır. Bildiyimiz kimi 2001-ci il YUNESKO tərəfindən "Sivilizasiyaların dialoqu" ili adlandırıldı. Bu dialoqda ölkəmiz təşəbbüskar və aparıcı tərəf kimi çıxış etdi. Məhz bu fəaliyyətin davamı kimi 2009-cu ildə Bakı İslam mədəniyyətinin paytaxtı elan olundu. Eləcə də 2016-cı ildə-Multikulturalizm, 2017-ci ildə isə İslam həmrəyliyi ili elan edildi. Şərqlə Qərbi birləşdirən tarixi İpək Yolunun bərpası işinin təməli Bakıda qoyuldu. Respublikamız həm Avropa Şurasının həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Azərbaycan 2015-ci ildə Avropa oyunlarına, 2017-ci ildə isə İslam həmrəylik oyununa ev sahibliyi etdi. Hal hazırda davam edən "Formula -1" idman yarışları Azərbaycanda mövcud olan multikultural təhlükəsizliyin göstəricilərindəndir. Azərbaycan özünün multikulturalizm siyasətinin hıyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, YUNESKO və d. nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıqa xüsusi əhəmiyyət verir. Multikultural təhlükəsizliyin azərbaycan nümunəsindəki təhlili göstərir ki, onun prinsiplərinə məqsədyönlü şəkildə riayət etdikdə ölkənin həm daxili potensiali öz zənginliklərini ən dərin qatlardan daha həvəslə üzə çixarir, həm də ölkə öz beynəlxalq imicinə müsbət çalarlar əlavə edir. Bu sonuncu məqam lap elə bu yaxinlarda 02 may 2019-cu ildə "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakida keçirilmiş 5-ci Ümumdünya Mədəniyyətlərarasi Dialoq Forumunun[7] xarici iştirakçilari tərəfindən dönə-dönə vurğulandi. Mədəni müxtəlifliyin qorunmasinda vacib şərtlərdən biri bu işlə dövlətlə yanaşi "Vətəndaş cəmiyyəti" və onun fəaliyyətini dəstəkləyən qurumlarin da məşğul olmasidir. Ilk olaraq bu baximdan möhtəşəm layihələrə imza atan Heydər Əliyev fondunu göstərmək olar. Eyni zamanda, Azərbaycan Respublikasinin Prezidenti Yaninda Qeyri-Hökumət Təşkilatlarina Dövlət Dəstəyi Şurasi, Azərbaycan

Respublikasinin Prezidenti Yaninda Kütləvi Informasiya Vasitələrinin Inkişafina Dövlət Dəstəyi Fondu, Azərbaycan Prezidenti Tərəfindən Yaradilmiş Baki Beynəlxalq Multikulturalizm Mərkəzi və b. qurumları göstərə bilərik. Qeyd olunanları nəzərə alaraq bildiririk ki, hər hansı bir cəmiyyətdə və beynəlxalq münasibətlərdə ciddi dil, irqi, dini və mədəni problemlərin olması, eləcə də bu problemlərin həll edilməməsi cəmiyyətin inkişafına, o cümlədən iqtisadi tərəqqiyə mənfi təsir göstərir. Bunu Avropanın bir neçə dövlətlərində uğursuz siyasət zəminində yaranmış miqrasiya problemləri və nəticədə bəzilərinin multikulturalizm ideyalardan imtinası kimi də göstərmək olar. Əksinə dövlətin sosial–iqtisadi inkişafı, xarici və daxili siyasətin uğurla aparılması cəmiyyətdə təhlükəsiz, mədəni, multikultural, tolerant əhval –ruhiyyənin bərqərar olmasına və inkişafına səbəb olar. Mədəni siyasəti beynəlxalq münaqişələrin və qarşidurmanin qabağinin alinmasinda xüsusi rolu vardir. Bu yenilk, ilk növbədə mədəniyyət müstəvisində baş verən qlobal proseslərin siyasi təzahüründən ibarətdir. Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik doktrinalarinin prinsipləri qədər vacib və zəruridir. Burada sadalanan prinsiplərin Azərbaycanda bərqərar olmasi isə ölkə vətəndaşlarinin tarixən birgə səyi, əməyi və dövlət siyasətini dəstəklənməsi nəticəsində mümkün olmuşdur. Kənar ideoloji müdaxilələrin qarşısının alinmasi, təxribat xarakterli meyillərin minimuma qədər zəifləməsi, xarici siyasət və beynəlxalq münasibətlərdə ciddi dil, irqi, dini və mədəni problemlərin olması təhlükəsizliyi təmin edən önəmli faktorlardır.

ƏDƏBİYYAT

1. Gündüz İsmayılov. Azərbaycanda dini məsələ: Təhdidlər və hədəflər. Bakı 2016, 292-səh

2. Qəmərşah Cavadov. Azərbaycanın azsaylı xalqları. Bakı-2000, 439 səh.
3. Niyaz Niftiyev. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Niyaz Niftiyev. Bakı-2015 407-səh.
4. Ramid Hüseynov. Politologiya (dərs vəsaiti). Bakı-2017, 278 səh.
5. Zaur Məmmədov Lənkəran Dövlət Universiteti. "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda keçirilən Respublika Elmi Konfransının materialları. Lənkəran, 2017. (səh 263-265)
6. I Uluslararası İnsan ve toplum bilimleri araştırmaları kongresi-nin materialları. Alanya-2018, (1160-1167 səh).
7. http://mct.gov.az

Kəyan HACIYEV
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti,
Akifə AĞAYAROVA
AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi

AZƏRBAYCANDA MİQRANTLARIN PUL KÖÇÜRMƏLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ
ОСНОВНЫЕ ОСОБЕННОСТИ ПЕРЕВОДА ДЕНЕГ МИГРАНТОВ В АЗЕРБАЙДЖАНЕ
MAIN FEATURES OF MIGRANT MONEY TRANSFER IN AZERBAIJAN

Açar sözlər: miqrasiya, inteqrasiya, qloballaşma, əhali, nəqliyyat, inkişaf, siyasət.

Ключевые слова: миграция, интеграция, глобализация, население, транспорт, развитие, политика

Key words: migration, integration, globalization, population, transport, development, politics

Xülasə Məqalədə əhalinin son illər miqrasiya sahəsində baş verən dəyişiklikləri tədqiq olunmuşdur. Təhlil göstərir ki, son illər miqrantların pul köçürmələrində ciddi dəyişikliklər qeydə alınmışdır. Sonda mövcud problemlər müəyyən edilmiş, onların həll istiqamətləri göstərilmişdir.

Резюме: В статье рассматриваются последние изменения в миграции населения. Анализ показывает, что в последние годы произошли значительные изменения в денежных переводах мигрантов. Кроме того, были рассмотрены вопросы государственного регулирования миграционных процессов в Азербайджанской Республике.

Abstract: The article examines the recent changes in population migration. The analysis shows that in recent years there have been significant changes in the remittances of migrants. In addition, issues of state regulation of migration processes in the Republic of Azerbaijan have been reviewed.

Əhali miqrasiyası çox qədim və mürəkkəb sosial proses olmaqla ayrı-ayrı bölgələrin və ölkələrin sosial-iqtisadi inkişaf səviyyələri, eyni zamanda siyasi və mənəvi amillərlə sıx bağlıdır. Sinfi cəmiyyətin yaranmasına qədər miqrasiya prosesləri kortəbii xarakter daşımışdır. Dünyada ilk miqrasiya prosesləri ibtidai icma dövründə təbii şəraitdən asılı olaraq baş vermişdir. Miqrasiya bəşər tarixinin bütün mərhələlərində mövcud olmuşdur. Belə ki, insanlar yaxşı, sakit və firavan həyat yaşamaq naminə bir şəhərdən və ya ölkədən digərinə köç etmişlər. İnsanlar həmişə hərəkətdə olmuş və tarix boyunca yeni imkanlar axtarmağa, zülmdən, münaqişədən və yoxsulluqdan xilas olmaq üçün bir ərazidən başqa yerə getmişlər. İnsanların hərəkəti bütün dünyada müşahidə olunmaqdadır.

Ölkələrarası iqtisadi əlaqələrdə miqrasiya prosesləri xüsusi yer tutur. Miqrasiya prosesi həmişə mövcud olmuş, lakin onun mahiyyəti və xarakteri zamanla dəyişmişdir. Ölkələrarası sərhədlərin möhkəmləndirilməsi insanların hərəkətinə müəyyən qədər maneələr yaratsa da, nəqliyyat sisteminin inkişafı hərəkət sürətini xeyli artırmışdır. Buna baxmayaraq, heç də bütün ölkələr miqrasiyanın genişlənməsində maraqlı deyillər. Belə ki, ölkədən emiqrasiya edənlər ölkənin işçi qüvvəsinin və insan potensialının azalmansa səbəb olur. Adətən emiqrasiya edənlərin əksəriyyəti ölkənin aktiv və əməkqabiliyyətli təbəqəsi hesab olunur. Belə miqrasiya ölkənin iqtisadi potensialının azalmasına səbəb olur. Digər tərəfdən isə əksər ölkələr həm də immiqrasiyanın əleyhinə çıxış edirlər. Çünki, immiqrasiya yeni mədəniyyətin və davranış tərzinin ölkəyə daxil olması deməkdir. İmmiqrasiyanın atması ölkə daxilində sosial gərginlik və mədəniyyətlər arası münaqişə yarada bilir.

Ölkəyə əmək miqrantlarının daxil olması ölkədə məcmu məhsulun həcminə müsbət təsir edir. Lakin ölkəyə daxil olan miqrantlar əlavə sosial xərclər tələb etdiyindən büdcə xərcləri artır. Bundan başqa xərclər həm də tənzimlənməyən vəziyyətdə olan miqrantların çıxarılmasına da sərf olunur. Məsələn, 2015-ci ildə ABŞ-da 11 milyon qeyri-qanuni miqrant olmuşdur.

İmmiqrasiyanın əmək bazarına təsiri məsələləri. Ölkəyə daxil olan immiqrantlar əmək bazarında təklifi çoxaltmış olurlar. Xüsusilə, az ixtisaslı yerli işçilər üçün işlə təminatda müəyyən problemlər yaranır. Əgər ölkədə minimum əmək haqqı ilə bağlı qanunvericilik yoxdursa, onda bu qəbildən olan işçilərin əmək haqlarının alması ehtimalı böyük olur. İmmiqrantların əmək bazarına daxil olması əməyin dəyərini bir qədər azaldır. Əmək dəyəri ucuz olduğundan müəyyən sektorlar ondan istifadəni daha da genişləndirməkdə maraqlı olurlar.

Bəzi tədqiqatçılar immiqrantlarla yerli işçi qüvvəsindən fərqli yanaşaraq, bu işçilərin bir-birini dəqiq əvəz etməsini mümkün hesab etmirlər **(1)**. Onla belə hesab edirlər ki, immiqrantlar, əksər halda daha aşağı ixtisaslı işçilər olduğundan yüksək ixtisaslı yerli kadrlar üçün iş yerlərini itirmək təhlükəsi olmur. Lakin immiqrantların arasında yüksək ixtisaslı olmadığını iddia etmək doğru deyil. Dövlətlər daha çox ixtisaslı miqrantların işə cəlb olunmasında maraqlıdırlar. Yüksək ixtisaslı immiqrantlar yerli kadrları kifayət qədər uğurla əvəz edə bilərlər **(2)**.

Miqrantların pul köçürmələrinin ölkədə sosial-iqtisadi vəziyyətə təsiri

Hər hansı ölkənin uzun müddət üçün dayanıqlı inkişafı ölkədə mövcud olan insan kapitalının həcmindən çox asılıdır. Müasir iqtisadiyyatda insan kapitalı təbii ehtiyatlardan daha vacibdir. İnsan kapitalının ölkə iqtisadiyyatına gətirdiyi gəlir, təbii ehtiyatların verdiyi gəlirdən dəfələrlə yüksək olur. Xüsusilə, son onilliklərdə dünyada işsizlik səviyyəsinin artması, xüsusi bilik və bacarıq tələb edən işçilərə tələbin çoxalması insan kapitalının yüksəldilməsinə olan tələbi xeyli artırır. Ölkədə insan kapitalının ümumi səviyyəsi artdıqca ölkənin rəqabətqabiliyyəti və əhalinin ümumi rifah səviyyəsi də yüksəlir. Ölkələr arasında miqrasiyanın ən əsas səbəbi həyat səviyyəsi və təhlükəsizliklə bağlıdır. Həyat səviyyəsi aşağı olan və ya ciddi təhlükəsizlik problemləri olan ölkələrdən həyat və təhlükəsiz səviyyəsi yüksək olan ölkələrə miqrant axınları davam edir. Burada həyat səviyyəsini təyin edən bütün amillər mühüm rol oynayır. Əmək haqları arasındakı fərq, təhlükəsizlik problemləri, sosial müdafiə, səhiyyə sığortası, təhsilin səviyyəsi, iqlim və sair amillər miqrasiyanın səviyyəsinə ciddi təsir göstərir.

Miqrasiya prosesi miqrantların öz ölkələrinə göndərdikləri vəsait hesabına birbaşa və ya dolayısı ilə iqtisadiyyata təsir göstərir. Araşdırmalar göstərir ki, miqrantların

göndərdikləri maliyyə vəsaitlərinin 10% artması yoxsulluq səviyyəsini 3.5% azaldır **(3)**. Xüsusilə, yoxsulluğun kəskin olduğu, Afrika və Cənubi Asiya ölkələrində miqrantların pul köçürtmələri bu regiondakı ölkələrdə yoxsulluğun azalmasında mühüm şərtdir. Dünya Bankının hesablarına əsasən miqrantların pul köçürmələri həm makroiqtisadi, həm də ev təsərrüfatları səviyyəsində sabitləşdirici rol oynayır **(4)**.

Miqrantların pul köçürmələri nəticəsində ölkədə yığımın həcmi artır. Digər tərəfdən, pul köçürmələri ilə məşğul olan bankların fəaliyyəti genişlənir.

Əmək miqrantları öz ölkələrinə xeyli iqtisadi fayda gətirirlər. Birincisi, əksər ölkələrdə emiqrantların öz işlədikləri ölkədən göndərdikləri vəsait yerli ölkələrin ÜDM-da mühüm çəkiyə malik olur, digər tərəfdən, səhiyyə və sosial müdafiə qurumları emiqrantların hesabına öz yükünü xeyli azaltmış olurlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19 mart 2007-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında 560 nömrəli Fərman imzalamışdır. Eyni zamanda, Miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 4 mart 2009-cu il tarixli 69 nömrəli Fərman imzalanmışdır. Adıçəkilən Fərmanın tətbiqi ölkədə miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmin edilməsinə və həllini gözləyən problemlərin aradan qaldırılmasına səbəb olmuşdur. Fərmana əsasən, 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında «bir pəncərə» prinsipinin tətbiq edilməsinə başlanılmış və bu prinsip üzrə vahid dövlət orqanının səlahiyyətləri Azərbaycan

Respublikasının Dövlət Miqrasiya Xidmətinə həvalə edilmişdir. "Bir pəncərə" prinsipinin işə düşməsi ilə respublikada miqrasiya idarəetmə mexanizmi daha da təkmilləşdirilmişdir.

Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin edilməsi, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə miqrasiya sahəsində vahid informasiya sistemi-Vahid Miqrasiya Məlumat Sistemi (VMMS) yaradılmışdır. VMMS ölkədə baş verən miqrasiya proseslərinin dinamikası barədə tam təsəvvürün yaradılmasına imkan verərək, qanunsuz miqrasiyaya qarşı mübarizə və təhlükəsizliyin təmin edilməsi sahəsində müvafiq tədbirlərin görülməsi üçün əlverişli şərait yaratmışdır VMMS-in əsas təyinatı miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının səlahiyyətləri çərçivəsində fəaliyyətləri üçün zəruri informasiyanın təminatından, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılmasının həyata keçirilməsi vasitəsilə elektron xidmətlərin göstərilməsindən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya uçotunun aparılmasından ibarətdir. **(5)**

Cədvəl 1

Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatlarına əsasən 2008-2016-cı illərdə Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından göndərilən pul köçürmələrinin həcmi (milyon ABŞ dolları) (5)

	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016

Daxilolmaların həcmi	1.416	1.182	1.338	1.772	1.852	1.579	1.709	1.183b	564
İllik dəyişikliklər	18,8%	-16,6%	13,2%	32,4%	4,6%	-14,7%	8,2%	-30,8%	-52.3%
Ölkədən xaricolmaların həcmi	399	522	840	1.138	1.892	1.579	1.523	943b	490
İllik dəyişikliklər	45,9%	30,9%	60,8%	35,5%	66,2%	-16,6%	-3.5%	-38,1%	-48,1%
Balans	1.017	659	498	633	-40	0	186	240b	75

b 2015-ci il üçün pul köçürmələrinin hesablanması Beynəlxalq Valyuta Fondunun tədiyə balansı əsasında müəyyən edilmiş yeni BPM (6-cı nəşr) metodologiyasına uyğun aparılmışdır

Cədvəl 2

Dünya Bankının məlumatlara əsasən 2008-2016-cı illərdə Azərbaycan Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından göndərilən pul köçürmələrinin həcmi (milyon ABŞ dolları) (5)

	2008	2009	2010	2011	2012	2013	2014	2015
Daxilolmaların həcmi	1.518	1.255	1.410	1.893	1.990	1.733	1.846	1.270
İllik dəyişikliklər	19,8%	-17,4%	12,4%	34,2%	5,1%	-12,9%	6,5%	-31,2%
Ölkədən xaricolmaların həcmi	567	638	954	1.280	2.073	1.903	2.031	1293
İllik dəyişikliklər	40,2%	12,5%	49,4%	34,2%	62,0%	-8,2%	6.8%	-36,3%
Balans	951	617	457	613	-83	-169	-185	-23

Son illər üçün təhlilər Azərbaycana pul köçürmələrində ən yüksək göstəricinin 2012-ci ildə qeydə alındığını göstərir. Sonrakı illərdə bu göstəricilər əvvəl azalmış, sonra isə artmışdır. Bunu dövlətlərin iqtisadiyyatlarında tələtümlər və milli valyutaların müəyyən qədər dəyərdən düşməsi ilə izah etmək olar.

Əmək miqrasiyası mənşə ölkələrinə müxtəlif yollarla təsir edərək adətən işçi qüvvəsinin azalması və eyni zamanda, miqrantlar tərəfindən müvafiq pul köçürmələrinin göndərilməsilə nəticələnir. 2015-ci ildə Azərbaycana göndərilmiş pul köşürmələrinin mənşə ölkələri arasında Rusiya Federasiyası əsas ölkə olmuşdur (daxilolmaların 58% təşkil edən 737 milyon ABŞ dolları həcmində pul köçürmələri) (5).

Əmək qabiliyyətli işçilərin digər ölkələrə emiqrasiyasının tənzimlənməsi dünyada aktual məsələlərdəndir.

Bu halda dövlətin həyata keçirdiyi tədbirlər daha çox məhdudlaşdırıcı deyil, prosesin qanuni və idarəedilən olmasına yönəlməlidir. Məsələn, ölkədə yüksək ixtisaslı kadrların iş yerləri ilə təmin edilməsi çətinləşdikcə onların ölkəni tərk etməsi ehtimalı artır. Yüksək ixtisaslı insanların inkişaf etməkdə olan ölkələri tərk edərək digər ölkələrə, xüsusilə inkişaf etmiş ölkələrə daimi yaşamaq üçün getməsi qloballaşma dövründə ən ciddi çağırışlardandır. Bu, təkcə əmək qabiliyyətli işçilərin emiqrasiyasısı deyil, həm də insan kapitalının axınıdır.

Nəticə olaraq qeyd edək ki, pul köçürmələri inkişaf etməkdə olan ölkələr üçün xarici maliyyə mənbəsidir. Bəzən köçürülən pulların həcmi ölkələrin sosial proqramlara ayırdığı maliyyə vəsaitindən çox olur. Həmçinin, pul köçürmələri iqtisadi inkişafda mühüm rol oynaya bilir.

Bəzi ölkələrdə miqrantlar tərəfindən göndərilən pullar daha çox göndərildiyi yerlərində yoxsulluğun azaldılmasına təsir edir. Eyni zamanda, bu pul əsasən investisiya məqsədlərinə deyil, istehlak xərclərinə yönəldilir. Bəzi hallarda isə göndərilən pullar təhsil və səhiyyə xərclərinin qarşılanmasına sərf olunur. Bu da, öz növbəsində insan kapitala qoyulan investisiyadır və makroiqtisadi effektini uzun müddətdən sonra verir.

ƏDƏBİYYAT

1. The Substitutability of Natives and Immigrants in Production, Review Economics and Statistics,(1982), 64(4),596-603
2. Altonji J. G., and Card, D.(1991), "The Effects of Immigration on the Labor Market Outcomes of Lesskilled Natives, ch. 7 in J.M.Abowd and R.B. Freeman(eds), immigration, Trade, and the Labor Maket Chicago Press, 201-34.
3. Adams R.H., &J. Page.2005.-Do International Migration and Remittances Reduce Poverty in Developing Countries? |World Development, Vol.33,No.10,pp.1645-1669.

4. World Bank Washington DC. 2006 b. Global Economic Prospects 2006: Economic Implications of Remittances and Migration. World Bank.
5. Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat. (Tədqiqat Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" layihəsi çərçivəsində aparılmışdır) https://countryeconomy.com/demography/migration/remittance/azerbaijan
6. SİAM, A. Allahverənov, E. Hüseynov "Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı", səh.45. 2013-cü il.
7. V. Rüstəmov "Mərkəzi və Cənubi Qafqazda beynəlxalq miqrantların pul köçürmələrinə dair tədqiqat – Azərbaycanda beynəlxalq miqrantların pul köçürmələrinə və yoxsulluğa aid Ölkə Hesabatı". Asiya İnkişaf Bankı, 2007-ci il.
8. Adams 2005 Remittances,Household Expenditure and Investment in Guatemala .|Policy Research Working Paper Series, No.3532,The World Bank.

Rinard ŞƏRİFOV
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim

MÜASİR QLOBALLAŞAN DÜNYADA MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN SƏCİYYƏVİ ÖZƏLLİKLƏRİ

ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА В СОВРЕМЕННОМ ГЛОБАЛИЗАЦИОННОМ МИРЕ

CHARACTERISTIC FEATURES OF THE INTERCULTURAL DIALOGUE IN THE MODERN GLOBALIZATION WORLD

Açar sözlər: qloballaşma, mədəniyyət, dialoq, mədəniyyətlərarası dialoq, mədəniyyətləarası kommunikasiya.

Ключевые слова: глобализация, культура, диалог, межкультурный диалог, межкультурная коммуникация.

Key words: globalization, culture, dialogue, intercultural dialogue, intercultural communication

Xülasə: Məqalənin əsas məqsədi mədəniyyətlərarası dialoq fenomeninin məzmun tərəfinin açılması və onun spesifik səciyyələrinin aşkarlanmasıdır. Bunun üçün birincisi, mədəniyyət və dialoq anlayışları ilə müəyyənləşmə aparmaq, ikincisi, siyasi-mədəni fikirdə mədəniyyətlərin dialoqunun mahiyyətinin anlaşılmasına müxtəlif yanaşmaları təhlildən keçirmək və onlardan daha adekvat olanını əsaslandırmaq lazımdır.

Резюме: Основной целью статьи является раскрытие содержательной стороны феномена межкультурного диалога и выявление его специфических характеристик. Для этого необходимо, во-первых, вести определенность понятиями культура и диалог, во – вторых анализировать различные подходы в политико - культурной мысли к пониманию сущности диалога культур и обосновывать наиболее адекватного из них.

Abstract: The main purpose of the article is to discover the content side of the phenomenon of intercultural dialogue and to identify its specific features. First of all, it is necessary to identify with the concepts of culture and dialogue, and second, to analyze the different approaches to understanding the essence of the

dialogue of cultures in political and cultural terms and to justify them more adequately.

Sosiomədəni fenomen kimi mədəniyyətlərin dialoqu problemi XX əsrdə xüsusi aktuallıq kəsb edir və hazırki dövrdə dünyada gedən qloballaşma prosesləri səbəbindən öz aktuallığını saxlayır. Öncəki dövrlərdə mədəniyyətlərin dialoqu fraqmentar, yarımçıq və situativ səciyyə daşıyırdısa, onda indiki zamanda milli mədəniyyətlər bir-biriləri ilə daimi təmasın zəruriliyi qarşısında qalırlar. Məhz, bu şərait bizim nəzərimizcə son onilliklərdə mədəniyyətlərarası təmasın daha adekvat forması kimi mədəniyyətlərin dialoqunun tədqiqini aktuallaşdırır. Bu mövzuya həsr olunmuş nəşrlərin böyük həcminə baxmayaraq, sosipmədəni fenomen kimi mədəniyyətlərarası dialoqun özündə nəyi təcəssüm etməsi haqda vahid fikir indiyə qədər mövcud deyildir. Bizim nöqteyi-nəzərimizcə, bu, "mədəniyyətlərin dialoqu" anlayışının özünün metamorfikliyi ilə və şəxsiyyətlərarası dialoq anlayışının mədəniyyətlərarası münasibətlərin daha abstrakt sferasına keçirilməsi ilə şərtlənmişdir.

İlk baxışda qeyd olunan prosesin tədqiq olunmasında öncül problem çıxış mövqeyi kimi "mədəniyyətlərarası dialoq" anlayışının müəyyənləşdirilməsi dayanır. Bu fenomenin düzgün anlaşılmaması və şərhi tədqiqata yanlış yanaşmaları və metodları cəlb edəcək. Bizi maraqlandıran mövzu üzrə işlərin öyrənilməsi qeyd etməyə imkan verir ki, bir çox tədqiqatçılar "mədəniyyəltəarası dialoq" və onunla oxşar olan "mədəniyyətləarası kommunikasiya", "mədəniyyətlərarası qarşılıqlı əlaqə" kimi hadisələr arasında xüsusi fərq görmürlər və ya, bir anlayışı digəri ilə əvəzləyirlər.

Məqalənin əsas məqsədi mədəniyyətlərarası dialoq fenomeninin məzmun tərəfinin açılması və onun spesifik səciyyələrinin aşkarlanmasıdır. Bunun üçün birincisi, mədəniyyət

və dialoq anlayışları ilə müəyyənləşmə aparmaq, ikincisi, siyasi-mədəni fikirdə mədəniyyətlərin dialoqunun mahiyyətinin anlaşılmasına müxtəlif yanaşmaları təhlildən keçirmək və onlardan daha adekvat olanını əsaslandırmaq lazımdır. Bu məqsədlə, 2007-ci ildə Avropa Komissiyası tərəfindən Avropa Birliyi ölkələrində mədəniyyətlərarası dialoqun inkişafı durumunun və perspektivlərinin tədqiqi üzrə vəzifələr müəyyənləşdirilərək tədqiqat qrupu formalaşdırıldı. 2007-ci ilin yanvarından 2008-ci ilin martına qədər Mədəniyyətin müqayisəli araşdırılması üzrə Avropa İnstitutunun əməkdaşları 10 ekspert, 2 xüsusi məsələlər üzrə ekspert və 34 milli müxbir tərkibi ilə Avropa məkanını tədqiq etdi. Geniş tədqiqat işində bir sıra məsələlər nəzərdən keçirilmişdir. Mədəniyyətlərarası dialoqun hansı konseptləri mövcuddur? Hansı fəaliyyət göstərən şəxslər və institutlar onun inkişafını həyata keçirirlər? Artıq indi mədəniyyətlərarası dialoq üçün hüquqi və siyasi səciyyəli şərtlərdən danışmaq mümkündürmü? Hansı hədəflərə və prisiplərə müvafiq mədəniyyətlərarası dialoq siyasəti inkişaf etdirilir? Proqramların, tədbirlərin və layihələrin kontrolunun meyarları mövcuddurmu?

Tədqiqat mədəniyyət və incəsənət, tədsil və idman sahələrində aparılmışdır. Tədqiqatın nəticələri müzakirə olunmuşdur və "Birgəyaşayışın mədəni çoxşəkilliyi. Avropada mədəniyyətlərarası dialoqun milli konseptləri" adı altında əlyazması şəklində təqdim olunmuşdur.

Tədqiqat nəticələri sıradakı müəyyənləşdirməni etməyə imkan verir: **mədəniyyətlərarası dialoq** - müxtəlif mədəni köklərə və dünyagörüşə malik fərdlər, qruplar və təşkilatlar arasında qarşılıqlı hörmət çərçivəsində inkişaf edən, gedən interaktiv mübadilə prosesidir. Əgər, biz, mədəniyyətlərarası dialoqun mənasını və məqsədini tamlıqla anlamaq istəyiriksə, dialoqun özünün mahiyyətində əsaslı aydınlaşdırma aparmalıyıq.

Britaniyalı siyasi nəzəriyyəçi B.Parexə görə mədəniyyət öz təbiətinə görə diologikdir və özünün inkişafı üçün başqa mədəniyyətlərə münasibətdə açıqlığa və qarşılıqlı əlaqələrə ehtiyac duyur. Belə ki, qapalı mədəniyyət öz identikliyini başqaları ilə olan fərqlilikləri nöqteyi-nəzərindən müəyyənləşdirir və həmin fərqlilikləri digər mədəniyyətlərin təsirindən mühafizə etməyə çalışır, onlarla hər hansı bir əlaqədən yan qaçır. Parex qeyd edirdi ki, "mədəniyyətlərarası dialoq tələb edir ki, onların hər biri digərlərinin təsirinə dözümlülük göstərsin və onlardan öyrənməyi arzulasın"**[5; s.82-83]**.

Şəxsiyyətlərarası ünsiyyətin spesifik forması kimi dialoqun səciyyəvi özəlliklərinin eksplikasiyası üçün tarixi-fəlsəfi ənənələrə müraciət edək. Bənzər eksplikasiya mədəniyyətlərarası qarşılıqlı təsirin növü kimi mədəniyyətlərin dialoqunun gələcəkdə daha adekvat dərki ilə müəyyənləşmə etməyə kömək edəcəkdir.

Siyasi-fəlsəfi fikirdə ünsiyyətin spesifik üsulu kimi dialoq məsələlərinə müxtəlif çağların mütəfəkkirləri müraciət etmişlər. Dialoq haqqında nəzəri-kommunikativ müddəalara əsaslanaraq onun sıradakı özəlliklərini ayırd etmək olar:

- dialoq təmasın monoloji formalarından fərqli olaraq, bərabərhüquqlu həmsöhbətlərin sərbəst subyektlərarası qarşılıqlı təsiri kimi çıxış edir;

- dialoq özündə canlı, tükənməz evristik potensiala malik şəxsiyyətlərarası ünsiyyəti təcəssüm edir. O, bizim "mənin" hüdudlarını genişləndirməyə, bizim şəxsiyyətimizi yeni şəklə salmağa qabildir;

- dialoq mühüm kreativ funksiya icra edir. Onun iştirakçıları qarşılıqlı olaraq, bir-birilərini zənginləşdirirlər, öz fikirlərini və baxışlarını inkişaf etdirirlər, ümumi mövqelər ortaya çıxarırlar;

- dialoq ünsiyyətin yetərincə mürəkkəb formasını özündə təcəssüm edir. O, özünün realizəsi üçün hərtərəfli hazırlığı və müəyyən şərtlərin mövcudluğunu: onun iştirakçılarının söhbətə hazırlığını və özünün həmsöhbətini dinləmək bacarığını, tələb edən bütöv incəsənətdir;

- dialoq özündə Digərini anlamanın mühüm üsulunu deyil, həm də, özünü Digəri üzərindən dərkin metodudur, özünün şəxsiyyətinin aşkarlanmasının və realizasiyasının yoludur.

Qeyd olunanaları yekunlaşdıraraq qeyd etmək lazımdır ki, mədəniyyətlərarası dialoqu şərtləndirən münasibətlərin qurulması və kəsişmə nöqtələrinin axtarışı müasir qloballaşan dünyada getdikcə daha böyük əhəmiyyət kəsb edir. Belə ki, "təfəkkürdə stereotiplərin ləğv edilməsi və şüurda humanistik prinsiplərin bərqərar edilməsi avtomatik olaraq, ümumbəşəri problemlərin həllinə gətirib çıxarmır". Önəmlidir ki, insanlar şəxsi maraqları ilə yanaşı digərlərinin də maraqlarını nəzərə almağa, onların arqumentlərini dinləməyə və eşitməyə, müxtəlif nöqteyi-nəzərləri diqqətə almağa hazır olsunlar. Ümumbəşəri qarşılıqlı asılılıq şərtlərində, insanların kütləvi məhvinin külli miqdarda vasitələrinin varlığı şərtlərində beynəlxalq konfliktlərin şiddət vasitəsilə həllinin istənilən cəhdləri istina edilməlidir və yalnızca konstruktiv dialoqa ümid etmək lazımdır. Əlbəttə ki, dialoq bütün problemlərin həllinin, o cümlədən, mədəniyyətlərin çoxşəkilliyinin və uzlaşmayan maraqların toqquşması şərtlərində münaqişəsiz mövcudolmanın universal üsulu deyildir, lakin o, müasir qloballaşan dünyada bəşəriyyətin mövcudluğunun yeganə mövcud formatını özündə təcəssüm edir.

ƏDƏBİYYAT

1. Xəlilov S.. Mədəniyyət: genezisi və mahiyyəti. AFSEA. Fəlsəfə və sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal - 1(33). Bakı. 2012. s.79-99.

2. Абеляр, П. Диалог между философом, иудеем и христианином / П. Абеляр // Вопросы философии. http://www.philosophy.ru/Hbrary/vopros/00.html

3. Бубер, М. Я и ты / М. Бубер ; пер. с нем. Ю.С. Терентьева, Н. Файнгольда, послесл. П.С. Гуревича. -М. : Высш. шк., 1993. - 175 с.

4. Гадамер, Х.-Г. Актуальность прекрасного : пер. с нем. / Х.-Г. Гадамер. - М. : Искусство, 1991. - 376 с.

5. Парех, Б., Переосмысливая мультикультурализм: культурное разнообразие и политическая теория (фрагмент) // Хомяков, М. Б.(авт.сост.). Хрестоматия по дисциплине «Современная политическая философия: либерализм, коммунитаризм, мультикультурализм». Екатеринбург. С. 80-92.

Nübar HƏSƏNOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ƏLAVƏ TƏHSİLİN İDARƏEDİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ДОПОЛНИТЕЛЬНЫМ ОБРАЗОВАНИЕМ

ACTUAL PROBLEMS OF MANAGEMENT OF ADDITIONAL EDUCATION

Açar sözlər: Əlavə peşə təhsili, qabaqcıl təlim, peşə təhsili, əlavə təhsil, təhsil sistemi, davamlı təhsil, təhsil quruluşu, ixtisas, təlim dövrü, inkişaf prinsipləri.

Ключевые слова: Дополнительное профессиональное образование, повышение квалификации, профессиональная переподготовка, дополнительное образовние, система образования, непрерывное образование, структура образования, квалификация, цикл обучения, принципы развития.

Keywords: Additional vocational education, advanced training, vocational education, additional education, education system, continuing education, education structure, specialty, training period, developmental principles.

Xülasə: Məqalədə əlavə ali təhsil sisteminin öz ixtisas biliklərini daha mükəmməl şəkildə yüksəltmək və yeni ixtisas qazanmaq arzusunda olanlar üçün müxtəlif keyfiyyətli proqramlar təklif edilməsi məsələsi həmçinin, əlavə təhsilin idarəedilməsinin aktual problemləri geniş şəkildə şərh edilmişdir.

Резюме: В статье также освещается проблема дополнительных систем высшего образования, предлагающих широкий спектр качественных программ для тех, кто хочет повысить свою квалификацию и получить новые квалификации.

Abstract: The article also highlights the problem of additional higher education systems to offer a range of quality programs for those who want to improve their qualifications and to gain new qualifications.

Əvvəl qazanılmış ixtisasa aid yeniliklərin mütəxəssisin peşə bacarıqlarına əlavə edilməsi ixtisasartırma təlim proqramının əsas məqsədidir. Peşə hazırlığı proqramı yeni peşə ixtisasının və peşə fəaliyyətinin əldə edilməsi istiqamətinə yönəlmişdir. Gənclərin və yaşlıların əlavə təhsili onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə, onların mənəvi və elmi inkişafı üçün fərdi ehtiyaclarını təmin etməyə imkan verir.

Əlavə təhsil şəxsin təhsil ehtiyaclarını hərtərəfli: intellektual, dini-mənəvi, fiziki, peşəkar və elmi səviyyənin yüksəldilməsi və təkmilləşdirilməsi ilə müşaiət edilən bir təhsil növüdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" qaydası haqqında sənədin 1.1 bəndinə əsasən bu qaydalar "Təhsil haqqında"Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hazırlanmışdır və ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın əlavə təhsilinin istiqamətini, məzmununu, formasını, təşkilini və onlara müvafiq sənədin verilməsi qaydalarını müəyyən edir (maddə-24) [1,s.1]. Bu qaydalar hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır. Azərbaycan Respublikasında əlavə təhsil, ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir. Müəyyən edilmiş qaydalara əsasən yuxarıda göstərilən istiqamətlər üzrə təhsil müvafiq proqramlar əsasında bu qaydalarla tənzimlənən dövlət, bələdiyyə və özəl müəssisə, təşkilat və qurumlar tərəfindən həyata keçirilir. İxtisasartırma təhsilinin əsas məqsədi hər bir mütəxəssisin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirməsini daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni

həyatında fəal və səmərəli iştirakını təmin etməkdir. Bu təhsil əyani və məsafədən (distant) təhsil formasında aparıla bilər. Təhsil müddəti və bir təhsil dövrü üçün təhsilin minimal həddi,ixtisasartırma modulları və təhsilin kurikulum çərçivəsi, ixtisasartırma proqramları, ixtisasartırma təhsilinin kredit sistemi, fərdi tələbat əsasında ixtisasartırma proqramlar bu təhsilin həyata keçirilməsinə başlamazdan əvvəl seçilir və hazırlanır. Bütün sadalanan məsələlər bu təhsili həyata keçirən qurumdan əlavə Mərkəzi İcra Hakimiyyəti Orqanları tərəfindən də hazırlana bilər. Lakin bir ixtisasartırma dövrü üçün minimum təhsil kreditlərini toplama müddəti, ixtisasartırma təhsilinin modulları və kurikulum çərçivəsi təhsili həyata keçirən qurum tərəfindən hazırlanmalıdır. Nəzərə almaq lazımdır ki, modul-ixtisasartırma təhsili prosesində nəzərdə tutulmuş müəyyən istiqamətdə bilik, bacarıq və vərdişlərin əldə edilməsinə, dünyagörüşü formalaşdırılmasına xidmət edən biliklər sistemini ifadə edir. Modulların sayı və modullar üzrə təlim saatlarının miqdarı modulun seçilməsindən asılı olaraq, müəyyənləşdirilir. Kurikuluma daxil edilmiş modulların hər birinin məqsədi, vəzifələri, məzmunu, təlimə aid tədbirləri və bunların əsasını təşkil edən təlim materialları, gözlənilən nəticələri əhatə edən vahid məqsədə yönəlmiş mövzular və sənədlər toplusudur. Vətəndaşların cəmiyyətin və dövlətin təhsil ehtiyaclarını tam şəkildə təmin etmək üçün əlavə təhsil proqramları və əlavə təhsil xidmətləri həyata keçirilir. Mütəxəssisin təhsili ali təhsil müəssisəsində bir təhsil dövründə başa çatmır., onun bütün peşə fəaliyyət dövründə yeni məzmun doldurulur. Hər bir peşə təhsili səviyyəsində əlavə təhsilin əsas vəzifəsi dövlət təhsil standartlarının mütəmadi olaraq, təkmilləşdirilməsi ilə əlaqədar mütəxəssisin mütəmadi olaraq, peşəkar inkişafını təmin edir. Müasir dövrdə işçi təhsilinin məzmunu və peşəkar bacarıqlara olan tələbatın mütəhərrikliyi hər bir təşkilatın uğurunun tərkib

hissəsi kimi dəyərləndirilir. Kompaniyanın, təşkilatın inkişafının effektivliyinin, onun inkişaf trayektoriyası ilə əlaqələdnirilməsinin dərk edilməsi, işçilərin informasiya potensialının daim yenilənməsi ilə qırılmaz surətdə bağlı olan yeni biliklərin əldə edilməsini təmin edir. Müasir texnologiyanın sürətli dəyişməsi dövründə mütəmadi olaraq, əlavə peşə təhsili sistemində əldə edilə bilən bilikləri müvafiq fənlər və peşələri öyrənməklə qazanmaq olar. Kurikulum çərçivəsinə daxil olan modulların hər birinin dəqiq məqsədi, hansı vəzifəni icra edəcəyi, məzmun standartları, gözlənilən nəticələr və təlim saatları ixtisasartırma proqramları vasitəsilə müəyyən edildiyindən, hər bir modul daxilində proqramın məzmununa ciddi diqqət yetirmək zəruridir. Əlavə təhsil proqramları təhsil müəssisələrində həyata keçirilən əsas təhsil proqramlarını əhatə edir. Peşəkar təhsilin əsas təhsil proqramlarından kənarda həyata keçirilən müxtəlif növ təhsil proqramlarını əhatə edir. Peşəkar təhsilin statusunu müəyyən edən, ixtisasartırma təhsil krediti bu təhsil proqramının həcmini və məzmununu əks etdirən şərti anlayışdır, təhsil krediti proqramın 6 təlim saatına bərabər olan hissəsi götürülür. Modulların hər biri üzrə toplanan təhsil kreditlərinin minimum həddi müəyyən edilir. Fərdin tələbatı əsasında həyata keçirilən proqramın və əlavə təhsil müəssisələrinin seçilməsi şəxsi təşəbbüs və ya özəl qurumlar tərəfindən aparıldığından, müqavilə əsasında həyata keçirilir. İxtisasartırma proqramlarının müvafiq reqlamentləşdirici sənədlər əsasında proqram üzrə dinləyicilərin sayı nəzərə alınır, mümkün hallarda təlim məşğələləri iştirakçıların iş yerlərində və ya ona yaxın ərazidə həyata keçirilir. Keyfiyyətə nəzarət məqsədilə kadrların ixtisasartırma təhsili haqqında məlumat bazası yaradılır, ixtisasartırma proqramlarının həyata keçirilməsi prosesi, onun nəticələri, monitorinq və qiymətləndirmə prosesi və s. bazaya daxil edilir. İxtisasartırma təhsilini həyata keçirən kadr potensialının hazırlanması

məqsədilə qrant layihələri vasitəsilə təlim kurslarının keçirilməsi məqsədəuyğun sayılır. İxtisasartırma təhsilini başa vuran və müəyyən edilmiş krediti toplayan hər bir dinləyiciyə təhsil müəssisəsi tərəfindən mərkəzi icra hakimiyyətinin təsdiq etdiyi vahid formada sertifikat verilir. Sertifikatlar təhsil müəssisəsi tərəfindən imzalanır və möhürlənir. Əlavə təhsil müəssisələri nəzərdə tutulan vaxtda başlanan, ixtisasartırma tədbirlərinin nəticələri barədə Mərkəzi icra Hakimiyəti orqanlarına və yaxud da təhkim olunduğu özəl qurumlara hesabat təqdim edir. Əlavə təhsil proqramları peşə təhsili müəssisələrində statusu müəyən edən əsas təhsil proqramlarından kənarda həyata keçirilən müxtəlif növ təhsil proqramlarını əhatə edir. Bu təhsil əlavə peşə təhsili proqramlarının həyata keçirilməsi yolu ilə reallaşdırılır. İxtisasartırma təhsili üzrə təlim modulları əsasən üç istiqaməti əhatə edir: 1. Peşə fəaliyyətinin ümumi əsasları; 2. İxtisas sahələri; 3. İnnovasiyalar.

Modulların sayının tədris saatlarının miqdarının və məzmununun ixtisasartırma qrupunun formalaşmasından sonra müəyyənləşdirilməsi daha məqsədəuyğun olar. Bu halda peşə fəaliyyəti sisteminin bu və ya digər kateqoriyalardan olan kadrların tələbat və ehtiyacları nəzərə alınar. Kurikulum çərçivəsinin məzmununun mütəmadi olaraq, yeniləşdirilməsi və təkmilləşdirilməsi daim nəzərdə saxlanılır. Əlavə təhsil-ömür boyu təhsil sisteminin bir hissəsidir. Bu təhsil forması fərdlərin intellektual, mənəvi,mədəni və peşə inkişafında təhsil ehtiyaclarının hərtərəfli ödənilməsini təmin etmək məzmunu daşıyır. Kurikulum çərçivəsinə daxil olan modulların hər biri üzrə dəqiq məqsədlər, məzmun standartları, gözlənilən nəticələr və təlim standartları ixtisasartırma proqramları vasitəsilə müəyyən edilir. Bu gün ixtisasartırma:

-şəxsi inkişafın və özünə inamın yaradılması;

-fərdi təhsil trayektoriyasının müəyyənləşdirilməsi;

-mütəxəssislərin öz komandasını yaratması;
-sizin peşəkar və karyera inkişafınız imkanları nəzərə alınmaqla həyata keçirilir. Bütün proqramlar müvafiq peşə standartlarının tələbləri nəzərə alınaraq, bu tələbələrə cavab verə bilən səviyyədə hazırlanmalıdır. Proqramlar üzrə təlimlər tədris müəssisəsinin seçdiyi ən yaxşı müəllimlər tərəfindən aparılır. Müəllimlər respublikanın qabaqcıl universitetlərinin professor-müəllim heyəti içərisindən və faydalı iş təcrübəsinə malik olan mütəxəssislərdən təşkil edilir. Əlavə təhsil müəssisəsi nəzəri və təcrübi təhsil prosesində əldə edilən yeni məlumatların, dinləyicilərin peşəkar fəaliyyətində daha uğurlu olması üçün etibarlı bir əsas olacağına əminlik yaratmalıdır. Əsas fəaliyyət istiqamətləri:
-əlavə təhsil müəssisəsinin təhsil sahəsi bazarının monitorinqini;
-əlavə peşəkar inkişaf proqramlarının hazırlanması və təşviqini;
-fiziki və hüquqi şəxslərlə ixtisasartırma və yenidən hazırlanma proqramları üçün təlim müqavilələrinin hazırlanmasını;
-ixtisasartırma və yenidənhazırlanmanın peşəkar inkişaf proqramlarının həyata keçirilməsini;
-peşəkar təlim proqramlarının həyata keçirilməsinin nəticələrinə dair hesabat sənədlərinin hazırlanmasını əhatə edir.
Əlavə təhsilin təşkili, əlavə təhsil proqramları ilə təhsil fəaliyyətini həyata keçirən qurumun və onun məqsədinə uyğun təhsil prosesinin reallaşdırılmasıdır. Bununla birlikdə o eyni zamanda təhsil proqramları vasitəsilə, təhsil və təlim fəaliyyəti göstərmək hüququna malikdir. Əlavə peşə təhsili proqramlarını istənilən tipli təhsil müəssisəsi də həyata keçirmək hüququna malikdir:

1. Məktəbəqədər təhsil müəssisəsi;
2. Ümumi təhsil müəssisəsi;
3. Peşə təhsili müəssisələri;
4. Ali təhsil müəssisələri;

5. Əlavə təhsil müəssisələri;
6. Əlavə peşə təhsili müəssisələri.

Əlavə təhsilin qarşısında duran əsas məsələlər aşağıdakılardır:

-əlavə təhsil sisteminin hərtərəfli inkişafı, təhsil xidmətləri bazarında təhsil müəssisəsinin və onun sturuktur bölmələrinin maraqlarından səmərəli istifadə edilməsi;

-əsas peşə hazırlığı proqramlarının (ixtisasartırma, peşə hazırlığı, ümumtəhsil və s.) həyata keçirən struktur müəssisələrinin qarşılıqlı fəaliyyətini, koordinasiyasını təşkil etmək;

-əlavə təhsilin təşkili və tətbiqi sahəsində lisenziyalaşdırma və tənzimlənmə tələblərinin təhsil müəssisəsinin sturuktur bölmələrinin Azərbaycan Respublikası qanunlarına və təhsil müəssisələrinin yerli normativ aktlarına uyğunluğunun moniqtorinqinin həyata keçirilməsi;

-əlavə təhsil proqramlarının əsas peşə hazırlığı Azərbacan Respublikası tərəfindən əlavə təhsil proqramları səviyyəsinə qoyulan vahid tələblərə, peşə hazırlığı proqramları və bölmələr tərəfindən göstərilən təhsil xidmətlərinin keyfiyyəti ilə bağlı sturuktur vahidlərin işinə nəzarətin həyata keçirilməsi;

-peşə hazırlığı şöbələrinin əsas fəaliyyət göstəriciləri haqqında ətraflı hesabatın hazırlanması;

-əlavə təhsil müəssisəsinin sturuktur bölmələrinin işində əsas məqsəd əlavə təhsil proqramlarının cəlbediciliyinin möhkəmləndirilməsi və dinləyicilərin hazırlığı keyfiyyətinin yüksəldilməsi vasitəsilə investisiya təminatına nail olmaq;

-idarəetmənin əsas məsələsi-əlavə təhsil proqramlarını həyata keçirən sturuktur bölmələrinin fəaliyyətinin ümumi koordinasiyasının həyata keçirilməsi;

-Əlavə təhsil proqramlarının həyata keçirilməsi üçün tədris prosesinin təşkili;

İdarəetmənin əsas funksiyaları:

-Tədris prosesinin təşkili və həyata keçirilməsi;

-Peşəyönümlü və hazırlıq işlərinin həyata keçirilməsi;

-Əlavə təhsil üçün işçi tədris planlarının və proqramlarının hazırlanması;

-təhsil prosesinin təsdiqlənmiş cədvəl üzrə həyata keçirilməsi və təhsil proqramının mənimsənilməsinin keyfiyyətinə operativ nəzarətin həyata keçirilməsi;

-Təhsil prosesinin elmi-metodiki dəstəklənməsi, yeni informasiya texnologiyalarının tətbiqi;

-Tədris prosesinin təşkili ilə bağlı təklif və təhlillərin ümumiləşdirilməsi;

Əlavə peşəkar təhsilin müasir inkişafı qloballaşma və elmi-texnoloji inkişafın sürətləndirilməsi baxımından, əsasən vahid təhsil sisteminə inteqrasiyası ilə bağlıdır.

Dövlətin təhsil siyasətinin strateji məqsədi "Təhsilin inkişafı üzrə fəaliyyət proqramının konsepsiyası"nda innovativ iqtisadi inkişafın cəmiyyətin və hər bir vətəndaşın müasir ehtiyaclarına cavab verən keyfiyyətli təhsilin təmin edilməsidir. Prioritet məsələ isə Ali Təhsil müəssisələrinin sosial inkişafın təminatçısı kimi modernləşdirilməsidir. "ömür boyu təhsilin müasir bir sisteminin yaradılması, peşəkar kadrların hazırlanması, yenidən hazırlanması və təkmilləşdirilməsi, peşəkar təhsilin məzmununun və sturukturunun əmək bazarının mövcud tələblərinə uyğun bir səviyyəyə gətirilməsi, yüksək keyfiyyətli təhsil xidmətlərinin yaradılması və idarə edilməsi ilə bilavasitə bağlıdır. Müasir şəraitdə təhsil sistemində aparılan islahtlar bilik-bacarıq-düşüncə üçlüyü bazasına söykənən bilik paradiqmasından tutmuş praktikaya istiqamətlənmiş uyğunluq paradiqmasına qədər hər bir səviyyədə dəyişiklik tələb edir. Ən mühüm komponent peşəkar keyfiyyətlərin formalaşması prosesi və şəxsi qabiliyyətlərin inkişafının ömür boyu davam etməsidir,

çünki peşə uyğunluğu mütəxəssisdən peşəkar əməyə uyğunluq tələb edir. Ali peşə təhsili sisteminin təkmilləşdirilməsinə və onun keyfiyyətcə yeni səviyyəyə keçməsinə kömək edən mühüm amillərdən biri yüksək kateqoriyalı müəllimlərin innovativ fəaliyyətlərdə fəal iştirakının təmin edilməsidir. Təhsil sisteminin yenilənməsi müəllimlərin pedaqoji bacarıqlarına, ən yaxşı təcrübənin öyrənilməsinə və yayılmasına, innovativ texnologiyalara və təcrübə sahələrinə nisbətdə mütənasiblik təşkil etməlidir. Bu baxımdan təhsil sieminin inkişafında əsas problemlərdən biri təhsil prosesində kadr dəstəyi, yüksək səviyyəli müəllimlər, kompleks şəkildə mürəkkəb peşə məsələlərinin həllinin təmin edilməsi, yeni metodiki texnologiyaların və təcrübi biliklərin, bacarıqların inkişaf etdirilməsi refleksiv qabiliyyətlərin daha da inkişaf mükəmmələşdirilməsidir. Aşkar faktdır ki, universitetlərdə əldə edilən bilik və bacarıqlar zaman keçdikcə Ali Təhsilin üzləşdiyi yeni problemləri həll etmək üçün kifayət etmir. Ona görə də əlavə peşəkar təhsillə mütəxəsislərin biliklərinin daimi yeniləndirilməsi və təkmilləşdirilməsi xüsysi diqqət cəlb edən məsələyə çevrilir. Bundan başqa, təhsil sisteminin yeniləşdirilməsi prosesi və onun komponenti olan ali təhsil müəssisələri müəllimlərinin yenidən hazırlanması və təkmilləşdirilməsi –strateji planlaşdırma tələb edir. Müasir əmək bazarı rəqabətədavamlı, mobil,yüksək səviyyədə peşəkar pedaqoji kadrlar tələb edir. Ona görə də yenidən hazırlanma və ixtisasartırma yeni texnologiya ilə həyata keçirilməlidir. Burada təlimin məzmununun seçilməsi və məqsədə çatmada müstəqilliyin imkanı böyükdür. İxtisasartırma təhsilində modul təlimi dinləyicilərinlərin fərdi qabiliyyətlərini və əmək bazarının sürətlə dəyişən ehtiyaclarını nəzərə alaraq ən mobil, çevik, dinamik texnologiya kimi innovativ təlim texnologiyaları arasında xüsusi yer tutur. Modul təlimi 60-cı illərdə ABŞ-da

yaranmışdır və bir çox tədqiqatçı pedaqoqlar bu təlimə individuallaşdırma və təlimdə fərqlilik problemlərini uğurla həll etməyə, ümumiyyətlə öyrənmənin səmərəliliyinin artırılmasına imkan verən bir texnologiya kimi qəbul edilmişdir. Lakin, milli-pedaqoji mühitdə və təcrübədə professor-müəllim heyətinin əlavə peşə təhsili sisteminə modul təliminin tətbiq edilməsi üçün cəhdlərin ümumiləşdirilməsi və təhlili haqqında heç bir məlumata rast gəlmədik. İxtisaslı mütəxəssislərin təkmilləşdirilməsinə ənənəvi yanaşma dinləyici tərəfindən bilik və bacarıqların müəyyən praktiki fəaliyyətlərdə tətbiq edilməsi imkanları ilə müəllif kursu kimi tətbiq edilməsi imkanları aydın şəkildə düşündükdə informasiya-məlumat xarakteri daşıyır. Qısammüddətli təhsillə birlikdə bu sistematik və dağınıq şəkildə məlumat əldə edir, bu isə müəllimin motivasiyasını aşağı salır, nəticədə təlimin səmərəliliyi azalır. Tədqiqat bu problemin, yeni texnologiyaların tətbiqi yolu ilə əlavə peşə təhsili sisteminin səmərəliliyinin artırılmasını təmin etmək məqsədi daşıyır. Bu praktikada şəxsiyyət mərkəzli təhsil faktorunun həyata keçirilməsini təmin edir: ixtisasartırma, əlavə təhsil, təlim, yaradıcılıq, inkişaf, təhsil, bilik, bacarıq, vərdiş kateqoriyalarının inkişafına gətirir.

Əlavə təhsilin idarə edilməsi:

-əlavə təhsil proqramlarını həyata keçirən müəssisənin sturuktur bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi;

-Azərbaycan Respublikası qanunvericiliyinin, yerli və məhəlli normativ aktların tələblərinin ödənilməsinə nəzarət;

-təhsil fəaliyyətinin təşkili və həyata keçirilməsi sahəsində lisenziyalaşdırma və tənzimləyici tələblərin yerinə yetirilməsinə nəzarət;

-hazırlıq istiqamətlərinin müəyyənləşdirilməsi;

-müəyyənləşdirilmiş hazırlıq istiqaməti üzrə lazım olan materialların hazırlanması işlərini əhatə edir.

Yeni idarəetmə proqramı olaraq, "innovativ idarəetmə" müasir idarəetmənin iki əsas mövzusunu-innovasiya və idarəetməni birləşdirir.

Biliklərin mahiyyətini və onlarla əlaqəli prosesləri başa düşmək, biznes uğuru və rəqabət üstünlüyü üçün əsas şərtdir. İnnovasiyaların əsas mənbəyi təşəbbüskarlıq fəaliyyətidir və bu gün mövcud olan resurslardan kənara çıxan imkanların axtarışı kimi dərk edilməlidir. Bu istiqamətli təlimlərin məqsədi həm yenilikçi düşüncə sisteminin formalaşdırılmasına, həm də sahibkarlığın əsas bacarıqlarının yaradılması ideyasının formalaşdırılmasına yönəlmişdir. Proqram müasir dövrdə baş verən prosesləri dərindən başa düşmək istəyən və uğurla iştirak etmək istəyən Azərbaycan şirkətlərinin yüksək vəzifəli rəhbərləri və sahibkarlar üçün nəzərdə tutulmuşdur. Təqdim olunan tipli proqramların əsas xüsusiyyətləri: problem-istiqamətlilik prinsipi. Problem innovasiya və idarəetmə üzrə əlaqəli modulların bir sistemidir. Hər iki əsas mövzu strateji, əməliyyat idarəetməsi, maliyyə, marketinq və s. baxımından təhlil olunur. Bu tələblər şirkətdəki mövcud problemlərin həllinə yeni effektiv həll yolları tapmaq qabiliyyətini inkişaf etdirmək imkanı verir. Proqram tamamilə fərqli sahələrdən menecerləri və top menecerleri əhatə edir. Proqramın gedişi boyunca yeni ortaqlar və yeni dosdlar ortaya çıxa bilər. Proqramın aparıcıları kimi ali təhsil müəssisəsinin kursun aparılması istiqamətli professor-müəllim heyəti (əks halda dəvət olunan) eləcə də uğurlu menecerlər çıxış edirlər. Aparıcıların bu cür komplektləşdirilməsi idarəetmənin bir uğurlu şəklini təqdim etməyə imkan verir. Proqramın modul prinsipi əsasında qurulması daha səmərəli ola bilər və müxtəlif təhsil formalarından və tədris üsullarından istifadə etməklə aparılması müvafiq görünür. Əlavə təhsil proqramının əsas

məqsədi ali təhsil tədqiqatının inkişaf etdirilməsini və gənc tədqiqatçıların beynəlxalq fənlər və istiqamətlərarası peşəkar tədqiqat cəmiyyətlərinə inteqrasiyasını təmin etməkdir. Ali Təhsil müəssisələrində aparılan araşdırmalar istifadə olunan və istifadəsi nəzərdə tutulan konseptual yanaşmalara həsr olunur. Əlavə təhsil proqramında iştirak edən professor-müəllim heyəti və iştirakçılar fənlərarası yanaşmaların müxtəlif sahələrində hazırlanmış nəzəri yanaşmalar və nəzəri konsepsiyaların üstünlükləri və məhdudiyyətləri araşdırır. Ümumiyyətlə əlavə təhsil sisteminin idarə olunması xüsusilə əlavə təhsil fəaliyyətinin bir çox aspektləri-az öyrənilən mövzudur. Turizm elm sahəsi kimi qəbul edilmədiyi üçün bu sahədə çalışan müxtəlif ixtisasa malik insanlar üçün genişprofilli ixtisasartırma, yenidənhazırlama, təkmilləşdirmə, ixtisasdəyişmə, ikinci təhsil, ömür boyu təhsil istiqamətli müxtəlif təhsil proqramlarından istifadə faydalı olar. Məsələn, "Səyahətin modelləşdirilməsi təcrübəsi" əlavə peşə inkişafı proqramının həyata keçirilməsi ilə turizmin müxtəlif sahələrində, ixtisaslaşma nəzərə alınmaqla, müxtəlif sosial təbəqələri əhatə edən turların, tur paketlərin, ekskursiya proqramlarının və turist fəaliyyəti növləri üçün proqramların yerinə yetirilməsi və həyata keçirilməsi təcrübəsinin yeni kompetensiyalarının formalaşdırılmasına nail olmaq olar. Əsas məsələ-mövcud meyarlara və tənzimləyici tələblərə malik turizm məhsulunun tərtibatının müasir texnologiyasının mənimsənilməsi:

-Turlar, tur paketlər, ekskursiya proqramları və turizm fəaliyyətinin digər məhsulları üçün proqramların tərtib edilməsində peşəkar bacarıqlarının inkişafı;

-Uşaqlar və gənclərlə sosial turizm istiqamətli xidmət fəaliyyətində peşə bacarıqlarının praktik inkişafına nail olunması.

Nəzərdə tutulan bilik, bacarıq və fəaliyyət texnologiyasının mənimsənilməsi təminatı üçün bir neçə modul müəyyənləşdirilməlidir.

-Modul 1. Uşaq və gənclər turizmi, ölkəşünaslıq, müasir Azərbaycanda uşaq və gənclər turizminin inkişaf perspektivləri;

-Modul 2. Uşaq və gənclər qrupu ilə işləyən turizm sənayesinin xüsusiyyətləri;

-Modul 3. Məktəblilər və tələbə gənclərlə turizm fəaliyyətinin təşkili

Təqdim olunan araşdırma əlavə təhsil proqramlarının həhaya keçirildiyi əsas istiqamətləri əhatə edir: Əlavə pedaqoji təhsil, peşə inkişafı, peşə bacarıqlarının tətbiqi, idarəetmə bacarıqlarının inkişaf etdirilməsi, ömür boyu təhsil proqramları, ikinci ali təhsil və s. sahələri əhatə edir.

Tədris prosesinin spesifikliyi, dinləyicilərin hazırlığının məzmununun formalaşdırılması prinsipləri, sabit və dəyişən təhsil modulları, mütəxəssislər üçün təlim texnologiyaları yekun nəzarət və qiymətləndirmə formaları nəzərə alınır. Yüksək səviyyəli mütəxəssislərin hazırlanmasının məcburi şərti onun peşəkarlığının daim inkişaf etdirilməsidir ki, burada əsas rolu kadrların ixtisasının artırılması sistemi oynayır [3,4,5].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" qaydası sənədi bu istiqamətdə aktuallıq kəsb edir [6].

Təhsil islahatları haqqında dövlət sənədlərində ali təhsil müəssisələrinin, peşə təhsilinin inkişafı aparıcı yer tutur. Əlavə təhsilin əsas forması kimi ixtisasartırma təhsili hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir, insan potenasialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və

yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi,siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır.

Azərbaycanda turizm sənayesinin əsas problemi yüksək ixtisaslı kadrların peşə hazırlığına ehtiyac duyulan turizm sənayesi mütəxəssislərinin peşə hazırlığı səviyyəsinin aşağı olmasıdır. Turizm sənayesi daha çox inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə etmək səmərəli sayıla bilər. İtaliya turizm sənayesi üçün peşə təhsilli zəngin ənənələrə malikdir və geniş təlim proqramları ilə tanınır. Ümumiyyətlə peşəkar turist kadrlarının təhsili sistemləşdirilməmişdir, bu bütün dünyada belədir. Hələlik peşəkar turizm təhsilinin əhəmiyyəti dəqiq müəyyənləşdirilməyib və bu qlobal turizm bazarında hədəf kimi rəqabət qabiliyyətini artırmağın strateji aləti kontekstində ölkə iqtisadiyyatının turizm sahəsinin modernləşdirilməsi zərurətinə aiddir. Peşəkar turizm təhsili son on illiklərdə ölkədə aparılan islahatlarla bağlı genişmiqyaslı dəyişikliklərə məruz qaldı.Yeni Avropa təhsil sahəsinin formalaşmasında fəal iştirak edən ölkələrin milli təhsil sisteminin xüsusiyyətləri ilə bağlıdır. Peşəkar turizm təhsili ölkədə peşəkar təhsilin inkişafı üçün xarakterik olan tendensiyalar əsasında inkişaf etdirilməsi məqsədəuyğun olar: peşəkar təhsil verən təhsil müəssisələri sisteminin genişləndirilməsi və peşəkar mütəxəssislərin hazırlanması üçün təlim proqramlarının genişləndirilməsi, regional tendensiyaların və peşəkar təhsilin qeyri-universitet sektorunun genişləndirilməsi, peşəkar assosiasiyaların, sosial təşkilatların, həmkarklar təşkilatlarının peşəkar təhsilin inkişafında rolunun artırılması, müxtəlif səviyyəli təlim proqramlarının davamlılığının təmin edilməsi, peşəkar hazırlığın davamlılığının təmin edilməsi, peşəkar hazırlıq çərçivəsində praktik komponentlərin gücləndirilməsi, peşəkar təhsil verən müəssisələrdə biznes sturukturlarının və əmək bazarının əlaqələrinin gücləndirilməsi, peşəkar təhsildə elmi-

tədqiqat fəaliyyətinin aktivləşdirilməsi, peşəkar təhsil sistemi üçün pedaqoji kadr hazırlığının yenilənməsi, Azərbaycanda peşəkar təhsil proqramlarının, Avropa təhsil məkanı konsepsiyasının Boloniya prosesi əsas müddəaları ilə korrelyasiyasının təmin edilməsi, distant (məsafədən) təhsil formasından aktiv istifadə beynəlxalq təhsil formasından, Peşəkar turizm təhsili üzrə proqramların mühüm hissəsi dövlətin və regionun vəsaitləri, həmçinin peşələrarası ictimai və regional fondların vasitələri hesabına maliyyələşdirilir. Universitetlərdə və xüsusi təhsil müəssisələrində magistr təhsil dərəcəsi verən kursların demək olar ki, hamısı ödənişli xarakter daşıyır. Bu gün Azərbaycan şəraitində işəgötürənlərin tələbləri ilə turizm sənayesi üçün təlimlər verən təhsil müəssisələrinin məzunlarının ixtisaslarının uyğunluğu problemi olduqca kəskinlidir. Əmək qanunvericiliyi, təhsil müəssisələri və praktiki turist və mehmanxana biznesinin təcrübəsi bu günədək, kadrların və peşə keyfiyyətinin təyin edilməsində vahid terminologiyaya malik deyil, həmçinin uyğun əmək funksiyalarının məzmununun dərk edilməsində fərqli yanaşma tətbiq edirlər.

Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu . 19 iyun 2009-cu ol № 833-111Q.
2. Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il tarixli 163 saylı nömrəli qərarı ilə təsdiq edilmişdir.
3. Шилова О.Н. Дополнительное образование педагогов в контексте его непрерывности. Человек и образование-2012, №2-с.17-21
4. Ковалева А.И. Перинская Н.А., ЗРИ-2016-№1-с.297-300.

5. Бушуева И.В. Инновации в туристском образовании. Прикладной бакалавр в туризме глазами РГУТиС25-26 сентябрь 2014 года.-Сочи, 2014-с.4-7.
6. «Проблемы дополнительного профессионального образования в сфере туризма и гостеприимства в Белогородской области». Димачева Е.В., Чернявских В.И., Аноприева Е.В. Научный результат Сетевой научно-практический журнал. Сер.39. Технология бизнеса и сервиса.2015.

Emin QULİYEV
Azərbaycan Turizm və Menecment Universiteti

TURİZM KLASTERLƏRİNİN MƏDƏNİYYƏTƏ VƏ SOSİAL- İQTİSADİ İNKİŞAFA TƏSİRİ

ВЛИЯНИЕ ТУРИСТИЧЕКИХ КЛАСТЕРОВ НА КУЛЬТУРУ И СОЦИАЛЬНО-ЭКОНМИЧЕСКОЕ РАЗВИТИЕ

INFLUENCE OF TOURIST CLUSTERS ON CULTURE AND SOCIOECONOMIC DEVELOPMENT

Açar sözlər: turizm, klaster, sosial- iqtisadiyyat, mədəniyyət, inkişaf

Ключевые слова: туризм, кластер, социальная экономика, культура, развитие.

Keywords: tourism, cluster, socio-economics, culture, development.

Xülasə: Məqalə turiszm klasterlərinin bazar iqtisadiyyatı şəraitində turizm məhsulları istehsalının ərazi təşkilinin xüsusi

forması kimi formalaşdırılması problemlərinə həsr olunub. Bu baxımdan klaster, rəqabətin artmasına və bölgənin inkişafına kömək edən xüsusi bir innovasiya mühiti yaratmağa qadir olan bir sistem sayılır. Dünya iqtisadiyyatında, ayrılıqda ölkələrin və bölgələrin iqtisadiyyatlarında turizmin təsirinin davamlı artımı əhəmiyyətli, daimi və uzunmüddətli tendensiyalardan biridir. Turizm dünya inteqrasiya proseslərinin faktorlarından biridir və iqtisadiyyatın əhəmiyyətli bir sektoruna çevrilmişdir. Məqalədə Turizm klasterlərini formalaşdıran amillər araşdırılmış və Turizm klasterlərinin mədəniyyətin, sosial-iqtiasadi həyatın inkişafına təsiri analiz edilmişdir.

Резюме: Статья посвящена проблеме формирования туристических кластеров как особой формы территориальной организации и производства туристических продуктов в рыночной экономике. В связи с этим кластер представляет собой систему, способную создать особую инновационную среду, способствующую конкуренции и ускоряющую развитие региона. В мировой экономике, в частности, в экономиках стран и регионов устойчивое увеличение влияния туризма является одной из основных, постоянных и долгосрочных тенденций. Туризм является одним из факторов интеграционных процессов в мире и стал важным сектором экономики. В статье рассматриваются факторы, формирующие туристические кластеры и проанализировано влияние туристических кластеров на развитие культуры, социально-экономической жизни.

Abstract: The article is devoted to the formation problems of the production of the tourism products as a special form of territorial organization in the market economy. In this respect, cluster is considered as a system which is able to create an innovative environment that helps an increase in competition and

the development of the region. In the world economics, separation countries and regions` economics, the consistent increase of the influence of tourism is one of the necessary, regular and long-term tendencies. Tourism is one of the factors of the world integration process and has become one of the important sectors of economics. In the article, the factors that form the tourism clusters have been investigated and the influence of tourism clusters on culture, the development of socio-economical life has been analyzed.

Elmi istifadədə yeni anlayışların ortaya çıxması real həyatı çətinləşdirmə, yeni tədqiqat obyektlərinin ortaya çıxması və onların aralarındaki əlaqələri, yeni elmi biliklərin meydana gəlməsi proseslərini əks etdirir. Son vaxtlarda regional iqtisadiyyatda və iqtisadi coğrafiyada elmi inqilaba gedən bu anlayışlardan biri bazar iqtisadiyyatında xüsusi bir ərazi təşkilatı (özünü təşkil etmək) kimi klaster anlayışının yaranmasına səbəb olmuşdur. İlk dəfə Amerikalı iqtisadçı, Harvard Business School-un professoru M. Porter (1990) tərəfindən işlədilən klaster anlayışı, coğrafi əlamətlərinə görə cəmlənmiş bir-birinin rəqabət üstünlüklərini tamamlayan və gücləndirən bir-birinə bağlı olan firmalar və təşkilatlardan ibarət cəmiyyət kimi müəyyən etmək üçün istifadə edilmişdir. Klaster bir sıra fərqli xüsusiyyətlər ilə xarakterizə olunan bir sistemdir. Bir qrupun formalaşması üçün əvəzsiz şərt iqtisadi vahidlərin coğrafi yaxınlığıdır. Klasterin formalaşması üçün əvəz olunmaz şərt iqtisadi vahidlərin coğrafi yaxınlığıdır. Məhdud ərazi miqyasında kifayət qədər cox sayda iqtisadi istehsal, informasiya və dəstək sahələrinə aid olan, "birliyə yüksək rəqabət qabiliyyətini təmin edən" bir qurumun yaranmasıdır. Bütün bunların sayəsində klaster yüksək rəqabət qabilyyətinə malik olur. Klasterlərin coğrafi miqyası bir şəhər, bölgə, ölkə və ya bir sıra qonşu ölkələr birliyi arasında dəyişə bilər. M. Porter konsepsiyasında vurğu - əsas istehsalçı şirkətlər,

köməkçi (müşayiət edən) sənayelər, eləcə də hökumət strukturları kimi müxtəlif institutlar, o cümlədən universitetlər, tədqiqat təşkilatları kimi iştirakçılar arasında əlaqəyə vurulmuşdur. Klaster- marketinq siyasətinə və ya uyğunlaşdırılmış satınalma siyasətinin həyata keçirilməsinə görə birləşən firmaların sadə birliyidən daha mürəkkəb bir fenomendir. O, dəyərin yaranması sistemlərinə iştirak etməklə, onların daha dərin texnoloji əməkdaşlığını nəzərdə tutur. Bu halda firmalar yalnız əməkdaşlıq prosesinə cəlb edilmir, ən vacibi, müəyyən sahələrdə bir-birləri ilə müxtəlif sahələrdə seçim rəqabəti aparırlar. Belə bir rəqabətli qonşuluq istehsalın bütün amillərinin məhsuldarlığının artırılmasına yönəldilmiş sabit məhsul və texnoloji yeniliklərin hərəkətverici qüvvəsidir və yeniliklərin sürətli yayılmasını təmin edir. Klasterdə öz üzv şirkətlərinin rəqabət qabiliyyətinə və bölgənin rifahına kömək edən xüsusi bir innovativ mühit formalaşır. "Beləliklə, M. Porter yazır- ki, klaster qarşılıqlı əlaqəli firma və təşkilatların birliyi kimi bütövlükdə əhəmiyyəti, ayrı-ayrı hissələrin sadə əhəmiyyətindən artıq olan bir sistemdir" [2, səh. 211].

Ənənəvi olaraq, klaster yanaşması sənaye istehsalına aid edilir. ABŞ-ın elektronika və avtomobil sənayesi bölmələri, Almaniyanın kimya sənayesi, İtaliya ayaqqabı sənayesi, İsveç meşə və ağac emalı sənayesi və s. nisbətən yaxşı öyrənilmişdir. Turizm sahəsində, eləcə də xidmət sektorunun digər sahələrində klasterlərə aid tədqiqat işləri faktiki olaraq yox dərəcəsindədir. Qeyd edilməlidir ki,, klasterlər turizm mərkəzlərinin formalaşmasında, qonaqları cəlb etməkdə və rəqabət qabiliyyətini artırmaqda mühüm rol oynayırlar. Turizm sənayesi istirahət və səyahət sahələrinin inkişafında klaster yanaşması ilə əlaqəli bir sıra spesifik xüsusiyyətlərə malikdir. Turizm sənayesi sektorlararası əlaqələrin genişliyi ilə fərqlənir və bəzi tədqiqatçıların turizmin iqtisadiyyat sahələrinə aid edilməsinin

legitimliyini, kiçik və orta biznesin üstünlüyünü, turist məhsulunun qeyri-maddi təbiətini, istehsalçı və istehlakçıların bu məsələyə müxtəlif yanaşmalarını və s.təsdiqləyir. Bütün bunlar turizm klasterlərinin ortaya çıxması və inkişafının xüsusi əhəmiyyətini müəyyənləşdirir. Hər bir iştirakçının klasterin bir hissəsi kimi hiss etmələrinə kömək göstərirlər. Turizm klasterləri qlobal bir fenomendir. Onlar əvvəlcə inkişaf etmiş ölkələrdə mövcud olmuş, sonra isə inkişaf etməkdə olan ölkələrdə və keçid iqtisadiyyatına malik olan ölkələrdə yaranmışdır. Turizm sənayesində klasterlərin formalaşması və fəaliyyətinin ümumi qanunauyğunluqları bu sahədə öz təzahürlərinin spesifikliyi ilə təsdiqini tapır. Qeyd olunduğu kimi, klasterin mahiyyəti dəyər zəncirləri şəklində üzv şirkətlərin əlaqəsi ilə əlavə dəyər formasında ortaya çıxır. Əlavə dəyər- bu həmin şirkətdə birbaşa artırılan mal və xidmətlərindən yaranan dəyərin bu formada təzahür edən bir hissəsidir. Bir müəssisədə məhsuldar fəaliyyətin hər bir növü əlavə dəyər yaradır. Müəyyən bir ardıcıllıqla – bir-birinin ardınca - onlar şirkətdaxili dəyər zəncirlərini yaradırlar. Rəqabət üstünlüyünə nail olmaq üçün bir firma özünün təchizatçıları və istehlakçıları əlaqələndirən əlavə dəyər zəncirini və xarici dəyər zəncirləri ilə optimallaşdırmalıdır. Dinamik inkişaf edən klaster bir çox müxtəlif əlavə dəyər zəncirlərini özündə saxlayır ki, M. Porter, bunu dəyərlərin toplama sistemi (qiymət sistemi, tez-tez "dəyər sistemi" kimi tərcümə olunur) adlandırır [2, s.88]. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, müştərinin ayrıca bir turizm mərkəzində yeddi gün davam edən bir ziyarətdə 10 ilə 20 arasında zəncir işləyir. Burada ekskursiya bürosundan başlamış, ixtisaslaşmış turizm ədəbiyyatı mağazaları və sığorta şirkətləri, hədiyyə mağazaları, valyuta mübadilə şöbələri, taksi şirkətləri və s. 30-50 müxtəlif təşkilat fəaliyyət göstərir [3, s.71

Klasterlərin digər bir əsas xüsusiyyəti əməkdaşlıq və rəqabətin birləşməsidir. Təklifdə müəyyən ziddiyyətin olmasına baxmayaraq, araşdırma onun etibarlılığını təsdiqləyir. Eyni və ya oxşar məhsullar istehsal edən və dəyər zəncirində eyni əlaqəyə malik olan şirkətlər birbaşa rəqiblərdir, eyni zamanda onlar birgə strateji ittifaqlar təşkil edirlər.

Klasterlər müəyyən iqtisadi şəraitdə fəaliyyət göstərirlər, onların rəqabətqabiliyyətliliyi əsasən bundan asılıdır. Mühit klasterlərə müxtəlif formada təsir göstərə bilir, bəzi hallarda inkişafları maneə törədir, digərlərində isə əksinə, böyüməyə qatqı təmin edir. İqtisadi şəraitin təsiri rəqabətdə uğurun tərkib hissəsi olan dörd istiqamətdə fəaliyyətindən ibarətdir.

- istehsal amilləri üçün şərtlər. Təbii və mədəni turizm resurslarının təmin edilməsi, onların davamlı istifadəsi üçün planlaşdırma, turizm infrastrukturunun inkişaf səviyyəsi, müasir texnologiyalara çıxış, eləcə də kapital və keyfiyyətli əmək ehtiyatları və s.;

- tələbat səviyyəsi. Turizm məhsuluna tələbatın kəmiyyət və keyfiyyət göstəriciləri: turist axınının həcmi və mövsümiliyi, turistlərin demoqrafik və sosial-iqtisadi xüsusiyyətləri, mənsub olduğu ölkələr (regionlar), turistlərin motivasiyası və davranışı, təklif olunan turizm məhsulu ilə məmnuniyyət dərəcəsi, turizm mərkəzi haqqında ilkin məlumat, qonaqlarda turizm ərazisinin təsviri haqqında yaradılmış məlumat və s.

- dayanıqlı strategiya, quruluş və rəqabət, yəni şirkətlərin fəaliyyət göstərdiyi ümumi iqtisadi kontekst. Bunlar bazara giriş və çıxış şərtləri, rəqabət mübarizəsinin intensivliyi və şirkətlərin bu işləri aparması strategiyasının olması üçün davranışlar, iqtisadi siyasət, vergi sistemi və s. üçün razılaşdırılmış strategiyanın olması faktlarıdır;

- qohum və dəstək sahələri. Rəqabətqabiliyyətli təchizatçıları və qohum sənayelərin olması (olmaması).

Rəqabətin bu göstəricilərinə iki müstəqil qüvvə təsir edir: hökumət və şans. Klasterlərin gələcək inkişafı turist təklifinin diversifikasiyası istiqamətində davam etdirilə bilər. Hal-hazırda Azərbaycan bir sıra regional və yerli turist qruplarının formalaşdırılması prosesindədir. Bu proses Azərbaycan Raspublikasında xüsusi iqtisadi zonaları haqqında qanuna düzəlişlər və turizm və istirahət növlərinin xüsusi iqtisadi zonalarının ayrılması ilə əlaqədar olaraq sürətləndirilmişdir. Əslində, bu zonalarda səyahət və istirahət sahəsində bir-biri ilə əlaqəli şirkətlər, təşkilatlar və qurumlar sistemi inkişaf etməkdə olan bir regional turizm klasteri kimi qəbul edilə bilər.

Bildiyimiz kimi Klaster coğrafi cəhətdən qarşılıqlı əlaqəli müəssisələr və onlarla birlikdə müəyyən sferada fəaliyyət göstərən və bir birini qarşılıqlı tamamlayan təşkilatlar qrupudur. Turizm sənayesi klaster yanaşmasına aktuallıq verən bir sıra xüsusiyyətlərə malikdir. Əsas xüsusiyyətlərindən biri turizm sənayesinin iqtisadiyyatın başqa sahələrilə sıx qarşılıqlı əlaqədəsidir. Aparılan araşdırmalara görə, turistlərə xidmət sferasında iqtisadiyyatın 24 sahəsi iştirak edir.

Əgər istehsal sahəsində xammalın, yarımfabrikatların təchizatçıları hazır məhsulu istehsal edən müəssisədən uzaq məsafədə olursa, turizmdə belə vəziyyət çətinlik yarada bilər. Turistlərə xidmət göstərən əsas və əlavə müəssisələr, yəni turizm klasterlərinə daxil olan müəssisələr coğrafi baxımdan bir birinə yaxın olmalıdır. Klasterlər sağlamlığın bərpası, mədəni istiqamətli qarşılıqlı əlaqəli obyektlər komleksini, kollektiv yerləşdirmə vasitələrini, qidalanma və servis xidmətləri müəssisələrini, infrastrukturları və s. sahələri özündə birləşdirir. Turizm klasterlərinin formalaşmasında əsas məqsəd bu sahədə fəaliyyət göstərən müəssisələrlə iqtisadiyyatın və mədəniyyətin digər sektorları arasında əlaqələrin yaradılmasıdır.

Müasir dünyada turizm iqtisadiyyatın ən yüksək gəlirli və ən dinamik inkişaf edən sektorlarından biridir. Ümumi milli məhsulun yüzdə 10-u, beynəlxalq investisiyanın yüzdə 11-i turizmin payına düşür. Buna görə də uzun illərdir turizm yerli iqtisadiyyatı stimullaşdıran, rifahı artıran və əhalinin həyat səviyyəsinin keyfiyyətinə təsir edən bir sahə kimi qiymətləndirilir.

Bu gün dünyada beynəlxalq turizmin inkişaf dinamikası ev sahibi ölkələrin mədəni və təbii ehtiyatlarının istifadəsində artımı zəruri edir. Turistin dünyanın müxtəlif yerləri ilə əlaqədar olan təbii- mədəni maraqları və bu dəyərlərə sahib xalqlar bu gün ən güclü turizmlərindən birini təşkil edir. Mədəniyyət və təhsil məqsədləri üçün turist səfərlərinin sayı artır. Sosial inkişafda yeni bir mədəniyyət anlayışı və dünyada mədəni müxtəlifliyin qorunmasının zəruriliyi hər keçən gün öz aktuallığını artırır. Mədəni turizmin regional inkişaf qaynağı kimi ictimai ,sosial-mədəni və ekoloji sahə öz təsirini genişləndirir. Bu müasir dünyada turizmin iqtisadi anlayışdan sosial və mədəni fenomenə çevrilməsi ilə bağlıdır [1].

Bütün çətinliklərə baxmayaraq, mədəniyyət turizminin regional inkişafa təsiri müasir dövrdə mədəni həyatda yeni tendensiyaların inkişaf mərhələsidir. Əvvəllər unudulmuş adlar, abidələr və hadisələr yenidən canlanır, tarixi irs yeni formada qiymətləndirilir. Buna görə də, Azərbaycan regionlarının əksəriyyəti üçün mədəni turizmə diqqət iqtisadi, sosial və mədəni inkişafın stimullarından birinə çevrilir.

Mədəniyyət turizminin əsasları ölkənin tarixi və mədəni potensialı, o cümlədən bütün sosial-mədəni mühit ənənələri ev təsərrüfatlarının xüsusiyyətləri və iqtisadi fəaliyyətləridir. Hər hansı bir yer turizm təhsili üçün minimal bir qaynaq təmin edə bilər, lakin onun kütləvi inkişafı üçün mədəni irs obyektlərinin müəyyən bir konsentrasiyası tələb olunur, bunlar arasında:

- arxeologi abidələr;
- kütləvi və vətəndaş memarlığı;
-landşaft arxitekturasının abidələri;
- kiçik və böyük tarixi şəhərlər;
- kənd yaşayış məntəqələri;
- muzeylər, teatrlar, sərgi salonu və s.;
- sosioloji infrastruktur;
- etnoqrafiya, xalq sənəti və sənətkarlıq, tətbiqi sənət mərkəzləri;
- texniki komplekslər və qurğular və s. yer alır.

Xalqın mədəni özünü ifadə etməsi həmişə maraqlıdır. Bir turistin dünyanın müxtəlif yerlərində yaşayan xalqlarla və bu xalqların mədəniyyətləri ilə bağlı olan marağı səyahət üçün vacib səbəb hesab oluna bilər.

Mədəni turizm regionun inkişafına təsir göstərən bir sıra aspektlərə malikdir:

- sosial-mədəni aspektlər;
- iqtisadi aspektlər;
- təbii landşaft aspektləri;
- şəhərin planlaşdırılması və memarlıq aspektləri;
- təşkilati və idarəetmə aspektləri;

Mədəniyyət turizminin inkişafının iqtisadi aspektinə diqqət yetirmək daha vacibdir. Orta hesabla mədəniyyət məqsədli səyahətlərə turistlər nisbətən daha çox pul sərf edir. Məsələn Salzburq Ticarət Palatası tərəfindən aparılan araşdırmaya görə Salzburg Festivalı Avstriyaya 180 milyon avro gəlir gətirir. Müxtəlif hesablamalara görə Avropada bir il ərzində 2 minə qədər beynəlxalq festival təşkil edilir. Amerika muzeyləri hər il 220 milyon ziyarətçi tərəfindən ziyarət edilir. Formula 1-in Azərbaycan iqtisadiyyatına təsiri, bütün bunlar isə, ölkəyə gələn hər bir turistin xərclədiyi vəsaitin (valyutanın) iqtisadiyyatın müxtəlif sahələrinə birbaşa və dolayısı ilə müsbət təsiri deməkdir. Ölkənin maddi və mənəvi dəyərlərinin turist cəlb etməsi

özlüyündə iqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların cəlb edilməsini stimullaşdırır. Və buda yeni iş yerlərinin yaradılmasına, iqtisadi inkişafa təsir edir.

Cədvəl 1

	2011	2012	2013	2014	2015	2016	2017
Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər	37,600	38,839	40,892	41,886	49,449	43,477	46,837
Turizm üçün xarakterik sahələr	-	-	2,080.20	2,404.20	2,437.3	2,746.1	3,151.0

də yaradılmış əlavə dəyərin həcmi, milyon manat							
Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə	-	-	3.6	4.1	4.5	4.3	4.5
Turizm üçün xarakterik	1,407.80	1,478.20	1,371.00	2,204.00	1,063.9	363.0	267.3


sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat							


2011/ 2017- ci illərdə Azərbaycanda turizm sənayesinə qoyulan investisiyalar və onun sosial -iqtisadi nəticələri.

Turizmin iqtisadi səmərəliliyi turizm sənayesi ilə paralel ölkə iqtisadiyyatının digər sahələrinin inkişafına təkan verir. Turizm klasterləri ilə digər klasterlərin qarşılıqlı əlaqəsi hər bir sahənin rəqabət qabiliyyətinin artmasına və innovasiyaların tətbiqinə şərait yaradır. Aşağıdakı şəkildə Turizm klasterinin daha çox əlaqədə olduğu klasterlər göstərilmişdir.

Şəkil 2.

Regionda Turizm klasterinin digər klasterlərlə qarşılıqlı əlaqəsi.





Beləliklə əlaqəli sahələrdə xidmətlərin inkişaf etməsi (nəqliyyat klasteri, mədəniyyət klasteri, tibbi klaster və s.) turizmin inkişafına öz töhfəsini verə bilir və buda öz növbəsində turizmlə əlaqəli klasterlərin gələcək inkişafına kömək edir.

Dünya təcrübəsi göstərir ki, bu gün turizm bir çox müəssisələrin o cümlədən müxtəlif dövlətlərdə və ərazilərdə fəaliyyət göstərənlərin səylərinin inteqrasiyasını tələb edir. İnkişaf etməkdə olan ölkələrdə sərhəd qrupunun bütün elementlərinin inkişafına nail olmaq üçün və regionlararası əməkdaşlığı aktivləşdirmək üçün turizm klasterlərinin yaradılması zərurətdir. Turizm sahəsində katalizator rolunu oynayan müəssisələr və dövlətlər arasında məlumatların ötürülməsi regional imkanların və resursların davamlı

istifadəsinə, dəstəklənməsinə, yüksək səviyyəli, rəqabətə dözümlü turizm məhsullarının beynəlxalq bazarlara çıxarılmasını təmin edir.

Ədəbiyyat

1. Сенин В.С. Организация международного туризма: Учебник. - М.: Финансы и статистика, 2999. - 400с
2. Портер М.Э. Конкуренция. Пер. с англ. - М.: Издат. Дом «Вильямс», 2001.
3. Public-Private Sector Cooperation: Enhancing Tourism Competitiveness / World Tourism Organization Business Council. - Madrid: WTO, 2000.

Lamiyə NOVRUZOVA
Azərbaycan Turizm və Menecement universiteti, magistr

SƏMƏRƏLİ İDARƏETMƏNİN PRİNSİPLƏRİ ƏSASINDA İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ (BEYNƏLXALQ VƏ YERLİ TƏCRÜBƏ)

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ НА ОСНОВЕ ПРИНЦИПОВ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ (МЕЖДУНАРОДНАЯ И НАЦИОНАЛЬНАЯ ПРАКТИКА)

CURRENT ISSUES OF IMPROVING MANAGEMENT BASED ON EFFICIENT MANAGEMENT PRINCIPLES (INTERNATIONAL AND NATIONAL PRACTICES)

Açar sözlər: Aktiv idarəetmə, idarəetmənin təkmilləşdirilməsi mexanizmi, idarəetmənin aktual problemləri

Ключевые слова: активное управление, управление актуальными проблемами

Keywords: Active management, mechanism of improvement of management, actual problems of management

Xülasə Məqalənin məzmunu səmərəli dövlət idarəetməsi probleminin araşdırılmasından və onun əsas prinsiplərinin təhlil edilməsi və yaxşı idarəetmə prinsiplərinin tətbiqindən ibarətdir. Tədqiqatın obyektini səmərəli dövlət idarəçiliyi, predmetini isə dövlət idarəetməsinin prinsipləri təşkil edir.

Резюме: Содержание статьи состоит из исследования проблемы эффективного государственного управления и анализа его основных принципов и применения принципов надлежащего управления. Объектом исследования являются принципы эффективного государственного управления и субъекта государственного управления.

Abstract: The content of the article consists of an investigation of the problem of effective public administration and its analysis of its key principles and the application of good governance principles. The object of the research is the principles of effective state administration and the subject of public administration.

Giriş: İdarəetmə nədir və İdarəetmənin bir elim kimi öyrənilməsinə gətirən səbəblər nələrdir?İdarəetmə bir şəxsin (və şəxslərin) qarşıya qoyduqları məqsədlərinə çatmaqları üçün başqa şəxslər vasitəsiylə işlərini gördürmələridir. İnsanların bəşəri bir faktor olduğunun və çalışanların daha da məhsuldarlıq və səmərəliliyinin artırmağın bunu əsas alan yanaşmalarla mümkün olduğunun öyrənilməsi kimi faktorlar İdarəetmənin bir elim kimi öyrənilməsinə gətirən səbəblərdəndir. Beynəlxalq

təşkilatların təcrübəsində (məsələn, BMTİP) dövlət idarəetməsi bütün istiqamət və səviyyələrdə ölkəyə rəhbərlik etmə məqsədilə aparılan iqtisadi, siyasi və inzibati hakimiyyətin icrasından ibarətdir. O, vətəndaşların və vətəndaş qruplarının öz mənafelərini ifadə, qanuni haqq və öhdəliklərini ifa, həmçinin ziddiyyətlərini həll etmə mexanizm, prosedur və hakimiyyət institutlarını ehtiva edir.Fəqət, bu tərifə bir də əlavə etmək lazımdır ki, dövlət idarəetməsi yalnız mənafelərin ifası və ahəngləşdirilməsindən və ya müxtəlif qərarlar almaqdan ibarət deyil. O, eyni zamanda həmin qərarların icrası və onların ictimai münasibətlərə daxil edilməsi deməkdir. Bu cür dövlət idarəetməsi anlayışı öz əksini «good governance», yəni "yaxşı idarəetmə" və ya "aktiv idarəetmə" məfhumunda tapmışdır. Bu məfhum davamlı inkişafın əsas komponentlərindən biri kimi meydana gəlmişdir ki, bunun tərcüməsi Azərbaycanca Aktiv idarəçilik kimi tərcümə edilmişdir. Bəzi ədəbiyyatlarda bu yaxşı idarəçilik kimi verilir. Biz hər iki termindən istifadə edəcəyik. Aktiv(yaxşı) idarəetmə elə bir prosesdir ki, təşkilatlar, müəssisələr və vətəndaşların bir qrupu maraq və istəklərini bildirir, hüquqlarını, vəzifələrini, imkanlarını doğrulaşdırır, eləcə də ziddiyyətləri aradan qaldırırlar. Bu da öz növbəsində yeni üsulların axtarılmasına gətirir ki, onların köməyi ilə biliyə əsaslanan cəmiyyət yerli, reqional, milli və qlobal səviyyədə idarəçiliyin daha effektli, şəffaf və aktiv formalarından istifadə edə bilər. Bu məfhum dövlət idarəetməsinin hakimiyyət bölgüsü, xalq idarəetməsi, ali dövlət məmurlarının seçim yolu ilə təyini və vaxtı gəldikdə vəzifədən alınması, icra hakimiyyətinin qanuna tabeliyi, siyasi plüralizm və məlumat azadlığı kimi demokratik əsaslar üzərində qurulub yeridilməsi fikrini ifadə edir. Dövlət idarəetməsinin demokratizmi «good governance»-ın labüd, amma yetərli olmayan şərtidir. Çünki qərarların alınma və icrasından başqa, həmin qərarların gətirdiyi nəticələr də vacibdir.

Bu mənada «good governance» yəni yaxşı idarəetmə dövlət idarəetməsinin effektivliyi deməkdir ki, həmin effektivlik qoyulan məqsədlərin lazımi müddətdə və ictimai resursların minimal istifadə edilməsi ilə ölçülür. Dövlət idarəetməsi yalnız dövlət strukturları arasındakı münasibətlərdən ibarət deyil. Dövlət idarəetməsinin aparatın xaricinə çıxıb geniş xalq təbəqələrini, xüsusilə yerli səviyyədə qərarvermə və icraetmə prosesinə cəlb edən cəhətləri də böyük əhəmiyyət kəsb edir. Hakimiyyətin açıqlığı, qərarların şəffaflığı, yerli əhalinin qərarvermə mexanizmində iştirakı kimi məsələlər həmin sahəyə aiddir. Hakimiyyət strukturlarıarasındakı texniki xarakter daşıyan münasibətlərdən fərqli olaraq, burada dövlət idarəetməsi islahatının ictimai-siyasi cəhəti ön plana çıxır.

Yaxşı idarəetmənin prinsipləri: Aktiv idarəçilik çox şaxəli, yanaşmaları və öz prinsipləri olan ciddi bir idarəçilik fəaliyyətidir ki, onun tədbiqi zamanı bəzi müəlliflər tərəfindən 16, bəzi müəlliflər 33 və s. prinsipin gözlənilməsinin əsas hesab edirlər. Biz bu prinsiplərində əsas hər bir müəllifdə və beynəlxalaq sənədlərdə üst-üstə düşən üç əsas prinsip üzərində dayanacağıq. Bunlar iştirak, məsuliyyət və ədalətlilik şəklində müəyyən edilir. Bu üç əsas prinsipin yanında bunlarla əlaqəli bütün aktiv(yaxşı) idarəçilik daxilində şəffaflıq, yolsuzluqlarla mübarizə, demokratiya və əks mərkəzləşmə(dezentralizasiya) kimi prinsiplərə də yer verilib. İştirak- İştirakın aktiv(yaxşı) idarəçiliyin əsas dəyəri olmasının tək səbəbi bu anlayışın demokratik cazibəsindən qaynaqlanmır. İştirakın əhəmiyyətinin artmasının həqiqətən də güclü praktik səbəbləri mövcuddur. Məsələn Dünya Bankı, layihələrin hazırlanması və həyata keçirilməsində iştirakın olduğu halların olmadığı situasiyalardan daha müvəffəqiyyətli nəticələr əldə edildiyi bildirilir. Bunun əsas məntiqi belədir; qərar qəbulu və tətbiqində iştirak insanlarda layihələrə sahib çıxma hissi yaradır və bu layihənin

müvəffəqiyyətli olmasında əhəmiyyətli köməklik göstərir. Ancaq bu prinsipin tətbiq olunması asan deyil. Xalqın nizamlı iştirakının təmin edilməsi vəziyyətində potensial təhlükələr öncədən öyrənilib lazımlı tədbirlərin alınmasıyla xərclər əhəmiyyətli dərəcədə azalacaqdır. Necə ki, ətraf mühit problemlərinə mane olmağa istiqamətli bir çox siyasətin xüsusilə Afrika ölkələrində xalq iştirakının təmin edilməməsindən ötəri müvəffəqiyyətsizliklə nəticələndiyi bildirilir. Hesabatlılıq (Məsuliyyət)- Bir təşkilatın üzvlərinin bağlılığını təmin etmə baxımından ən az iştirak qədər əhəmiyyətli olan bir başqa mövzu isə uyğun məsuliyyət şəkillərinin müəyyənləşdirilməsidir. Təsisatlar özləriylə və ya digər maraqlı tərəflərlə əlaqədar olaraq; bunlarda dövlət, bölgələr və ya fərdlər ola bilər, qərar verirlər. Məsuliyyət alınan və tətbiq olunan qərarların kim və hansı təşkilatlar haqqında olduğunun açıqca ortaya qoyulmasını tələb edir. Həm də bir təşkilatda ediləcək işlərdə kimlərin səlahiyyətli olduğu və səlahiyyətlərinin sərhədləri də açıqca təyin olunmalıdır. Əgər bir təşkilatda fəaliyyətlər ən səlahiyyətlilərcə vəya onlar üçün edilisə burada məsuliyyət mexanizmlərindən danışmaq mümkün deyil. Halbuki müasir dövrdə fəaliyyət və demokratiya tələbləri daha az iyerarxik təşkilatlanma tələb edir. Müasir dövrdə beynəlxalq təşkilatlar, həyata keçirtdikləri fəaliyyətlərdə ancaq üzv dövlətlərə qarşı deyil, qeyri-hökumət təşkilatlarına, fərdlərə və digər dövlət xarici iştirakçılara qarşı da məsuliyyətə dəvət edir. Bu baxımdan qeyri-hökumət təşkilatları(NGO)çox millətli təşkilatları məsuliyyətləri ilə bağlı daim xəbərdar edirlər. Çox millətli təşkilatlar onları təsis edən üzvlərinə və dövlətlərinə qarşı məsuldurlar. Ədalətlilik (Fairness)- Aktiv(yaxşı) idarəçiliyin üçüncü əsas prinsipi ədalətlilikdir. Ədalətliliy prinsipinin iki əsas istiqaməti vardır; birincisi əməliyyati(operational), digəri isə təşkilati. Əməliyyat (operational) haqq-ədalətlə əlaqədar bir anlayışı tələb edir;

çıxarılan qanunlar və təyin olunan standartlar tərəfsiz və təxmin edilə bilər olmalıdır. Daha açıq bir ifadəylə qaydaların heç kimin lehinə olmamalı və tətbiqdə sürprizlərlə qarşılaşılmamalıdır. Hər kəs, əlaqədar təşkilatın həyata keçirəcəyi fəaliyyətdə tərəf saxlamayacağından və hər kəsə eyni şərtləri tətbiq edəcəyindən əmin olmalıdır. Əməliyyat düzgünlüyünün, yuxarıda göstərilən şəffaflıq və məsuliyyəti təmin və inkişaf etdirəcəyi istiqamətində təsir edəcəyi məlumdur. İkinci istiqamət isə təşkilati düzgünlükdür. Bir təşkilatın nəticələri (əməliyyat, qərar, xidmət və s) və təşkilat içindəki enerji paylanması, qarşılıqlı əlaqə və mənbələrin necə ədalətə uyğun olacağını ifadə edir. 1970-ci illərdə müzakirələr bərabərlik və ədalət anlayışları üstündə həyata keçirilirdi. Halbuki 1990-cı illərdən etibarən təşkilati haqq-ədalətin dəyişik istiqamətləriylə aktiv(yaxşı) idarəçilik arasında əlaqə qurulur. Dövlət idarəetməsinə yaxşı idarəetmənin nəzəri və metodoloji əsaslarının tətbiqi: Dövlət idarəetməsinin yaxşı idarəetmə əsasında idarə olunmasının ilkin şərti onların obyektlərinin dərk olunmasından, onun daxili asılığından və mexanizmdən asılı olaraq dövlət idarə etməsinin məqsədlərinə, strukturuna, texnologiyaya, prinsiplərinə uyğun qurulmuş elementlerinin nəzərə alınmasından ibarətdir. Dövlət idarə etməsinin obyektiv əsası kimi təbii coğrafi şəraiti qeyd etmək lazımdır. Hər bir xalq yer kürəsində müəyyən ərazidə yerləşir və bu ərazinin təbii şəraiti (relyef, torpaq, su və digər ehtiyatlar) insanlara istehsal fəaliyyəti texnologiyasını, ictimai həyat formasını diktə edir. Dövlət idarəçiliyinin ikinci obyektiv əsası təbiətlə uzun müddətli qarşılıqlı əlaqəsi nəticəsində formalaşmış təbii, ictimai şəraitdir. İnsanların coğrafi yerləşməsi, sahələrarası xüsusiyyətləri, şəhər və kəndin təssərrüfat texnologiyası, komnikasiya növləri, əmək və məişət, birgə yaranmış dəyərlər, adət və ənənələr və s. təbii ictimai şəraitin məhsulu kimi çıxış edir. Dövlət idarəetməsinin üçüncü obyektiv əsası subyektiv

amillər tərəfindən yaradılmış mədəni tarixi irsdən ibarətdir. Tarixi inkişafı keçirməzdən və tarixi inkişafın hər bir dövründə insanlar, insan birlikləri, dövlətin müəyyən dairəsində və müxtəlif fəaliyyət çərçivəsində mənimsəmə texnologiyasına malik olub. Bütün bunlar birlikdə real əmək məhsuldarlığının səviyyəsini müəyyən etmişdir. Dövlət idarəetməsinin obyektiv əsası olan təbii coğrafi, təbii ictimai və təbii mədəni şərait qarşılıqlı əlaqəli kompleks şəklində təsir göstərir. Dövlət idarəetmə nəzəriyyəsində subyektiv amil kimi məsuliyyətə malikdir. Burada dövlət idarəetməsi özü subyektiv amil kimi onun tərkib hissəsi formasında çıxış edir. Tarazlaşdırılmış inkişafın əsas amili kimi tələb olunur ki, dövlət müxtəlif vəsaitlərlə buna təsir göstərir. Tənzimləmə uzunmüddətli və qısamüddətli inkişaf mərhələsini asılılıq səviyyələri üzrə maraqları razılaşdırır, iqtisadiyyatın sahələrini idarə edir, müxtəlif sahələrin nisbətinə nəzarət edir, aktiv pul-kredit siyasəti, vergi siyasətini həyata keçirir, qiymət və xərclərə nəzarət edir. Təbii olaraq istehsalın art-ması üçün investisiyalar məşğulluğun üstünlüyü, vergilərin iştirakının stimullaşdırılması, büdcə kəsrinin hesaba alınmasını və dövlət sifarişlərinin həyata keçirilmə-si vasitəsilə istehsalın gücünü yüksəldir. Qeyd edək ki, dövlət idarəçiliyinin səmərəliliyinin qiymətləndirilməsi dövlət orqanları, həm də cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edir. Dövlət idarəçiliyinin səmərəliliyinin qiymətləndirilməsi cəmiyyətə dövlət institutlarının fəaliyyətinin keyfiyyətinə nəzarət etmək imkanı verir. Qiymətləndirmə dövlət orqanlarının rəhbərlərinə və qulluqçularına isə özünənəzarət və idarəetmə prosesinin təkmilləşdirmə imkanı verir. Səmərəliliyin qiymətləndirilməsi problemi dedikdə, idarəçilik fəaliyyətinin və qəbul olunan qərarların analizi başa düşülür. Səmərəli dövlət idarəçiliyinin meyarları subyektiv dəyərlər sistemi əsasında formalaşır. Qeyd edək ki, bu dəyərlər ictimai-dövlət quruluşunda,

siyasi kursda, idarəetmə sisteminin siyasi qaydalarında və normalarında əks olunurlar və milli dövlət maraqlarını ifadə edir. Əksər hallarda belə dəyərlər qismində həm də hakim siniflərin və ya üstün milli-etnik qrupların maraqları təqdim edilir. Dövlət idarəçiliyinin dəyərləri, məqsədləri, konsepsiyaları və prinsipləri, idarəetmə sisteminin normativ bazası və nəhayət, ictimai tələbatlar və maraqlar kimi dövlət idarəçiliyinin səmərəliliyinin meyarları ictimai-dövlət quruluşunun, siyasi rejimin və konkret şəraitin şərtləndirdiyi dəyişkən xarakterə malikdirlər. Nəticə: Beləliklə, məqalədə yaxşı idarəetmənin nəzəri metodoloji əsasları anlayışları, həmçinin dövlət idarəçilik nəzəriyyəsinin metodoloji əsasları nəzərdən keçirildi. Yaxşı dövlət idarəetməsinin prinsipləri, meyarları və amilləri təhlil edildi, dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsinin Avropa prinsipləri tədqiq olundu.Bundan əlavə, idarəetmə prosesində səmərəliliyin qiymətləndirlməsi və müasir Azərbaycanda idarəetmə islahatlarının əsas istiqamətləri, ölkəmizdə dövlət idarəetməsində səmərəlilik probleminin vəziyyəti, idarəetmə islahatlarının zəruriliyi, məqsədləri, vəzifələri və prioritet istiqamətləri təhlil edildi. Qeyd edək ki, iqtisadiyyatın səmərəlilik meyarı müxtəlif iqtisadi sistemlərdə müxtəlif cür qiymətləndirilir. Bazar iqtisadiyyatında səmərəlilik konsepsiyası bazarların resursları nə qədər yaxşı yerləşdirməsini qiymətləndirmə meyarı kimi istifadə olunur. Sonda aşağıdakı nəticələr əldə olundu:Yaxşı dövlət idarəetməsinin prinsiplərini problemi dövlət idarəetməsinin efektli fəaliyyətinin təmin edilməsinə təsir edən amillər və bu idarəetmənin qiymətləndirməsi meyarları vəhdətdə nəzərdən keçirilməlidir. Onları bir birindən ayırmaq və ayrılıqda təhlil etmək məqsəduyğun deyildir. Dövlət idarəetməsi prinsipləri [ümumsistem və struktur-funksional prinsiplər, xüsusi və təşkilati-texnoloji prinsiplərvə və s.] ölkədə demokratiklik

şəraitinin və demokratik qanunların mövcudluğu ilə şərtlənir. Ölkədə həyata keçirilən islahatlar yaxşı dövlət idarəetməsinə istiqamətlənməli və strateji məqsəd idarəetmə sisteminin təkmilləşdirilməsi olmalıdır. Yaxşı dövlət idarəçiliyinin Avropa prinsiplərinə nail olunması yalnız demokratik qanunların qəbul edilməsi ilə şərtlənmir. Burada ən əsas məqamlardan biri bu prinsiplərin fəaliyyət mexanizminin mövcud olmasıdır gələcəkdə «effektiv dövlət» anlayışına vətəndaş cəmiyyəti atributlarının da daxil edilməsi ən vacib məsələlərdəndir. Çünki yüksək vətəndaş cəmiyyəti quruculuğuna nail olan dövlət daha qüdrətli və ədalətli olur. Dövlət idarəetməsinin prinsiplərinin sistemləşdirilməsi üçün dövlət qulluğunun prinsipləri, idarəetmə heyəti ilə işin prinsipləri, dövlət idarəetməsinin informasiya təminatı prinsipləri, dövlət idarəetməsinin texnologiyalaşdırılması prinsipləri, inzibati proses prinsipləri və s. fərqləndirmək olar. Burada bir şeyi nəzərə almaq lazımdır ki, dövlət idarəetməsinin bu prinsipləri ümumsistem və struktur prinsiplərinə zidd olmamalı və dövlət idarəetməsinin tamlığının möhkəmləndirilməsinə xidmət etməlidir. Yeri gəlmişkən qeyd edək ki, müxtəlif ölkələrin dövlət idarəçiliyinin keyfiyyət göstəricilərinin və onların tədricən yaxşılaşmasının monitorinqi dövlət idarəçiliyi mexanizmlərinin təkmilləşdirilməsi sahəsində ən əsas məsələdir. Lakin bu, sadə məsələ deyil, belə ki, dövlət idarəçiliyi məsələlərinin bir çox aspektləri var və hər aspekt üzrə göstəricilərin ölçülməsi müəyyən çətinliklərlə bağlıdır. Beləliklə, dövlət idarəetməsinin əsas prinsipləri yalnız o zaman demokratik xarakterli ola bilər ki, ölkədə demokratik cəmiyyətin bərqərar olması təmin edilsin. Bu prinsiplərdən [ümumsistem və struktur-funksional prinsiplər, xüsusi və təşkilati-texnoloji prinsiplər və s.] hansılar daha önəmlidir sualını irəli sürmək absurddur. Demokrtik cəmiyyət üçün xarakterik olan bu prinsiplərə vəhdətdə əməl olunmalıdır və onlardan hər biri digərinin inkişafına mane olmamalı və onun

inkişafına təkan verməlidir. Yalnız belə olan halda bəşəriyyətin ən böyük dəyərlərindən olan əsl demokratik cəmiyyətə nail olmaq olar.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 1995.
2.M.Ə.Əliyev, H.İ.Həmidov, A.T.Hüseynli.Korporativ idarəetmə.Bakı 2011
3.Axundov M.Ə. Müəsissənin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2002
4.Azərbaycan Korporativ İdarəetmə Layihəsi, Beynəlxalq Maliyyə Korporasiyası,2006.
5.Azərbaycan Mərkəzi Bankı, Korporativ İdarəetmə Standartları, 2005. Azərbaycan Korporativ İdarəetmə Layihəsi, Beynəlxalq Maliyyə Korporasiyası 2121 Pennsillvaniya prospekti, Vaşinqton N.V., D.C. 20433, ABŞ, Dünya Bankı Qrupu
6.S.H.Abasova - "Korporativ idarəetmə" fənni üzrə mühazirələr toplusu, 2008.
7. Azərbaycanın statistik göstəriciləri. 2010. Bakı, Dövlət Statistika Komitəsi, 2010.
8.M.Ə.Əliyev- «Korporativ mədəniyyətin mahiyyəti, xüsusiyyətləri və əsas tərkib elementləri» Sahibkarlıq və elm (rüblük - elmi praktiki jurnal) Bakı 2009 №3.
9.İsrafilov H.A. İnkişaf edən kooperasiya və dərinləşən istehlak bazarı. // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrfatının İqitisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri. Azərbaycan Respublikası Kənd Təsərüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Bakı: 2007, s.36-43
10. Sabit BağÍrov "Sahibkarların Bazar İqtisadiyyatının formalaşmasına yardım fondu"

11.M.Ə.Əliyev,H.İ.Həmidov-"Beynəlmiləl korporativ mədəniyyət mümkündürmü?" Sahibkarlıq və elm (rüblük - elmi praktiki jurnal) Bakı 2010 №5.
12 H.Həsənov - İri sahibkarlıq strukturları, Bakı -2007.
13. İsrafilov H.A. İnkişaf edən kooperasiya və dərinləşən istehlak bazarı. Bakı: 2007 82
14. Azərbaycan Respublikasının Milli Məclisinin qanun və qərarlar toplusu. Bakı: 1991-2008-ci illər.
15. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin rəsmi internet səhifəsi.http://www.economy.gov.az

Nurlan NƏSİRLİ
Azərbaycan Turizm və Menecment Universiteti, magistr

AZƏRBAYCAN BİZNES MÜHİTİ VƏ ONUN PRİORİTET İSTİQAMƏTLƏRİ

АЗЕРБАЙДЖАНСКАЯ БИЗНЕС-СРЕДА И ЕЕ ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ

AZERBAIJAN BUSINESS ENVIRONMENT AND ITS PRIORITY DIRECTIONS

Açar sözlər: biznes, biznes mühiti, sahibkarlıq, dövlət maliyyəsi, müəssisə maliyyəsi, valyuta, infrasturktur, vergi, rüsum.

Ключевые слова: бизнес, бизнес-среда, предпринимательство, государственные финансы, бизнес финансы, валюта, инфраструктура, налог, пошлина.

Keywords: business, business environment, entrepreneurship, public finance, business finance, currency, infrastructure, tax, duty.

Xülasə: Məqalədə Azərbaycanda biznes mühiti, onuntəkmilləşdirilməsi və inkişafı barədə görülən işlər və gələcəkdə görüləcək tədbirlər haqqında məlumat və təkliflər verilmişdir**.**

Резюме: В статье приводятся информация и предложения о деловой среде, ее улучшении и развитии в Азербайджане и о будущих мерах, которые необходимо принять.

Abstract: The article provides information and suggestions on the business environment, its improvement and development in Azerbaijan and on future measures to be taken.

"Gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıda gələn illərdə daha da güclü olacaq". Prezident İlham Əliyev bu sözləri uğurlu siyasətin nəticəsi, milli iqtisadiyyatın perspektivi olan "Strateji Yol Xəritəsi" adlı İqtisadi inkişaf planın açılışında demişdir. Bu sözlər dissertasiya işinin aktuallığı üçün zəngin bir sitatdır. Ölkədə sahibkarlığın inkişafı, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması və əlverişliliyinin daha da artırılması, bu sahədə mütərəqqi tənzimləmə və hüquqi bazanın olması ən vacib məsələlərdir. Biznes konkret cəmiyyətdə yaşayan insanların tələbatım ödəmək üçün həyata keçirilir. Bu cəmiyyət həmin insanların əsas baxışlarını, dəyərlərini və əxlaq normalarını formalaşdırır. Bu reallıqlara əhəmiyyət verməmək mümkün deyil. Ona görə də biznesdə müvəffəqiyyət və ya uğursuzluq müəssisənin

fəaliyyətində bu amillərin nə dərəcədə nəzərə alınmasındm bilavasitə asılıdır. Müəssisə insanları işə qəbul edir, insanlara mal satır, onlardan mal alır, insanlar tərə-findən idarə olunur və insanlara məxsusdur. Buna görə transmilli şirkət insan qrupları və ya birlikləri arasında fərqləri nəzərə almatı, onların münasibətlərini və hərəkətlərini nəzarətdə saxlamalıdır. Xaricdə fəaliyyətə başlayacaq şirkət başqa ölkədə adi işgüzar fəaliyyətin öz ölkəsində qazanılan təcrübədən və ya rəhbərliyin görmək istədiyi idealdan nələrlə fərqləndiyini təyin etməlidir Fərqlər varsa, beynəlxalq əməliyyatların rəhbərləri öz fəaliyyətlərini əlaqələn-dirməlidirlər. Bəzi fərqlər, məsələn geyim fərqləri zahirən göründüyü halda, digerlərini ayırd etmək daha çətindir. Məsələn, bütün insanlar müəyyən hallarda öz mədəniyyətlərində kök salmış tərzdə reaksiya verirlər və adətən başqa mədəniyyətlərin təmsilçilərindən də eyni reaksiya gözləyirlər. Həmçinin eyni səviyyədə mövqe və ya vəzifə tutan insanlar da onların vəzifə və ya imtiyazlarının eyni olacağını düşünürlər. Mədəniyyət sahəsində belə gümanlar özünü doğrultmaya bilər. Əlbəttə, doğma ölkənin və başqa ölkənin mədəni normalanndakı bütün fərqləri öyrənmək mümkün deyil, lakin rəhbərlər biznes üçün daha çox problem yaradacaq mədəni sahələri ayırd edə və davranışdakı bəzi incəliklərə daha yaxşı hazırlana bilərlər. Beynəlxalq biznes beynəlxalq iqtisadi münasibətlərin idarə edilməsi mexanizminin mühüm elementlərindən biridir, yəni müxtəlif ölkələr arasında beynəlxalq əmək bölgüsü əsasında qurulan və reallaşdırılan obyektyiv dayanaqlı münasibətlərdir. Beynəlxalq iqti-sadi münasibətlər ölkələr arasında mallann, elmi-texniki biliklərin, xidmətlərin və iqtisadi-texniki əməkdaşlığın nəticələrinin tədavülü formasında təzahür edirlər. Beynəlxalq biznesə iki və daha çox ölkələr tərəfindən həyata keçirilən istənilən təsərrüfat əməliyyatları aiddir. Bu cür qarşılıqlı münasibətlər həm özəl şirkətlər və həm də dövlət təşkilatları

səviyyəsində baş verə bilər. Beynəlxalq biznesdə özəl şirkətlər əsasən mənfəət əldə etmək məqsədilə təsərrüfat əməliyyatları apanrlar. Şirkət özünün beynəlxalq məqsədlərindən hər hansı birinə nail olmaq üçün xarici ticarət əməliyyatlarının yerinə yetirilməsi formasını müəyyənləşdirməlidir, çünki onlardan bəziləri ölkə daxilində apanian ticarət əməliyyatlanndan əhəmiyyətli dərəcədə fərqlənə bilər. Xarici ticarət əməliyyata-rmın aparılması formasını seçərkən təkcə biznesin qarşısında duran məqsədi deyil, həm də xarici mühitin təsirini nəzərə almaq lazımdır. Xarici mühit həmçinin biznesin marketinq funksiyasım müəyyənləşdirən vasitələrin seçilməsinə təsir edir. Lakin bununla belə beynəlxalq səviyyədə təsərrüfat əməliyyatları yerinə yetirən şirkətlər işgüzar mühitə, demək olar ki, təsir etmirlər. Beynəlxalq biznesin istehsal və elmi-texniki əməkdaşlıq sahəsini xüsusi qeyd etmək lazımdır. Bu cür əməkdaşlıq müəyyən təşkilati-idarəetmə fəaliyyətinin nəticəsi kimi çıxış edir və əsas məqsədi istehsalın ixtisaslaşdmiması və kooperasiyası haqqında; obyektlərin birgə inşası və istismarının təşkili haqqında; elmi-tədqiqatların birgə yerinə yetirilməsi haqqında ticarət sazişlərini bağlamaqdır. Həmin sazişlər dünya təsərrüfat sistemində istehsal və elmi-texniki əlaqələrin öyrənilməsi zamanı nəzərə alınmalıdır. Beynəlxalq biznes fəaliyyəti aşağıdakı məsələlərin ardıcıl həllini tələb edir:

- beynəlxalq ticarətin yeni fomna və metodlarının öyrənilməsi;
- kommersiya əməliyyatlarının apaniması haqqında müqavilələrin hazırlanması və bağlanması;
- ticarət-vasitəçilik strukturunun funksiyası və dünya bazarında kommersiya əməliyyatlarının həyata keçirilməsində onun rolu;
- beynəlxalq əmtəə birjalannda, hərraclarda, yarmarkalarda və sərgilərdə əməliyyatiann təşkili;
- elmi-texniki biliklərin və xidmətlərin beynəlxalq ticarətinin təşkili;

- xarici şirkətlərlə beynəlxalq istehsai-texniki əlaqələrin qurulması;
- dövlətin anti-inhisar tənzimlənməsinin forma və vasitələri

Resursların əldə edilməsi, istehsalçı firmalar və distribyutorlar zəruri malları və xidmətləri, həmçinin yarımfabrikatları, komplektləşdirici məmulatları və son məhsulu çox vaxt başqa ölkələrdə axtarıb tapmaq məcburiyyətində qalırlar. Bir sıra hallarda onlar bunu xərclərini azaltmaq, yaxud öz ölkəsində alınması mümkün olmayan unikal mal və xidmətlər əldə etmək məqsədilə edirlər. Diversifikasiva. Adətən şirkətlər məhsul satışının həcmində və mənfəətin səviyyə-sində kəskin kənarlaşmalara yol verməməyi üstün tutur və kommersiya əməliyyatları üçün münasib xarici bazarlar axtarırlar. Bİr ölkənin iqtisadiyyatında geriləmə başlayan zaman məhsul satışının həcmi azalır, iqtisadi inkişaf mərhələsində olan digər ölkədə isə bu göstərici artır. Son nəticədə müxtəlif ölkələrdə istənilən əmtəəni və onun komponent-lərini əldə etmək üçün firma bazar taparaq hər hansı konkret ölkə qiymət kənarlaşmasından və defisitddən dəyən ziyanı azalda bilər. Firma beynəlxalq iqtisadi fəaliyyətə heç də ixrac-idxal əməliyyatlarından başlamaq istəmir. Çünki, beynəlxalq biznes fəaliyyəti ilə məşğul olarkən firma ük növbədə özünün qarşısında duran minimum vəzifəsinin yerinə yetirilməsini və resurslar üçün ən aşağı riski nəzərdə tutur. Məsələn, firma özünün mövcud istehsal güclərini genişləndirmək yolu ilə məhsul ixracatını artıra bilər kİ, bu da minimum kapital qoyuluşu hesabına başa gələr. Belə olan halda ixrac-idxal əməliyyatlannı yerinə yetirən ticarət vasitəçilərinin xidmətindən istifadəyə ehtiyac qalmır. Xidmətlərin İxracı və idxalı əmtəənin ixracı və idxalı ilə müqayisədə firma üçün xa-ricdən alınan gətirlərin əla mənbəyi hesab edilir. Bu cür gəlirlərin alınmasına xidmətlərin ixracatı kimi, onlara görə verilən haqqa isə xidmətlərin idxalı kimi baxılır. Beynəlxalq biznesdə müxtəlif növ

xidmətlərdən istifadə olunur: səyahət, turizm və nəqliyyat; xaricdə fəaliyyətin həyata keçirilməsi; xaricdə yerləşən aktivlərdən istifadə edilməsi. Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil olmuş və dünyanın bir sıra ölkələri ilə sərbəst şəkildə geniş miqyaslı iqtisadi əlaqələr qurmuşdur. Beynəlxalq iqtisadi əlaqələr sistemində Azərbaycanın yerini müəyyənləşdirərkən onun tarixi inkişaf təcrübəsi, resurs potensialı, geosiyasi vəziyyəti və s. amillər əsas götürülür. Azəıbayca-nın beynəlxalq əmək bölgüsündə iştirakı strategiyasını hazırlayarkən iqtisadiyyatın priori-tet sahələrinin üstün sürətlə inkişaf etdirilməsi və daxili bazarın zərərli xarici təsirlərdən qorunması nəzərə alınmalıdır. Qloballaşdırma şəraitində beynəlxalq İqtisadi əlaqələrin inkişafı ölkənin daxİlİ bazarının təşəkkülü və tarazlı inkişafının zəruri amilinə çevrilmişdir. Ölkəmizda hal-hazırda biznes mühitinin formalaşması və inkişafı üçün bir sıra tədbirlər görülür və daha da güclü azad rəqabət formalaşdırmaq üçün aşağıdakı tədbirlərin görülməsi planlaşdırılır:

Görüləcək tədbirlər Tədbirlər : Azad rəqabət mühitinin inkişaf etdirilməsi Özəl sektorun inkişafını dəstəkləyən əlverişli biznes mühitini təmin etmək üçün Azərbaycanda rəqabətə şərait yaradan mühüm islahatlar həyata keçirilmişdir. Maliyyə sektoru və real sektor arasında tarazlıq nöqtəsinin müəyyən edilməsi probleminin həlli Azərbaycanda rəqabət mühitinin daha da təkmilləşdirilməsi yolu ilə mümkündür. Belə ki, yalnız tam rəqabət şəraitində iqtisadiyyata stimul verməklə yerli məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyini artırmaq olar. Rəqabət mühitinin təkmilləşdirilməsi sağlam və tam təkmil rəqabət qanunvericiliyinin olmasını, bu qanunvericiliyin effektiv və müstəqil fəaliyyət göstərən rəqabət qurumu tərəfindən tətbiqini və ümumilikdə rəqabət prinsiplərinə əməl edən, rəqabətin inkişafındakı əngəlləri aradan qaldıran və inhisarçılığa yol

verməyən iqtisadi siyasətin gerçəkləşdirilməsini tələb edir. Rəqabət qanunvericiliyinin pozulması hallarının ilkin araşdırılması və aşkar edilmiş qanun pozuntuları ilə bağlı qərarların qəbul edilməsi iki fərqli fəaliyyət istiqaməti olduğundan onların müvafiq ixtisaslaşması tələb olunur. Bu baxımdan, qabaqcıl xarici (ABŞ, Avstriya, Latviya, Litva, Macarıstan, Çexiya və s.) təcrübəyə uyğun olaraq Azərbaycanda müstəqil fəaliyyət göstərən rəqabət orqanının yaradılması nəzərdən keçiriləcək və beynəlxalq təcrübəyə uyğun Rəqabət Məcəlləsi qəbul ediləcəkdir. Hazırda qlobal və regional miqyasda investisiyaların cəlb edilməsi istiqamətində rəqabət güclənir və biznesin təşviqi mexanizmləri təkmilləşdirilir. Bu sahədə aparılan islahatlar sürətləndirilməklə, regional miqyasda investisiyaların cəlb edilməsi istiqamətində ölkənin daha əlverişli mövqeyə çıxarılması planlaşdırılır. Belə ki, daha çox investisiya cəlb etməklə həm tədiyə balansındakı gərginlik aradan qaldırılacaq, həm də getdikcə optimallaşan dövlət investisiyaları özəl sərmayələrlə əvəzlənərək, dayanıqlı iqtisadi inkişaf təmin ediləcəkdir. Xüsusilə də xarici investisiyaların cəlbi Azərbaycanın qlobal və regional miqyasda dəyər zəncirinə daha dərindən qoşulması üçün zəmin yaradacaqdır. Azərbaycanda kiçik və orta sahibkarlığın (bundan sonra – KOS) inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır. Yenə də bu fikirlə bağlı qəbul olunan strateji yol xəritəsinə nəzər salaq. 2016-ci ilin iyul ayında prezidentin

fərmanı ilə kiçik və orta sahibkarlara kömək fondunun işinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalşması intensivləşdirilmişdir. Ölkədə məşğulluğun təmin edilməsi, qeyri-neft ixracının artırılması, biznes mühitinin inkişafı kimi strateji məsələlərdə sahibkarların rolunun yüksəldilməsinə, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 aprel tarixli 1988 nömrəli Sərəncamı ilə aprel ayının 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilmişdir. Eyni zamanda, sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılması, dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması və s. işlər həyata keçirilmişdir. Azərbaycanda biznes mühiti daha da yaxşılaşdırılmış və ölkə Dünya Bankının "Doing Business 2017" hesabatında bəzi

göstəriciləri üzrə (məsələn, biznesə başlama, əmlakın qeydiyyatı) yüksək nəticə əldə etmişdir. Beynəlxalq təcrübəyə uyğun elektron hökumət portalının yaradılması ilə dövlət xidmətləri daha da 294 genişləndirilmişdir. KOS üçün innovasiya çərçivəsi həm infrastruktur (məsələn, sənaye parkları, texnologiya parkları və biznes inkubatorları), həm də maliyyə dəstəyi (informasiya və kommunikasiya texnologiyaları (IKT) sektoru üçün xüsusi fondun yaradılması) vasitəsilə yaxşılaşdırılmışdır. Həmçinin ölkədə KOS subyektlərinin inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli "Iri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi haqqında" qərarı ilə KOS subyektlərinin meyarları müəyyənləşdirilmişdir. Meyarlara uyğun olaraq 2015-ci il üzrə qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin 1 faizi iri, 2 faizi orta, 97 faizi isə kiçik sahibkarlardır. Azərbaycanda KOS-un və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır. Regionda və dünyada iqtisadi sahədə gedən proseslər KOS subyektlərinin sahibkarlıq subyektləri ilə kooperasiyasının dərinləşdirilməsini və dövlət dəstəyinin artırılmasını bir daha önə çəkir. Belə ki, iqtisadiyyatın şaxələndirilməsi məqsədilə KOS subyektlərinin potensialının tam gerçəkləşdirilməsi üçün bu sahədə bir sıra dəyişikliklərin edilməsi zərurəti vardır. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müəyyən qədər irəliləyişlər olsa da, hələ də bəzi təkmilləşdirmələr edilməlidir. Belə ki, özəl kredit

bürosu, daşınar əmlakın yüklülüyü reyestri və təminatlı əqdlərin tənzimlənməsi kimi məsələlər üzrə qanunvericilik bazası təkmilləşdirilməlidir.

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə resurslarına və beynəlxalq bazarlara çıxış imkanlarının artırılması, eləcə də innovativ yanaşmanın bütün əlaqəli sahələrdə tətbiqi KOS subyektlərinin inkişafı üçün əlverişli şərait yaradacaqdır ki, bununla da Azərbaycanda KOS subyektlərinin qeyri-neft sektorundakı payı və yüksək gəlir gətirən sektorlarda məşğulluq imkanları artacaqdır. 2025-ci ilədək olan dövrdə KOS-un gücləndirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı daha da artacaqdır ki, bunun da nəticəsində ölkədə rəqabət mühiti tam təmin olunacaq və beləliklə, Azərbaycan həm yerli, həm də xarici investorlar üçün dünyanın ən əlverişli ölkələrindən birinə çevriləcəkdir. Mövcud təşəbbüslər əsasında kiçik və orta sahibkarların maliyyə mənbələrinə daha asan çıxışının təmin edilməsi üçün müvafiq fəaliyyət həyata keçiriləcəkdir. Vençur maliyyə formasında yerli investisiyalar stimullaşdırılacaq və birbaşa xarici investisiyaların (BXI) KOS subyektlərinin fəaliyyət göstərdiyi sektorlara cəlb edilməsi üçün mexanizmlər təkmilləşdiriləcəkdir. Kredit zəmanət fondunun və özəl kredit bürolarının yaradılması nəticəsində yerli və xarici banklar tərəfindən KOS subyektləri üçün nəzərdə tutulan maliyyə xidmətlərinin və kredit resurslarının artırılmasına nail olunacaq, ən səmərəli maliyyə əlçatanlığı təcrübələrinin ölkədə tətbiqi təmin ediləcəkdir. Bu yolla Azərbaycanda özəl maliyyə institutları və investorlar tərəfindən maliyyələşdirilən yeni KOS subyektlərinin yaradılması planlaşdırılır ki, bu da strateji planlara uyğun olaraq, dəyər zənciri üzrə yüksək gəlir gətirən sektorların inkişafına təkan verəcəkdir.Bu sahədə hal-hazırda ölkəmizdə görülən işlər təqdirəlayiqdir!

ƏDƏBİYYAT

1. Alıcan Bayramalı oğlu Abbasov : Biznesin təşkili və idarə edilməsi
2. Strateji Yol Xəritəsi
3. Sahibkarlıq haqqında qanun
4. R.Ə.Abbasova : Biznes mühitinin təkmilləşdirilməsi
5. www.kayzen.ru
6. www.president.az

Ramilə HÜSEYNOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistr

AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI DÖVRÜNDƏ İDARƏETMƏDƏ MULTİKULTURAL DƏYƏRLƏR

МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ В УПРАВЛЕНИИ В ПЕРИОД АЗЕРБАЙДЖАСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

MULTICULTURAL VALUES IN MANAGEMENT DURING THE PERIOD OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Açar sözlər: “multikulturalizm” termini, etnik müxtəlifliklər, alman koloniyaları, rus məktəbləri, dini müəssisələr.

Ключевые слова: термин «мультикультурализм», этническое разнообразие, немецкие колони, русские школы, религиозные учреждения.

Keywords: term “multiculturalism”, ethnic differences, the german colonies, russian schools, religious institutions.

Xülasə: Məqalədə “multikulturalizm” termini, Azərbaycan Demokratik Respublikası dövründəki etnik müxtəliflikl ər haqqında məlumat verilmişdir. Müəllif, xüsusilə ADR dövründəki multikultural dəyərləri araşdırmaqla bərabər, elmi-mədəni konsepsiyalara da nəzər salmışdır. Məqalədə ADR dövründəki alman koloniyaları, rus məktəbləri, erməni xalq məktəbləri, dini müəssisələr haqqında yığcam məlumat verilməklə yanaşı, bu sahədə mövcud olan tədqiqat işləri də qeyd olunmuşdur.

Резюме: "Мультикультурализм", этническое различие в период Азербайджанской Демократической Республики была предоставлена информация о термине в статье. Автор, в частности, исследовал мультикультурные ценности АДр, а также исследовал научные и культурные концепции. В статье немецкие колонии в период АДР, русские школы, армянские народные школы, предприятия краткая информация о религиозной, наряду с исследовательскими работами было отмечено и имеющиеся в этой области.

Abstract: The article provides information about ethnic diversity in terms of "multiculturalism", the period of the Azerbaijani Democratic Republic. The author, especially in the period of ADR multikultural values, scientific-cultural research was also looking into the concept. The article also provides a brief overview of the ADR german colonies, russian schools, armanian public schools, religious institutions, as well as researches in this field.

Giriş. Multikulturalizm XX əsrdə həyata keçirilən etnik-mədəni siyasətin spesifik modelidir. Multikulturalizm dünyada və ya hər hansı dövlətdə mədəni müxtəliflikl ərin qorunub saxlanılmasına və inkişafına yönəlmiş nəzəriyyə, siyasətdir. Onun ən mühüm özəlliyi assimilyasiyaya qarşı olmasıdır.

"Multikulturalizm" termini elmi ədəbiyyata təxminən XX əsrin 60-70-ci illərində daxil olmuşdur. Multikulturalizm terminini geniş və dar mənalarda işlətmək olar. Sözün geniş mənasında multikulturalizm termini onun etimologiyasından çıxış edərək və çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi istifadə edilir. Məlum olduğu kimi, multikulturalizm sözü latıncadan tərcümədə "çoxmədəniyyətlilik" mənasını verir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəliflikər və bu müxtəliflikərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Buna görə də sözün geniş mənasında müasir dövrdə əksər dövlətlər multikulturaldır. Sözün dar mənasında isə multikulturalizm məhfumu cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəliflikərə münasibətdə dövlətlərin apardığı konkret siyasəti, yəni müxtəliflikərin qorunmasını əks edir.

Azərbaycan Demokratik Respublikası dövründə etnik, mədəni müxtəliflik

Azərbaycanda etnik, mədəni müxtəliflik çoxəsrlik ənənəyə, tolerant birgəyaşayışa və inkişafın müsbət təcrübəsinə malikdir. Etnik müxtəlifliyin özü ölkənin sərvəti, demokratik və stabil inkişaf resursudur. Azərbaycana dilindən və dinindən asılı olmayaraq maraq göstərən xalqların, millətlərin sayı çoxaldıqca, onun ərazisinə köçüb gələnlərin və onunla öz taleyini əbədi qovuşduranların da sayı artmağa başlamışdır. Azərbaycan Demokratik Respublikası dövründə də Azərbaycan xalqının tolerantlıq ənənələri inkişaf etdirilmiş, ölkənin etnik müxtəlifliyi qorunub saxlanılmış, milli-etnik məsələlərin azərbaycançılıq kontekstində formalaşması və təkamülünə daima diqqət yetirilmişdir. Belə ki, 1918-ci il 28 may tarixində Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və Müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Demokratik Respublikasının altı maddədən ibarət olan "İstiqlal Bəyannaməsinin" IV və V maddələrində

multikultural və tolerant dəyərlər tərənnüm edilmişdir. Bu bəyannamədə rəsmi şəkildə bunlar qeyd olunmuşdur:“IV. Maddə: Azərbaycan Xalq Cümhuriyyəti millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına tam vətəndaşlıq hüququ və siyasi hüquqlar verir.V. Maddə: Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradacaq”.

Beləliklə, İstiqlal Bəyannaməsi Şərqi və Cənubi Zaqafqaziyanın Azərbaycan torpaqları olduğunu, ADR-nin qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri qurmaq istəyəni, Azərbaycan daxilində yaşayan etnik azlıqların özlərini azad şəkildə ifadə edə bilmələri üçün geniş imkanların açıldığını təsbit etdi: “Azərbaycan qonşu ölkələrlə münasibətlərini bir sıra çətinlikləri aşaraq qurmalı idi. Ən çətin problem sərhədlərlə bağlı idi. Bu problem çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsindən qaynaqlanırdı”.

ADR hökumətinin sosial-mədəni sahədə fəaliyyəti ölkənin çoxmillətli əhalisi ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilirdi. Etnik azlıqların mədəni-maarif ehtiyaclarının ödənilməsi üçün müxtəlif imkanlardan, o cümlədən dövlət xərcləri, ictimai təşkilatların və xeyriyyəçilik cəmiyyətlərinin qüvvəllərindən istifadə olunurdu. ADR-nin ifrat millətçilik mövqeyində deyil, məhz mütərəqqi azərbaycançılıq mövqeyində durduğunu sübut edən başqa bir nüans o idi ki, ilk parlamentimizin tərkibində digər millətlərin nümayəndələri də fəal iştirak edirdilər. Belə ki, dövlətin qanunverici orqanının tərkibi formalaşdırılarkən ölkənin sosial-siyasi həyatında xidməti olan etnik qrup və xalqlara, eyni zamanda Rusiya imperiyası dövründə əhalinin etno-konfessional tərkibində müəyyən say əldə edə bilmiş rus və ermənilərə də yer ayrılmışdı. Parlamentdə nəzərdə tutulan 120 deputat yerindən 80-

i müsəlmanlara, 21-i ermənilərə, 10-u Bakı Rus Milli Şurasına,1-i Alman Milli Təşkilatına, 1-i Yəhudi Milli Şurasına, 1-i Gürcü Milli Şurasına, 1-i Polyak Milli Komitəsinə verilmişdi.Qeyri-müsəlman xalqların tarixinə və mədəniyyətinə hörmətlə yanaşan ADR hökuməti multikultural mühitin formalaşmasının demokratiyanın inkişafına müsbət təsir edəcəyini nəzərə alaraq, ölkədə alman koloniyalarının salınmasının 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi üçün şərait yaratmış və bu yubiley 1919-cu il iyunun 9-da Yelenendorf koloniyasında keçirilmişdi. Bundan başqa, həmin dövrdə yenicə yaranmış Bakı Dövlət Universitetinə yüksək ixtisaslı 6 nəfər alman müəllimi işə götürülmüşdü. Universitetə və başqa tədris müəssisələrinə alman uşaqlarının qəbul edilməsi üçün güzəştlər qoyulmuşdu. ADR dövründə müxtəlif dinlərin nümayəndələrinin rəsmi fəaliyyət göstərən dini konfessiyalarının, etnik azlıqların və müxtəlif ictimai birliklərın multikultural dəyərlər əsasında fəaliyyətləri üçün bütün şərait yaradılmışdı. Milli-dini bayramlar münasibəti ilə Cümhuriyyət ərazisində yaşayan ayrı-ayrı xalqlar üçün qeyri-iş günlərinin elan edilməsi ənənəvi hal almışdı. Qeyd olunduğu kimi, Azərbaycan hökumətinin bütün sahələrdə, xüsusilə sosial-mədəni sahədə fəaliyyəti və təşəbbüsləri respublikanın çoxmillətli əhalisi ilə sıx qarşılıqlı əlaqə və münasibətlər şəraitində həyata keçirilirdi.

ADR hökuməti respublikada yaşayan qeyri-türk millətlərin mədəni tələbatlarının ödənilməsinə daim diqqət göstərirdi. 1918-ci ilin dekabrında Azərbaycan parlamentinin iclasında hökumətin bəyanatında elan edilmişdi ki, "biz özümüzə arzu etmədiyimiz vəziyyəti digər millətlərə də arzu etmərik. Hamının ana dilində oxumağa tam hüququ vardır".

Qeyd edək ki, bu bəyanatın yalnız sözdən ibarət olmadığını hətta velikorus şovinizmi mövqelərində dayanan milli cəmiyyətlər və onların mətbu orqanları da etiraf etməyə məcbur

olmuşdular. Belə ki, Rus Milli Şurasının baxışlarını əks etdirən "Единая Россия" qəzeti yazırdı ki, "Azərbaycan hökuməti tədricən millətləri barışdırmaq yoluna keçir". General A.İ.Denikin də etiraf edirdi ki, Azərbaycanda rus ünsürü təqiblərə məruz qalmırdı. Hökumət iş yeri və maaşı olanları yaşayış mənbələrindən məhrum etmirdi. Cümhuriyyət ərazisində yaşayan etnik azlıqlar öz mədəni-maarif cəmiyyətləri ilə təmsil olunurdular. Bakı Rus Xeyriyyə Cəmiyəti, "Serafim" Komitəsi, Baki Erməni Mədəni İttifaqi, "Miutyun" Erməni Şagird İttifaqı, Bakı Gürcü Milli Şurası, yəhudilərə, polyaklara və almanlara məxsus cəmiyyətlər sərbəst şəkildə fəaliyyət göstərirdilər. Onların bir çoxu yeni yaradılmışdı. Rus, erməni, yəhudi milli şuraları başqa məsələlərlə yanaşı, mədəni maarif problemləri ilə də məşğul olurdular. Etnik azlıqların mədəni-maarif ehtiyaclarını ödəmək üçün müxtəlif yollardan, o cümlədən dövlət xəzinəsindən ayırmalar, ictimai təşkilatların və xeyriyyə cəmiyətlərinin imkanlarından istifadə edilirdi. Rus Milli Şurasına, onun Azərbaycan dövlətçiliyinə mənfi münasibətinə baxmayaraq, məktəblər açılması, dərsliklər alınması və başqa xərclər üçün 500.000 rubl məbləğində vəsait ayrılmışdı.

1918-ci ilin noyabrında Bakı Rus Xeyriyyə Cəmiyyətinin xahişinə cavab olaraq, Maarif Nazirliyi sahibsiz uşaqların oxuduğu 140 nəfərlik məktəbi öz himayəsinə götürmüş, onun saxlanması üçün bütün xərcləri Nazirliyin smetasına daxil etmişdi. Bu məktəbə Nazirlik tərəfindən əlavə yardım 1919-cu ildə də davam etdirilmişdi. Milliləşdirilmiş Müqəddəs Nina və Müqəddəs Mariya məktəblərində tədris rus dilində olmaqla, kiçik və böyük hazırlıq sinifləri və birinci sinif açılmışdı. Azərbaycanda yaşayan rus əhalisinin sosial-mədəni ehtiyaclarının ödənməsində Slavyan-Rus Cəmiyyəti və onun parlamentdə nümayəndəliyi mühüm rol oynayaraq, bu məsələlərdə hökumətlə əməkdaşlıq edirdi. Lənkəranda rusdilli

əhalinin mədəni-maarif ehtiyaclarının ödənməsində general-qubernator Cavad bəy Məlik-Yeqanov mühüm rol oynamış və onun səmimi hörmətini qazanmışdı. Təsadüfi deyil ki, C.Məlik-Yeqanov vəzifəsindən azad edildikdə Lənkəran Rus Milli Şurası hökumət başçısına müraciət edərək, onun bu vəzifədə saxlanmasını xahiş etmişdi. Yəhudi Milli Şurası və mədəni-milli, dini təşkilatları da öz fəaliyyətini azad surətdə davam etdirirdilər. Bakıda yəhudilərə məxsus dörd xalq məktəbi var idi. Bunlar vaxtilə Çar Rusiyasının maarif sisteminə daxil edilmələrinə baxmayaraq, nə çar hökuməti, nə də şəhər idarəsi bu məktəblərə vəsait ayırmışdı. Bu tədris müəssisələri vəsait çatışmazlığı üzündən bağlanmaq təhlükəsi qarşısında qalmışdılar. Bununla əlaqədar olaraq, Yəhudi Milli Şurasının sədri M.A.Quxman onların hökumət tərəfindən maliyyələşdirilməsi haqqında məsələ qaldırmışdı. Maarif Nazirliyi isə öz növbəsində hər ay Yəhudi Milli Şurasına dövlət xəzinəsindən 10 min rubl vəsait ayrılması haqqında qanun layihəsini parlamentin təsdiqinə vermişdi. Nazirlər Şurası 1919-cu il 10 mart tarixli iclasında yəhudi məktəblərinə birdəfəlik maddi yardım kimi 25 min rubl ayrılması haqqında qərar qəbul etmişdi. Yəhudi məktəblərinə yardım məsələsi sonralar da hökumət səviyyəsində həll edilmişdi.Ermənilərə məxsus tədris müəssisələri də dövlət tərəfindən maliyyələşdirilirdi. Qarabağın dağlıq hissəsində çoxlu sayda erməni məktəblərinin olmasını nəzərə alaraq, 1919-cu ilin sentyabrında Qarabağın erməni müəllimlərinə verilmək üçün Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatorunun sərəncamına bir milyon rubl vəsait ayrılmışdı. Əhalinin ehtiyacları ilə daha yaxından tanış olmaq üçün 1919-cu il oktyabrın 1-dən Dağlıq Qarabağın erməni məktəbləri xüsusi müfəttişliyə ayrılmış və Qarabağ haqqında müvəqqəti sazişə uyğun olaraq, erməni P.N.Şahnəzərov müfəttiş vəzifəsinə təyin edilmişdi. Oktyabr ayında Nazirlər Şurasının

tapşırığı ilə Qarabağ ermənilərinin mədəni cəhətdən öz müqəddəratını təyin etməsi haqqında əsasnamə işlənib hazırlanmışdı.Qarabağ ermənilərinin Milli Şurası muxtar şəkildə ermənilərin mədəni cəhətdən öz müqəddəratını təyin etməsi işinə rəhbərlik edirdi. Şura məktəb işinə, məktəbdənkənar təhsilə, mədəni-maarif müəssisələrinə görə məsul idi. Milli Şura hər cür tipdən olan ibtidai, orta və ali məktəblər açmaq hüququna malik idi. Bütün mövcud və açılmalı olan erməni məktəblərinin saxlanmasını ümumi hökumət normaları üzrə ADR öz üzərinə götürürdü. Qarabağın müəllim korporasiyası vaxtaşırı öz qurultaylarını çağırır, burada məktəb işinə aid olan məsələləri həll edirdi. Erməni Milli Şurası xalq universitetləri, savadsızlar üçün kurslar, muzeylər açа, savadyayma cəmiyyətləri, nəşriyyat şirkətləri, kitabxanalar və s. təsis edə bilərdi. Qarabağın hüdudları daxilində ermənilər öz fikirlərini şifahi və ya yazılı surətdə ifadə edə bilərdilər. Qarabağ ermənilərinin mədəni muxtariyyət hüquqları ADR-nin əsas qanunları ilə nizamlanırdı. Bu qanun layihəsi parlamentin iclasında bəyənilmiş və onu parlamentin müzakirəsinə çıxarmaq qərara alınmışdı. Qanunun parlament tərəfindən təsdiqinə qədər müfəttəşliyin saxlanması üçün Maarif Nazirliyinin sərəncamına 1919-cu ilin oktyabr-dekabr aylarına 46 min rubl vəsait ayrılmışdı. Məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq, Maarif Nazirliyinin 8 noyabr 1919-cu il tarixli sərəncamı ilə milli fənnlərin tam həcmdə tətbiqinə qədər sinifdə erməni şagirdlərin sayının 15-dən az olmadığı halda, onlar üçün erməni dilinin tədrisinin təmin edilməsi, sayı az olduqda isə qrup məşğələlərinin müəyyənləşdirilməsi təklif edilirdi. Bundan başqa, şəhər idarəsinin qərarına uyğun olaraq, erməni məktəblərinin erməni dili müəllimləri üçün onların ana dilində tədris etmək hüququnu müəyyənləşdirən xüsusi komissiyalar yaradılmışdı. Komissiyalarda həmin müəllimlər 1920-ci ilin yanvarından xüsusi imtahan verməklə ana dilində tədris etmək

